MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

# SÜLEYMAN RÜSTƏM

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**SÜLEYMAN RÜSTƏM**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÜÇ CİLDDƏ

1 CİLD

"ŞƏRQ-QƏRB"
BAKI-2005

*Bu kitab* ***"Süleyman Rüstəm.*** *Seçilmiş əsərləri. Dörd clddə. I, IV cildlər"*
*(Bakı Azərnəşr, 1969, 1972) və* ***"Süleyman Rüstəm****. Mənim günəşim"*
*(Bakı Yazıçı, 1980) nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Azad Rüstəmzadə**

**894.3611-dc 21**
**AZE**
**Süleyman Rüstəm. Seçilmiş əsərləri.** Üç cilddə. I cild. Bakı, "Şərq-Qərb", 2005, 256 səh.

Xalq şairi Süleyman Rüstəm XX əsr Azərbaycan ədəbiyyatının ilk təməlini qoyan yazıçılar nəslin mənsubdur. Qüdərtli söz ustasının çoxcəhətli yaradıcılığı yeni səpkili milli poeziyanin təşəkkülü və inkişafı ilə bağlıdır. Artıq mənalı ömrü poetik salnaməyə çevrilən şair 60 ilə yaxın gənclik ehtirası ilə yazıb-yaratmışdır.

Azərbaycan sovet şerinin yaranışı Süleyman Rüstəmin yeni sənət naminə əlinə qızıl qələm götürdüyü vaxtdan başlayır. Azərbaycanda sovet hakimiyyətinin qurulduğu ilk illərdən etibarən o, bütün istedad və bacarığını xalqa, Ana Vətənə həsr etmiş, ədəbiyyatımızın mübariz bayraqdarı olmuşdur.

"Seçilmiş əsərləri"nin I cildində şairin poeziyasından nümunələr toplanmışdır. Döyünən təmiz qəlb çırpıntılarının aydın duyulduğu bu poetik parçaların lirik qəhrəmanı varlığa, təbiətə çox incə, həssas münasibət bəsləyən şəxsiyyətdir. Məhəbbət, vüsal, hicran dəmləri, təbiətin ilk növbədə coşqun çağları: bahar, Xəzər, Abşeron, Kalqın adət-ənənələrindəki gözəlliklərə hörmət... bu lirik qəhrəmanın məzmununa bir genişlik gətirir. Bu qəhrəman dövrün poeziyasının səciyyəvi cəhətlərini özündə toplayan obrazdır.

**İSBN 9952-418-56-3**

© "ŞƏRQ-QƏRB", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Şerimizin çoxəsrlik tarixində iyirminci yüzilliyin xüsusi və müstəsna yeri vardır. Əsrin milli poetik təfəkkürünün yeni təşəkkülündəki bu mövqeyi xüsusilə indi, yeni əsrin başlanğıc mərhələsində daha aydın və qabarıq bir şəkildə özünü hiss etdirir. Bu da təsadüfi deyildir, ötən əsrin poetik inkişafina ümumi bir baxışı ifadə etmək istəsək, ilk növbədə bunu qeyd etməliyik ki, onun bütün poetik istiqamətini hər şeydən əvvəl novatorluq hərəkatı, milli şerin yeni, daxili imkanlarını axtarış; Şərq bədii təfəkkürünü müasirləşdirmək təşəbbüsü təşkil etmişdir. Əlamətdardır ki, poetik əsr bu hərəkatla, belə bir amalla başlamışdır. Biz böyük Sabiri nəzərdə tuturuq. Poeziyada novatorluq hərəkatı Sabirlə başlanır və çox paradoksal haldır ki, Sabir bütün əsr boyu bu mövqeyini itirmir. Hətta əsrin sonunda da Sabirin obrazı poeziyada nəhəng və miqyaslıdır. Sabirdən sonra biz əsrin poeziya kəhkəşanında Məhəmməd Hadi, Hüseyn Cavid kimi sənətkarları, romantik poeziya banilərini görürük. Onların adı ilə əsrin başqa bir poeziya istiqaməti və məktəbi - XX əsrin romantik poeziyası, bu poeziyanın meylləri, fəlsəfəsi və poetikası bağlıdır. Xarakter cəhət odur ki, hətta sovetləşəndən sonrada əsrin poeziyası öz novatorluq yolu ilə hərəkat və axtarışlarını davam etdirir. Yeni şairlər nəsli-müxtəlif üslubları, meyvələri təmsil edən şairlər nəsil meydana çıxır və bu əsrin poetik axtarışlarını yeni sosial-tarixi kontekstdə davam etdirir, daha da dərinləşdirirlər. Belə şairlərdən biri, bəlkə də birincisi xalq şairi Süleyman Rüstəm olmuşdur. S.Rüstəmin danılmaz xidməti ondan ibarətdir ki o, əsrin yeni dövr, yeni mərhələ poeziyasını başlamış ilk şairdir. İndi bu şairin yaradıcılığına, poeziyadakı uzunillik təcrübəsinə ən müxtəlif münasibətlər ola bilər və olmalıdır. Çünki belə münasibət təkcə S.Rüstəmə yox, onun dövrünə, onun poetik fəaliyyətinin başladığı və davam etdiyi mərhələlərə müasir ədəbi-tarixi cəhətdən zəruridir. S.Rüstəm də burada qətiyyən istisna təşkil etmir, Zira S.Rüstəm bu mərhələnin böyük və əsas poetik simalarından biridir. O, bu mərhələnin poeziyasını başlamışdır və ondan sonrakı şairlər də mərhələnin poetik axtarışlarını özlərinə məxsus şəkildə və səviyyədə davam etdirmişlər. Böyük Səməd Vurğun hələ 1954-cü ildə S.Rüstəmə Moskvadan ünvanladığı teleqramında onu Azərbaycan sovet poeziyasının banisi adlandı-rırdı və qeyd edirdi ki, biz şairlər sənə borcluyuq. S.Vurğunun öz görkəmli müasirinə bu qiymətinin dərin tarixi mənası vardır; o bununla hər şeydən əvvəl S.Rüstəmlə poeziyada başlanan mərhələnin müstəsna əhəmiyyətini qeyd edir; ikincisi, bu poetik mərhələdə S.Rüstəmin yerini dəqiq müəyyənləşdirirdi. S.Vurğunun fikrini davam etdirərək demək olar ki, S.Rüstəmlə eyni

səvjyyədə S.Vurğun da, R.Rza da, M.Müşfiq də, M.Rahim də, M.Rəfdi də əsrin yeni Poetik mərhələsini başlamış şairlərdir və onların hər birinin bu poetik prosesdəki rolları son dərəcə böyükdür.

S.Rüstəm poeziyaya 20-ci illərin əvvəllərində gəlmişdir. Mətbuatda ilk şeri 1923-cii ildə çıxmışdır və bundan sonra onun ardıcıl olaraq qozet və jurnallarda ədəbi-bədii yazılan, şeirləri dərc olmuşdur. Beləliklə də S.Rüstəm, tam əsasla deyə bilərik ki, əsrin 20-ci illərindən başlayaraq yeni dövr poeziyasını yaratmaq kimi böyük və çoxcəhətli bir yaradıcılıq vəzifəsini həyata keçirmiş (şairdir. Bu, məlum ədəbi faktdır; ancaq biz onu bir daha qeyd edirik. Qeyd edirik ona görə ki, bu tarixdən etibarən S.Rüstəm təxminən əsrin axırıncı onilliklərinə qədər müstəsna bir yaradıcılıq ehtirası, tükənməz bir enerji ilə yazıb-yaratmışdır; - yaradıcılıqda, poetik axtarışlarında rahatlıq, nəfəsdərmə, dinclik nə olduğunu bilməmişdir və indi biz tam əsasla deyə bilərik ki, şairin şeirdə, sənəldə, ədəbi mübarizələrdə keçən ömrü bütün əsrin poeziyasında altmış beş illik dövrü əhatə edir. Deməli, S.Rüstəm özü bütöv bir epoxadır. İlk kitabı - Almas İldırımla birgə yazdığı "Dün-bu gün" 1926-cı ildə çıxmışdır. Gənc şairin təxminən dörd illik poetik fəaliyyətini əks etdirən "Ələmdən nəşəyə" kitabı isə 1927-ci ildə nəşr olumuşdur. Bu, yeni poeziyanın başlanğıcı idi. Bir il sonra N.Hikmətin "Günəşi içənlərin türküsü" kitabı, 1929-cu ildə isə M.Rəfilinin milli sərbəst şerin ilk hadisəsi olan "Pəncərə" kitabları çapdan çıxmışdı. Bu kitabların hər biri dövrün poeziyasında qeyri-adi, böyük, yeni, novator hadisə olmuşdur və tənqid, ədəbi fikir onları məhz belə qarşılamışdır. S.Rüstəmin "Ələmdən nəşəyə" kitabının isə bu prosesdə yeni müstəsna olmuşdur. Çünki bu kitab sadəcə istedadlı bir şairin şeirlər toplusu deyildi, həm də poeziyanın yeni istiqamətini, yeni poetik meyllərini, yeni poetikasını təmsil edən, başlayan bir şairin meydana çıxdığını xəbər verirdi. Başlıca cəhət S.Rüstəmin poetik şərhində və mətnində "Ələmdən nəşəyə" sadəcə şeirdə sevincə, fərəhə, həyatın nikbin duyumuna üstünlük verməkdə deyildi. Əgər biz bunu belə məzmunda izah etmiş olsaq, yalnız kitabın yox, S.Rüstəmin və onun poeziyada açdığı yolun prinsiplərini müəyyən mənada məhdudlaşdırmış olarıq. Şairin poetik görüşlərinə görə ələmdən nəşəyə daha dərin və konseptual bir məzmunu, estetik təfəkkürü əks etdirirdi. Poeziya quruculuq prosesinin, həyatın və məişətin yenidən qurulmasının ayrılmaz tərkib hissəsi olmalıdır. Ələmdən nəşəyə - poeziyanın dünyanı, zamanı epik lirizmlə, vüsətli və miqyaslı bir lirika ilə qavrayışına doğru açılmış bir yola demək idi. Məhz buna görə şairin lirik "Mən"i özündə yalnız fərdi-şəxsi aləmi yox, böyük aləmi, böyük zamanı təmsil edirdi. S.Rüstəmin poeziyada başladığı yolun ümumi səciyyəsi, ideya-poetik konsepsiyası belə idi, və bu yalnız bir şairin yaradıcılığı miqyasında yox, təşəkkül etməkdə olan yeni poeziya miqyasında çox əhəmiyyətli, perspektivli bir təmayül idi.

S.Rüstəm şeirlərinin birində "Şair, varlıqdan yaz, yoxluqdan yazma" deyirdi. Bu söz yox ki, romantikanın inkarı kimi başa düşülə bilməz; təsadüfi deyil ki, bir

qədər sonra yadığı şeirlərindən birini "Gecənin romantikası" adlandırırdı, Şairin şerində poetik mətnində romantika mistik-xəyali aləmi deyil, real həyat mənzərələri, insanların coşqun qəlb və fikri fəaliyyətini ifadə edirdi.

Bu yatmış küçələrdə bu gecə mənəm ayıq,
Mənəm addımlarımla bu sükuta yaraşıq.
Qeyd yalnız bu gecə bir çox gecələr belə
Çıxaraq küçələrə gəzirəm gülə-gülə
Yeriyirəm, xəyalım, ürəyim, beynim - atəş,
Sonsuz nəşə duyuram bu sonsuz gəzhagəzdən.
Ayaqlar silməsinlər deyə, qurudur günəş
Küçələrdə yazdığım şerimi səhər tezdən
Bu gecə tək başıma gəzirəm küçələri
Baxaram birləşmədən gözlərimin çəpəri.
Yeriyirəm, şerimi ötərək dodaqaltı,
İşığam qaranlıqda, deyiləm bir qarallı
Bu ulduzlu, bu aylı , bu ilhamlı gecədə
Yeriyirəm, mənimlə yeriyir bu gecə də...

Bu şeir parçasının yeniliyini yalnız obrazlarında, metaforalarında axtarmaq düz olmaz: əsas yenilik burada dünyanı poetik qavramanın, poetik dərketmənin və duyumun mahiyyətində və məğzindədir; şerin poetik obrazlılığı da, metaforik gözəlliyi və qeyri-adiliyi də məhz bu poetik dərketmə ilə şərtlənir. Və S.Rüstəmin bütün sonrakı poeziyasının novatorluğu barədə düşünəndə, bu novatorluğun poetik prinsiplərini və tələblərini qiymətləndirmək istədikdə istər-itəməz şairin "Ələmdən nəşəyə"sini xatırlamalı oluruq. Çünki şairin poeziyada keçdiyi uzunillik böyük yolunun, poeziyada kəşf etdiklərinin mənliyi, başlanğıcı məhz bu kitabda bəyan etdiyi sənət prinsiplərindədir:

Yəni həyat başlayırkən üzümüzə gülməyə
Keçdim artıq gülə-gülə mən ələmdən nəşəyə...

Məsələ bundadır ki, bir müddət şairin şeirlərində ələm də, kədər də, göz yaşı da olmuşdu - o, məhz ələmdən nəşəyə keçmişdir və bu, heç də asan və yüngül keçid olmamışdır. Poeziyada bu mənəvi aktı icra üçün şair özünü yenidən qurmuş, yenidən yaratmalı olmuşdur. "Ələmdən nəşəyə" kitabında şair bundan kifayət qədər danışmışdır-özü də əsaslı və inandıncı bir şəkildə da-

nışmışdır... S.Rüstəmin nəşəsi sadəcə həyatı həzz, keyf olaraq qəbul və etiraf etmək deyildi; bu, iztirabdan və bədbin hisslərlə mübarizədən doğan bir həyat duyğusu idi; bu, mübarizə və quruculuq, fəaliyyət və hərəkat, dərkettmə və yaradıcılıq nəşəsi idi; deməli, yeni keyfiyyətli bir bəşəri sevinci idi, yeni poetik dünyagörüşü idi. O da təsadüfi deyil ki, bu, bir şairə xas, onun hisslərini vo mənəviyyatını təyin edən nəşədən çox, kollektivin, cəmiyyətin keçirdiyi qurucu, fəal, ehtiraslı nəşəyə idi. Və şairin "mən"i özündə bütöv cəmiyyəti, zamanı daşıyırdı, özündə yeni bir dünyanı təmsil edirdi; o, bu cəmiyyətin, bütövün hisslərini, həyəcanlarını, fikir və ehtiraslarını daşıyırdı, dünyagörüşü mövqeyini əks etdirirdi:

Mənim "mən, mən" deməyim sanmayın boş əməkdir –
Mənim bu "mən-mən"lərim, bir sözlə, biz deməkdir.

S.Rüstəmi lirikasına xas poetik vüsəti, fikir və hissin miqyaslılığını da məhz bu prinsipdə axtarılmalı və görülməlidir. Bu heç də onun poeziyasında lirikanın əsaslarını sarsıtmırdı; bəlkə əksinə, onu daha da qüvvətləndirirdi, li-rikanın dünya və şəxsiyyət üfüqlərini genişləndirirdi.

Beləliklə, "Ələmdən nəşəyə" poeziyaya belə bir yaradıcılıq prinsipi gətirdi; onu əsrin aparıcı sənətinə çevirirdi. Məhz buna görə də "Ələmdən nəşəyə" kitabı mərhələ təşkil edən poetik hadisə hesab edilməlidir. S.Rüstəm bu kitabda tapdığı, təsdiq etdiyi yaradıcılıq pıinsiplərini müharibə dövrü lirikası ilə, xüsusilə bu dövrdən etibarən yaradıcılığında əsas bir istiqamət təşkil edən cənub lirikası ilə daha da inkişaf etdirdi.

* * *

S.Rüstəm 30-cu illərə aid şeirlərinin birində özü haqqında belə deyirdi:

Yeriyirəm keçilməmiş şeir yollarında mən,
Hər aldığım yüksəkliyə bayrağını sancıram.
Qorxutmayır bu yollarda məni yağı, yol kəsən,
Mən onları şerimin misrasilə sancıram.

Burada yalnız onu qeyd edə bilərik ki, bütün yaradıcılığı boyu S.Rüstəm elan etdiyi bu sənət, poeziya anlayışına sədaqətli qalmışdır. O, müharibə dövründə də, cənub həsrətli poeziyasında da, kommunizmi tərənnümündə də, "İki sahildə"də məhz şerin keçilməmiş rolu ilə addımlayırdı.

S.Rüstəm poeziyanı, lirikanı dövlət təfəkkürü ilə əlaqələndirirdi. Bu da onun yaradıcılığında poeziyanın keçilməmiş yollarından biri idi. O, poeziyanı

qətiyyən zamandan, onun siyasi mübarizələrindən, ideoloji qənaətlərindən və hissələrindən ayırmırdı, çünki onun yaradıcılq görüşlərinə görə poeziya zamanın səsidir, onun mənəvi-siyasi və fəlsəfi təfəkkürüdür. Məhz bu səbəbdən də o, xalqın, dövrünün həyatında və taleyindəki heç bir hadisəyə, hərəkata, mübarizəyə laqeyd qalmırdı. Və deməliyik ki, bu, onun şeir sənətinin həm güclü tərəfı idi. Həm də müəyyən dərəcədə ötəri və keçilmiş xüsusiyyətidir. Lakin bir cəhət - hətta müəyyən sosial məqsəd və fikir ifadə etdikdə belə S.Rüstəm şair olaraq qalırdı. Müraciət etdiyi, işlədiyi mövzularda. hətta kommunist partiyasına, Leninə həsr etdiyi, inqilaba aid şeirlərində belə S.Rüstəm özünəməxsus şair olaraq qalırdı. 0, müasirliyi, sosial təfəkkürü və poetik təfəkkürü ahəngdar şəkildə birləşdirirdi və S.Rüstəm barədə düşünərkən poeziyada bu miqyasda və təfəkkürdə, bu temperamentdə və vüsətdə poetik bir simanın əsrin poeziyasında olmasını da əsrin nailiyyəti hesab etməmək olmaz. Hətta S.Rüstəm tipli şairə milli müstəqillik dövrümüzün də böyük ehtiyacı vardır.

* * *

S.Rüstəmin poetik irsi başa satmış olan əsrin poeziya hadisəsidir. Bəzən bu fakt nəzərdən qaçırılır və S.Rüstəmin poeziyadakı yerini etiraf etmək üçün onun qəzəllərinə, yaxud cənub lirikasına daha çox üstünlük verilir; yaradıcının güclü tərəfləri məhz bu sahlərdə axtarılır. S.Rüstəm kimi böyük bir şairin yaradıcılıq irsinə belə münasibətlə razılaşmaq olmaz; bu, şairin öz dövrünün poeziyasındakı, poetik prosesindəki yerini məhdudlaşdırmaq demək olardı. S.Rüstəmin heç bir güzəştə ehtiyacı yoxdur. O, öz zəmanəsi və özü üçün cavabdeh bir şairdir. Bir çox şairlərində o gələcək nəsillərə müraciət edir, onu həyəcanlandıran məsələlərdən və suallardan bu söz açırdı; zəmanənin əzablarından, çətin yollarından danışırdı. S.Rüstəmin "Əzizlərdən əzizlərə" adlı lirik bir poeması vardır və bu poemada şairin bütün fikri gələcək illərə nəsillərə yönəlmişdir. O, burada müharibə illərindən - XX əsrin bu dəhşətli insan faciəsindən söz açırdı. S.Rüstəmin poemasını əsrin bu hadisəsinə həsr etməsi təsadüfi deyildir. O, bir şair, bir vətəndaş kimi bu müharibənin bütun acılarını yaşamış va şeirlərində böyük bir şair nəfəsi ilə ifadə edə bilmişdir. Məhz buna görə 20-30-cu illərdən sonra ötən müharibə illəri müasirləri olan bir çox şairlər kimi onun da yaradıcılığında xüsusi və böyük bir mərhələdir. Elə müharibə başlanan kimi, S.Rüstəm də bütün yaradıcılığını səfərbərliyə aldı, poeziyasının bütün mənəvi qüvvəsini və imkanlarını vətəni, xalqı, ölkənin ləyaqətini qorumaq işinə sərf etdi. Müharibə ölüm-dirim müharibəsi idi; düşmən güclü və amansız idi. Lakin buna baxmayaraq şair qələbəyə, xalqın müharibədə qalib gələcəyinə inanırdı. Bəlkə belə desək daha

dəqiq olardı ki, yalnız inanmırdı, həm də bu inamı insanlara aşılayırdı. Müharibə dövrünün poeziyasında ifadə olunan hiss geniş və miqyaslı hisslər idi. Lakin bu hisslər içərisində iki böyük hiss əsas, aparıcı idi; bunlardan biri and hissi, vətən və tarix qarşısında məsuliyyət hissi, ikincisi isə qələbəyə, gələcəyə inam hissi idi. Bunların hər ikisi S.Rüstəm poeziyasında, daha dəqiq desək, lirikasında nəinki əsas və aparıcı idi, həm də bu hisslər əsərlərində üzvü bir vəhdət təşkil edirdi. Məhz buna görə də S.Rüstəmin müharibənin təzəcə başladığı vaxtda yazdığı şeirlərdən biri "And" idisə, digəri "Gün o gün olsun ki" şeri dərin bir inam ifadə edən poetik parça idi; bıı inam hissi - xalqın da, şəxsən şairin də dərindən yaşadığı bir hiss idi. S.Rüstəm belə yazırdı:

Süleyman, şairsən, bilirsən özün,
Qılıncdan itidir, kəskindir sözün...
Əgər ağarsa da saçın qar kimi,
O gün qapıdadır ilk bahar kimi.
O günü ən yaxşı bir gün eləmək
Bizdən asılıdır, şübhəsiz, gerçək.
Gün o gün olacaq, o gün gələcək,
Bəşər dincələcək, həyat güləcək.

S.Rüstəmin müharibə dövrü lirikası bir xüsusiyyəti ilə də önəmlidir. Bu, müharibə illərində şairin lirikasında yeni bir mövzu istiqaməti - Cənub Azərbaycan həyatını, orada xalqımızın keçirdiyi nəcib və ülvi hissləri qələmə alması, bu mövzuya poeziyasında xüsusi bir vüsət verməsi istiqamətdir. Doğrudur, hələ nıüharibədən xeyli əvvəl şairin yaradıcılığında bıı mövzunun müəyyən izlərinə rast gəlirik. Məsələn, "Yaxşı yoldaş" poemasnın bir çox misraları Arazdan o tayda yaşayan xalqımıza həsr olunmuşdu. Lakin bu mövzu məhz müharibə dövründə S.Rüstəm poeziyasında böyük və davaralı bir mövzuya çevrildi. Əlbəttə, bununla o, müharibə dövrünün həyəcanlarından ayrılmırdı. Şair çoxlu şeirlərini müharibə dövrü insanlarının həyatını, nisgil və kədərini əks etdirirdi.O, bu illərdə, məsələn, "Ana və poçtalyon kimi son dərəcə real, həyati, bununla belə dərin ümumiləşdirmə vüsətinə malik bir şeir, bəlkə hətta poema yaratdı. "Ana və poçtalyon" şerində müharibə dövrü insanlarının psixologiyası, nigarançılıq hissləri cəbhədəki oğlundan məktub gözləyən Ananın obrazında təkrarsız təcəssümünü tapmışdı. Müharibə mövzusu ilə yanaşı S.Rüstəm şerində, artıq göstərildiyi kimi, ikinci əsas mövzu cənub mövzusu idi.

Doğrudur, mütləq qeyd etməliyik ki şairin cənub lirikası da, qəzəl yaradıcılığı da onun bıı dövrkü çoxcəhətli poeziyasının yalnız tərkib hissəsidir. Bununla belə cənub mövzusunun S.Rüstəm yaradıcılığındakı bir çox özünə-

məxsus xüsusiyyətləri da vardır. Hər şeydən əvvəl, bu tipli şeirlərində o, bir qədər klassik poeziyanın poetikasına, janrlarına xüsusi əhəmiyyət verirdi. Məsələn, daha çox əruza, yaxud qəzələ müraciət etmiş olurdu. Müasirləri arasında, deyəsən, S.Rüstəm yaradıcılığında əruza və qəzələ əhəmiyyətli yer verən şairdir, hətta bu sahədə yeganə şairdir. S.Rüstəmin bu səyi onun poetikasında qətiyyən ötəri bir hal deyildir. Doğrudur, vaxtilə S.Rüstəmin qəzələ müraciəti bir qədər ehtiyatla qiymətləndirilmiş, belə hesab edilmişdir ki, qəzəl, şairin ümumi yaradıcılığına vüsət vermir, onun gələcək yolunu təyin etmir. Şair qəzəli həmişəlik bir janr olaraq seçə bilməz. Əlbəttə, ayrılıqda, yaradıcılığından təcrid edilmiş halda, həqiqətən də, qəzəl S.Rüstəmin heç vaxt ümumi yaradıcılıq istiqamətini təyin etməmiş və edə də bilməzdi. Lakin Öz təbiət etibarilə şairin ənənə anlayışı cəhətdən də qəzəl onun yaradıcılığı üçün tamamilə doğma bir janrdır. S.Rüstəm isə poeziyaya novator kimi daxil olmuşdur. Onun novatorluğusa ənənəni inkar etmir, əksinə davam, inkişaf etdirmək prinsipinə əsaslanırdı. Qəzəlin bu mənada şairin poeziyasında əsas lirik janrlarından biri olması gözlənilməz deyil. Bilavasitə S.Rüstəmin qəzəllərinə gəldikdə isə, biz tənqiddə şairin qəzəli haqqında yaranmış fikri - bu qəzəllər yeni məzmunlu qəzəllərdi - fikrini təkrar etməyə bilmərik. Bu, həqiqətən də belədir. S.Rüstəm qəzəli qəzəlin əsas mövzusunu - məhəbbət mövzusunu qorumaqla yanaşı mövzu, tikir, hiss etibarilə həm də yeni idi; o, qəzəlində janrın çərçivəsini genişləndirmiş şairdir. Məhəbbətlə yanaşı vətən, xalq, həyat, müasirlik də bu qəzəllərin başlıca mövzusu və məzmunudur - qənaətinə gələ bilərik. Şair qəzəlin poetik sintkturuna publisist fikirləri də, publisist pafosu da çox ustalıqla, təbiiliklə daxil edirdi:

Gözəllik, incəlik, sevgi, vəfa insandan ayrılmaz,
Coşan sellər, axan çaylar necə ümmandan ayrılmaz

- mətləli qəzəli belə qəzəlin gözəl bir nümunəsidir. Bu qəzəl belə bitirdi:

Bütün dünya yerindan, mehvərindən qopsa, ayrılsa,
Süleyman Rüstəmin qəlbi Azərbaycandan ayrılmaz.

Bu qəzələ xas fikir və hiss aydınlığı, üslub kamilliyi və gözəlliyi S.Rüstəmin əksər qəzəllərinin məziyyətini təşkil edən xüsusiyyətlərdəndir.

Bəzən S.Rüstəmin qəzələ müraciəti tənqiddə şairin Cənubi Azərbaycanda olması, buradakı oxucularla, necə deyərlər, dil tapmaq cəhdi ilə əsaslandırılmışdır. Olsun ki, belə fərziyyədə müəyyən həqiqət var. Lakin hələ Cənubda olmamışdan əvvəl də, 30-cu illərin axırlarında da S.Rüstəmin qəzələ müraciət etdiyi məlumdur. O. hələ əvvəlki illərdə ardıcıl olaraq bu lirik

janrdan istifadə etmiş və demək olar ki; bu prosesdə özünün qəzəllərini, Süleyman Rüstəm qəzəlini yaratmışdır.

Bunu isə ilk növbədə S.Rüstəm poeziyasının klassik ənənələrimizlə klassik poetikamızla üzvü və təbii bağlılığı ilə izah etmək daha doğru olardı. Hələ ilk yaradıcılıq illərində S.Rüstəm milli şerimizin janr, poetika, üslub sistemi və xüsusiyyətlərini əsərlərində qoruyub saxlayır, yeni, inqilabi hissləri və məzmunu milli formada ifadə etməyə üstünlük verirdi. Təsadüfi deyil ki, 20-30-cu illərdəki şerlərinin bir çoxu əruz vəznində yazılmışdı: "Yaxşı yoldaş" poeması isə sovet dövrü şerində bu vəzndə yazılmış yeganə poema olmuşdur. Ümumiyyətlə S.Rüstəm milli şerin dəyərinə, ənənələrinə son dərəcə sədaqətli şairdir və məhz bu səbəbdən onun poeziyasında heca, yaxud əruz vəzninin üstünlük təşkil etməsi, bütün poeziyasını bu vəznlərdən istifadə edərək yaratması təsadüfi deyildir. Onun heca vəzni ilə söhbət şəkilində yazdığı bir şeri vardır, S.Rüstəm bu şerini poeziyamızın vəznlərlə əlaqədar mübahisələrdə vəznləri bir-birinə qarşı qoymaq təşəbbüslərinə cavab olaraq yazmış və bu şeirdə heca vəznini müdafiə mövqeyində dayanaraq belə demişdir:

Başqa vəznlər də var, onları danmıram mən,...
Mən nə əruza yadam, nə də sərbəstə yadam,
Sansən on çox sevdiyim, bu deyil mənim xətam.

Bu, əlbəttə duğru bir mövqe idi. Lakin onu da qeyd etməliyik ki, heca vəzni ilə yanaşı əruzda S.Rüstəm şerində müraciət və istifadə olunan ən əsas vəzndir ki, bu mənada bu klassik vəznin XX əsr şerində qorunub saxlanılmasında, onu yeni məzmunun səmərəli ifadə vasitələrindən birinə çevirməkdə, poeziyanın yeni, əsri vəzjfələrinin həllində S.Rüstəm, poeziyasının müstəsna rolu olduğu danılmazdır. O, şeirlərində bu vəznə arabir yox, müntəzəm olaraq müraciət etmiş və bu, vəzin müasir şeirdə inkişafına, yeni daxili imkanlarının axtarılıb tapnımasına təsir gostərmişdir. Bu da göstərilməlidir ki, müasirləri olan şairlər arasında S.Rüstəm, poeziyasında bu vəznə ən çox müraciət etmişdir və onun bir vəzndə yaratdığı əsərlər öz üslub fərdiliyi, forma və poetik fikir təzəliyi ilə seçilir. S.Rüstəm əruzda da novator şair olaraq yüksəlmişdir. Bu nöqteyi-nəzərdən o, əsrin 20-ci illərindən sonrakı poeziyada on görkəmli bir şairdir. S.Rüstəmin qəzəl yaradıcılığı da bu mənada poeziyasının çox mühüm bir qoludur. O, qəzəlin ənənəvi mövzusunu saxlamışdır; onu yeni hiss və fikirlərlə, yeni şair münasibəti ilə daha da zənginləşdirmişdir. S.Rüstəm qəzəlinin bu xüsusiyyəti onun məhəbbət qəzəllərində də çox aydın hiss olunur. Hətta biz belə duşünə bilərik ki, S.Rüstəmin məhəbbət lirikasında əsas lirik janr qəzəldir ki, bu da bütövlükdə onun poeziyasının çox

müsbət bir məziyyətdir, mənəvi gözəlliyidir. Lakin o, eyni zamanda qəzəli yeni, müasirlik hissi ilə də zənginləşdirmişdir, onu vətəndaşlıq lirikasının tərkib hissəsinə çevirmişdir. Bir sözlə, qəzəl S.Rüstəm lirikasının ən əsas janrıdır - qənaətinə gəlmək mümkündür. Vaxtilə şair R.Rza öz həmkarının qəzəllərinə ayrıca məqalə həsr edərək yazmışdır: "Süleyman Rüstəm qəzəllərinin çoxu mahiyyət etibarilə yeni qəzəllərdir. Bu yenilik onların forma və ifadə tərzinə aid deyil, bəlkə birinci növbədə bu qəzəllərin məzmununa aiddir".

S.Rüstəmi bir şair kimi fərqləndirən ikinci mühüm cəhət şairin öz yaradıcılığında Cənubi Azərbaycan mövzusuna əhəmiyyətli yer ayırması və bu mövzuda ardıcıl olaraq gözəl, təsirli şeirlər yazması faktıdır. Cənub mövzusu həqiqətən də S.Rüstəm şerinin taməl mövzularındandır. O, həqiqətən şairin poeziyasında ən davamlı mövzu və motivlərdəndir. Şair yaradıcılığı boyu əsla bu movzudan ayrılmamışdır. Və biz şairin Cənub lirikasında onun poeziyasının ən gözəl xüsusiyyətlərini - ideya və poetik xüsusiyyətlərini görürük. S.Rüstəm bu şeirlərində Azərbaycanın vahidliyini, mənəvi bütövlüyünü təsdiqləyirdi ki, bunun yalnız tarixi bir mənası və əhəmiyyəti yox, həm də milli müstəqilliyimizin idealları baxımından da çox dərin mənası vardır.

Görün, nə qəribə bir qismətim var,
O taylı, bu taylı Süleymanam mən

S.Rüstom özü haqqında belə deyirdi və bu tamamilə həqiqətdir. S.Rüstəmin poeziyasında Cənub mövzusu yalnız dərin, məxsi bir mövzu deyildi, həm də dünyada baş verən proseslərlə səslənən mövzu idi. Müharibədən sonra yaratdığı "İki sahil" şeir kitabı (1959) bunun çox əyani bir təsdiqidir. Cənuba həsr etdiyi şeirlərindən isə şair ayrıca bir kitab - "Təbrizim" adlı bir kitab nəşr etdirmişdir (1980). Şairin bütün Cənub poeziyasını əhatə etməsə də, bu kitab onun bu mövzuya dərindən, bütün varlığı ilə bağlılığını əks etdirmək baxımından qiymətli və maraqlıdır. S.Rüstəmin Cənub lirikası müəyyən ənənəviliyi ilə əlamətdar olsa da, bu lirika da onun bütövlükdə novator poeziyasının ayrılmaz bir sahəsidir, onun şair şəxsiyyətinin təsdiqidir:

Mən dəymə dedikcə, sən hey gülürsən,
Mən də öz yerində gülən şairəm.

Ağzın süd qoxuyur, körpəsən hələ,
Mən xalqın dərdini bilən şairəm.

Sanma taleyindən küskündür şerim,
Qılıncdan itidir, kəskindir şerim.

Dərdli ürəklərə təskindir şerim,
Zalımın bağrını dələn şairəm.

Hər şey satılsa da, ürək satılmaz,
Əgər tapmasa da çörək, satılmaz,
Könüldə bəslənən dilək satılmaz,
Vətənim öl desə, ölən şairəm...

Bu misraların xəyalımızda canlandırdığı şair obrazı, həqiqətən, vətəndaş və humanist şair obrazıdır, milli vüqar hissinin təcəssümü olan şairin obrazıdır; bir sözlə, Süleyman Rüstemin obrazıdır; o Süleyman Rüstəmin ki, bütün poeziyasında zamanı, əsrini əks etdirmişdir.

* * *

S.Rüstəmə poeziyada böyük, uzun bir dövr ərzində yaşayıb, yazmaq-yaratmaq nəsib olmuşdur. O, əsrin böyük bir hissəsini yaşamışdır. 60 ildən artıq bir dövrün poeziyaya həsr elmişdir. Özünün yazdığı kimi ilk şeirləri 1923-cü ildə dərc olunmuşdur; ilk şeirlər kitabı - "Əlamdən neşəyə" 1937-ci ildə çapdan çıxmışdır. Dünyasını isə şair 1989-cu ildə dəyişmişdir. Onun ömrünün 60 ili bültünlüklə poeziyaya, yaradıcılığa sərf olunmuşdur. Onun ömrü şair ömrüdür, poeziyaya həsr olunmuş ömürdür; narahat bir yaradıcılıq həyatıdır. Və o da çox səciyyəvidir ki, bu müddət ərzində S.Rüstəm on müxtəlif janrlarda yazıb-yaratmışdır. Şübhəsiz ki, lirika bıı yaradıcılıqda ən əsas, ən aparıcı ədəbi fəaliyyət formasıdır. Lakin S.Rüstəm çoxlu poemaların müəilifiiir ki, bu da epikliyin, epizmin onun poeziyasmın malıiyyətini təşkil edən bir xüsusiyyəti, daxili bir təmayülü olduğunu göstərir. S.Rüstəm dramaturgiya sahəsində də ciddi yaradıcılıq uğurları əldə etmiş şairdir. Onun bir çox pyesləri vardır və bu pyeslər səhnədə oynanılmışdır. Hələ ilk əsərlərindən biri birpərdəli "Çimnaz xanım yuxudadır" komediyası olmuşdur ki, bu komediya 20-ci illərdə səhnədə də oynanılmışdır (1922). O, həmçinin "Duma"; "Gəldi gedər" komediyalarının da muəllifidir. Lakin şübhəsiz ki, S.Rüstəmin dramaturgiya janrında ən böyük yaradıcılıq uğuru "Qaçaq Nəbi" mənzum dramıdır (1940). S.Rüstəm bu dramda xalq qəhrəmanı Qaçaq Nəbinin mübarizəsini təsvir etmiş və onun simasında xalq qəhrəmanının obrazını yaratmışdır. "Qaçaq Nəbi" haqlı olaraq mənzum tarixi-qəhrəmanlıq dramı kimi ədəbiyyatımızın və teatrımızın tarixinə daxil olmuşdur. Ədəbiyyatımızda bu janrın inkişafında diqqətəlayiq rol oynamışdır.

Əlbəttə, S.Rüstəmin yaradıcılığı zəngindir, çoxcəhətlidir; bu yaradıcılıq XX əsr ədəbiyyatının aparıcı inkişaf yolları və vəzifələri ilə dərindən, bütün

mənəvi əsasları ilə bağlı olduğu kimi həm də bu inkişafa güclü və dərindən təsir göstərmişdir. Yalız bunu qeyd etmək kifayətdir ki, əsrin 20-ci illərdən sonra poeziya ilə başlayan ilk şair olaraq S.Rüstəm poeziyada öz məktəbini yaratmış böyük bir şairdir. Onun poeziya məktəbi şerimizin yeni nəsillrinin yaradıcılıq təşəkkülümdə müstəsna rol oynamışdır və təsdiq edə bilərik ki, bu məktəbin dəyərləri yeni əsrin poeziyası üçün də öz dəyərini qoruyub saxlamışdır. Bunun da başlıca səbəbi S.Rüstəm poeziyasının öz əsas keyfiyyətlərində, mənəvi meyar və vəzifələrində poeziyanın, sənətin dəyişməz prinsiplərinə, böyük poeziyanın dəyərlərinə qırılmaz və köhnəlməyən sədaqətindədir; o dəyərlərə ki, şair özü bir çox şeirlərində bundan hərarətlə söz açmışdır. S.Rüstəm poeziyada hansı fəlsəfəni izlədiyini bəyan edərək "Mənim fəlsəfəm" şerində belə yazmışdır:

Duyumlu sözlərdən heç gəlməz xoşum,
Aydın həqiqətdir mənim fəlsəfəm.
Vətənə, millətə, qardaş ellərə
Dərin məhəbbətdir mənim fəlsəfəm.

Dumanlı arzular, xam xəyal deyil,
Şan-şöhrət uğrunda qalmaqal deyil,
Fitnə-fəsad deyil, puç amal deyil,
Haqdır, ədalətdir mənim fəlsəfəm.

Mən çox bəlalara gərmişəm sinə
Haqqı yazmamışam heç vaxt tərsinə,
Ulu babaların yaxşı irsinə
Əbədi hörmətdir mənim fəlsəfəm.

...Gərək son verilsin hər fəlakətə,
İnsanam - düşmənəm zülmə, vəhşətə
Azadlıq aşiqi bəşəriyyətə
Can-başla xidmətdir mənim fəlsəfəm.

Məhz bu dəyərlərinə görə S.Rüstəm poeziyası əbədi, yaşan poeziyadır.

**Şamil Salmanov**

# ŞE RLƏR

# VƏTƏN TƏRANƏLƏRI

## MƏNİM FƏLSƏFƏM

Düyünlü sözlərdən heç gəlməz xoşum,
Aydın həqiqətdir mənim fəlsəfəm.
Vətənə, millətə, qardaş ellərə
Dərin məhəbbətdir mənim fəlsəfəm.

Dumanlı arzular, xam xəyal deyil,
Şan-şöhrət uğrunda qalmaqal deyil;
Fitnə-əsad deyil, puç amal deyil,
Haqdır, ədalətdir mənim fəlsəfəm.

Mən çox bəlalara gərmişəm sinə,
Haqqı yazmamışam heç vaxt tərsinə.
Ulu babaların yaxşı irsinə
Əbədi hörmətdir mənim fəlsəfəm.

Mənasız ədavət nəyimə gərək,
Dar gündə mal-dövlət nəyimə gərək,
Acizlik, ətalət nəyimə gərək,
Hünərdir, cürətdir mənim fəlsəfəm.

Xalqımın şöhrəti tutub cahanı,
Odur dilimdəki mahnımın canı.
Məslək düşməniylə döyüş zamanı
Yalnız rəşadətdir mənim fəlsəfəm.

Gərək son verilsin hər fəlakətə,
İnsanam, düşmənəm zülmə, vəhşətə;
Azadlıq aşiqi bəşəriyyətə
Can-başla xidmətdir mənim fəlsəfəm.

Zəhmətsiz bir ömrün nə mənası var?
İnsana zəfərsiz yaraşmaz vüqar.
Qardaşa, yoldaşa, dosta etibar,
Düşmənə nifrətdir mənim fəlsəfəm!

## OLMASAYDI

Dinməzdi mahnım mənim, gəlməzdi şerim cana,
Günəş bayraqlı min-min səhərim olmasaydı,
Çinar kimi qol-budaq atmazdım dörd bir yana,
Bakıtək bir qəhrəman şəhərim olmasaydı.

Çaşbaş olub qalardım mən yollar ayrıcında,
Gözəl ana yurdumun torpağında, daşında.
Qanım kimi qaynayan bulaqların başında,
Açılan sufrələrdən xəbərim olmasaydı.

Yaramı qara gündə mahnılarımla sardım,
Dalğaları avartək bu əllərimlə yardım.
Mən ürək sözlərimi hara, hara yazardım,
Milyon-milyon ürəklər dəftərim olmasaydı!

Könüllərdən silinib adım unudulardı.
Ürəyimə dünyanın qəm-qüssəsi dolardı.
Payız çiçəkləritək mahnılarım solardı,
Zəhmətimin sonunda zəfərim olmasaydi.

Gənclər sahil boyunca xəyala dalardımı?!
Mənim şeirlərimdə bu ahəng olardımı?!
Gözəllərin gözləri maviyə çalardımı
Şəhərimin aynası Xəzərim olmasaydı?!

Ürəyimdən keçəni açıq deyim sizə mən:
Gəncliyimdən vurğunam günəşli gündüzə mən,
Çıxmazdım el içinə, görünməzdim gözə mən,
Beş-üç nəzərə çarpan əsərim olmasaydı!..

Çoxdandır bir vüsalın sevdası var başımda,
Yaxşı bilir bu sirri dostum da, qardaşım da.
Mən cavan görünərdim inanın bu yaşımda.
Dərdli Arazla bağlı kədərim olmasaydı!

Xalqımçün qazanmışam şöhrəti mən, adı mən.
Eşqimdən yaratmışam bu gözəl həyatı mən.
Mahnılarla bəzərdim bütün kainatı mən,
Bir gün torpaq altına səfərim olmasaydı!

## GECƏNİN ROMANTİKASI

Bu yatmış küçələrdə bu gecə mənəm ayıq,
Mənəm addımlarımla bu sükuta yaraşıq.
Deyil yalnız bu gecə, bir çox gecələr belə,
Çıxaraq küçələrə gəzirəm gülə-gülə.
Yeriyirəm - xəyalım, ürəyim, beynim atəş, -
Sonsuz nəşə duyuram, bu sonsuz gəzhagəzdən
Ayaqlar silməsinlər deyə, qurudur günəş –
Küçələrə yazdığım şerimi səhər tezdən.
Bu gecə təkbaşıma gəzirəm küçələri;
Baxıram birləşmədən gözlərimin çəpəri.
Yeriyirəm, şerimi ötərək dodaqaltı.
İşığam qaranlıqda, deyiləm bir qaraltı.
Bu ulduzlu, bu aylı, bu ilhamlı gecədə
Yeriyirəm, mənimlə yeriyir bu gecə də...
Yurdumun addımından geri qalmır addımım,
Ulduzlar rəqs edirlər dövrəsində adımın...
Yeriyirəm, əməlim əlimdə fanar kimi,
Baxışımla səmanı kəsirəm bir nar kimi.
Qəlbim od alsın deyə, uduram ulduzları,
Şerimin köhnə dostu, göz vuran ulduzları
Mənəm addımlayaraq sürüyən öz kölgəmi,
Mənəm gənc ürəyimdə daşıyan, gənc ölkəmi.
Bu ulduzlu, bu aylı, bu ilhamlı gecədə
Yeriyirəm, mənimlə yeriyir bu gecə də...
Evlərin qapısında göz qırpa-qırpa yanan

Elektrik lampası deyil, misralarımdır.
Ta uzaq pəncərədən qılınc kimi uzana
İşığın pərvanəsi mənim öz dildarımdır
Bilirəm ki, sevgilim baxaraq yollarıma
Nigaran gözləriylə hər an gözləyir məni;
O bu saat görməyir ulduzu da, ayı da,
Bir xəyal aləmində sanki izləyir məni.
Başqa bir pəncərədə mənim şair yoldaşım
Bir baxınız, dayamış başını masasına.
Deyir ki, söz tap, başım, deyir ki, söz ver başım
Ölməz sözlər gərəkdir ölməzlər dünyasına!..
Başqa bir pəncərədə fikrə dalmış mühəndis,
Gələcək buruqların nəqş edir cizgisini.
Bir daha güldürməkçün bu yurdun güzgüsünü
Yerlərin alt qatında arayır qızıl dəniz.
Bu ulduzlu, bu aylı, bu ilhamlı gecədə,
Yeriyirəm, mənimlə yeriyir bu gecə də.
Artıq mən sahildəyəm... bu sahil mənə tanış,
Bu sahil mənə yaxın, bu deyil bir aldanış
Mən də ilk gəncliyimdə, ilk bahar səmasını
Öz sevgilimlə birgə seyr etmişəm bu suda.
Udaraq salxım-salxım dənizin havasnı:
Durmuşam sevgilimçin bu sahildə pusquda,
Bəsdir bu qədər gəzdin, dedim özüm özümə,
Gecə görəsən, qulaq asacaqmı sözümə?
Gecənin qulağına: "Gündüz gəlir, qaç!"-dedim.
- Sevgilim, günəş doğur, pəncərəni aç!- dedim!

## AZƏRBAYCANA GƏLSİN

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin!
Bəzənib başdan-başa şəhərləri, kəndləri
Cənnət görmək istəyən Azərbaycana gəlsin!

Qanımızda dövr edən sədaqətdir, sədaqət,
Günəşdən də parlaqdır gözümdən bu həqiqət.

Dostuna, qardaşına təmənnasız məhəbbət,
Hörmət görmək istəyən Azərbaycana gəlsin!

Gözəlliklər Vətənə gözəllərindən gəlir,
Dostluğun-qardaşlığın təməllərindən gəlir,
Könüllərin nıüqəddəs əməllərindən gəlir,
Qüdrət görmək istəyən Azərbaycana gülsin.

Saysız qəhrəmanların
Qurub yaradanların,
Qocasında, gəncində, bu sadə insanların
Şöhrət görmək istəyən Azərbaycana gəlsin!

Payızında, qışında, baharında, yazında
Dinir dostluq nəğməsi konüllərin sazında.
Sabaha addımlayan mərd oğlunda, qızında
Qeyrət görmək istəyən Azərbaycana gəlsin!

Zavalsızdır ömürlük qoynundakı bağça, bağ,
Məhəbbəti, şöhrəti dolaşır oymaq-oymaq,
Al bayraqlar altında alnıaçıq, üzüağ,
Millət görmək istəyən Azərbaycana gəlsin!

## ANA ÇÖRƏYİ

Bu bağın başqa gözəllikləri var,
Boylanıb incə çiçəklər, otlar.
Oxşayır bir daha şair gözümü,
Burda sərbəst sanıram mən özümü.
Günəşimdən yenə qüvvət alıram,
Nə verirsə bu təbiət, alıram.
Neçə aydır ki, şəhərdən uzağam,
Su, hava, meyvə cəhətdənsə toxam.
Deyirəm mahnı yaşıl meynələrə,
Üzümü bəlkə bu yay bollu verə!
Yaşamaz, olmasa insanda inam,
Hələ sağdır qoca, ağbirçək anam.

Əlləşir eşq ilə mətbəxdə yenə...
Qocalar gəlməsələr bağ yerinə
Bir çox işlərdə biz aciz qalarıq,
Nə deyim, dadlı yeməksiz qalarıq.
Ana! Hər yerdə yetirsən köməyə,
Bələdəm sən bişirən hər xörəyə.
Yenə düşmüş başıma isti çörək,
Sözümü sən yerə, gəl, salma görək.
Ana can! Təndirə doldur odunu
Seyr edək təndirinin gur odunu.
Çək, tez ol kibriti, yansın təndir,
Bir qızıl rəngə boyansın təndir.
Göyə qalxsın bacamızdan tüstü,
Yığılaq dövrənə axşamüstü.
Qulaq as gör sənin ilkin nə deyir:
Sən məhəbbətlə yoğurduqca xəmir
Bu işindən, ana, ləzzət alırıq,
0 arıq əllərə heyran qalırıq!
Kəs, totuq kündələri, düz tabağa,
Canımız qoy sənə olsun sadağa.
Sənə zəhmətsə də, tez kündəni yay,
Yay, naxış vur, ana can, təndirə yap.
Yox, yanıldım, mənə bir an qulaq as,
Bəzə ancaq onu xaşxaşla bir az.
Bənzəsin bir qədər ulduzlu göyə,
Hər görən söyləsin əhsən çörəyə!
Görürəm kündələrin bolluğunu,
Gey qalın əlcəyini, qolluğunu.
Qoyma od qarsalasın əllərini,
Bağla yaylıqla dümağ tellrini.
Qoy bizim həsrətimiz tez bitsin,
Nə olar, bir neçəsi küt getsin.
Yenə canlansın uşaqlıq çağımız,
Gəzsin əllərdə qızıl qazmağımız.
Elə bil körpə uşaqdır oğlun,
Fərəhindən uçacaqdır oğlun!
Ana can! Kibriti çək, umsunaram,

Təndirin yanmasa, bil, mən yanaram.
Çarə tap bəslədiyim arzulara,
Çörəyin yaxşı bişəndən sonra
Bürüyüb əsgiya bir şorbalığı
Onu basdır külə, təndirdə bişir.
Oğlunun xalqa əyandır qılığı.
Salaram yoxsa uşaqlartək həşir.
Yeyərik şorbalıq üstündən üzüm,
Sənə qurban olum ancaq mən özüm.
Sənə zəhmətsə də tez kündəni yay,
Yay, naxış vur, ana can, təndirə yap.
Gəlir ondan ana torpaq ətri,
İncə güllər bitirən bağ ətri.
Ətri gəldikcə bizim burnumuza
Daha çox bağlanırıq yurdumuza.
Onu öpdükcə gözüm, həm dodağım
Bərk durur, yerdən üzülmür ayağım.
Sən keçərkən. ana, təndir başına,
Baxıram qartək ağarmış saçına,
Anıram qəmli keçən gəncliyini.
Görmədik onda sənin dincliyini.
İndi sən barlı ağacsan, başı dik,
İftixar et, ana can, biz səninik!
Sən çətinliklərə göstərmədin üz,
Anasız olmasın heç bir günümüz.
Ana! Süfrəntək açıqdır ürəyin,
Hər zaman bolluca olsun çörəyin!
Ana can! Təndirə doldur odunu,
Seyr edək təndirinin gur odunu!

## ANA VƏ POÇTALYON

Dörd ay vardı, ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.
Sorurdu: - "Balam hanı?" - Har cəbhədən gələndən
Ondan xəbər gəlməyir, xəbər gəlir öləndən.

Yerəmi batdı oğlum, göyəmi çıxdı oğlum?
Bəlkə mən yanılmışam, əzəldən yoxdu oğlum?!
El bilir, uşaqlıqdan o naxələf olmayıb.
Ürəyimə damıb ki, oğlum tələf olmayıb...
Səbəb nədir ki, yazmır anaya bircə kağız,
Oğul, oğul, - deməkdən qabar oldu dil, ağız!
Qəlbindəki ilk yara tazaydı, bu ilkiydi;
Onu bu hala salan nobarıydı, ilkiydi.
Qalxırdı yatağından dan yeri sökülәndә...
Hər qapı açılanda, hər qapı döyüləndə,
Dikilirdi ananın gözləri bir nöqtəyə.
Sevinirdi: - "Oğlumdan bəlkə məktub var!" - deyə.
Dörd ay vardı, ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.
Tanımayan tapılmaz məhlədə poçtalyonu,
Hamı istərdi onu, hamı sevərdi onu.
Onu tanıyırdılar adamlar addımından,
Bir bayramda çantası dolu gəldiyi zaman.
Anaya şad xəbərlər gətirmişdi vaxtilə,
İndi kağız almayan ana gələrək dilə,
Söylədi poçtalyona bir neçə acı kəlmə:
"Məktub olmasa, bir də sən bu həyətə gəlmə!"
Poçtalyon söz demedi, dilsiz dayanıb durdu,
Elə bil dağ başında onu ildırım vurdu...
Ananın gözlərində sual gördü bir yığın,
Başını yerə dikib dayandı xeyli dalğın.
Sinəsini ötürüb sonra küçəyə çıxdı,
Fikirlər, düşüncələr həssas qəlbini sıxdı.
Deyirdi öz-özünə: - ananın haqqı vardır,
Geniş dünya oğulsuz onun qəlbinə dardır...

Dörd ay vardı, ananın gözləri yol çəkirdi,
Başqa bir dərdi yoxdu, oğul dərdiydi dərdi.

Günlər keçdi... poçtalyon bu həyətə girmədi,
Ana, gözüylə onu çox aradı, görmədi.

Bütün həyətdəkilər öyrənmişdilər ona,
Hamı dedi: "görəsən nə oldu poçtalyona?!"
Bu qoca poçtalyon da anaya bir dərd oldu;
Yolunu gözləməkdən hər gün gözü dörd oldu.
Heç olmasa poçtalyon bu həyətə gələndə,
Məktub alan qonşular sevinəndə, güləndə,
Oğlunu xatırlayıb sevinirdi ana da –
Sevincindən hamının pay düşürdü ona da.
Ana düşündü: "Bəlkə qəlbini qırdım onun,
Kim bilir nə gəlibdir başına poçtalyonun...
Bəlkə onun da oğlu qanlı döyüşlərdədir,
Kim bilir, bəlkə o da mənimlə bir dərddədir...
Xəstədir, baxan yoxdur bəlk də poçtalyona,
Evlərini bilsəydim, bir baş çəkərdim ona.
Bundan artıq nə gələr, nə gələr ki, əlimdən?!
Kaş ki o sözlər mənim çıxmayaydı dilimdən!
Məktub gətirməsə də, qoy gəlsin, görək onu,
Sevir bir ana kimi bu dərdli ürək, onu..."
Dərdli ananın artdı indi birə on dərdi,
Bir doğma oğul dərdi, bir də poçtalyon dərdi...

Bir gün küçə qapısı açıldı çox sürətlə,
Qonşular çıxdı evdən təəccüblə, heyrətlə.
Gördülər ki, poçtalyon əlində məktub gəlir,
Elə bil caynağında qartal ov tutub gəlir.
Aldılar bir qırpımda poçtalyonu dövrəyə,
- Məktub kimədir? Söylə, niyə dinmirsən, niyə?
Zilləyib gözlərini ananın gözlərinə,
Poçtalyon qanad taxdı öz şirin sözlərinə:
- Bundan neçə gün əvvəl məndən küsən, inciyən,
"Məktub olmasa, bir də bu evə gəlmə! - deyən
Mərhəmətli, möhtərəm anayadır bu kağız!..
Hamı bir səslə dedi: "Gözlərin aydın, ay qız!"
Ana, gözləri yaşlı, ətir saçdı dilindən,
Tez öpdü poçtalyonun məktub verən əlindən...

## SÜLEYMANAM, DƏYİŞMƏRƏM

Könül necə sevinməsin, bahar gəlib, bahar gəlib,
Gəzib diyar-diyar gəlib.
Gəlib əlində lalələr,
Şəfəq dolu piyalələr.
Gəlib ətir səpə-səpə,
Vətənimin torpağını öpə-öpə
Vəcdə gəlsin mavi Xəzər,
Səhər-səhər
Dalğalansın yurdumun al bayraqları,
Mahnılarla qönçələnsin gözəllərin dodaqları.
Bahar gəlib mahnımıza, şerimizə,
Kim öyünməz, olsa bizim yerimizə?!
Vətənimin bahar dilli bir kolxozçu Leylasını,
Qan ləkəli,
Təhlükəli
Sarayların qoşun-qoşun Leylasına dəyişmərəm!
Yeni sovet şerimizin bir bəndini, mənasını
Xaricdəki adı böyük,
Zəmanənin üstünə yük
Milyon-milyon kitabların mənasına dəyişmərəm
Xəzərimdə zəfər çalmış birneftçinin gülüşünü
Böhtan atan,
Yalan satan
Dodaqların gülüşünə dəyişmərəm.
Bizim gözəl dünyamıza bir körpənin gəlişini
Açıq deyim,
Çox sevdiyim
İlk baharın gəlişinə dəyişmərəm!
Öz evimdir vətənimin hər bucağı,
Könülaçan bahar çağı
İlhamıma qanad verən,
Həyatıma həyat verən
Sevgilimin camalını günə, aya dəyişmərəm!
Bahar adlı dünyamızı yüz dünyaya dəyişmərəm!
Bir dost kimi gəzir yenə bahar doğma diyarımı.

Bu varımı dünyadakı bütün vara dəyişmərəm!
Xoşbəxt ana vətənimdə candan gülən baharımı,
Yad ellərdə qan ağlayan min bahara dəyişmərəm!
Bilir vətən, bilir anam, dəyişmərəm,
Dəyişmərəm, Süleymanam, dəyişmərəm!

**MƏNSİZ**

Bir gün bu dünyadan köçəcəyəm mən,
Ulduzlar, ay, günəş doğacaq mənsiz.
Hicran şərbətini içəcəyəm mən,
İnsanlar həyata baxacaq mənsiz.

Həyat uzanacaq uzun yollarda,
Gəzəcək dünyanı qış da, bahar da.
Yağış da, dolu da, quşbaşı qar da
Göydən yer üzünə yağacaq mənsiz.

Ziyansız əsəcək yellər, küləklər,
Torpaqdan qalxacaq güllər, çiçəklər.
Lalətək güləcək qəmsiz ürəklər,
Gur çaylar, bulaqlar axacaq mənsiz.

Fərqi olmayacaq kəndin, şəhərin,
Ömrü xoş keçəcək bütün bəşərin.
Şanlı zəfərlərin, böyük günlərin
İgidlər əlini sıxacaq mənsiz.

Bəxtini bəxtimdə görəcək aləm,
Silinib gedəcək lüğətdən ələm.
Vətən torpağını, əlində qələm,
Şairlər seyrana çıxacaq mənsiz.

Məm gözəl dünyadan köçmürəm nakam,
Gözümün işığı o təkcə balam
- Ellər gözəlindən alaraq ilham.
Barmağına üzük taxacaq mənsiz.

Ağ günlər sürəcək bu doğma ellər,
Sevib-seviləcək azad könüllər.
Gənclərin qəlbini nazlı gözəllər
Yenə eşq oduna yaxacaq mənsiz.

## DOST KİMİ, QARDAŞ KİMİ

Meşədə quşlar artıq oxumur kef-damaqlı,
Günəş üstdə bulud var göz üstündə qaş kimi.
Payız gəlib... çəmənlər görünür qaşqabaqlı,
Hərdən yağış çiləyir torpağa xaşxaş kimi.

Cığırların al-əlvan, rəngbərəngdir örtüyü,
Havalara sovrulur yuvalardan quş tükü.
Görünür gözlərimə palıdların kötüyü
Bərkə-boşa dözümlü qaya kimi, daş kimi.

Sabah yəqin hər tərəf bürünəcəkdir qara,
Qoynu çəmənli dağlar, dözməkçün soyuqlara,
Qışdan sonra bir daha qovuşmaqçın bahara –
Verəcəkdir baş-başa dost kimi, qardaş kimi.

Uca dağlar qoynunda - Lerikdəyəm mən yenə,
Payız öz nəfəsiylə qəm gətirib gülşənə.
Hərdən günəş doğanda, görünür aydın mənə-
Savalanın təpəsi çalpapaqlı baş kimi.

Canlanır göz önümdə hər an başqa mənzərə,
Yağan yağış altında yuyunduqca dağ-dərə -
Yarpaqların ucundan damcılar düşür yerə
Gözdən axan yaş kimi.

Qış qapını kəsdirib yurd salacaq bu yerdə,
Küləklərin mahnısı qalxacaq pərdə-pərdə.
Şaxta baba əliylə bütün pəncərələrdə
Min naxış çəkəcəkdir mahir bir nəqqaş kimi.

Gün gah çıxır, gah batır, sıxır qəlbimi hicran,
Yürüyür dağlar üstə buludlar karvan-karvan.
Yol çəkən gözlərimi çəkmirəm Savalandan.
Qanı qanımdan olan qardaşım Balaş kimi!

**YERİNİ VERƏ BİLMƏZ**

Mən əlləri qabarlı bağbanam vətənimdə,
Bağçamın güllərini yad əllər dərə bilməz.
Gəzişir candan əziz sevgilim gülşənimdə
Eşqimin cəlalını kor gözlər görə bilməz.
Ürəyimin gözüdür kainata pəncərə,
Qəlbimə həkk olunur gördüyüm hər mənzərə,
Dünyanın mahnıları oxunsa milyon kərə
Bir ana laylasının yerini verə bilməz.

**MƏKTUBA CAVAB**

*Elin ağsaqqalıdır, şairimiz etsə» qəbul,*
*Şerimi töhfə kimi sadə o insana verin.*
*Nəğmə bayraqdan dolmuş yaşa, İzzətoğlu.*
*Dağların qüvvəsini bir də Süleymana verin.*

***Adəm İzzətoğlu***

Oxucum, dinlə mənim sadə ürək sözlərimi,
Üzü ağ, alnı açıqlarla bu gün fəxr edirəm.
Daha parlaq sabaha zillətnişəm gözlərimi,
Doğru bir yolda səfərbər kimiyəm, yol gedirəm.
Mülətimdir, vətənimdir mənim ilham dayağım,
Yaşa dolsam da, bu könlümdə bahar çağları var.
Qocaman bir ağacam, bəhrəlidir hər budağım,
Ehtiyatımda hələ nəğmə, şeir dağları var.

## MÜƏLLİM

Müəllimlik müqəddəs bir sənətdir həyatda,
Müəllimin hər sözü həqiqətdir həyatda.
Üz-gözü, pal-paltarı mürəkkəbli körpələr,
Çırpınan ürəkləri xoş mətləbli körpələr,
İlkin vətən sözünü müəllimdən öyrənir,
Mənliyini, özünü müəllimdən öyrənir,
Başım ağarıbsa da, deyilsəm də mən cavan,
Yanımda bir müəlim adı çəkilən zaman
Tez ayağa qalxıram bir məktəbli uşaqtək, -
Müəllimə həmişə, hər yerdə börmət gərək.
Müəllim də anadan müəllim doğulmayıb,
Müəllimin özü də müəllimsiz olmayıb.
Deyirəm, kaş təzədən bir məktəbli olaydım,
Barmaqları ömürlük mürəkkəbli olaydım.

## ƏLİN YANDI, DİLİN YANDI

*"Məni candan usandırdı,*
*Cəfadan yar usanmazmı?*
*Fələklər yandı ahimdən,*
*Muradım şəmi yanmazmı?"*

***Füzuli***

Kim öz dövründə yazmışsa vətəndən, bir də millətdən
Ürəklərdə ona heykəl ucaldar xalq, məhəbbətdən.
Füzuli! Ey böyük insan, vətəndi, eldi istəklin.
Bununçün göz önümdən heç çəkilməz surətin, şəklin.
İkinci məskənin, şair, uzaq ellər, İraq oldu.
Deməz bir kimsə: "Xalqından gözün, könlün iraq oldu"
Azərbaycanlı şairtək uzun illər yanıb odda
Vətənsiz olmadın bir an, ömür sürdünsə Bağdadda.
Baxıb şairgözünlə, aldın ilham şux gözəllərdən,
Gözəllərçün ucaltdın bir gözəl heykəl qəzəllərdən.
Ürək dərdin deyildi güllərin. bülbüllərin dərdi,

Sənin öz doğma dərdindi o məzlum ellərin dərdi.
Nə taxt saydın, nə tac saydın, əyilmək bilmədin, şair,
O sərt üzlü zəmanəndə doyunca gülmədin, şair.
Sənin şerində ey ustad, bilən varmı nə hikmət var?!
Toxunduqca ona, sındı qılınclar. nizələr, oxlar.
Öz ömründə bilir ellər, nələr çəkdin, nələr gördün,
Saray məclislərində çox qəribə səhnələr gördün.
Qələm aldın ələ, heyhat şikayətdən əlin yandı,
Vətənçün qoşduğun mahnıyla od tutdu, dilin yandı.
Səadət istədin xalqa, onun uğrunda əlləşdin,
Özünsə qəmli mahnımla bəla taxtında əyləşdin.
Füzuli! Dost ərəblər də səni saxlar müdam yadda,
Qılınc çaldı azadlıqçın sənin şerin də Bağdadda.
Bu aləmdə vəzifəylə tanınmaz, bəllidir insan,
Hanı, tarixdə qalmışmı xəlifə, xan, vəzir, xaqan?!
Oyan baş qaldır, ey şair, qara baxtın oyanmışdır,
Min əfqan etdiyin yerdə azadlıq şəmi yanmışdır,
Əlim çatsaydı, mən burdan səni bərk-bərk qucaqlardım.
Yolum düşsəydi, həsrətlə gəlib qəbrində ağlardım.
Qanın qaynar qanımdandır, canınsa öz canımdandır,
Yenə şerinlə min illər könüllərdə çıraq yandır!
Qocalmaq bilmədi, dünyada hər kəlmən cavan qaldı,
Min ordu məğlub oldusa, sənin şerin zəfər çaldı.
Cavan şairlərin, ustad, göz ol üstündə, dirçəlsin
Mənim şerimsə izninlə bir az kölgəndə dincəlsin!

## SÖHBƏT

Bağışla, dostum - hecabaşı sərgili vəznim,
Şeriminköməkçisi, əziz sevgili vəznim,
Elimin yadigarı, səndən üz çevirmərəm.
Səni döndərib külə küləklərə vermərəm.
Sən mənim ilk eşqimin ilk dilmancı olmusan,
Şerimin şəhərində dəyirmançı olmusan.
Məndən ayrılmamısan, nə düyündə, nə yasda,
Mənə yelkən olmusan, həm Kürdə, həm Arazda.

Şahidsən qəlbimdəki bütün sevincə, dərdə,
Birgə addımlamışıq, ölümlü cəbhələrdə.
Əbədidir səninlə kəsdiyim bu duz-çörək,
Kim deyir köhnəlmisən, daha deyilsən gərək?!
Keçməz bu iftiralar?!
Şerimizdə azmıdır adınla ixtiralar?!
Könlümün istəyilə səslənirsən, dinirsən,
Gah ipəyə dönürsən, gah dəmirə dönürsən.
Vaxtilə cürətinlə,
Tükənməz qüdrətinlə,
Nəbinin, Koroğlunun dilində səslənmisən,
Döyüşlərdə silahtək əlində səslənmisən,
Ey ulu babalardan bizə xəbər verən dost,
Vidadini, Vaqifi, Ələsgəri görən dost,
Başqa vəznlər də var,
onları danmıram mən,
Böyük zəmanəmizə gərəksiz sanmıram mən.
Mən nə əruza yadam,
nə də sərbəstə yadam,
Sənsən ən çox sevdiyim, bu, deyil mənim xatam.
Vəznlər arasında sənin başqa yerin var,
Aylı, ulduzlu gecən, günəşli səhərin var,
Nə deyim bundan artıq, hamınız gərəksiniz
Ürəyimizdən qopan sözlərə dirəksiniz.
Hər gün mənim oturub-durduğum sənsən, heca,
Xalqımızın yanında başın ucadır, uca.
Çox da yaşa dolmuşam, yenə döyüşlərdəyəm,
Döyüşlərdə sanma ki, axırıncı yerdəyəm
Qoy sənin şan-şöhrətin səngərim, bürcüm olsun!
Səni göz bəbəyimtək qorumaq borcum olsun!

**MƏNİM YOLDAŞIM GECƏ**

İlk sözüm qoy bu olsun, gözəldir mənim gecəm,
Gecəmin ovcundadır hər meydanım, hər küçəm.
Görünmür tanış-biliş.
Kəsilib gediş-gəliş.

Yatır arxası üstə asfalt yollar, səkilər,
Milyon, milyon insanla görüşəcəkdir səhər.
Vurulmuşam gecəmin mən bu gözəlliyinə
Şəhər sakitdir yenə.
Xəzərin qoynundakı coşqun ləpələr yatır,
Beşiklərdə dodağı südlü körpələr yatır.
Körpülərdə gəmilər dayanmışdır yan-yana,
Sabah düşəcək yola Volqaya, Həştərxana.
Yatır zəhmət ordusu, biləkləri dincəlir,
Ürəkləri dincəlir.
Yatır, yenidən səhər iş başına gedəcək,
Qəlbindəki müqəddəs arzusuna yetəcək.
Hər tərəfdə bir sükut, sükutun lap yeridir,
Sükut mənim gecəmin nəğməsidir, şeridir.
Sənə şeir yazmağa qarışdı başım gecə,
Bir az da mən dincəlim, əziz yoldaşım gecə!

## KEÇDİYİM YOL

Qaranlıq, işıqlı yollardan keçmişəm,
Hər günü eşqimlə vurmuşam başa mən.
Bu yolu qəlbimin gözüylə seçmişəm,
Min gözəl arzuyla dolmuşam yaşa mən.

İnsana həmişə gərəkdir, gərəkdir,
Diləklər, diləklər.
Mahnıma bəzəkdir, şerimə ürəkdir –
Ürəklər, ürəklər.

Yadımdan çıxmayıb anamın laylası,
Atamın sindanı dindirən çəkici.
Döyülən dəmirlər, mahnımın mayası –
Şirağız ocağın qızaran kərpici.

Çətindi dövranı dəyişmək beş günə,
Gül, çiçək görmədi beşiyim, çarpayım.

Səadət naminə, azadlıq eşqinə
Güllələr altında çalındı laylayım.

Hələ də dillənir dünənki şəhidlər
Qəlbimdə alovu sönməyən ağrımda.
Əzizdən əziztək yaşayır igidlər,
Bağrımda, bağrımda.

Deyirəm sinəmdə yaralar görməyim,
Yollarda, yollarda.
Deyirəm bir daha qaralar görməyim
Qollarda, qollarda.

Bakımız, Şamaxı, Naxçıvan, Qarabağ...
Tarixə bu adla yazılıb şöhrətim.
Necə fəxr etməyim, həmişə üzüağ,
Məclislər başında əyləşir millətim.

Çox gözəl bilirəm, qolbimdə birco an
Bu odu sönməyən məhəbbət nədəndir!
Həyatım, varlığını, hər zaman, hər zaman –
Vətəndir, vətəndir, vətəndir, vətəndir!

## NƏ BİR ÖLÜM OLSUN, NƏ BİR QAN OLSUN

Xəzər sahilində gəldim dünyaya,
Daşıdım yükünü ağır illərin.
Amansız ölümü almayıb saya,
Çıxdım qarşısına qara yellərin.
Dəydi daşdan-daşa başım min kərə,
Mən geri dönmədim, irəli getdim.
Beynim də, qəlbim də döndü səngərə,
Məslək vuruşunda kamıma yetdim...
Zülmət dünyasına çəkib pərdə mən,
Qazandım bəxtimi döyüşlərdə mən.

Qəlbimdə beşguşə bir ulduz hördüm,
Hər şeyi, hər yeri qırmızı gördüm.
Bayrağım qırmızı, özüm qırmızı,
Könül dəftərimdə sözüm qırmızı.
Bu gözəl həyatda dövlətim, varım,
Ömrümün bəzəyi yeni baharım –
Ana vətən adlı xəzinəmdədir,
Böyük məhəbbəti bu sinəmdədir.
Hər səhər görürəm üfüqlərdə mən –
Qızarır dan yeri şeirlərimtək.
Canımdan əzizdir mənimçün vətən,
Bir an da vətənsiz vurmayıb ürək.
Genclik həvəsiylə, ey könül, öyün,
Keçilməz yollardan keçirəm yenə.
Şeirlər, mahnılar yükümlə hər gün
Ürəkdən-ürəyə köçürəm yenə.
Ötdükce fəsillər, ötdükcə illər
Gəlir dünyamıza təzə nəsillər.
Onlar eşqimizdir, həvəsimizdir,
Böyük qurğularda əvəzimizdir.
Deyirəm, ömrümüz görməsin xəzan,
Nə bir ölüm olsun, nə bir qan olsun.
Vaxtında dünyadan köçdüyüm zaman
Kəfənim qırmızı parçadan olsun.

## ÜÇ-DÖRD KƏLMƏ

Oğul, bu dünyada şan-şöhrət, ad-san
Hünərlər göstərən qəhrəmanındır.
Bəli, üzüağlıq, alnıaçıqlıq,
Zəhmətdən doymayan mərd insanındır.

Ozanı olduğum bu gözəl vətən,
Heyranı olduğum bu gözəl vətən,
Qurbanı olduğum bu gözəl vətən
Sənin xəzan bilməz gülüstanındır.

Dünya beşgünlükdür deyənə yazıq,
Döşünə-başına döyənə yazıq.
Çörəyi zəhmətsiz yeyənə yazıq,
Həyat, yaşamağı bacaranındır.

Mən kiməm, nəçiyəm, qoy ellər desin, -
Yazıb-pozuram ki, könüllər desin, -
Məndən sonra gələn nəsillər desin –
Bu üç-dörd kəlmə də Süleymanındır.

## ÜRƏK AĞRISI

*Sıramızdan getmiş*
*qələm dostlarımın*
*Əziz xatirəsinə*

Ürək ağrısıyla salıram yola Sağımdan,
solumdan gedən dostları.
Deyirəm kaş bu dərd sonuncu ola,
Nə sən itirəsən, nə mən - dostları.

Bir dost itirəndə bizim cərgədən
Bağrımda lalətək açılır yaram,
Fəxri qarovulda dayananda mən
Sanki son mənzilə yaxınlaşıram.
Deyiram heç kəsi yaxmasın odum,
Görməyim bir daha şair yasını.
Aparır özüylə hər köçən dostum
Bu şair qəlbimin bir parçasını.

## DEYİRƏM

Deyirəm, əsarətdə inləyən ölkələrdə,
Ürəyi dağlılara ürək, dayaq olaydım!
Dünyanın hər yerində azadlıq vuruşunda,
Güllədən deşim-deşim bir al bayraq olaydım...

Mən şairəm, dostuyam sülhsevər insanların,
Deyirəm, gecələri qoynunda ümmanların
Varlığımla yararaq bağrını tufanların,
Silahsız gəmilərçin sönməz mayak olaydım!

Ömrümdə ayırmadım bir-birindan dostumu –
Rusmu, özbəkmi, türkmü və yainki gürcümü!
Odəməkçin xalqıma, vətənim borcumu,
Deyirəm ki, yenidən kaş bir uşaq olaydım!

Deyirəm ki, hər zaman
Küt beyni paslılardan,
Ürəyi yaslılardan,
Bir deyil, milyon ağac uzaq, uzaq olaydım!

Carçısı olmuşam mən xoşbəxt nəsillərimin,
Dostarıma bəllidir mənası illərimin.
Bir arzum da budur ki, yanında ellərimin
Qəbrə qədər həmişə mən üzüağ olaydım!

**BELƏYƏM**

Sevgilimi sevməmişəm ürəksiz,
Görüşünə getməmişəm çiçəksiz.
Vətənimə olmamışam gərəksiz,
Eşq oduna gərək yanam, beleyəm.

İlk pənahım, son pənahım Vətəndir,
Səcdəgahım, qibləgahım Vətəndir,
Dəyişməyən qərargahım Vətəndir.
Bilir Vətən, bilir anam, beləyəm.

Dost əlindən zəhər alsam, içərəm,
Dara düşsə, bu canımdan keçərəm.
Son mənzilə kişi kimi köçərəm,
El oğluyam, Süleymanam, beləyəm.

## SÜLEYMAN KİMİYƏM

Kim deyir mən bu vətən mülkünə mehman kimiyəm?
Yox, bahar ömrümüzün can evinə can kimiyəm.

Toqquşur göydə buludlarla şeir dalğalarım,
Şairəm, sanki bu qəlbimin bir ümman kimiyəm.

Birdir hər yerdə mənə həm aşağı, həm yuxarı,
Yox təkəbbürlə işim, sadə bir insan kimiyəm.

Gəzirəm əldə qələm şerimizin bağlarını,
Qoymaram bassın alaq bağları, bağban kimiyəm

Keçmədim köhnəliyin baş qapısından içəri,
Yeni şerin, yeni taxtında Süleyman kimiyəm.

## TƏKLƏRƏ MEYDAN OLMAZ

Ey qələm, yaz, yenə yaz, heç belə dövran olmaz,
Havasından udan, ömründə peşiman olmaz.

Çevirək gəl, vətəni gülşənə başdan-başa, gəl,
Yurdunu, millətini "sevməyən insan olmaz".

Bunu dar gündə sınaqdan keçirib insanlar,
Quru sözlə vətənin dərdinə dərman olmaz.

Mən də şair kimi tək gəlməmişəm dünyaya,
Zirvələr aşmaq üçün təklərə meydan olmaz.

Vətənimdə daha qüdrətli Süleymanlar olar,
Onların heç biri lakin bu Süleyman olmaz!

## YOLDADIR

Keçdi hicran dəmləri, nazəndə yarım yoldadır,
Nazəninim yoldadırsa, laləzarım yoldadır.

Sevgi dünyasında mən bir kimsəyə baş əymərəm,
El bilir, qoy bilməyən bilsin, vüqarım yoldadır.

Gözləri cananımın dilbər Xəzərdən rəng alıb,
Eşqinə sadiq bahar sözlü nigarım yoldadır.

Ötməsin bağçamda bülbül bir daha gül eşqinə,
Öz gülüm, öz bülbülüm, öz nəğməkarım yoldadır.

Qoy xəzan "mən, mən" deyib bağçamda cövlan etməsin...
Mən Süleyman Rüstəməm, fəsli-baharım yoldadır.

## YARAŞMAZ

Nadanla əməl dostluğu insana yaraşmaz,
Şəksiz necə ki, qarğa gülüstana yaraşmaz.
Ümman gəmisində gərək ümman gücü olsun,
Əl boyda kağız bir gəmi ümmana yaraşmaz.
Öz millətini, yurdunu dar gündə dananlar,
Al bayrağı şöhrətli bu dövrana yaraşmaz. Dostlar!
Deməyin siz mənə, dincəl, daha yazma,
Susmaq belə bir gündə Süleymana yaraşmaz.

## BEŞGÜNLÜK DEYİL

Ey könül, amalımın dünyası beşgünlük deyil,
Düşmə ruhdan, ömrümün mənası beşgünlük deyil.

Taleyimdəndir, uzaqlardan gəlir şair səsim,
Şerə vurğun xalqımın avazı beşgünlük deyil.

Mahnımın hər kəlməsində gəncliyimdən var əsər,
Çağlayan ilhamımın məcrası beşgünlük deyil.

Yelkənimlə dalğalardan sağ-salamat çıxmışam,
Mərd oğullarçın sınaq dəryası beşgünlük deyil.

Dost bilir, düşmən bilir, şair Süleyman Rüstəmin
Dostluğu təsdiqləyən imzası beşgünlük deyil!

## AZƏRBAYCANDAN AYRILMAZ

Gözəllik, incəlik, sevgi, vəfa insandan ayrılmaz,
Coşan sellər, axan çaylar necə ümmandan ayrılmaz.
Uzaq düşsə gözümdən dilbərim, könlüm dözər, çünki
Sevənlər bilməmiş olmaz, vüsal hicrandan ayrılmaz.
Vəfasızdan vəfa ummaz, vəfadan yoğrulub eşqim,
Canından ayrılar aşiq, fəqət canandan ayrılmaz...
Bütün dünya yerindən, mehvərindən qopsa, ayrılsa,
Süleyman Rüstəmin qəlbi Azərbaycandan ayrılmaz.

## NƏSİLLƏRƏ

Nəsillər! Bilirik ki, deyilsiniz vəfasız,
Baxmayın, etinasız
Bizim başımızdakı əriməyən bu qara.
Bizim yaşımız hara, sizin yaşınız hara?!
Gün oldu mənzilimiz zindantək zülmət oldu.
Əlcə arpa çörəyi böyük bir nemət oldu.
Qanlı-qadalı günlər bir-birinə calandı,
Nərəmizdən göylərin pərdəsi parçalandı.
Əsrlərin yükünü daşıdıq çiynimizdə,
Səngərdə paltarımız çürüdü əynimizdə.
Yollarımızda artdı meyitlərin yığını,
Bağladıq çəkməmizin kəndirlə yırtığını.
Düşmənlərlə döyüşdə bağrımız qaralandı.
Mahnımız yaralandı, şerimiz yaralandı.

Günəşə doğru getdik, işığa doğru getdik,
Oğullar qurban verib, axır ki kama yetdik.
Şahiddir bu sözlərə böyük muzeylərdəki,
Qəlbimizin qanına bələnmiş partbiletlər.
Budur, budur, həyatda ölümlərin göyçəyi,
Buna ölüm deyil, yox, ad verib ellər - zəfər.
Tarix kitablarına yazıldıqca fəsillər,
Hər an sizi düşündük, nəsillər, ay nəsillər!
Yolları sizdən ötrü düşməndən təmizlədik,
Tikandan təmizlədik.
Təmizlədik ki, birdə solmasın baharınız,
Ulduzlar dünyasında yansın ulduzlarınız.
Nəsillər, ey sabahın şerini yaradanlar,
Sizə bir neçə kəlmə səmimi sözümüz var:

Baxıb şerimizdəki yaralı misralara,
"Yandım, öldüm" deməkdən aralı misralara,
Gəlin dodaq büzməyin, onlar döyüşdən çıxıb,
Sərt illərin bağından gül yığıb, çiçək yığıb,
Yerə-göyə sığmayan arzular könlümüzdə,
Silah bir əlimizdə, qələm bir əlimizdə,
Yolları təmizlədik bəxtiniz gülsün deyə,
Könlünüzə səadət baharı gəlsin deyə.
Dinləyin, gənc nəsillər! Söyləyirik vüqarla,
Fərəhlə, iftixarla:
Həyata göz açandan haqqı gözləyənlərik,
Yol təmizləyənlərik, yol təmizləyənlərik!

## NƏVƏM GÜNƏŞƏ MƏKTUB

Həyatda parolun, əziz Günəşim.
Vicdanın, namusun, qeyrətin olsun.
Ağsaqqal babanın dediyi budur,
Çalış el içində hörmətin olsun.

Qızın, qəlbimdəki odumla mənim,
Baş çək könüllərə adımla mənim.

Qarşımda əsgərtək addımla mənim.
Zirvələr aşmağa qüdrətin olsun.

Könlünü anamız vətənə bağla,
Haqsızlıq gördünmü tapda, ayaqla.
Mənim sözlərimi yadında saxla,
Bu uğurlu yolda cürətin olsun.

Dosta məhəbbəti babandan öyrən.
Düşmənə nifrəti babandan öyrən.
Məzəli söhbəti babandan öyrən,
Hər evdə, hər yerdə, söhbətin olsun.

Uyma göz aldadan bərbəzəklərə,
Varlanmaq fikrini ver küləklərə.
Qovuş arzulara, xoş diləklərə,
Müqəddəs amalın - sərvətin olsun,

Günəşim, könlümün səsini eşit,
Süleyman babanın sözünü eşit.
Nə qədər ki, sağdır, özünü eşit,
Məni eşitməyə minnətin olsun!

## XƏYANƏT OLMAZ

Hər kəs öz xeyrini gedsə dünyada
Arada, ətbəttə, məhəbbət olmaz.
Ürəklər dil tapsa, birgə döyünsə,
Ortada kin olmaz, küdurət olmaz.

Yersiz bərbəzəyə bürünən kəsdə,
Ağ gündə ən başda görünən kəsdə,
Dar gündə xəlvətdə sürünən kəsdə
Zərrə qeyrət olmaz, sədaqət olmaz.

Bizim dünyamızın cəlalına bax,
İgidlar bəsləyir hər ev, hər ocaq.

Onlar gözəl bilir - döyüşdən qabaq,
Döşünə döyəndə cəsarət olmaz.

Yayılsın dünyaya bu səs, bu xəbər,
Sarsıtsın düşmənin qəlbini kədər.
Bizim nəsillərdə ta qəbrə qədər
Vətənə, millətə xəyanət olmaz!

## DUZ-ÇÖRƏYİ İTİRMƏ!

İnsanın şərəfi, bəzəyi məncə,
İnan, nə ipəkdir, nə tirmə, oğlum!
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum!
Yersiz gülümsəmə, yersiz ağlama,
Bir könül də qırma, sinə dağlama.
Sirrini ellərdən gizli saxlama,
Dilinə yalan söz gətirmə oğlum!
Yel qanadlı illər ömürdən gedir,
İnsan zəhmətiylə kamala yetir.
Bağında nərgizlər, lalələr bitir,
Tikanlar, qanqallar bitirmə, oğlum!
Ürəyim arzuyla doludur, dolu,
Hünər meydanıdır bu həyat yolu.
Bilmədiyin işi gözüyumulu,
Söz verib öhdənə götürmə, oğlum!
Oxu Öyüdümü sən sətir-sətir,
Dilindən məclisə səpilsin ətir.
Qazancını itir, malını itir,
Ancaq duz-çörəyi itirmə, oğlum!

## NƏSİLLƏR GÖRMÜŞƏM

Gəzmişəm dünyamızı, dost, qardaş ellər görmüşəm,
Vaxt olub dəhşətli yellər, qanlı sellər görmüşəm.
Gah baharım qış olub, gah sərt qışım bir ilk bahar,
Varlığı məna dolu sansız fəsillər görmüşəm.

Ömrümün dar günlərindən başqa şəksiz,
şübhəsiz Yaxşı günlər, yaxşı aylar, yaxşı illər görmüşəm.
Büdrəyərkən on çətin yollarda mən, qardaş kimi
Əllərimdən bərk tutan şəfqətli əllər görmüşəm.
Mən Süleyman Rüstəməm, xoşbəxtlərin xoşbəxtiyəm,
Andına sadiq, vətənpərvər nəsillər görmüşəm.

## HEÇ OLMAZSA...

Səhv edir - kim desə dünyamıza mehman kimi ol,
Gəl, oğul, gəl bu vətən mülkünə bağban kimi ol.
Hər gülün, hər çiçəyin ətrini yaysın nəfəsin,
Dodağı, könlü Vətən mahnılı insan kimi ol.
Sev ürəkdən, nəyə lazım ki, məhəbbətsiz adam,
Sev, nə Məcnun kimi ol, sev, nə də Sənan kimi ol.
Bəlkə, işdir bu uzun yolda çətinlik çəksən,
Yemə qəm, onda beç olmazsa Süleyman kimi ol!

## YAXŞIDIR

Salmasa cananın hicrana canan, yaxşıdır,
Saxlasa öz eşqini qəlbində pünhan, yaxşıdır.

Sevgilim! Sənsən mənim ilk sevgilim, son sevgidim,
Keçsə məntək aşiqin ömrü firavan, yaxşıdır.

Gəl, gəl, ey saf eşqimin, ilhamımın dan ulduzu,
Seyr edək dünyamızı, gün yaxşı, dövran yaxşıdır.

Hər zaman, hər dərdini, hər arzunu bildirməyə,
Eşqinə sadiq, sevən könlüm tək ünvan yaxşıdır.

Həm Vətənçin, həm səninçin, öz canımdan keçməyə,
Sevgilim, şəkk-şübhəsiz, şair Süleyman yaxşıdır.

## KİMƏ TAPŞIRIB GƏLDİN?!

*Musa Yaquba*

Qələm dostum, dağları kimə tapşırıb gəldin,
Büllur buz bulaqları kimə tapşırıb gəldin?

Nə sən şair olardın, nə mən, ana vətənsiz,
Xoş günlər keçirmisən dağlar qoynunda mənsiz.
Gözəlliklər aləmi qəribsəməzmi sənsiz?
Ələsgərin sazını kimə tapşırıb gəldin,
Sazının avazını kimə tapşırıb gəldin?

Zəmilərdə torpağa baş əyən sünbülləri,
əməndə şənlik quran xanəndə bülbülləri,
Şairə gəl-gəl deyən çiçəkləri, gülləri,
Dağların laləsini kima tapşırıb gəldin,
Coşqun şəlaləsini kimə tapşırıb gəldin?

O yerlərin varını -
Xəzansız baharını,
Nənə nağıllarını,
Doğma eli, oymağı kimə tapşırıb gəldin,
Bərəkətli torpağı kimə tapşırıb gəldin?

Dörd fəslin ahəngini,
Yerin, göyün rəngini.
Gözəllik çələngini,
Quşların xoş səsini kimə tapşırıb gəldin,
Məhəbbət nəğməsini kimə tapşırıb gəldin?

Ceyran dırnaqlarıyla daranmış cığırları,
Təbiətin əliylə yaranmış cığırları,
Könlünə körpəlikdən o tanış cığırları
Söylə gözləri nəmli, kimə tapşırıb gəldin,
Ah çəkib qəmli-qəmli, kimə tapşırıb gəldin?

Qar altından boylanan bənövşələr sənindi,
Narlıqda qan dodaqlı gülöyşələr sənindi.
Tarlı, kamanlı, sazlı sıx meşələr sənindi.
Dostum, bu cah-cəlalı kimə tapşırıb gəldin,
Dağ başında maralı kimə tapşırıb gəldin?

Çəkə-çəkə içini,
Yığışdırıb köçünü -
Turacı, bildirçini,
Torağayı, kəkliyi kimə tapşırıb gəldin,
Qırqovulu, leyləyi kimə tapşırıb gəldin?

Deyirəm, nə olaydı, o gözəl məkanı, sən,
Xəzan bilməz, əbədi, solmaz gülüstanı, sən,
Göy üzünün bəzəyi qanadlı karvanı, sən,
Günəşdən gənclik odu əmənə tapşıraydın,
Kaş mənə tapşıraydın, kaş mənə tapşıraydın!

## QAR YAĞIR NOĞUL-NOĞUL

Budur səhərdən bəri,
Qar yağıb örtür yeri.
Şaxta pəncərələrdə çəkir incə naxışlar,
Qışın bu lövhəsindən ayrılmayır baxışlar.
Qar mənim nəzərimdə gələcək gül, çiçəkdir,
Süfrələrin bəzəyi meyvədir, bol çörəkdir.
Yerlər, göylər tərtəmiz,
Çöllər olub ağ dəniz.
İnsanlar öz işindən qalmır belə gündə də,
Torpağın altında da, torpağın üstündə də.
Qar yağır noğul-noğul,
Bayırdadır qız, oğlu.
Budur top-top oynayır şəhərin uşaqları,
Əhməri alma kimi qızarır yanaqları.
Gözəl ana vətənin mahnısı dillərində,
Əriyir qar topları göynəyən əllərində.
Mən bir seyrçi kimi dayanmışam kənarda,
Uşaqlıq illərimi düşünürəm bu qarda.

İndi qoy deyim sizə oğlum, qızım hardadır,
Şəhərin bağlarıtıda dizə qədər qardadır.
Qış dolaşır şəhərdə, səs-səmirsiz yağır qar,
Anamın saçlarıtək ağarmışdır ağaclar.
Günlər keçər, ilk bahar gəlib əridər qarı,
İnsanlar mahnılarla salamlayar bahan.
Bütün bağlar, bağçalar açar çiçək, açar gül,
Anamın başındakı qarsa əriyən deyil.

## SIĞIRÇINLAR

Şimaldan dəstə-dəstə uçub gəlir Bakıya,
Soyuqlara dözümsüz quşlar, sevimli quşlar.
Çox yox, üççə aylığa köçüb gəlir Bakıya,
Həşəratın qənimi, qara geyimli quşlar.
Çöllərin, çəmənlərin çalıb-çağıranları,
Cənubdan ayrılmayan şimal sığırçınları.
Quşlarçın qış Bakıda mülayimdir çox zaman,
Qəmsiz keçir bu yerdə bahar həsrəti, hicran.
Xay havada oturub budaqlar üstdə çin-çin,
Pıçhapıça başlayır sığırçınlar çinarda,
Çal-çağırsız keçməyən bahara yetmək üçün
Sığırçınlar çığrışır çiskində, çəndə, qarda.
Şəhərin bağlarında,
Bakı təbiətinin ən sakit çağlarında,
Gecələri canlanır qəribə bir mənzərə,
Sanki çılpaq çinarlar qapqara yarpaqlıdır.
Qışladığı bu yerdən yenə əvvəlki yerə
Sığırçınların köçü ilk bahara bağlıdır.
Ey uzaqlardan gələn incə nəğməli quşlar,
Sizə bircə sözüm var:
Bakıda keçsin deyə qışınız bahar kimi,
Çinar budaqlarını dilləndirin tar kimi,
Heç də almayın vecə yağış yağır, qar yağır,
Ağacların başından əskilməsin çal-çağır.
Siz ey kamança səsli, şimal sığırçınları,
Qışda bahar nəfəsli, şimal sığırçınları!

## PAYIZ

Bir ağac altında, sahildə yalqız
Oturub, dalmışam düşüncələrə.
Payızdır, payızdır, payızdır, payız,
Canlanır önümdə başqa mənzərə.

Hava da tutqundur, nədir, bu nədir, -
Eşqimin hicranlı səhəri kimi
Ağacdan yarpaqlar tökülür bir-bir,
Ötən illərimin günləri kimi.

Başımın üstündən keçir durnalar,
Mənə tanış gəlir qaqqıltıları.
Yenə Lənkərana köçür durnalar,
Quşların ordadır qışda baharı.

Sabah qış gələcək, tökəcək qarı.
Bir adam varmı ki, bunu bilməsin.
Omrümün baharı keçibdir barı,
Payızı uzansın, qışı gəlməsin.

Hava da tutqundur, nədir, bu nədir, -
Eşqimin hicranlı səhəri kimi...
Ağacdan yarpaqlar tökülür bir-bir,
Öton illərimin günləri kimi.

## PAYIZ BAHARI

Torpağının qədrini məncə bilməz kökündən,
Kim azca dadmayıbsa Abşeron çörəyindən.

Hətta payızda belə seyr edib, zövq alıram
Hər əncir ağacından, hər üzüm tənəyindən.

Bu mövsümdə doğrusu bal damır ağızlara
Üzümün giləsindən, əncirin göbəyindən.

Necə fəxr etməyim ki, gəlir son bahar ətri,
Mənim şeir bağçamın gülündən, çiçəyindən.

İnnablar qıpqırmızı, mənim çox xoşum gəlir,
Təbiətin bu incə, bu nadir göyçəyindən.

İnsana dost ağaclar yetişmiş meyvəsini –
Boşaldır səbətlərə öz yaşıl ətəyindən.

Süzülür qumlar üstə hərdən narın-narın tər,
Tutqun göyün bozarmış, payızı köynəyindən.

Gəzirəm Məcnun kimi ayaqyalın, başaçıq,
Uzağam bu yerdə mən şəhərli bəzəyindən.

Min bir payız gəlsə də ilk bahar köçən deyil,
İlk bahar müğənnisi şairin ürəyindən.

## XƏZƏR NƏYƏ BƏNZƏYİR?

Məndən soruşursunuz:
- De görək səhər-səhər
Nəyə bənzəyir Xəzər?
- Xəzər göyə bənzəyir, göy Xəzərə bənzəyir.
Xəzər qızıl həşyəli göy məxmərə bənzəyir.

Hər qarışı üzümlü, əncirli qum təpələr,
Sahilin qulağına pıçıldayan ləpələr,
Çiçəklər, otlar üstə iməkləyən körpələr
Hələ bəstələnməmiş nəğmələrə bənzəyir.

Mən bilirəm, Xəzərin ürəyində nələr var,
Sularda avar çəkən qoca, gənc qayıqçılar,

Balıqlar dünyasına tor atan balıqçılar
Bəxtindən xeyli razı bəxtəvərə bənzəyir.

İtirmişəm sayını həftələrin, ayların,
Ətrafı seyr edirəm üstündən qayaların:
Mənim ayna Xəzərim, şair qağayıları
Mahnı, şeir yazdığı bir dəftərə bənzəyir.

Qayaların sinəsi sulardan oyuq-oyuq,
Xəzərə keşik çəkən sahildəki hər buruq
Babək ordusundakı saçları buruq-buruq,
Yapıncısı qapqara bir əsgərə bənzəyir.

## AXŞAM

Sərdi qanadlarını yerə, xəbərsiz axşam,
Həyətdəki bağçaya baxıram pəncərəmdən.
Sanki yer-göy dillənib deyir ki, qışam, qışam.
Sevdiyim bu şəhərin qışına heyranam mən.

Nə qəribə görünür ağ yorğan torpaq üstə, -
Yeriyir göy üzündə buludlar ağır-ağır.
Sığırçınlar bağçaya uçuşur dəstə-dəstə,
Elə bil ağaclara göydəti qara qar yağır.

## QIRQOVUL

Meşədə gəzişirdim bir az ov edim deyə,
Bütün hər şey üzümə gülürdü çiçək kimi.
Sən kollar arasından pırr edib qalxdın göyə,
Zəfər axşamlarında atılan fişəng kimi,
Al-əlvan gördüm səni,
Qəlbaçan gördüm səni.
Barmağımı tətikdən çəkib ardınca baxdım,
Bağışlasın ovçular, ovçuluğu buraxdım.

## BİR LÖVHƏ

Bakılıtək düşünürəm bayaqdan
- Heç belə qış görməmişdim bu yerdə.
Min sığırçın asılıb hər budaqdan,
Bu qədər quş görməmişdim bu yerdə.
Şəhərimin qışı yaman sərt olub,
Soyuq, şaxta çəkilməyib Xəzərdən.
Qağayılar sərçələrə qoşulub
Həyət-həyət yem gəzirlər səhərdən.
Öz hikkəni, ey qış, yaxşı yeritdin,
Gör kimləri sən kimlərə tay etdin!

## YAROSLAV SMELYAKOVA MƏKTUB

Yaroslav, danışan Bakıdır, Bakı,
Ürəyi alışan Bakıdır, Bakı.
Günəş gözlərini ovuşduraraq,
Yenə Xəzər üstdən boylanır səhər.
Ən qədim dostumuz günəşdən qabaq.
Şirin yuxusundan oyanır şəhər.
Qışda da kəsilmir bulvardan ayaq.
Sahildə gəzişən gözəllərə bax.
Köçür karvan-karvan şəhərimizə,
Dirijor geyimli şimal quşları.
Axşam ağaclarda verir səs-səsə,
Mahnısı sevimli şimal quşları.
Qonaqsız olmayan bizim diyarda
Havalar xoş keçir, mülayim keçir.
Bəlkə bağındakı sığırçınlar da
Qoşulub quşlara bağıma köçür.
Söyüdlər saçını yolmayıb hələ,
Bakıda bahardır payızda belə.
Yaroslav! Bilirəm, sən Moskvada,
İlin bu çağında harda gəzirsən.
Odlu ürəyinlə soyuq havada

Yağışda gəzirsən, qarda gəzirsən.
Mənə qonaq gəlsən, səninçün yenə
Bağımdan çiçəklər, güllər dərərəm.
Qışın acığına, bağbantək sənə
Qərənfil verərəm, nərgiz verərəm.
Bahar sarayının qızıl açarı,
Şair əlimdədir, bilirsən bunu.
Vecimə almayıb yağışı, qarı,
Könlüm istəyəndə açıram onu.
Baxıb məhəbbətlə dost ellərə mən,
Bahar paylayıram könüllərə mən.
Bilirəm min işə qarışıb başın,
Odur ki, bakılı şair qardaşın,
Səni məhəbbətlə salıb yadına,
Bu kiçik məktubda əziz adına
Nə yağış göndərir, nə qar göndərir,
Gücü çatdığı dan bahar göndərir!

## İTİRSƏM AĞLARAM MƏN

Özümdən tez ilhamım qocalsa, ağlaram mən,
Könlüm xoş arzulardan boşalsa, ağlaram mən
Düz yol seçdi gəncliyim,
Oddan keçdi gəncliyim,
Şerə köçdü gəncliyim,
Şeirlərimin saçı ağarsa, ağlaram mən,
Baharına yağış, qar yağarsa, ağlaram mən.

Dar gündə ağlamadım,
Sinələr dağlamadım.
Qaralar bağlamadım,
Əlimdə bir gün qələm ağlarsa, ağlaram mən,
Könüllərə yolumu bağlarsa, ağlaram mən.

Puçdur vüqarsız həyat,
Zəhmətsiz, barsız həyat.

Heçdir baharsız həyat.
Nəğmələr baharımı itirsəm ağlaram mən,
İlham adlı varmı itirsəm ağlaram mən!

## MƏNİM GÜNƏŞİM

Gündüzlər də, gecələr də mənimlədir günəşim,
Dar günümdə cəbhələrdə mənimlədir günəşim.

Mənim üçün şerindəki dostluq sözü günəşdir.
Torpağından yarandığım vətən özü günəşdir.
Xoşbəxtəm ki, tükənməyən bu sərvətdir günəşim,
Həqiqətdir, məhəbbətdir, səadətdir günəşim.

Şerim, nəğməm, məhəbbətim ondan alır odunu,
İlk addımdan söz sənətim ondan alır odunu,
Ləkə bilməz həqiqətim ondan alır odunu.
Zirvələrə gedən yolda dayağımdır günəşim,
Başım üsldə dalğalanan bayrağımdır günəşim!

## O, MƏNƏM

Yaz ayları vəcdə gəlib vətənini dolaşan -
O, mənəm!
Xəzanbilməz gülzarını, çəmənini dolaşan -
O, mənəm!
Babaların ocağında çılçıraqlar yandıran -
O, mənəm!
İş başında od ürəkli bir fəhləni andıran -
O, mənəm!
Millətini millətlərə qardaş bilən, dost bilən -
O, mənəm!
Od yurdunu övlad kimi candan sevib, sevilən -
O, mənəm!

Göy üzündə qanad çalan nə tərlandır, nə qartal -
O, mənəm!
Savalanın döşündəki nə nöqtədir, nə xəyal
O, mənəm!
Dolayları dolaq kimi ayağına dolayan -
O, mənəm!
Dağ başında çobanlarla birgə tonqal qalayan -
O, mənəm!
Dağ yolunda dağ deyildir dumanlara bürünən -
O, mənəm!
Yağış altda tora düşmüş balıq kimi görünən -
O, mənəm!
Dumaların qatarından gözlərini çəkməyən -
O, mənəm!
Şair kimi ömrü boyu bir quş qanı tökməyən -
O, mənəm!
Gözlərilə gözəllərin gözlərini qoruyan -
O, mənəm!
Əllərini daraq edib saçlarını darayan -
O, mənəm!
Bağrı yara Arazıyla gözüyaşlı danışan -
O, mənəm!
Bir vüsalın həsrətilə haray çəkib alışan -
O, mənəm!
Süfrusində duz-çörəyi qardaş, bacı soraqlı -
O, mənəm!
Şeirləri, mahnıları bahar, lalə bayraqlı -
O, mənəm!
Təbiətİn rənglərini gözlərinə köçürən -
O, mənəm!
Ey insanlar! Sizinlə bir gözəl günlər keçirən -
O, mənəm!
Pərvazlanıb ulduzlara, aya, günə yol çəkən -
O, mənəm!
Millətinin hüzurunda şair kimi baş əyən -
O, mənəm!

## SADƏ BİR ŞAİRƏM MƏN

Məndən soruşursunuz: - De görək bu yaşında
Səbəb nədir yorulmur qələmin iş başında?!
Vətənə, xalqa bağlı şair də yorularını,
Şeri qızıl bayraqlı şair də yorularmı?
Yolu həqiqət yolu, bir sadə şairəm mən,
Qəlbi məhəbbət dolu, bir sadə şairəm mən.

Mənə elə gəlir ki, yaxşı bilir el, vətən,
Yerində kədərlənən, yerində candan gülən,
Yerində od püskürən, yerində çox mehriban,
Dünən, bü gün, sabah da şeri özündən cavan,
Alnı açıq, üzü ağ, bir sadə şairəm mən,
Gecəsi, gündüzü ağ bir sadə şairəm mən.

Kolxozçuy1a kolxozçu, fəhləylə fəhləyəm mən,
Ta uşaqlıq çağımdan, həmişə beləyəm mən.
Çox millətin oğluyla duz-çörək kəsdiyini,
Dostluq şənliklərində qol-qola gəzdiyini
Ömrünə xoş gün yazan bir sadə şairəm mən,
Uzaq eldən nigaran bir sadə şairəm mən.

Uca dağ yollarında,
Qoca dağ yollarında,
Sönmüş siqaretini o göylərdən yandıran,
Buludlardan şığıyan, şimşəklərdən yandıran,
Oyaqların oyağı, bir sadə şairəm mən,
Şiş dağların dayağı bir sadə şairəm mən.

Acımışam hər zaman düz yoldan azanlara,
Heçlikdən yazanlara, boşluqdan yazanlara.
Mənim bu şair qalbim, bu düz yolda düz vurub,
Sözləri dəmirçitək gur ocaqda qızdırıb,
Sindan üstə çəkiclə,
Bu qüvvətlə, bu güclə
Mahnılara çevirən bir sadə şairəm mən,
Sabahı aydın görən bir sadə şairəm mən!

## KAŞ GÖRƏYDİ BU GÜNLƏRİ...

Ən müqəddəs məbədiydi vətən Vaqifin,
Şair könlü bülbül kimi ötən Vaqifin.

Eşqi Vaqif ürəyinin qanında gördü,
Gözəlliyi gözəllərin canında gördü.
Millətini sarayda da yanında gördü,
Şər işlərə qarşmadı şeri Vaqifin,
Düşmənlərlə barışmadı şeri Vaqifin.

Dağa təpə, təpəyə dağ demədi Vaqif,
Ömrü boyu haqqa nahaq demədi Vaqif.
Ağa qara, qaraya ağ demədi Vaqif,
Millətinin qəlbindədir adı Vaqifin,
Sönməyəcək ürəyinin odu Vaqifin.

Vətənimin hər kəndində, hər şəhərində,
İnsanlara gəl-gəl deyən al səhərində,
Şeir, sənət söhbətinin şirin yerində
Kimdir deyən haralıdır nəsli Vaqifin
Öz ellimdir, öz ellimdir əsli Vaqifin.

Qazaxlıdır, bakılıdır, qarabağlıdır,
Gəncəlidir, şəkilidir, elə bağlıdır!
Onu belə tanıyanlar tamam haqlıdır.
Azərbaycan, anasıdır qoca Vaqifin,
Şeir, sənət dünyasıdır, qoca Vaqifin.

Qarabağın dar günündə qara bağladı,
Döyüşlərlə ölənlərə matəm saxladı.
Şair gözü bir gün güldü, bir gün ağladı.
Qələm tutan barmaqları yandı Vaqifin,
Şeir deyən dodaqları yandı Vaqifin.

Dalıb seyrə zülmət gördü cahan mülkünü,
Bel büküldü daşıdıqca dərdin yükünü.
Min qüssəylə saldı yola gələn hər günü.

Qan ağladı ilk baharı, yazı Vaqifin,
Durnalara könül açdı sazı Vaqifin.

Ürəklərdən ürəklərə yol tapdı adı,
Döndü çaxan şimşəklərə acı fəryadı;
Hazır gördü başı üstə bir gün cəlladı.
Gətirmədi qocalıqda bəxti Vaqifin,
Ürəyindən qara qanlar axdı Vaqifin.

Qəlbindəki arzularla köçdü dünyadan,
Keçdi aylar, ötdü illər, dəyişdi zaman.
İnsan kimi nəfəs aldı bu yerdə insan,
Kaş görəydi bu günləri gözü Vaqifin,
Əyləşəydi söz taxtında özü Vaqifin.

## YAXŞI Kİ VARAM

Azərbaycanımda yaxşı ki, varam,
Söz gülüstanımda yaxşı ki varam.

Döyüşlərdə çaldım mən rübabımı,
Qəlbimdə gəzdirdim inqilabımı,
Dostluğa həsr etdim hər kitabımı,
Bu yazı-pozumla yaxşı ki varam,
Baharım, yazımla yaxşı ki varam.

Qələm düşməyəcək əlimdən mənim,
Şeirlər mahnılar dilimdən mənim.
İz qalır hər ötən ilimdən mənim,
Dost, qardaş ellərçin yaxşi ki varam,
Xoşbəxt nasillərçin yaxşı ki varam.

Könül, arzu dolu ürəklərə bax,
Bu canlı güllərə, çiçəklərə bax,
Bax bu gözəllərə, göyçəkərə bax.
Bu yaxşı dövranda, yaxşı ki varam,
Hər yerdə, hər yanda yaxşı ki varam.

Səsim gah arandan, gah dağdan gəlir.
Min çəməndən gəlir, min bağdan gəlir.
Sorağım yaxından, uzaqdan gəlir.
Dərya həvəsimlə yaxşı ki varam,
Şair nəfəsimlə yaxşı ki varam.

Uca dağlardan da ucadır başım,
Nə qızılım vardır, nə də daş-qaşım.
Saysız-hesabsızdır, dostum, qardaşım,
Bu nadir varımla yaxşı ki varam,
Günəş vüqarımla yaxşı ki varam.

Düşmənin gözünə bıçaqdır adım,
Anamın dilində uşaqdır adım,
Həsəddən, qeybətdən uzaqdır adım.
Belə sərvətimlə yaxşı ki varam,
Yaxşı sənətimlə yaxşı ki varam.

"Sən kimsən" deməyin mən Süleymana,
Sadiq bir övladam Azərbaycana.
Dünəni, bu günü hələ bir yana,
Onun sabahında yaxşı ki varam,
Vətən pənahında yaxşı ki varam!

## BAHAR ÜRƏYİMDƏDİR

Bu əvəzsiz, bu gözəl
Diyar ürəyimdədir.
Dünyalarca sevdiyim
Nigar ürəyimdədir.

Yaxşı bilirəm ki, mən
Mənliyindən dönməyən,
Zirvəsindən enməyən
Vüqar ürəyimdədir.

Məni cavan saxlayan,
Bu ellərə bağlayan,
Dərya kimi çağlayan
Qərar ürəyimdədir.

Yolu ağ günlər yolu,
Dövlət dolu, var dolu,
Gözəl mahnılar dolu
Qatar ürəyimdədir.

Nə tufandan qorxuram,
Nə borandan qorxuram,
Nə xəzandan qorxuram
Bahar ürəyimdədir.

## DƏDƏLƏR, BABALAR OCAĞINDAYAM

Könlümdə bir dərya nəcib arzular,
Yenə dərdli Araz qırağındayam.
Xeyli var üzünü görmədiyimin –
Cənublu dilbərin sorağındayam.

Deyirəm silinsin sinəmdən bu dağ,
Qəlbləri oxuyum mən varaq-varaq,
Hər iki sahildə deyiləm qonaq,
Dədələr, babalar ocağındayam.

Gəzirəm qol-qola həqiqətimlə,
Üz-üzə gəlirəm səadəlimlə.
Dünyaya sığmayan məhəbbətimlə,
Öz anam torpağın qucağındayam.

Könlümə doğmadır mənim bu yerlər,
Sizindir yazdığım bütün şeirlər.
Süleyman Rüstəməm, belə deyirlər,
Mahnımla ellərin dodağındayam!

## CAVAB VERMƏLİYƏM

Mən atayam, sən - oğul, xalqımın qarşısında
Hər bir hərəkətinçim cavab verməliyəm mən.
Qoy bayrağın yollarda vicdanın olsun, bala,
Namusun, qeyrətinçün cavab verməliyəm mən.

Sevgisiz bu həyatda olmayacaq şöhrətin,
Qapıları açıqdır üzünə səadətin.
Hüzurunda bu xoşbəxt, alnıaçıq millətin
Sənin səadətinçün cavab verməliyəm mən.

Ömrünün gözəl keçən vaxtını zəhmətdə gör,
Şöhrətinin ucalıq taxtını zəhmətdə gör.
Fəhlə ol, ya alim ol, baxtını zəhmətdə gör.
Şərəfli zəhmətinçün cavab verməliyəm mən.

Yaxına baxmalısan, uzağa baxmalısan,
Başın üstə yellənən bayrağa baxmalısan,
Ellərin yandırdığı çırağa baxmalısan;
Əzminçün, cürətinçün cavab verməliyəm mən.

Uzun yollar keçmişəm, yaxşı qulaq as mənə,
Dara düşsən unutma, hayan vətəndir sənə.
Canımdan çox sevdiyim bu müqəddəs vətənə,
Böyük məhəbbətinçün cavab verməliyəm mən.

Sən cavab verməlisən peşənçün, sənətinçün,
Bütün dediklərimçün, adınçün, hörmətinçün.
Sən cavab verməlisən əbədi qeyrətinçün,
Hər şeyçün, şöhrətinçün cavab verməliyəm mən.

Gəl, gənclik illərini vermə küləyə, oğlum,
Adına, şöhrətinə gəlməsin ləkə oğlum.
Həqiqət dünyamızda səninlə birgə, oğlum.
Sənin həqiqətinçün cavab verməliyəm mən!

## VƏTƏNDAŞ

Mən vətəndaş adlanmaram, doğrusu
Vətənimin qeyrətini çəkməsəm.
Məndən sonra gələnlərçin bağımda
Məhəbbətlə beş-on ağac əkməsəm.

Mən bənzərəm xəzan vurmuş yarpağa.
Şimşəklərdən paralanmış budağa,
Həm əzəlim, həm sonum bu torpağa —
Bir fəhlətək alın təri tökməsəm.

Qulaqlarım eşidərmi şad xəbər.
Səslənərmi sinəmdoki nəğmələr,
Xəzər üstdən dan yerini hər səhər
Bu qızaran gözlərimlə sökməsəm?!

Sarsılmayıb ürəyimin dözümü,
Vətən oğlu bilmərəm heç özümü,
Araz boyu bu yol çəkən gözümü
Anam dilli o sahilə dikməsəm.

Şair könül düşər gündə min dərdə,
Ev yıxanın acığına bu yerdə.
Bahar üzlü, bahar gözlü şəhərdə
Öz əlimlə gündə bir ev tikməsəm.

Şair kimi görünərəm yetim, tək,
Məndən dəyməz insanlara bir kömək
Ürəyimin zindanında dəmirtək
Misraları isti-isti döyməsəm!

## BORCLUYAM İNSANLARA

Dünyaya göz açandan sirdaşımdır ilk bahar,
Zəfərlər kitabında öz adım, öz peşəm var.
Mən vətən torpağından yaranmış bir açaram
Arzusuyla ellərin,
Sevdalı könüllərin
Qapısını hər zaman mahnılarla açaram.
Od mənəm, atəş mənəm,
Ay mənəm, günəş mənəm,
İnsanam, ömrüm boyu borcluyam insanlara.
İtirmərəm özümü düşsəm də tutanlara.
Zəkasıyla xalqımın göylərə yüksəlirəm,
Ulduzlara gedirəm, ulduzlardan gəlirəm.
Mon yolları ağartdım, yollar mənim başımı.
Yaşımı bilir vətən,
Bəxtimlə yaşıdam mən,
Gəlin bir daha məndən
Soruşmayın yaşımı.
Canımdan yan ötür qəm,
Daim hərəkətdəyəm.
Qoşadır addımlarım qocalmayan həyatla.
Sönməzdir odum mənim,
İnsandır adım mənim.
Mən yeni dünyamızı bəzəyirəm bu adla.

## DÜŞÜNCƏLƏR

Sada bir şairəm, sözüm, söhbətim.
Könül doftərimin varağındadır.
Toyumun, yasımın əski əzəldən
Ayna Xəzərimin qucağındadır.

Nələr görməmişəm ömrümdə, nələr,
Lalətək qızaran odlu sinələr...

Qanlı vuruşmalar, qanlı səhnələr
Hələ gözlərimin qabağındadır.

Bilirəm dünyada vətənsiz heçəm,
Mən gərək yolunda canımdan keçəm.
Günəşli gündüzüm, işıqlı gecərti,
Canıma can verən torpağındadır.

Dönüb gülüstana ana yurdumuz,
Məşələ çevrilib ürək odumuz.
Vətən keşikçisi qələm ordumuz,
Sabirlər, Cəfərlər ocağındadır.

Çoxdandır ağardıb başımı illər,
Bilsin dünyamıza gələn nəsillər –
Əkdiyim ağaclar, əkdiyim güllər
Vətən torpağında, el bağındadır.

Tutdu sağ əlimdən zamanın əli.
Şerimin bülbülü o vaxtdan, bəli,
Talış meşəsində Babək gövdəli
Dəmir ağacının budağındadır.

Pəhləvan babamın, süzümün düzü,
Yerə dəyməyibdir aynalı dizi.
Palıd ayağının silinməz izi
Kim bilir, bəlkə də Şahdağındadır!

Alqış təbiətin sirrinə, alqış,
Halımı pozmayır nə qar, nə yağış.
Gözüm Savalanın başında - yaz, qış –
Babəkin ağaran papağındadır.

Məni qınamayın xəyala dalsam,
Ötən günlərimi yadima salsam.
Vətəndo, qürbətdə, hər yerdə olsam,
Ürəyimsə Araz qırağındadır.

İllərdir məhəbbət yuvalı könlüm,
Hicranla üz-üzə davalı könlüm,
Vüsal həsrətilə havalı könlüm,
O taylı dilbərin sorağındadır.

Yenə gözlərimin qaçıb yuxusu,
Şairçin, əlbəttə, təbiidir bu.
Vətən çöllərinin çiçək qoxusu
Cüyürün, ceyranın dırnağındadır.

Mənəmlik könlümün deyil gərəyi
Şeirdir, mahnıdır onun bəzəyi.
Ürək süzlərirnin gözəl-göyçəyi
Qardaş millətlərin dodağındadır.

Yox, yox qocalmıram, bu mən, bü güzgü,
Mənə həyat verir heyatın yükü,
İgid Koroğlunun zəfər üzüyü
Oğlumun qabarlı barmağındadır.

Yaxşı tanıyıram mən dostu, yadı,
Nəslimdə naxələf görən olmadı.
Nəbinin yoldaşı Həcərin adı
Sevimli qızımın qolbağındadır.

Burda əbədidir şerin baharı,
Şair millətimin fəxri, vüqarı,
Böyük Nizaminin əziz məzarı
Uzaqlarda deyil, bu yaxındadır.

Könül, bu şəhərdən de, kim köç elər?!
Qaranlıq görməyib burda küçələr.
Şair gozlərimin nuru gecələr
Evlərin sönməyən çırağındadır...

## SIFIRI YEDDİNİN YANINDAN POZUN

A dostlar, deməyin dolmusan yaşa,
Şairəm, yaşıma baxmayın mənim.
Çox da çox illəri vurmuşam başa,
Ağaran başıma baxmaym mənim.

Yorulmaq nədir ki? Sözün ən düzü
Ömürlük dostum var ilk bahar kimi.
Qanımda bir diinya şeirlər iizür,
Aynam Xəz;irdoki balıqlar kiıni.

Könül mahnılanm, ürək sözlərim
Gecəli-gündiizlü ztıhmətimindir.
Vətən keşiyini çəkən gazlərim
Ömrü bahar çağlı millətİmindir.

İllər öz işini görso də nə qəm,
Yorulmaz yülçusu bu uzun yolun.
Bilirəm titroməz əlimdo qələm,
Siz bu Süleymandan arxaym olun.

Qocalıq sözünü - yaraşmır mənə -
Şairin adindan, canından pozun.
Sizinlə əl-ələ yoldayam yenə
Sıfırı yeddinin yanından pozun!

## GÜNƏŞİNLƏ GƏL

Təzə il, yanıma əliboş gəlmə,
Könlümə xoş gələn xəbərlərlə gəl.
Alnın açıq olsun, üzün ağ olsun,
Aləmə səs salan zəfərlərlə gəl.

Vətən torpağına can gəlsin deyə,
Bollu yağışla gəl, bollu qarla gel.
Mahnım pərdə-pərdə yüksəlsin deyə,
Aynanı Xəzərdəki dalğalarla gel.

Odlar diyarına - özün bilirsən,
Bağrında odunla, atəşinlə gəl.
Sənə gəl-gəl deyir anamız vətən.
Ömürlük dostumuz Günəşinlə gəl!

## XƏZANSIZ ÇİÇƏKLƏR

Döyüş illərinin təcrübəsini
Cavan nəsillərə ötürən oldum.
Qanlı göz yaşını, qəmi, qüssəni
Gərəksiz şey kimi itirən oldum.

Asan qazanmadım mən bu ağ günü,
Gördüm zindanları, gördüm sürgünü.
Ən ağır illərin ağır yükünü
Dünən bu çiynimə götürən oldum.

İzim var yurdumun hər bucağında,
Ömrümün ən gözəl, qaynar çağında,
Vətən torpağında, vətən bağında
Xəzansız çiçəklər bitirən oldum.

Şair eldən alır öz ilhamını,
Arazdan doldurub hicran camını,
Qardaşın qardaşa xoş kəlamını
Sahildən sahilə yetirən oldum.

Dünyaya örnəyəm məsləkimlə mən,
Bu vətən mülkündə, diləyimlə mən –
Qızıl qələmimlə, ürəyimlə mən
Şerə dan yerini gətirən oldum!

## VƏTƏN

Ey Vətən! Torpağın əzizdir mənə,
Mən orda tapmışam səadətimi.
Könüldən mahnılar qoşmuşam sənə,
Çevrilib bayrağa məhəbbətimi.

Gözümü dünyaya açanda ilkin
Anamı görmüşəm, səni görmüşəm.
Əhdinə vəfalı bir oğul təkin
Döyünən qəlbimi sənə vermişəm.

Şöhrətim ey Vətən, şanım ey Vətən,
Sən məni adımı ellərə yaydın.
Ürəyim ey Vətən, canım ey Vətən,
Mən şair olmazdım sən olmasaydın!

## DƏYƏRİ YOXDUR

Sinəsi dəryaca şeirlə dolu
Şairin günəşsiz səhəri yoxdur.
Ağ gün də görmüşəm, qara gün də mən,
Deməyin, dünyadan xəbəri yoxdur.

Arzusu sonsuzdur bu yer oğlunun,
Üzü zirvəyədir həyat yolunun.
Mənə dost deməsin o kəs ki, onun
Könül dəftərində zəfəri yoxdur.

Ömrünü mənasız keçirənlərin,
Bu yeni dünyasız keçirənlərin,
Vətənsiz, anasız keçirənlərin,
Gözümdə bir quruş dəyəri yoxdur!

## YUXUSUZ GECƏM

Bu gecə qaydam üzrə çəkilib bir küncə mən,
Kağız üstə yol aldım bir şerin ardınca mən
Könlümdə insanların, bir də öz arzularım,
Qələmimdən süzüldü kağıza könül varım.
Misralar qoşun kimi duzüldükcə cərgəyə.
Sevindim istəyimə nail oluram deyə.
Əziz oğlum, sirdaşım, qonum-qonşu da yatdı.
Mənimsə gözlərimə bu gecə yuxu yaddı.
Dağ oldu külqabında papiros kötükləri,
Lal gecənin başında göründü ağ tükləri...
Gün doğdu, sübh açıldı, doyunca aldım nəfəs,
Səhər mahnım şəhərə dalğa-dalğa saldi səs,
Çıxdım eyvana birgə öz təzə əsərimlə,
Öpdüm gözəl Bakımı yuxusuz gözlərimlə!

## CANLARA CANDIR QARABAĞ

Şöhrətin yer üzünə çoxdan əyandır, Qarabağ,
Vurğunam hüsnünə mən xeyli zamandır, Qarabağ.

Dostlarından eşidirsən bu sözü nəğmə kimi –
"Şux gözəllər yeridir, yaxşı məkandır Qarabağ".

Vaqifin, Natəvanın səndə ayaq izləri var,
Məncə şairlər üçün başqa cahandır Qarabağ!

Hər bahar fəsli bu könlümdə adın qönçələnir,
Səni mən görməmişəm gör ki, haçandır Qarabağ!

San bilirsən ki, mənim təkcə cənub dərdim var,
Ayrılıq dərdi ölümdən də yamandır, Qarabağ!

Sən canımsan, ciyərimsən, ürəyimsən, ürəyini,
Deyirəm, car çəkirəm canlara candır Qarabağ.

Sənə övlad kimi sadiq bu Süleymanını sən
Ana qəlbindən uzaq bilmə, amandır, Qarabağ!

## YORULMAMIŞAM

İlləri illərə calasam da mən
Yurdumu gəzməkdən yorulmamışam.
Cənub həsrətliyəm, vüsal eşqinə
Hicrana dözməkdən yorulmamışam.
İlk bahar nəfəsli tər çiçəklərin
Ətrini çəkməkdən yorulmamışam.
Cənublu bacımın, qan qardaşımın
Dərdini çəkməkdən yorulmamışam.
Ötən durnalardan yaxınlarımın
Halını sormaqdan yorulmamışam.
Hicran karvanının sarbanı olub
Yolları yormaqdan yorulmamışam.
Təzə nəsillərə candan, ürəkdən
Bitməyib xidmətim, yorulmamışam.
Dar gündə, ağ gündə vətən deməkdən,
Bilir ki, millətim yorulmamışam.
Dostluq dünyamızın şənliklərində
Sevinib gülməkdən yorulmamışam.
Başım ağarsa da, xoşbəxtliyimdən
Sevib-sevilməkdən yorulmamışam!
Bəzən nəfəsimi dərsəm də yolda
Uğurlu səfərdən yorulmamışam.
Gah tufan, gah boran görsəm də yolda,
Soruşun Xəzərdən, yorulmamışam.
Döyüş meydanının ön səngərində
Özümü görməkdən yorulmamışam.
Qara əməllərə, yad meyllərə
Sinəmi gərməkdən yorulmamışam.
Şerimi süngülək düşmənin, yadın
Bağrına taxmaqdan yorulmamışam.
Yurdumun nazənin gözəllərinə
Şairtək baxmaqdan yorulmamışam.
Bütün yer üzünün millətlərini

Sülhə səsləməkdən yorulmamışam.
Qəlbimdə düşmənə əbədi nifrət,
Qisas bəsləməkdən, yorulmamışam.
Yaxşıya hörmətdən, pisə nifrətdən
Heç zaman, beç zaman yorulmamışam.
Gənclərlə qaynayıb-qarışmağımdan
Hələ mən Süleyman yorulmamışam.
İlham dəryasına təzə söz üçün
Hər gün tor atmaqdan yorulmamışam.
Nə qələm qocalıb, nə də ki, qəlbim,
Yazıb-yaratmaqdan yorulmamışam!

## HƏQİQƏTLƏ, MƏHƏBBƏTLƏ

Gəl təzə il, birgə gəzək anam Vətən torpağını.
Hər ilin öz gözəlliyi, hər ilin öz neməti var.
Bilirəm ki, mahnılara çevriləcək hər addımın,
Hər ilin öz qəhrəmanı, hər ilin öz hörməti var.

Qəlbimizin ləkə bilməz aynasıdır hər ilimiz.
Bizim könül arzumuzun mənasıdır hər ilimiz,
Hünərlərin, zəfərlərin dəryasıdır hər ilimiz.
Hər ilin öz təntənəsi, hər ilin öz qüdrəti var.

Hər ilimiz aşılmayan zirvələrdən verir soraq.
Hər ötən il olur bizim təzə ilə arxa-dayaq.
Bu vəhdətə heyran qalır, əhsən deyir yaxın-uzaq,
Bu ilin öz sıçrayışı, bu ilin öz vüsəti var.

Nələr yoxdur təzə gələn səadətlər ilimizdə,
Bu sarsılmaz, dərin köklü həqiqətlər ilimizdə.
El gücü var məhəbbətlə, sədaqətlə ilimizdə,
Hər ilin öz xəzinəsi, hər ilin öz sərvəti var.

Əzmimizlə can veririk ilimizin hər anına.
Dost elləri sesləyirik hünər, yarış meydanına.

Gül-çiçəkli alqış yağır qaliblərin ünvanına,
Hər ilin öz sürəti var, hər ilin öz hikməti var.

Sağ ol mənim köhnə ilim, yaşa mənim təzə ilim!
Əziz ana Vətənimi zəfərlərlə bəzə, ilim,
Görüm səni bu uğurda gəlməyəsən gözə, ilim,
İri mətin addımlar at, səndə gənclik cürəti var...

**ZƏMANƏT**

Cavan şair, sənə mən,
Tərəddüdsüz ürəkdən
Zəmanət verirəm ki, ömrünün kitabını -
Oxutdura biləsən ellərə varaq-varaq.
Zəmanət verirəm ki, eşqinin rübabını
Dinləsin yaxın-uzaq.
Şeir bağçan görməsin qansız xəzan yelləri,
Zəmanət verirəm ki, ürəyinin telləri
Atana bağlı olsun, babana bağlı olsun,
Elinə bağlı olsun, obana bağlı olsun.
Məhəbbətsiz keçməsin, gəncliyin - bahar çağın,
Beyninə yad fikirlər düşməsin bir an yaxın.
Addımla, yol açıqdır, üzün günəşə doğru
Gözün günəşə doğru.
Dənizlərə baş vurub dalğaları yaranda,
Təzəlik axtaranda,
Ey gələcək vurğunu
Unutma gəl sən bunu -
Nə vətənin köhnədir, nə də anan köhnədir.
O da, bu da səninçün əvəzsiz xəzinədir.
Sən təzəlik naminə yad ocağa vurma baş,
Nizamiyə atma daş.
Şairlər məclisində toy sənin şair səsin
Füzulini ağladıb, Vaqifi öldürməsin.
Göylərə uçsan belə,
Günəşi qucsan belə,

Ayağın bu müqəddəs torpaqdan ayrılmasın,
Əlin Xazər dalğalı bayraqdan ayrılmasın.
Qoy zəhmət ocaqları olsun hər zaman yerin,
Odlu qəlbində doğan alovlu sətirlərin,
Qara ürəklilərçün qara gülləyə dönsün.
Gözəl diləklilərçün qızılgüllərə dönsün.
Qısılma mənzilində bir divarın küncünə,
Şərik ol dünyamızın dərdinə, sevincinə.
Qoy ananın südüylə yoğrulsun şeirlərin,
Müəllimin bu eldir, məktəbin bu həyatdır.
İkisi də uçuşda sənə iki qanaddır.

Sənin zəmanətinə imzasını atanın, -
İllərlə yazıb pozan bu ağ saçlı atanın
Nələr görməyib gözü, nələr çəkməyib başı,
Sinə gərib həmişə bəlaya dərdə qarşı.
İndi növbə sənindir,
Bəli, şairlik kimi böyük rütbə sənindir.
Sənə məhəbbətlə mən zəmanət verirəm ki,
Zəmanətdə bir eybi gözün görməsin iki.
Həqiqətin gözü ol, Millətinin gözü ol.
Doğrult məhəbbətimi. Doğrult zəmanətimi!

## ABŞERON BAĞLARI

Abşeronu bəyənməyən adamlar
Məgər bilmir bu torpaqda nələr var?
Olmasa da sıx meşəli dağları,
Səfalıdır Abşeronun bağları.
Olmasa da bu yerdə buz bulaqlar.
Süfrəmizdən razı gedir qonaqlar.
Bu nemətlər yaranmayıb havadan,
Bu qocaman ağacları bir zaman

Məhəbbətlə əkib ulu babalar,
Qəhrəmandır bizim ellər, obalar.

Gün doğdumu Şüvəlanda yay çağı,
Təndir kimi qızdırdımı torpağı,
Dəli xəzri hal-küyünü kəsdimi,
On-on beş gün xoş gilavar əsdimi,
Yavaş-yavaş üzümlərə xal düşür,
Sarı əncir öz vaxtında yetişir.
Dəstə-dəstə qonaq gəlir hər bağa,
Torpaq oğlu qiymət verir torpağa.
Budur, yenə bağda əncir saralır,
Oğul-uşaq ağaclara yan alır;
İrisini səbət-səbət dərirlər,
Soyub bir-bir tikan üstə sərirlər.
Çox şirindir bu torpağınənciri,
Özü də ki, bizim bağın ənciri!
Çəkib yerin şirəsini canına,
Qan artırır yer oğlunun qanına.
Qış günündə piskəndəsi yeyilir,
Becərənə afərinlər deyilir.
Gəlin gedək əncir yeyək, uşaqlar,
Adam kimi əl eləyir budaqlar.
Bir az çörək, bir az pendir götürək,
Səhər-səhər ağac altda ötürək.
Gördünüzmü, nccə yerdir Abşeron,
Gəl-gəl deyir sizə bir-bir Abşeron!
Har ayaqda odur mənim həyanım,
Torpağına qurban olsun bu canım!

## TƏBİƏTİN ƏTRİ

Günəşdən tez oyanıb gəzirəm öz bağımda,
Nələr, nələr bitməyir bu ana torpağımda!
Ağaclar min dil töküb sanki mənə gəl, deyir,
Gəl, gəl, olmasın bizə ot-alaq əngəl, deyir.

Parlayır incələrtək şeh çiçəklərin üstdə,
Deyirəm ki, tapılmaz bir bağban mən həvəsdə.
Əkdiyim hər fidançın gedib əldən, ayaqdan,
Canını bağ-bostanın qurtarıram alaqdan.
Qarşılayıb əməklə gələn xoş baharı mən.
Suvarıram həvəslə körpa ağacları mən,
Gözəl bir vərdiş hanı mənim bu vərdişimdən,
Arada yorulantək ayrılaram işimdən,
Oturub bir daş üstdə nəfəs alıram dərin,
Gəlir əlimdən ətri otların, çiçəklərin!..

## XƏZƏR VƏ DURNALAR

Üzürəm mən yelkənimlə yenə Xəzər sularında.
Bahar ətri gəlir mənə pıçıldaşan ləpələrdən.
Şəhərim sülh qalasıdır qəhrəmanlar diyarında,
Təbəssümü öyrənmişdir süd dodaqlı körpələrdən.
Şair, könül salamlayır ilk baharı,
Əl eləyir mənə dəniz buruqları.
Aləmi var bu səhərin,
Qəlbim atəş, sular sərin,
Görürəm mən,
Başım üstdən
Durnaların qatarıdır uçub gedən,
Lənkərandan uzaqlara köçüb gedən.
Onlar mənə tanış gəlir,
Seyr etdikcə göz dincəlir.
Səsləndikcə durnaların qaqqıltısı qulağımda,
Bir mahnının ilk sözləri qönçələnir dodağımda.
Sağım dəniz, solum dəniz,
Önüm dəniz, yolum dəniz.
Fərəhimdən başım dəyir göylərə
Nahaq yerə çıxmamışam səfərə.
İlhamıma qanad verən Xəzər kimi dənizim var,
Cibimdə nə qələmim var, nə bir parça kağızım var,
Bəs nə edim? Gördüyümü nəylə yazım, hara yazım?

Durnaların qulağına çatdı yəqin bu avazım.
Onlar mənə mavi göydən lələk atdı dənizə.
Kim inanmaz bu sözə!
İftixarla, məhəbbətlə,
Qəlbimdəki hərarətlə,
Canlı mavi dəftərimin -
Sinəsinə Xəzərimin.
Bircə anda şeir yazdım lələyilə durnaların,
Bahar mahnım tamamlandı köməyilə durnaların.

## ABŞERON LÖVHƏLƏRİNDƏN

Bahar kimi gözəl olur Abşeronda payız da,
Hünərin var onu bundan, bunu ondan gəl ayır.
Məhəbbətlə seyrə dalıb görürəm ki, payızda
Körpələrtək Xəzər bir az dəcəlliyə başlayır.

Göy sularda qağayıtək üzür şeir yelkənim,
Odur, mənə el eləyir dənizdəki buruqlar.
Uşaqlıqdan Xəzərimlə möhkəm şərlim var mənim;
Bu səbəbdən bədənimə kar etməyir soyuqlar.

Ağ yelkənim şütüdükcə, mənim şair gözümə
Neft daşlan bu möbləşəm qala kimi görünür.
Qüvvət gəlir biləyimə, qüvvət gəlir dizimə,
Misralarım yelkənimin arxasınca sürünür.

Deyirlər ki, bu şəhərdən həddindən çox yazırsan,
Mənə xeyli yersiz gəlir dostlarımın sərgisi,
Şöhrətimdir şəhərimin bağrındakı qara qan,
Şeriyyətdir Abşeronun könül açan sərgisi.

Bu şairi bu səfərdə nahaq yerə yormayın,
Şöhrətindən ayrı deyil Abşeronun şöhrəti.
"Gəzintiyə ixtiyarın varmı?" deyə sormayın,
Dalğaların qoynundadır vəsiqəmin surəti.

Deyirəm ki, zənginlərin zənginiyəm bu saat,
Bu suların dibindədir qara qızıl xəzinəm.
Gözlərimdə ucaldıqca al bayraqlı bu həyat,
Dinclik nədir, gəzindikcə istəyirəm gəzinəm.

Durnaların qaqqıltısı eşidilir havada,
Ağır-ağır qanad çalıb başım üstdən uçurlar.
Deyirəm ki, xoşbəxtlərin xoşbəxtiyəm dünyada
Durnalarım lələk salıb başım üstdən uçurlar.

Gözəllikdən vəcdə gələn bu şairin əlləri
Ciblərində qələmini, kağızını arayır.
Xəzər üstdən mahnılarla əsən xəzri yelləri
Məhəbbətlə Abşeronun saçlarını darayır.

**ŞÜVƏLANDA**

Yenə saymazyana qırmaclayaraq Abşeronu
Sovurur xəzri narın qumları hiddətlə, budur,
Mən bacarsaydım əgər yaxşı cilovlardım onu...
Baxmayın hop-gopuna, ömrü bitibdir, sonudur.
Sonudur qış gününün, toplayaraq var gücünü
Nə yaman xəzri əsir, açmağa göz vermir aman,
Günəşin üstünə boz pərdə çöl ilmiş tozdan,
Xəzri öz zərbəsini get-gedə saldıqca işə.
Əyilib körpə ağaclar sədəqəyçin günəşə,

Ehtiyat eyləyərək, doğrusu, pozğun havadan
Yemə möhtac ana quşlar belə uçmur yuvadan.
Telqraf telləri bir dərdli kamandır elə bil,
İnləyir, çünki bu çarpışmaya biganə deyil.
Təpəciklərdəki qumlar yenidən halqa vurur,
Xazərin dalğaları sahilə min damğa vurur.
Orda, heyhat, nə gəzən var, nə çimən,
Nə də quşlar kimi asudə süzən bir yelkən,
Dalğalar dalğaların boynuna mindikcə coşur,
Qızmış aslan şığıyıb sanki ov ardınca qoşur.

Nə bilən var dilini,
Nə qıran var belini.
Xəzərin sahilinə xəzri qoşunlar yeridir,
Titrəyir qumların üstündə səhərdən bəridir;
Şüvəlan bağlarının körpə, cavan meynələri,
Qoymayır onları rahat, soyuğun iynələri.
Necə dözsün buna nazəndə çiçəklər, güllər?
Alıb öz ağzına dərd səmti qudurğan yellər.
Yox, bizim bağlarımız bunlara öyrəncəlidir,
Dözəcək yellərə, tufanlara öyrəncəlidir,
Yerə göydən qara bir qarğa kimi endi gecə,
Şüvəlan bağlarına qondu gecə.
Kəsməyib xəzri hələ, ac canavartək ulayır,
Qocaman, canlı ağaclarsa ona baş bulayır.
Nə gələn var, nə gedən var bu tanış yollarda,
Bu geniş yollarda.
Atılıb son döyüşə, nərə çəkir bir də Xəzər,
Sarsılır çərçivəsindən qapılar, pəncərələr.
Bənzəyir göydə süzən ay o buludlarda yenə
Can verən bir balığın gözlərinə,
Az keçir, göy qaralır, yer ağarır.
Bağların bağrını bir qorxu yarır.
Bu nə işidir? Belə şey görməmişəm ömrümdə,
(Dostu əsla ayağa verməmişəm ömrümdə).
Hardasan, gəl, a bahar, sən ki, deyilsən xəstə,
Qar yağır, quşbaşı qar incə çiçəklər üstə.
Gəl, qışın, son günüdür,
O, sənin üstünə gəlmiş günüdür,
GÜL bahar, doğma yuvandan onu qov,
Durna, dilbər Şüvəlandan onu qov!
Gəl, əzizim ki, sənin xoş qədəmin yüngüldür.
Nəfəsin məncə çiçəkdir, güldür.
Gəl, bahar, gəl, özünü cəbhədə zənn eyləmə tək,
Durmuşam burda dünəndən qayatək.
Tut əlimdən, ayağım yerdən üzülməz, dostum,
Ürəyimdən qışın imzasını sənsiz pozdum.
Eşidib şairi şux, nazli bahar,

O xoş avazlı, qızılsazlı bahar –
Yuxusundan ayılır şir kimi qalxır ayağa,
Çəkib öz ordusunu qışda olur əlbəyaxa,
Gecədən xeyli keçib, sübhə yaxındır artıq,
Ey könül, dinlə, bahar öz qonağındı artıq.
Görünür dan yeri qıpqırmızı qan rəngində
Bir sevinc hiss olunur quşların ahəngində.
Gəzişir sevgili canan günəşin altında,
Tapır, öz bəxtini insan günəşin altında.

## QIZILGÜLLƏR

*Gənclik illərinda may ayında Göyçaya getmişdim. O zaman gördüyüm mənzərəni bu gün bete qələmə aidım.*

Qəribədir bu Göyçay,
Yoxdur ona muncə tay.
Qızılgül mənasinda,
Qızılgül dünyasmda,
Qızılgüldür bayrağı,
Baharın oğian çağı
Mahnı deyib doyunca,
Çayın sahil boyunca
Gözlərində ilk bahar
Gəzir oğlanlar, qızlar.
Əllərində qızılgül,
Dillərində qızılgül,
Seyr ediram hər yanı,
Üst-başda boş yer hanı –
Döşlərİndə qızılgül,
Başlannda qızilgül,
Hamının paltarının
Ciblərində qızılgül,
Hətta qulaqlarının
Diblərində qızılgül.

Səsində, nəfəsində,
Məhəbbət nəğməsində,
Ətir saçan qızılgül,
Könül açan qızılgül.
Yaşlıların qar kimi
Saçlannda qızılgül.
Mübaliğə deyil bu
Qaşlarında qızılgül.
Yerişlərin özündə,
Görüşlərin özündə,
Dodaqlarda qızılgül,
Yanaqlarda qızılgül.
Körpətək tutub ayaq
Yaman gəzir qızılgül.
Sulara baş vuraraq
Çayda üzür qızılgül.
Gəzirəm çəmənliyi,
Seyr edirəm şənliyi,
Heyranam bu işlərə
Çəkilibdir şişlərə
Ətlə birgə qızılgül,
Cərgə-cərgə qızılgül.
Kabablar da gül dadır,
Şərablar da gül dadır.
Bu sevdiyim şəhərdə
Görərsiniz evlərdə,
Eşiklərdə qızılgül.
Beşiklərdə qızılgül.
Göydən elə bilirsən
Qızılgül yağıb yerə.
Qızılgül nəfəsilə
Dolub bütün bağ-dərə.
Sözümə inanmayan,
Gözümə inanmayan,
Uçsun demirəm ki, mən
Günə, ulduza, aya.
Qoy tərpənib yerindən
Səfər etsin Göyçaya!..

## ANAM TORPAQ

Ürəyimdə gəzdirirəm doğma anam torpağı,
Babalardan yadigardır hər gülşəni, hər bağı.
Mən torpaqdan yaranmışam, torpaq məndən yaranıb,
Mənə vətən yaranıb.
Milyon-milyon məhəbbətlər yatır torpaq altında,
Məhəbbətlər, xoş söhbətlər yatır torpaq altında.
Tarix bilir nələr, kimlər qanışıb bu torpağa,
Milyon-milyon təbəssümlər qarışıb bu torpağa.
Torpaq altda vaxtlı, vaxtsız yatanlan anıram,
Özümü də bu torpağa bir namizəd sanıram.
Sanıram ki, yer üzünə işıq salan ulduzlar,
Köçüb getmiş dühaların qocalmayan sözüdür.
Gecələri dünyamızı scyrə dalan ulduzlar
Torpaq altda yatanlaın göylərdəki gözüdür.

## MEHDİNİ YAD ETDİM

*Sovet İttifaqı Qəhrəmanı*
*Mehdi Hüseynzadənin xatirəsinə*

Mən səni çox görmüşəm cavanlıq çağlarında
Abşeronun gözəli Novxanı bağlarında.
Göbəyindən bal daman əncirindən heç olmaz,
Üzümündən dadmasan kefin əla, boş olmaz.
Uşaqlığın bu yerdə xeyli maraqlı keçdi,
Ellərə bağlı keçdi, vətənə bağlı keçdi.
Oynardın, güləşərdin mirvari qumlar üstə,
Qəşəngdi dostların da sən yaşda, sən həvəsdə.
Baxışların aydındı günəşli səhər kimi,
Könlündəki arzular coşqundu Xəzər kimi.
Qaçmazdı hər addımın cüt bacının gözündən,
Zərrə incitməmişdin bir kimsəni özündən.
Rəssamlığın da vardı, şairliyin də vardı,
Qələınin də, fırçan da, ətirli ilk bahardı.

Böyüdün, yaşa doldun, İgid bir oğlan oldun.
Vətənin dar günündə atıldın ön səngərə,
Yaralar aldınsa da sarsilmadın bir kərə.
Vələn məhəbbətilə verdin sözü süngünə.
Ellər dəyişməz sənin bir gününü min günə.
Qəlbində bir yetimtək qoymadın öz kamımı,
Günahsız qurbanların aldın intiqamını.
Heyhat! Canım-ciyərim, qürbətdə düşdün dara,
Diri təslim olmadın şərəfsiz cəlladlara!
Rəng aldı al qanından arzunun çiçəkləri,
Yumulan gözlərində doğma vətən göyləri...
Dərdli cəbhə dostların bir təpənin başında
Ah, səni tapşırdılar torpağa gənc yaşında.
Adam var ki, həyatda ömr edir ölülərtək,
Adam da var, sənintək heç zaman ölməyəcək!
Bilir el, bilir vətən
Ölümünlə əbədi həyat qazanmısan sən.
Səni bizdən ayıran yollar uzaq olsa da,
Milyon-milyon könüllər aşaraq sərhədləri,
Gəlir ziyarətinə, öpür yatdığın yeri.
Uzaq, qürbət ölkədə olsa da aşiyanın
Səni gündə min kərə öpür Azərbaycanın!

## QƏLBİNDƏ MƏHƏBBƏT

*Dostum Arifə*

Arif, deyirəm gör əziz illər necə keçdi, -
Ağ gün bizə qaldı, qara gün heçliyə köçdü.
Al bayrağın altında gəlib vəcdə, yaratdıq,
Bir cəbhədə, bir yerdə döyüşlərdə boy atdıq,
Ustün tutaraq zəhməti can dincliyimizdən,
Bir yol demədik: "Getdi, heyif gəncliyimizdən!
Rahət yola sal yetmişi, heç qəm yemə, dostum,
Yüz il də gəlib ötsə - "qocaldım"' demə, dostum,

Arif, səni xoşbəxt yaşadan xoş əməlindir,
Fəxr et, bu müqəddəm ana torpaq təməlindir,
Yollarda, bilir el, nə yoruldun, nə də azdın,
Tənqidini arif kimi, şair kimi yazdın.
Sərt olsa da, biz incimədik doğru sözündən,
Tənqidə dözümsüzlərimiz küssün özündən!

Ey alnıaçıq, ey üzüağ, ey nəcib insan! –
Qəlbində nə varsa, duyuram mən baxışından.
Arif, nə utanmaq, bizə səs ver, bunu istə:
Bir yetmişi də gəl təzədən yetmişin üstə!
Yaz, yurduna, mərd xalqına qəlbində məhəbbət,
Yaz, yaz ki, gözəl mahnıya dönsün bu həqiqət.

## BƏSTƏKARIN EVİNDƏ

*Cahangir Cahangirova*

Bəstəkar dost, dünən məni dəvət etdin evinə,
Düz sözümdür, gəldim sizə mən sevinə-sevinə.
Heç özüm də bilmirəm bu nə hikmətdir, nə sirdir,
Mənim könlüm musiqiyə körpəlikdən əsirdir.
Bu otaqda səndən, məndən, bir də babam Füzuli,
(Ayrılıqdan tıtulmuşdu dərdə babam Füzuli).
Oturmuşdu xeyli dalğın utağın bir küncündə,
Düşüncələr içində.
Ustadımı sən dindirmək istədin,
Sevindirmək istədin.
Barmaqların pianonun dillərində oynadı,
Sənə qanım qaynadı.
Musiqiylə həmahəngdi Füzulinin qəzəli,
Göz önümdə gəlib durdu ustadımın gözəli.
Füzuliydi bu axşamkı candan əziz qonağın,
Onun şair nəfəsiylə ətirləndi otağın.
Məclisinda birdən-birə bir gözəl də göründü,
Füzulinin gözlərinin pərdəsinə büründü.
Məhəbbətə pıçıldadı dodaqlar...

Pianonun dillərindən ayrılmadı barmaqlar,
Sən çaldıqca küsülülər, həsrətlilər barışdı,
Dördümüzün göz yaşları bir-birinə qarışdı.
Sən çaldıqca, Füzulinin rəngi gəldi özünə,
İlk dəfəydi bu nakamın bəxti güldü üzünə.
Sən tapmışdın ustadımın dilini,
Üçümüz də sıxdıq sənin əlini.
Dördümüz də birgə çıxdıq mənzilindən küçəyə,
Füzulinin şair gözü günəş oldu gecəyə,
Şairimiz yüz illərdə həsrətini çəkdiyi,
Gecə-gündüz gözlərindən hicrində yaş tökdüyü
Öz əvəzsiz dilbəriylə qol-qolaydı bu gecə.
Alnıaçıq Füzulinin,
Eşqə sadiq Füzulinin
Hicran yollu bir səfərdən gəldiyini eşidib,
Artıq qara, gəc bəxtinin güldüyünü eşidib
Sevişənlər axın-axın küçələrə çıxdılar,
Dönə-dönə ustadımın əllərini sıxdılar.
Bütün şəhər gözəllərlə bəzəndi,
Qəzəllərlə bəzəndi,
Milyon-milyon pəncərədən güllər yağdı başına,
Şəhərimin gözəlləri çələng taxdı başına.
Şair babam bu torpaqda xitam verdi fəryada,
Məhəbbətlə seyrə dalıb gülşən gördü hər yanı.
Onu görmək istəyənlər getməsinlər Bağdada,
Mənim şair ürəyimdir Füzulinin ünvanı!

**SONBEŞİK**

*Əlağa Vahidin xatirəsinə*

Baharda demirəm, payızda, qışda,
Xəzrili şəhərdə, qarda, yağışda,
Qalın dodağında qartmaqlı qəlyan,
Başının üstündə tüstüdən duman,
Əynində bozarmış bir nimdaş palto.

Qara çəkməsinin dabanı əyri,
Qəzəl aləmində xəyalı, fikri
Xəlvət küçələrlə yol gedərdi o.
Gənclik illərinin bahar çağında,
Növbayə durduqca söz dodağında
Meyxana deyərdi meyxanalarda,
Bizi güldürərdi toyxanalarda.
Öz titrək səsiylə qəzəl deyərdi,
Böyük Füzulidən, Seyid Əzimdən.
Bilsəniz nə qədər gözəl deyərdi
Onu məbəbbətlə dinləyərdim mən.
Həyatda çatmırdı yalnız bir şeyi,
Nə tütündən doydu, nə meydən doydu.
Ömrünü azaldan zəhrimar meyi
Özgəyə qıymadı, özünə qıydı;
Bir şeir eşqiylə yanarkən ürək,
Onu xatırladım bu axşam yenə.
Nə qədər içdiyi nəyimə gərək,
Nə qədər yazdığı gərəkdir mənə.
Nəfəs dərə-dərə danışdıqca o,
Ürəkdən odlanıb alışdıqca o,
Kağızlar üstündə gəzərdi qələm, -
Dəryada yelkəntək üzərdi qələm,
Masazır kəndindən gələn bir uşaq,
Bakıda qocaman şairə döndü.
Öz qəzəl mülkündə yandırdı çıraq,
Gecənin zülməti gözündə söndü.
Sinəsi söz dolu bu vətən oğlu
Sevgi aləmində axtardı gövhər.
Gördüm üzügülər onu hər zaman,
Görmədim hayatda usandığını.
Toz kimi havaya sovurdu yaman
Uzun illərboyu qazandığını.
Başında təzə bir eşqin sevdası,
Gözəllər yolunda ağartdı yolu.
Qəlbində qəzəlin, şerin mayası,

Cibindı beş qəpik tramvay pulu.
Qolunda bir gözəl görən olmadı,
Lakin gözəllərə yazdı min qəzəl.
Dünyanın dərdini vecə almadı,
Çirkin də gözünə göründü gözəl.
Yaşadı xəbərsiz şandan, şöhrətdən,
Qaçdı dəbdəbədən, qaçdı qeybətdən.
Onun öz nəfəsi, öz səsi vardı,
Özünə bənzəyən nəğməsi vardı.
Şeri nasiranə olmasın deyə,
Nə roman oxudu, nə də hekayə.
Gəzdi bu torpaqda, gəzdi Təbrizdə,
Səslədi ayüzlü şux nigarını,
Yox, ögey bilmədik ailəmizdə
Keçən əsrimizin yadigarını.
Bir üzdə göründü qışda, baharda,
Qələmsiz qalmadı titrəyən əli.
Bilməyən varmıdır, toyda, mağarda
Oxundu əlli il şeri, qəzəli.
Elə ki əllini adladı yaşı,
Qoca Savalantək ağardı başı.
Adını çəkdilər hər yerdə təkrar,
Özünü məclisə çağırmadılar.
O bunu dərd edib gileylənmədi,
Öz qəzəl taxtından yerə enmədi.
Bir gün gözlərini yumdu həyata,
Hami rəhmət dedi bu əziz ada.
Toyxana, meyxana qaldı Vahidsiz,
Dostlar yana-yana qaldı Vahidsiz.
Onu apardılar Dağüstü bağa,
Orda düzəltdilər ev-eşiyini,
Öpüb tapşırdılar ana torpağa
Qəzəl dünyamızın sonbeşiyini.

## QARDAŞ MƏZARI

*Qardaşım Rəsula*

Bahar hədiyyəmiz - xonça, səməni,
Qardaş, ziyarətə gəlmişdik səni.
Səni bu dünyaya gətirən anan,
Böyüdüb sonradan itirən anan
Yandırdı qəbrinin üstündə ağ şam,
Bayram axşamıydı bu gözəl axşam.
Ağlayan ağladı, boşaldı ürək
Çiçəklər üstünə səpildi çiçək.
Hərə öz evinə tələsdi yenə,
Qalmadı bir nəfər qohum, əqrəba.
Qəbirlər pərişan göründü mənə,
Şamlar bir-bir söndü göz qırpa-qırpa.
Uzandı kölgəsi yaşıl şamların,
Gün batdı üfüqdə izi qalmadı.
Qəbirlər üstündə yanan şamların
Ömrü bir saatdan uzun olmadı.
Bir təntənə vardı bu yerdə bayaq,
Bu qəmli yollardan kəsildi ayaq.
Çapdı altındakı atı qaranlıq,
Çökdü qabristana qatı qaranlıq.
Ey torpaq allında yatan əzizlər,
Əcəl şərbətini dadan əzizlər.
Sağtar hörmətini bildirib sizə,
Özünü bu gündə bura yetirdi.
Sizin bu əbədi mənzilinizə,
Bir neçə saatlıq bahar gətirdi.
Ağladım, qalmadı gözlərimdə yaş.
De, bunu duydunmu mənzilində sən!
Yanından getmədim bu gecə, qardaş,
Danışdım, sübhədək başdaşınla mən.

# LEYLAMIZ

*Leyla Bədirbəyli*

İncə qəlbində böyük dünyası var Leylamızın.
Bu vətən mülkündə öz mənası var Leylamızın.
Yaxşı sənətkar kimi şöhrət gətirmiş sənətə,
Səhnətək bir dalğalı dəryası var Leylamızın.
Bir baxın diqqətlə siz can verdiyi surətlərə,
Səhnədə öz səsi, öz imzası var Leylamızın.
Solmayan min bir gözəllikdən yaranmış varlığı,
Dan yerindən rəng alan siması var Leylamızın.
Səhnənin leylası olmaq istəyənlər az deyil,
Məncə təkrarsız, gözəl avazı var Leylamızın.
Nəğməsindən bilmişəm eldir, vətəndir sevdiyi.
Cümləmin altında öz imzası var Leylamızın.

## DOSTUM, BİLİRSƏNMİ?!

Dostum Səməd Vurğunun 50 illiyinə
Çox adamlar pərt olur yaşdan söhbət düşəndə.
Azaldır öz yaşını on ya da ki, on beş il.
Dostlar bilir ki, bundan qorxmuruq sən də, mən də,
Çünki şair tayfası yaşlı qocalan deyil.
Adam da var sifətindən lap uşağa bənzəyir.
Həyat onun gözündə oyuncağa bənzəyir.
Yeyib-içir, kökəlir, qurur öz dünyasını,
Yalnız bunda görür o, ömrünün mənasını.
Lakin baxıb görürsən baharını alıb qış,
Ürəyisə özündən yüz il əvvəl qocalmış.
Əllisə də yaşımız bunu dərd etməyək heç,
Anamız təbiətin ziddinə gəlməyək heç.
Nə eybi var şairin əlli, yüz yaşı olsun.
Şərt odur ki, düşünən, ağıllı başı olsun...
Şeir məclislərində oldu sinəmiz kitab

Aradıq hər kəlmədə, hər sözdə bir inqilab.
Dərələr, dağlar aşdıq, gah küsdük, gah barışdıq,
Böyük günlər eşqinə yazıb-pozduq, yarışdıq.
İlk gənclik çağımızda Ürək ocağımızda
Sözləri dəmir kimi qızdıraraq əritdik,
Ömrün xoş günlərini varaq-varaq əritdik.
Şeir, sənət mülkünü yenidən qurmaq üçün,
Bizə xor baxanların köksündən vurmaq üçün,
Əridib qəlbimizi tökdük kağızlar üstə,
Vətən, dost ellərə can dedik, hər nəfəsdə...
Şairtək çəkdi dövran bizi, hey bərkə-boşa,
Altında al bayrağın atıd içib durduq qoşa.
Uymadıq şan-şöhrətə, mənasız bəzəklərə,
Şeir bulaqlarından yol açdıq ürəklərə.
Vətənin dar günündə səfərbər əsgər olduq,
Məşəqqətli yollarda nə bezdik, nə yorulduq.
Yox, bizi sarsıtmadı, qorxutmadı vuruşlar,
Əziz bir xatirədir alnımızda qırışlar.
Dostum! Sənin həyatın xeyli mənalı keçdi.
Şeirlərin xalqının ürəyindən su içdi.
Mən döyüş meydanında mərd tanıyıram səni,
Yox, yox, qocaltmayacaq o coşqun ilham səni.
Həyatında görmüsən həyatın hər üzünü,
Qaranlıq aləmini, günəşli gündüzünü.
Döyüşkən şair kimi sınaqlardan çıxmısan.
Tükənməz zəfərlərin dost əlini sıxmısan.
Sinəni çox gərmisən amansız dalğalara,
Şair dostum, qəm yemə, sən hara, dərd-qəm hara!
Polad bir dağtək dayan imtahan ayağında,
Gül kimi qönçələnsin nəğmələr dodağında.
Bu gün tamamlayırsan son öz əlli yaşını.
Vətən "var ol" söyləyib sığallayır başını.
Hələ indi çatırsan ömrün qaynar çağma,
Şairlər qonaq gəlib sənin şeir bağına.
Sənətin keşiyində dostum, ayıq, sayıq dur,
Sinəndə partiyalı böyük bir ürək vurar!

**SAĞ OL, MÜƏLLİMİM SÜLEYMAN SANİ**

Məktəb illərində müəllimimiz
Tək müəllim deyil, ataydı, ata.
Adı Süleymandı; o illərdə biz
Ümid bağlamışdıq bu böyük ada.

0 qədər sevimli, o qədər əziz,
O qədər mülayim bir insandı ki...
Ürəyi, diləyi, vicdanı təmiz,
O qədər, o qədər mehribandı ki.

O qara illərdə düşdükmü dara,
Müəllim! Sən bizə havadar oldun.
Sabahı düşündün, bağrında yara,
Vətənə, millətə vəfadar oldun.

Yaxşı yadımdadır bu günə qədər
"Qorxulu nağıllar", qorxulu illər.
Yaxşı ki, o illər düşdü dərbədər,
Gəldi dünyamıza uğurlu illər.

Qasım İsmayılov küçəsindəki
Məktəbin şagirdi şairdir indi,
Qəlbinin ən dərin guşəsindəki
Qoşmadır, nəğmədir, şeirdir indi.

O qanlı illərdə məhəbbətlə sən,
Bizə nişan verdin bu gülüstanı.
Deyirəm ürəkdən, var səsimlə mən –
Sağ ol müəllimim Süleyman Sani!

**ANA**

*Əzizə Cəfərzadəyə*

Ey könül, nəğməmizin ilk sözü - fəxr et, anadır,
Yerlərə, göylərə, tarixlərə şöhrət anadır.
Anadan əmdiyimiz saf südə and olsun ki,
Gözümə sönməz işıq, qəlbimə qüvvət anadır.
Anamın incə, şirin laylasına qurban olum,
Yer üzündə əbədi, ülvi məhəbbət anadır.
Cana gəlməz yeni dünyaya gələnlər anası.
Körpələrçin anadır dövlət, hökumət, anadır.
Məncə, qeyrətli qıza, mərd oğula alnı açıq –
Keçdiyi nəğməli yollarda səadət anadır.
Ey Süleyman, anadan yaz, anadan yaz, anadan,
Vətənə, millətə, dünyamıza şöhrət anadır.

**TAPIBDIR**

*Dostum Osman Sarıvəllinin Almaniya səfəri*

Leypsiq yarmarkasında qazaxlı dostum Osman
Aşıq Ələsgərimin papağını tapıbdır.
Nənəsinin evindən oğurlanmış qazanın,
Düşüb əldən-ayaqdan qapağını tapıbdır.
Nəbinin can sirdaşı igid Həcər xanımın,
Oxloyunu axtarıb, tabağını tapıbdır.
Şeri dillər əzbəri gözəl aşıq Pərinin
Dişləri sağ-salamat darağını tapıbdır.
Kahaların birində Adəm əleyhissalamın
Çarığını, üstəlik dolağını tapıbdır.
Hamımızın nənəsi Həvva həzrətlərinin
İynəsini, sapını, oymağını tapıbdır.
Leypsiq meyxanəsində Masazırlı Vahidin
Cibindən yoxa çıxmış arağını tapıbdır.
Qoç Koroğlunun deyil, qoçaq Hacı Qaranın,
Patronları cağbacağ yarağını tapıbdır.

Almaniya torpağında dədəsi Abdullanın
Qoyun-quzuya həsrət çomağını tapıbdır.
Yazıq aşıq Pənahın, Osmanla davasında
Parçalanmış sazını, çanağını tapıbdır.
Alman Bodenştedtin mətbəxinin küncündə
Şair Mirzə Şəfinin başmağını tapıbdır.
Vətənə tezdən də tez çatmaqçın Nəsrəddinin
Təyyarədən sürətli ulağını tapıbdır.

## NİZAMİ

Öz Gəncəsinə baxdı məhəbbətlə Nizami,
Baş əydi əziz xalqına hörmətlə Nizami.
Hər kəlməsi, hər cümləsi bir canlı xəzinə,
Təkdir bütün aləmdə bu sərvətlə Nizami.
Yağdırdı dilindən od, alov zülmətə qarşı.
Dilbir yaşadı haqla, ədalətlə Nizami.
Dür saçdı sözündən bu yer oğlu, ulu insan,
Ustaddır, ekizdir əbədiyyətlə Nizami.
Dünyada onun şeri, sözü bilmədi sərhəd,
Son mənzilə də köçdü bu şöhrətlə Nizami.
Qoy gəncəlilər, Gəncə sevinsin ki, bu yerdə
Söz qoşdu, qələm çaldı cəsarətlə Nizami
Aydan da, günəşdən də uzun ömr edəcəkdir,
Qəlbindəki atəşlə, hərarətlə Nizami.

## SONAMIZ

*Şerlərimin ilk oxucusu makinaçı bacım Sonaya*

Bizi bizdən də gözəl sən tanıyırsan, Sonamız,
Üzü ağ, alnı açıq, ey nəcib insan, Sonamız!

Bu böyük ailədə keçdi bahar çağlarınız,
Qəlbinizdən demirəm köçdü bahar çağlarınız.

Verdi can kəlmələrə, sözlərə barmaqlarınız
Hamımızçün çox əzizsən, çox əzizsən Sonamız,
Bilməyən yox bunu, vicdanı təmizsən Sonamız!

Bilirəm mən, xoşuna gəlmir ürəksiz yazılar,
Qanı buzdan da soyuq, xalqa gərəksiz yazılar.
Vətən övladına dar gündə köməksiz yazılar Bax,
bununçün edirəm mən sənə hörmət Sonamız.
Qoy var olsun deyirəm səndə bu cürət Sonamız!

Sən vurursan görürəm günləri zəhmətlə başa,
Dəyməsin ömrünün ağ yelkəni ümmanda daşa.
Yaşa xoş günlərimizçün, vətən eşqinlə yaşa
Çəkməsin üstünə öz ordusunu qəm, Sonamız.
Görməsin gözlərin ömrün boyu şəbnəm, Sonamız!

## ŞÖHRƏT

Dünyamızda nə qansız, nə nadan şöhrət tapar,
Nə tüfeyli, nə yaltaq, nə filan şöhrət tapar.

Zəhməti, məbəbbəti vətənə rövnəq verən
Könlü arzular dolu mərd insan şöhrət tapar.

Darda vətən yolunda, şirin canından keçən
Alnı açıq, üzü ağ qəhrəman şöhrət tapar.

Kim ki andını pozmaz, süngülər arasında
Adı olar dillərdə bir dastan, şöhrət tapar.

Nə dükanda satılır şöhrət, nə də bazarda,
Millətinin qəlbinə yol tapan şöhrət tapar.

Yarı yolda qalmasa, qələmi kütləşməsə
Mahnısı al bayraqlı Süleyman şöhrət tapar.

## TORPAQ VƏ MƏHƏBBƏT

Ağcalarım verib yenə baş-başa,
Bağım-bağçam tamaşadır tamaşa.
Budur, məni salamlayır budaqlar,
Məhəbbətlə pıçıldayır yarpaqlar.

Mən məhəbbət yetirməsəm torpağa
Torpaq mənə gözəl bəhrə verərmi?!
Oğlum, qızım əl uzadıb budağa
İstədiyi meyvələri dərərmi?

Zövq alıram bağban kimi əməkdən,
Mən bilirəm hər meynəmin qədrini.
Balam kimi bəsləməsəm ürəkdən
Üzümlərim itirər öz ətrini.

Bitkilərə cansız demək düz deyil,
Yox, canlıdır meynə, ağac, gül, çiçək.
Hər meynənin çubuqları elə bil
İməkləyir qumlar üstə körpətək.

Mən kəsməsəm alaqların kökünü
Küsər məndən yəqin güllər, çiçəklər.
Dağıtmasam buludların yükünü,
Şitillərə divan tutar küləklər.

Gəl, gəl, deyir bağımdakı ağaclar,
Əncirlərin göbəyindən bal damır,
Meynələrdə daha başqa aləm var,
Salxımların bəbəyindən bal damır.

Qonaq gəlir mənə dostum, tay-tuşum,
Bu torpağa bir bəzəkdir hərəsi.
Meynəmizdən quşlara da pay düşür,
Bu nemətin mahnı olur əvəzi.

Dostlar, gəlin çıxmayın bu sözümdən,
Gəlin büllur salxımlara dəyməyək.
Gəlin, şərab düzəltməyək üzümdən,
Şirəsini şüşələrə tökməyək.

Meynələrin bəhrəsini turşudub
Nə babamız, nə nənəmiz içibdir.
Məclislardə çöhrəsini turşudub
Nə atamız, nə anamız içibdir.

Şənliklərdə şirin-şirin, səmimi
Deyib gülə bilmərikmi şərabsız?!
Yəqin baqlı sual kimi, söz kimi
Bu sualım qalacaqdır cavabsız.

## AĞACLARIN DƏRDİ

Bu axşam sahildəyəm, gəzirəm ağır-ağır,
Dinib payız dilində şıdırğı yağış yağır.
Hələ qabaqda qış var,
Bolluca qar-yağış var.
Qatar-qatar buludlar pərdə çəkəcək göyə,
Qışımız keçəcəkdir geyimsiz, çılpaq deyə
Məni yoldan eləyib saxlayır bu ağaclar,
Yarpaqlardan yaş töküb ağlayır bu ağaclar.
Dözünüz, ağaclarım, dözünüz, ağaclarım,
Uzun sürməz, bağlanar yağışın, qarın yolu.
Çox gözəl bilirsiniz özünüz, ağacların,
Açılır mahnılarla gec-tez baharın yolu.
Yüz bahar ötürmüşəm, artıq yaşa dolmuşam,
Hesabsız şənliklərin ağsaqqalı olmuşam.
Kaş ki, gənclik baharım gələydi sizinki tək,
Ömrümün payızında güləydi sizinki tək!

## ÖMÜR KİTABIMDAN BİR YARPAQ

Şəhərdən əl-ayaq çəkilən zaman
Gəzməyə səsləyir küçələr məni.
Çox gözəl tanıyır bir sirdaş kimi
Gündüzdən seçilməz gecələr məni.

Yazıb yaratmaqdır eşqim, əməlim,
Ayrılmır kağızdan, qələmdən əlim.
Şerdir, mahnıdır bu gəlhagəlim,
Bilirəm yazmamaq heç elər məni.

Baxıram ömrümün kitabına mən,
Güvənib könlümün rübabına mən
Yuxusuz gecələr hesabına mən
Qoymaram dostlarım keçələr məni.

Manqalı tüstülü bulaq başında,
Qazanı qaynayan ocaq başında,
Həm dəzgah başında, həm dağ başında
Eşidir cavanlar, qocalar məni.

## UNUDULMAZ İLLƏRİMİZ!

*Haydı, Rüstəm, çıxalım gəl yarışa,*
*Çıxalın mövzu üçün axtarışa.*

**M.Müşfiq**

Gənclik çağımız keçdi Xəzərdən daha coşqun,
Etdik əməl uğrunda uzun yolları yorğun.
Mümkünmü unutmaq o əziz günləri?!
Yox, yox, Könlümdə o xoş illərin öz izləri var çox.
Gənclik qanımız qaynayan illərdi o illər,
Düşmənlərimizçin yaman illərdi o illər.
Xalqın səsi haqq səsdi bizimçin o zamanlar,
Bir arzu müqəddəsdi bizimçin o zamanlar:

Şair kimi öz əsrimizin nəbzini tutmaq,
Ən qəti döyüşlərdə uduzmaq deyil udmaq.
Bir qardaşımız vardı, gözəl, sadə geyimli,
Müşfiqdi o şair, özütək şeri sevimli.
Baxdıqca səadət dolu gülşənlərə hər gün,
Birlikdə edərdik qəmi yoxluqlara sürgün.
Müşfıq də ürəkdən coşaraq vəcdə gəlirdi,
Mən yaxşı bilirdim ki, - o çox yaxşı bilirdi:
Şerin öləcək yazsan ürəksiz, həyəcansız,
Dövran sənə qiymət verəcəkdir çox amansız.
Xoşbəxtdir o şair ki, onun öz səsi vardır,
Dillərdə, könüllərdə gəzən nəğməsi vardır.
Müşfiq bu yolun yolçusu tək yazdı, yaratdı,
Al bayrağın al rəngini öz şerinə qatdı.
Qardaş kimi hər gün bölüşüb dərdi, sevinci,
İstərdik olaq işdə, sədaqətdə birinci,
Yollarda günəş aşiqi tək zülməti dandıq,
Müşfiq bizə, biz Müşfiqə dar gündə hayandıq.
Onsuz öz anam, süfrəni açmazdı o vaxtlar,
Söylərdi: "'balam harda qalıb, get onu axtar".
Günlər belə keçdi, Müşfiq belə gəncdi.
Yazdıqca həyat çeşməsi qaynardı gözündə,
Rəqqas kimi barmaqları oynardı üzündə.
Ağ günlərin eşqilə qaraldıqca varaqlar,
Çox incə gülümsərdi qalın, döymə dodaqlar.
Bir şeir oxuyan vaxtda içindən alışardı,
Qaş-göz danışır, əl danışır, dil danışırdı.
İlhamla səfirlər cana gəldikcə könüldə -
Çalsaydın o baxsın deyə, şeypur da, təbil də -
Yox, yox, bu səsi Müşfiq eşitməzdi kökündən,
Milyon ürəyə vardı bu an yol ürəyindən.
Müşfiq belə şair, belə insandı gözümdə,
Dostum yenə dilləndi bu şerimdə, sözümdə.
Müşfiq! Məni gəl dinlə, ötüb keçsə də illər, -
Xatırlayacaqdır səni hörmətlə nəsillər.
Xoşbaxtsan, əzizim, vətəninçin dirisən, bax,

Öz mülətinin alnı açıq şairisən, bax!
Xoşbəxtdir o şair ki, onun öz səsi vardır,
Dillərdə, könüllərdə gəzən nəğməsi vardır.
Müşfiq! Səni, gəl bir də basım bağrıma, bir də,
Olsun bu təsəlli bu ürək ağrıma bir du.
Şair kimi, insan kimi - yox ölməmisən sən,
Müşfiq! Səni təbrik edirəm mən, öpürəm mən!

## ÖPÜRƏM BİR DƏ MƏHƏBBƏTLƏ

*Fərhad Bədəlbəyliyə*

Fərhad, oğlum, nə qəşəng bir peşə seçdin özümə,
Zəhmətin oldu günəş taleyinin gündüzünə.
Doğurur gör necə sevdalı könüllərdə bahar –
O bəyaz dillərin üstündə gəzən barmaqlar!
Dindirir dinməyinin incə ürək tellərini –
Belə yaz ömrünə öz gəncliyinin illərini!
Sev ürəkdən vətəni, alnıaçıq millәti sev,
Nə gözəldir hələ bu atdığın ilk addımlar...
Sənətin zirvəsinə öndə çətin bir yol var,
Bu yolun yolçusu ol, qoy səni sevsin bu vətən,
Yağsın ünvanına hər ölkədə əhsən, əhsən!
Gəl bu mənalı vətən mülkünə məna gətirək,
Ömrümüzdən keçən hər bir günə məna gətirək.
Bürüyübdür məni də doğma atan tək həyəcan,
Öpürəm bir də məhəbbətlə açıq alnından.

## SABAHI DÜŞÜNÜRƏM

Sabahını düşünürəm millətimin, özümün,
Dünənimdən bu günüm xoş, bu günümdən sabahım.
Mən şairəm, hər kəlməsi həqiqətdir sozümün,
Şənliklərdə söz nəğməmdir, döyüşlərdə silahım.
Sabahını düşünürəm nəsillərin dərindən,

Arzusunda, əməlində özümüzü görürəm.
Əlbir, dilbir dağları da oynadırlar yerindən.
Uzaq görən, gözlərində gözümüzü görürəm.
Sabahını düşünürəm vətənimin har zaman,
Zəhmətimdir ağ gününün təntənəsi, təməli.
Sabahımdan, zərrə qədər mən deyiləm nigaran,
Sabahımı düşünməsəm yaşamıram deməli.

**BAĞIŞLAR SƏNİ**

*Yol ayrıcında qalanlara*

Özünə elə bir yol seçmisən ki,
Yalnız vətənsizlər alqışlar səni.
Dilini nə atan, nə anan bilir,
Yaxşı başa düşür, bayquşlar səni.
Batinin dəyişib zahirin kimi,
Tanımaz oldular tanışlar səni.
Əgər belə getsə inan ki, bir gün
Atan da, anan da qarğışlar səni.
Hər addım başında düşərsən dara,
Şaşırdar enişlər, yoxuşlar səni.
Əlin kömək üçün bir yana çatmaz,
Döyər qarlar səni, yağışlar səni.
Yaman məst eləyib görürəm ki, mən
Ürəyi ləkəli ağuşlar səni.
Sən harda görünsən, şübhə etmirəm,
Nifrətlə qarşılar baxışlar səni.
Kağızlar üstündə baş sındırırsan,
Yormadı eybəcər naxışlar səni?!
Cana gətirmədi yazılarında
Bu payızlar səni, bu qışlar səni?!
Urəyi böyükdür zəmanəmizin,
Bu yoldan qayıtsan bağışlar səni.

## SƏNƏ BAĞLIYAM

*Dostum Zeynal Məmmədova ithaf*

Qarabağa cənnət desəm, tamam haqlıyam,
Bakılıyam, şəkiliyəm, qarabağlıyam.

Saf, ləkəsiz məhəbbəti bu torpaqda gör,
Könül açan təbiəti bu torpaqda gör.
Gözəlliyi, şeriyyəti bu torpaqda gör.
Baxtıma bax, bu yerliyəm, bu torpaqlıyam,
Alını açıq, qəlbi açıq vətən oğluyam.

Vəcdə gəlib məhəbbətlə vurur ürəklər,
Gün doğmamış, ətirlənir hər gün, hər səhər
Gözəllərin nəfəsilə güllər, çiçəklər.
Dağ gövdəli çinar kimi qol-budaqlıyam,
Canım, gözüm, Qarabağım, sənə bağlıyam!

Gözəlliyin kökü mənim diləyimdədir,
Elin gücü qolumdadır, biləyimdədir,
Vətən eşqi qocalmayan ürəyimdədir.
Ağ günümdə, dar günümdə el dayaqlıyam,
Canım, gözüm, Qarabağım, sənə bağlıyam!

## 25-Cİ PALATADA

*Professor Adil Sadıqova ithaf*

Dərman qoxusuyla doludur otaq,
Yenə ağır-ağır alıram nəfəs.
Yanır qızdırmadan yenə dil, dodaq,
İçimdən əmr edir döz deyə bir səs.
Dözürəm ağrıya, dözürəm dərdə,
Haqqımda nə sözlər gəzmir şəhərdə!
Gəlirbaş çəkməyə dostlar, tanışlar,

Mənə gül verirlər, çiçək verirlər.
Bəxtinlə ekizdir, deyirlər bahar,
Təsəlli verirlər, ürək verirlər.
Əl-ayaq çəkilir axşam düşüncə
Həmdəmim yenə də xəyal, düşüncə...
Mizimin üstündə kağızlar ağdır,
Şeir yazmamışam, çünki haçaqdır.
Sözümə baxmayır əlimdə qələm,
Ölümdən ağırdır, mənə bu ələm.
Boğulub qəlbimdə sözlərim yenə,
Hirsimdən yaşarır gözlərim yenə.
Bəli, yaxşı deyil, halım yamandır,
Günüm belə keçir xeyli zamandır,
Gedir otağimdan həkimlər qəmgin,
Üzümə demirlər dərdimi açıq.
Seyr edib Xəzəri eyvandan hər gün
Təsəlli tapıram orda azacıq.
Bunu da bilirdim illər ötəcək,
Bəli bu şair də ölüb gedəcək.
Ölənlərdən artıq olmayacaq ki,
Qurdla qiyamətə qalmayacaq ki.
Bir az da yaşamaq istədim ki, mən
Vətənin, millətin borcunu verim.
Nə edim şairəm, nə edim ki, mən
Mizimin dalında boş qalıb yerim.
Budur bu böhranlı, ağır çağımda
Yetdi harayıma bir həkim mənim.
Yarpaqlar cücərdi can budağımda
Ona inan dedi ürəyim mənim.
Bütün varlığımla inandım ona,
Gözümü qaplayan pərdə söküldü.
Bəli, yavaş-yavaş gəldikcə cana
Olüm qəzəbindən yandı, töküldü.
Həkim dost, əzizdən əzizsən mənə.
Bu təzə şerimi borcluyam sənə.
Masam arxasında düşünən zaman
-Deyirəm - şübhəsiz məni sağaldan
Adıma deyilən qurbanlar deyil,

Verdiyin, içdiyim dərmanlar deyil,
Xəstəylə söhbətin, rəftarın oldu,
Ürəyə yol tapan bu varın oldu.
Sənə ehtiramım ürəyimdədir
Sanıram yenə də keşiyimdədir:
Xəstənin dərdinə şəfa sözlərin,
Gülən dodaqların, gülən gözlərin!

**UĞURLU YOLDAYAM MƏN**

Sürətlə getməsəm də, yenə də yoldayam mən,
Yerimdə saysam əgər, mənə nə deyər vətən.
Desin görək bu yolda kim məni yorğun görüb?
Ömrüm bahar, yaz görüb, qar görüb, çovğun görüb.

Vətənimin adından, millətimin adından,
dövlətimin adından
Yaşıl gözlüklülərin gözlərini ovduğum,
Yaşıl qələmliləri gülşənlərdən qovduğum
Çıxmayıbdır yadımdan,
Çıxmayacaq heç zaman.
Qırmızı gözlüyümlə baxıb nələr görürəm,
Nə səhnələrgörürəm.
Tapdıqca fürsət yenə
Təəssüf, min təəssüf, məslək düşmənlərinə
Tamam güzəştə getmək fikrinə düşən olur,
İşlənən günahların üstündən keçən olur.
Əvvəldən yolsuzları görən gözüm olmayıb,
Millətimin yanında yalan sözüm olmayıb,
Durmamışam kənarda dar gündə, bərk ayaqda,
Görürəm ki, yenə də tək-tək küncdə, bucaqda.
Yalan başdan dilində əzbər edib milləti
Ya açıq, ya xəlvəti
Məndən doğru sözümün heyfini alan da var,
Günəşli gündüzümün heyfini alan da var.
Bəli, fürsət tapanda,

Ağacdan ata minib sola, sağa çatanda,
Yüz qızıl kitabımın heyfini alan da var.
Bir para adamların orta istedadını
Kefi istəyən kimi şişirdib yazan da var.
Şərəfli yollar keçən ustadların adını
Qələminin ucuyla, gizlində pozan da var.
Paslı ürəklərdəki,
Yaslı ürəklərdəki
Bizə qarşı nifrəti,
Qəzəbi, küdurəti
Bu gülşəndə qoymuram zərrəcə kök atmağa,
Bir tabuta yükləyib basdırıram torpağa.
Bir yerdə saymaqla heç əzəldən yoxdur aram,
Yenə də yollardayam, yenə də yollardayam.

## SƏNİ GÖRƏNDƏ

*Doktor Fatma xanıma*

Gözəlliyə baş əyirik səni görəndə,
Bilirsənmi nə deyirik səni görəndə!
Deyirik ki, gətiribdir bizim bəxtimiz,
Çünki üzü baharadır şəta taxtımız.
Şirin-şirin arzularla keçir vaxtımız,
Gözümüzdə dan sökülür səni görəndə,
Üzümüzə günəş gülür səni görəndə.

Deyirik ki, əcəb gözəl xoş sifətdir bu,
Sənin kimi bir insana məhəbbətdir bu.
Görməyəndə darıxırıq, həqiqətdir bu,
Yavaş-yavaş sağalırıq səni görəndə,
Yaşamaqdan zövq alırıq səni görəndə.

Canımızı qorumayıb acı zəhərdən
Gizlin, xəlvət papiros da çəkirik hərdən.

Sən döymədən qapımızı açırsan birdən,
Özümüzü itiririk səni görəndə,
Min bəhanə gətiririk səni görəndə.
Əfv et məni, haqq sözümdür, gözəlsən, gözəl,
Qəlbindədir özün kimi min gözəl əməl.
Nəkaradır yanımızda görünsün əcəl,
Dərdimizi unuduruq səni görəndə.
Başımızı dik tuturuq səni görəndə.
Budur, artıq əvvəlkitək deyilik üzgün,
Biz hüsnündən danışmasaq olarmı düzgün!
Sənin qara qaşlarının altında hər gün
İki mavi çay görürük səni görəndə,
Sərt havam xay görürük səni görəndə.
Görün, görün, görünməsən darıxarıq biz,
Dərmanların arasında karıxarıq biz,
Hər sözünü eşitməyə hazır varıq biz,
Dağ çəkilir bağrımızdan səni görəndə,
Əsər qalmır ağrımızdan səni görəndə.

## GƏLDİ DƏ GETDİ

*Hüseynqulu Sarabskinin xatirəsinə*

Səhnəyə, sənətə məcnuncasına
Məftunumuz təkdi, gəldi də getdi.
Füzuli gözünün yaşından doğan
Məhzunumuz ləkdi, gəldi də getdi.
Hicran yollarında yorğunluğundan,
Gözəl Leylasına vurğunluğundan,
Qolları zəncirli məcnunluğundan
Məmnunumuz təkdi, gəldi də getdi.

Dözdü min bəlayə canan yolunda,
Hazırdı verməyə min can yolunda.
Sonu görünməyən hicran yolunda
Yorğunumuz təkdi, gəldi də getdi.
İlk gənclik çağında öz leylasına
Məhəbbət bağında öz leylasına,
Ölüm ayağında öz Leylasına
Vurğunumuz təkdi, gəldi də getdi.
Bir ərəb qızına könül bağlayan,
Odlu naləsilə sinə dağlayan,
Aləmi ağladan, özü ağlayan
Məcnunumuz təkdi, gəldi də getdi.

## CƏFƏR, SƏNİ ANDIM

Cəfər, bu səhər mən səni şair kimi andım,
Gəl, göl, dedim ancaq mənə hay gəlmədi səndən.
Yandım, necə yandım, necə yandım, necə yandım!
Sordum bütün eldən, sorağın gəldi çəməndən...
Andım səni, andım səni hörmətlə, eloğlum,
Yazdım bu kiçik şeri məhəbbətlə, eloğlum.
Yazdım ki, a dostum, görüşüm bir də səninlə,
Səhnəmdə açılsın təzədən pərdə səninlə,
Çoxdan səni mən səsləyirəm, gəl,
Gəl, gözləyirəm, gəl.
Gəl, birgə gəzək doğma vətən mülkünü, dostum,
Çox İstəmişəm mən bu mübarək günü, dostum.
Addımla gözəllər yetirən torpağımızda,
İlhama gəlib mahnı yarat el bağımızda.
Sən varlığım alnı açıq millətə verdin,
Söz incini bu səhnəyə, bu sənətə verdin.
Kim gördü desin bir kərə bu səhnəni sənsiz,
Yox görmədik əsla bu gozəl gülşəni sənsiz.
Cəfər! Demə ki, keçdi ömür, getdi cavanlıq,

Bax səhnəyə, bax bir də məhəbbətlə bir anlıq.
Bir zərrə qədər qəm yemə, gəncsən, hələ gəncsən,
Mənalı keçən illərinin şahidiyəm mən.
Gəlməzdi xoşun başda oturmaqdan, a dostum,
Artıq danışıb məclisi yormaqdan, a dostum.
Sən harda oturdunsa, inan, başda göründün,
Son cərgədə əyləşdiyin an, başda göründün.
Yüksəklərə qalxdınsa da "mən, mən" demədin sən,
Süfrəndəki nemətləri heç tək yemədin sən,
Xalq içrə, əzizim, adın hörmətlə çəkildi,
Hörmətlə, məhəbbəttə çəkildi.
Əldən-ələ, dildən-dilə gəzdikcə kitabın,
Yox, yox, "bu mənimdir" sözü çıxmazdı dilindən.
Tərif deyilən vaxt üzünə, buydu cavabın -
"Tərifləməyin, çünki həvəskar yazanam mən".
Hər kəlmən, əzizim, məni dinlə -
Gül oldu bütün dostlara, düşmənlərə - güllə.
Şair ürəyin, məncə, məhəbbətlə ekizdir.
Arzun, diləyin, məncə, məhəbbətlə ekizdir.
Cəfər! qara gözlü, bizim ağ günlü sevillər
Hər yerdə səni bir ata tək gör nə sevirlər!
Dostum, sən özün yaxşı bilirsən bunu məndən.
Övladlarının bir daha xoş bəxtinə bax sən -
Sən istəyini, arzunu bir aləmə yaydın,
Cəfər, gözün aydın,
Çox sevdiyin, aydınların aydın yola çıxdı,
Ağ günlü gözəllərlə verib qol-qola çıxdı.
Ey alnı açıq, qəlbi təmiz bəxtəvər insan,
Az dadmışam mən də sənin duz-çörəyindən,
Milyon ürəyə körpü yaratdın ürəyindən.
Xatırla, əzizim, o əziz günləri bir də,
Şair həvəsilə gələrək vəcdə bu yerdə
Şair sayağı əldə qələm yollara çıxdın,
Dost tək yeni aləm yaradan elləri sıxdın.
Əllərdə qalıbdır o hərarət hələ, dostum.
Olmuş sənə qismət bu şərəf, fəxr elə, dostum.
Yollarda qələmsiz səni el görmədi bir gün,

Söz mülkünə şagird də, müəllim də özündün.
Yazmaq və yaratmaq həvəsiylə
Yüksək, on uca zirvəyə çatmaq həvəsiylə
Eldən gözəl insanların ünvanını sordun,
Yollar səni heç yormadı, sən yolları yordun.
Al bayrağın altında gedənlər yorularmı?
Öz qəlbini al bayraq edənlər yorularmı!
Sevdin vətəni, milləti namuslu oğul tək,
Oldun bizə örnək.
Sən sənətə məcnun kimi qəlbinlə vuruldun,
Ağ saçlı bu yollarda böyük qardaşım oldun.
Qardaş kimi, sirdaş kimi sevdim səni, hər an,
Bax, sən tək uğullarla gözəlləşdi bu dövran!
Əsgərdin əzəl gündən elinçin, vətəninçin,
Düşmən səni sevməzdi, bu aydındı səninçin.
Ön cərgədəsən sən yenə əsgər kimi, Cəfər,
Addımla bu yollarda səfərlər kimi, Cəfər!
Cəfər, demə ki, keçdi cavanlıq,
Öz dostunu gəl dinlə bir anlıq.
Heç kim sənə çox yaş verə bilməz bu yaşında,
Gəl şənliyə öz sadə çələnginlə başında.
Sən yayda da, sən qışda da ölkəmdə baharsan,
Torpaqların altında da, üstündə də varsan.
Haqdır bu sözüm, səndə düha qüdrəti varmış,
Alqış sənə, alqış sənə, alqış sənə, alqış!
Sığmır yerə, sığmır göyə sayəndə sevincim,
Güllər bitirir sanki bu gülşəndə sevincim.
Alqış, bu böyük sərvətə, bu sənətə alqış
Alqış belə övlad yetirən millətə alqış!

## YERİNİZ OLMAYACAQ

Dostlar! Axır zamanlar məni yaman dərd alıb,
Nədənsə bir sualım yenə cavabsız qalıb.
Doğru yoldan azanlar,
Tartan-partan yazanlar

Bizi başa düşmürsən, bizi sevmirsən deyə
Az qalıb millətimi çəksinlər "məhkəməyə".
Şairlər, filosoflar yetirən millətimə
Dünyaya füzulilər gətirən millətimə
"Səviyyədən kasıbdır" deyib dodaq büzən var,
Çirkabın, nadanlığın lehməsində üzən var.
Təəccüblü budur ki, tapdayıb həqiqəti,
Ya açıq, ya xəlvəti
Onlan əzizləyib oxşayanlar tapılır,
Onların özlərinə oxşayanlar tapılır.
Bu bədbəxtlər beş-altı havadar tapsalar da,
Ürəklərin qapısı bağlıdır üzlərinə.
Qışda deyib gülürlər, ağlayırlar baharda,
Afərinlər deyirlər özləri özlərinə,
Ey millətdən, vətəndən üz döndərənlər, yetər,
Yetər yamaq oldunuz bu göyçək dünyamıza.
Sizi başa düşənlər, sizi candan sevənlər
Deyin hansı əsrdə gələcək dünyamıza?
Yox, yox, heç bir əsrdə yeriniz olmayacaq,
Mil1ətimə xoş gələn şeriniz olmayacaq.
Minib qarğıdan ata, atlını ölmək olmaz,
Bu aydın həqiqəti ört-basdır etmək olmaz!

## ÇİÇƏKLƏR ALƏMİNDƏ

Çiçək mağazasının keçərkən qarşısından
Fikirlər dəryasına qərq oluram hər zaman.
Canlanır həyat, ölüm, gözlərimin önündə,
Düşünürdüm dünən də, düşünürəm bu gün də.
Budur, bir yanda güllər gülümsər vazalarda,
Bir tərəfdəysə solğun güllərdən xeyli əklil.
Düyünlə yas bir yerdə rastlaşır hər baharda,
Bağçalarda çiçəklər bununçünmü əkilir!
Düşünürəm: - Nədir bu ağ və qara təzadlar,
Bir-birinin üstünə qılınc çəkən bu adlar.
Bəli, heyatla çoxdan qanlı-bıçaqdır ölüm,

İnsan göz aça bilmir nə qədur sağdır ölüın.
Kim deyir ki, barışar həyat ölümlə bir gün,
Hcç yaşarmı baş-başa bir ocaqda yas-düyün?!
Yox, yox, həyat ömürdən silməlidir ölümii...
Həyat, sənə köməkçin uzadıram əlimi.
Gəl düşünək bəşərin düyününü, yasını,
Ölümlər kitabının dəyişək mənasını.
Biri ölüm, biri toy, biri şənlik, biri yas!
Duz-çörək kəsərmi heç bir süfrədə qışla, yaz?!
Düyünü olanların, əzizi ölənlərin,
Bir görüş məclisidir bu çiçək mağazası.
Gözləri yaşlıların, ürəkdən gülənlərin
Varlığını əks edən bir aynadır burası.
Biri gəlir silərək gözlərinin yaşını,
Deyir: - ölən yarımçın böyük əklil gərəkdir.
Biri gəlir, fərəhlə oynadıb göz-qaşını
Deyir: - toya gedirəm bir dəstə gül gərəkdir.
Biri gəlir ondamı ipəkdə həm atlasda,
Yəqin rəfiqəsinin ad günüdür bu axşam.
Biri gəlir qapqara matəm rəngli libasda,
Bəlkə gecə yandırıb bir ölü üstündə şam.
Üzür mavi sularda birinin ağ yelkəni,
Birinəsə dağ çəkib ölüm adlı düşməni.
Buraya kimlər gəlir,
Qoy deyim sizə bir-bir-
Birinin oğlu ölüb, birinin oğlu olub,
Birinin ürəyinə iki dünya qəm dolub.
Birininsə sevinci aşıb daşır başından,
Hələ qəmlə üz-üzə gəlməmişdir yaşından.
Payızdır, qışdır bahar birinin gözlərində,
Nəğməli quşdur bahar birinin gözlərində.
Birinin xatirindən çıxıb rəngi güllərin,
Biri güllərdən alır ətrini bu günlərin.
Gecə gündüzə dönüb birinin gözlərində,
Elə bil günəş sönüb birinin gözlərində.
Birinin elə bil ki, kül töküblər başına,
Birinin ətək-ətək gül töküblər başına.
Biri dağı dağıdar dağa vursa dərdini,

Biri hələ dadmayıb ayrılıq şərbətini.
Yığılıb güldəstələr budur üst-üstə çin-çin,
Həm dünyaya gələnçin, həm dünyadan gedənçin.
Dodaqlara köçəcək bir gül dəstənin ətri,
Torpaqlara köçəcək bir gül dəstənin ətri.
Tapılmaz bu ocağa yolu düşməyən adam,
Elə güman etməyin bu məkana mən yadam.
Bu yerə baş çəkməyi özümə borc bilmişəm,
Bəli, bir gün qəlbi şad, bir gün qəmli gəlmişəm.
Burda başqa, başqadır mənası çiçəklərin,
Dünyası çiçəklərin.
İki aləm görüşür çiçək mağazasında,
Sevinclə qəm görüşür çiçək mağazasında.
Yığılıb güldəstələr budur üst-üstə, çin-çin,
Həm dünyaya gələnçin, həm dünyadan gedənçin.
Siz ey məni ürəkdən sevən dostum, tanışım,
Nə olar ki, dinləyin, bir qədər də danışım,
Bəli, bir gün mənim də yumulacaq gözlərim,
Ürəyimdə qalacaq deyilməmiş sözlərim.
Mənə hörmət naminə,
Ya məhəbbət naminə
Əklil üçün gedərkən çiçək mağazasına,
Sizdən bir xahişim var, üzünüz gülər olsun.
Mən razı olmaram ki, gözünüz yaşla dolsun,
Qara geyib gəlməyin dostunuzun yasına...
Danışmayaq örtülü,
Məni sanmayın ölü.
Könlüm halallaşarkən, dostuyla, sirdaşıyla,
İslatmayın qəbrimin daşını göz yaşıyla.
Durmayın aciz kimi önündə təzadların,
Qarşısına sədd çəkin, yanıqlı fəryadların,
Qəlbiniz bu mənalı aləmdən ayrılmasın,
Yazıb pozan əliniz qələmdən ayrılmasın.
Görün nə hikmətdir bu,
Böyük həqiqətdir bu -
Bu gün ölən dühanın ölməyən hər əməli -
Sabah gələn birinin damağında gül açır.

Çünki belə yoğrulub təbiətin təməli,
Gedənlər gələnlərin davamında dil açır.
Yəqin bir gün qalxacaq mənim də torpağımdan
Bir addımlıq bağımdan
Əlvan güllər, çiçəklər,
Min-min gözəl diləklar.
Bəli, diriləcəyəm, bi gün bu görkəmdə mən,
Öz torpaq ölkəmdə mən.
Onda məni də başqa güllərə qatacaqlar,
Bir güldəstə, bir əklil şəklində satacaqlar.
Gah şənlikdə, gah yasda olacağam yenə mən,
Demək doğulacağam, solacağam yenə mən.
Ömrüm davam edəcək bu şəkildə, bu sayaq
İnsan torpağa dayaq, torpaq insana dayaq.
Çiçək mağazasında düşünürəm bayaqdan,
Nə çıxar göz yaşından, nə çıxar ağlamaqdan.
Budur, bir yanda güllər gülümsər vazalarda,
Bir tərəfdəysə solğun güllərdən xeyli əklil.
Düyünlə yas bu yerdə rastlaşır hər baharda,
Bağçalarda çiçəklər bununçunmu əkilir?!
Mən ölümdən qorxmuram,
Həyatla sazdır aram.
Yetər lovğalandığın axmaqdan axmaq ölüm,
Gəl, gözümün içinə bir də yaxşı bax, ölüm,
Adını lüğətimdən pozmuşam öz əlimlə,
Danışıram səninlə açıq şair dilimlə.
Sənə həyat adından verirəm acıq, ölüm,
Çünki ölmək sırası sənindir artıq, ölüm.
Gedəndən çoxdur gələn, dünyamız boşalmayır,
Zərrəcə qocalmayır.
Həyata bəzək bizik,
Can bizik, ürək bizik.
Biz vardıq, varıq yenə, əbədiyik dünyada,
Torpağın üstündə də, torpağın altında da.
Biz insanıq, ömrümüz ölümdən çoxdur, ölüm,
Anam torpağa bağlı insana yoxdur ölüm!

## ƏTƏYİMDƏDİR

Vətən torpağının nəfəsi, ətri
Mənim duzumdadır, çörəyimdədir.
Ömrümün mənası sanıram ki, mən
Darda qalanlara köməyimdədir.

Ömrümdə olmadım bəxtimdən küskün,
Döyün məhəbbətlə, ürəyim, döyün.
Ulu babaların, şübhəsiz - bu gün
Qüvvəti bükülməz biləyimdədir.

Gözlərim günəşli gözlərə baxdı,
Nəsillər köksümə çiçəklər taxdı.
Bütün yer üzünün ağ günü, baxti,
Ləkə götürməyən məsləkimdədir.

Babamdan öyrəndim mən səxavəti,
Kiçiyə, böyüyə böyük hörməti.
Vətən torpağının bütün neməti
Buyurun, götürün, ətəyimdədir.

Bülbülü səsləyir çəmənə eşqim,
Sağalmaz yaradır düşmənə eşqim.
Süleyman Rüstəməm vətənə eşqim
Dodağımda deyil, ürəyimdədir!

## İKİ QARDAŞ

*Üzeyir Hacıbəyovun və*
*Müslüm Maqomayevin xatirəsinə*

İki qardaş, iki sirdaş, iki ustadlar ustadı,
Bizim bu dövrün övladı, bizim bu əsrin övladı.
Vətən uğrunda can qoydu, könüllərdən xəbər verdi,
Bütün dünyaya car çəkdi, bu ellərdən xəbər verdi.

Bu düz sözdür, ürəklər musiqisiz olmayıb, olmaz,
Üzeyirin, Müslümün sənət bağında bircə gül solmaz.
İki sənətkarın eşqi yenə dillərdə əzbərdir,
Bizim xoşbəxt nəsillərçin əzizlərdən əzizlərdir.
Yorulmaq bilmədi onlar çətin yollar uzandıqca,
Baş əydi xalqa hörmətlə böyük şöhrət qazandıqca,
İki qardaş, iki sirdaş həqiqətdən yaranmışdı,
Ədalətdən yaranmışdı, məhəbbətdən yaranımşdı.
İki dostun adı daim günəştək parlayar, sönməz.
İki dost batsa da qəm yox, bu gün torpaqlar altında
Üzeyrin, Müslümün baxtı, bütün aləm bilir, dönməz...

## GÜLÜSTAN QUBADIR

İlk bahar bülbülünün dərdinə dərman Qubadır,
Ətri xoş hər çiçəyi, hər gülü xəndan Qubadır.

Bir qızılgül qoparıb mən taxıram öz sinəmə,
Deyirəm bəlkə mənim can evimə can Qubadır.

Sevirəm alnı açıq, bəxtəvər insanlarını,
Hər zaman dildə böyük şöhrəti dastan, Qubadır.

İnanın sözlərimə, misli tapılmaz bu yerin,
Məni hüsnilə edən, doğrusu, heyran Qubadır.

Görürəm mən, seçilir başqa şəhərdən gecələr,
İncə güllərlə, çiçəklərlə çırağban Qubadır.

Mən vətəndən çox uzaqlarda gəzirkən demişəm –
Min gülüstana əvəz məncə Gülüstan Qubadır.

Gələrək vəcdə bu torpaqda gözəl nəğmə yarat,
Cənnətin cənnəti fəxr et ki, Süleyman, Qubadır!

## SƏNİN NƏFƏSİN

Sənin sevgilin olmaq deyil asan, sevgilim,
Ömrümün dörd fəslinin baharısan, sevgilim.
Əlin əlimə dəysə, dünya verilər mənə,
Aləm dönər gülşənə,
Könlümdəki arzular bir daha gözəlləşər,
Eşqim sənin önündə dönə-dönə baş əyər.
Təkcə səni səslərəm, əcəl qapınımı döysə!..
Bahar nəfəsin əgər qışda bağıma dəysə,
Silkələyib qarını ağaclar yarpaqlanar,
Göydə yağışın, qarın buz qapısı bağlanar.
Bağımın torpağına dəysə ayağın əgər,
Çiçəklər baş qaldırıb gül qədəmindən öpər.
Qönçələnər bir anda nəğmələr dodağında...
Nəğməni eşitməsəm ömrüm, günüm heç olar.
Gözün gözümə dəysə gecə qaranlığında,
İki gözüm gecəyə sönməyən günəş olar.

## MƏNİM DEYİL, SƏNİNDİR

Eşqinlə gecə-gündüz vuran bu şair ürək İnan,
sevgilim, inan, mənim deyil, sənindir!
Sözə varmı ehtiyac, məndən gözəl bilirsən,
Məni yaşadan bu can mənim deyil, sənindir!

Bağımda bağban kimi çalışıb tər tökmüşəm,
Gözlərimi səninçün bu yollara dikmişəm.
Gəl, gör sənin adına, neçə güllər əkmişəm,
Bu misilsiz gülüstan mənim deyil, sənindir!

Sənə vurğundur könül, sənə bağlıdır könül,
Sənin səadətinlə bahar çağlıdır könül.
Sevgilim, bu sözündə, məncə haqlıdır könül
Səni sevən Süleyman mənim deyil, sənindir!

## SƏNİ GÖRMƏSƏYDİM

Yəqin kimsəsiz, yetim görünərdim aləmə,
Könlümü həmişəlik mən sənə verməsəydim.
Boynubükük qalardı çiçəklərim, güllərim,
Onları öz bağımdan adına dərməsəydim.
Boğulardım bəlkə də bir gün qəm dəryasında,
Gəncliyimin, ömrümün baharında, yazında,
Məhəbbətsiz yaşardım, məhəbbət dünyasında
Mən səni görməsəydim, mən səni görməsəydim.

## GƏLİB, GETMİŞ

Bilirsənmi, könül, ərzə nə mehmanlar gəlib, getmiş,
Ədasıyla necə canlar alan canlar gəlib, getmiş.

Sevilmiş, sevmiş, eşqiylə bəzək olmuş bu dünyaya,
Gözəllikdən yaranmış nazlı cananlar gəlib, getmiş.

Bu torpaqdan alıb qüvvət, verib bu torpağa qüvvət,
Heyat, zəhmət sevən qeyrətli bağbanlar gəlib, getmiş.

Dühalar var ki, cismən ölsələr də, ruhən ölmürlər,
Dilim galməz deyəm mən ki, bu insanlar gəlib, getmiş.

Süleyman, yaz-yarat, çünki özün yaxşı bilirsən ki,
Bu dünyaya sənintək çox Süleymanlar gəlib, getmiş.

## VÜSALDA GÖRMƏLİYƏM

Məhəbbətin aradım zövqünü, səfasını mən,
Gözəllərin sınadım əhdinə vəfasını mən.

Səbəb nədir ki, mənim ayrılıq düşüb payıma,
Günahsızam, çəkirəm, bəs nəyin cəzasını mən?!

Vəfalıyam, qulağım səsdədir uzun illər,
Eşitmək istəyirəm yarımın sədasını mən.

Əzaba, dərdə, qəmə öyrənib sevən ürəyim,
Vüsalda görməliyəm dərdimin dəvasını mən.

Süleymanam, gəzirəm hey Araz boyunca yenə,
Öz eşqimin yazıram qəmli macərasını mən.

## KÜSMƏSİN

Qış küsür küssün, fəqət məndən baharım küsməsin,
Küsməsin şux dilbərim, nazəndə yarım küsməsin.

Keçməsin bir gün belə ömrüm şeirsiz, nəğməsiz,
Eşqimin gül bağçasından nəğməkarım küsməsin.

Sevgilimdir bəxtimin dünyasının dan ulduzu,
Tapmasam bundan gözal söz şəhriyarım küsməsin.

Saçlarından ilk baharın ətri keçsin güllərə,
Can fəda etsəm yolunda tacidarım küsməsin.

Mən Süleyman Rüstəməm, andımda möhkəm aşiqəm,
Kim küsür küssün, fəqət məndən nigarım küsməsin!

## ŞERİN ACIYAM MƏN

Haqqımda deyirlər, dili sortum, acıyam mən,
Şöhrətlə işim yox, təzə şerin acıyam mən.

Az-çox biliyim varsa da azdır, yenə azdır,
Son mənziləcən öyrədənin möhtacıyam mən.

Mən şerimə yad paltarı geydirmərəm əsla,
Əllaməliyin düşməniyəm mən, qacıyam mən.

Gördüm gecə Leylanı, Füzulini yuxumda,
Leyla dedi ki, şairə yalnız bacıyam mən.

Yaz şerini, tərifi qəbul etmə, Süleyman,
Hər kim desə də, sən demə şerin tacıyam mən!

**XOŞA GƏLSİN**

Könlümdəki arzum, deyirəm, tez başa gəlsin!
Hicranla vüsal məclisimə baş-başa gəlsin.

Qış fəsli belə qəm yeməsin nazlı nigarım,
Gəlsin, başına gül səpərəm, qoy qışa gəlsin.

Gəzsin, bağımı, bağçamı gözlərdə təbəssüm
Həsrətlə baxım hüsnünə, qəlbim coşa gəlsin.

Bəxtim kimi nərdtaxtamın üstündəki zərlər
Baxsın sözümə, çox demirəm şeş qoşa gəlsin.

Hər kəlmənin üstündə ərit qəlbini, Rüstəm,
Çək aləmə car eşqini, şerin xoşa gəlsin.

**ÖZ SÖZÜM OLSUN**

Süfrəmdə mənim həm qara, həm ağ üzüm olsun,
Dost-aşna yanında qara yox, ağ üzüm olsun.

Mən istərəm ömrüm belə keçsin uzun illər,
Yazdıqca yazım, hər gecəm öz gündüzüm olsun.

Qürbətdə də yalnız vətənimdir mənə məbəd,
Üstündə vəzifəmdir oğul tək, gözüm olsun.

Boş qalmasın heç bir kərə qəlbimdə xəzinəm,
Yad, özgə sözündən nə çıxar, öz sözüm olsun.

Hərdən oda yansan da, Süleyman, demə yandım,
Şairdə gərək yanmağa az-maz dözüm olsun!

## İTİB

Gözəllərin arasında gözəl nigarım itib,
Çiçəkli, güllü bahar vaxtı ilk baharım itib.

Görünməyir gözümə, inciyib yəqin məndən,
Yanında sevgilimin bəlkə etibarım itib.

Xəzinəmin varı qəlbimdədir əzəl gündən,
Sözüm qalıb ürəyimdə, xəzinədarım itib.

Yadımdadır, görüşərdik, onunla sahildə,
Əlimdə qalmayıb artıq bu ixtiyarım, itib.

Dözümlüyəm, dözürəm ayrılıq əzabına mən,
Düşünməsin ki, raqibim bu iqtidarım itib.

Araz boyunca gəzərkən ürəkdə dərdinlə,
Haray çəkib də, Süleyman, sevimli yarım itib.

## VƏFALI QALIB

Yenə könlüm quşu xəyala dalıb
Başımın üstünü dumanlar alıb.
Yarı yolda Araz kəsib yolumu,
Məni min dərdə, min bəlayə salıb.
Sevgilimdən uzaq düşüb konlüm,
Bilsin aləm, qanım yaman qaralıb.
Gecələr yatmıram sabaha qədər

Məni əqrəbmi, ya ilanmı çalıb!
Qan çəkib yol çəkən gözüm, heyhat,
Uzun illər ötüb, yaşım çoxalıb.
Xeyli var ki,üsal küsüb məndən,
Mənə bir ayrılıq vəfalı qalıb.

**SÜLEYMANLI YOLLARA**

Çoxdandır bələdəm mən o tufanlı yollara,
O dil bilməz yollara, o hicranlı yollara.

Eşqimin dörd fəslində, ömrümün dörd fəslində
Haray çəkib çıxmışam Savalanlı yollara.

Gəzmişəm sorağında vəfalı dilbərimin,
Söyləmişəm arzumu həyəcanlı yollara.

Bir vüsal nəğməsini oxumuşam hər səhər
Yükü ayrılıq, kədər, qəm karvanlı yollara.

Demişəm tapmayınca gözəllər gözəlimi,
Yadlar ayaq basmasın Süleymanlı yollara.

**İKİ ANA**

Həyatımın mənasıdır qəlbimdəki iki anam,
Mən onların nəfəsilə nəfəs alıb yaşayıram.
Biri məni bu dünyaya gətirmişdir məhəbbətlə,
Öpüb qucmuş, boya-başa yetirmişdir məhəbbətlə.
Gecə-gündüz, gözlərilə səkmiş mənim keşiyimi
Laylay deyib yırğalamış iftixarla beşiyimi.
Gənc ömrünü bir şam kimi əritdikcə üzərimdə,
Baxışları bir əbədi günəş olmuş nəzərimdə.
Bircə nöqsan tapmayaraq övladının varlığında,
Bir can kimi bəsləmişdir məni isti qucağında.

Mən körpəykən özü biçib, özü tikmiş paltarımı,
Gülüşündə görmüşəm öz çiçəklənən baharımı.
Bu gün yaşa dolsam da mən, bir körpəyəm gözlərində
Ağ başımı görmək istər o öz ana dizlərində.
Yaxın, uzaq ellər bilir mən onunam, o mənimdir,
Dedim iki anam vardır... O birisi Vətənimdir.
Udub qızıl bayraq altda onun təmiz havasını.
Ürəyimdə yaratmışam bəxtiyarlıq dünyasını.
Namusunu qorumuşam çağrılmamış qonaqlardan,
Şan-şöhrəti bir an belə düşməyəcək dodaqlardan,
Mənim kiçik şair adım onun böyük adındadır,
Zəhmətimin nəticəsi meyvəsinin dadındadır.
Mən şahidəm, hər babarda çevrilir şux çiçəklərə
Münbit Vətən torpağında əcdadımın sümükləri;
Onun halal çörəyilə qüvvət gəlir ürəklərə,
Bərkiyərək polad olur övladımın sümükləri.
Dedim iki anam vardır, qoy var olsun bu həqiqət
Onlarındır şerimdəki bu məhəbbət, bu hərarət.
Bu sevimli iki adla çiçəklənir azad ölkəm,
Qəm yemərəm çatsa bir gün əziz ömrüm son çağına.
Çünki bütün varlığımla əminəm ki, keçəcəyəm
O anamın qucağından, bu anamın qucağına!

## ATAMIN MAHNISI

*Uşaqlıq xatirələri*

Gün batsa da nə eybi var, əziz balam, körüyü bas,
Sən bilmirsən, səbəbi var, əziz balam, körüyü bas.

Ocaq mənim gözlərimin işığını aparsa da,
Həyat dəmir ürəyimi parça-parça qoparsa da,
Qara bəxtim hər gün bizim üzümüzə qabarsa da,
Təslim olmaq yaraşmayır mənə, sənə, körüyü bas:
Yorulsam da, yorulsan da durma, yenə körüyü bas.

Mənim ilkim ciyərparəm, demə atam ürəksizdir,
Evdə kiçik qardaşların, bacıların çörəksizdir.
Yad olsaydın deyərdin ki, bu sözlərin gərəksizdir,
Amansız qış qapıdadır, əziz balam, körüyü bas,
Həyatımız zəhər dadır, əziz balam, körüyü bas.

Ağrısını ürəyimdə hiss edirəm ayağının,
Dillən, nədən rəngi qaçmış o düyməli dodağının.
Ağzından al qanlar damır ehtiyacın bıçağının.
Qan-qan deyir zəmanəmiz, əziz balam, körüyü bas,
Həyatda tək deyilik biz, əziz balanı, körüyü bas.

Xəz paltoda dərsə gedir varlıların uşaqları,
Ara vermir, vaxtlı-vaxtsız tüstülənir ocaqları.
Kim bilmir ki, pambıqdan da yumuşaqdır yataqları,
Quru yerdə yatırıq biz, əziz balam, körüyü bas,
Evdən şey də satırıq biz, əziz balam, körüyü bas.

Ayağını yara etmiş qızmış dəmir qəlpələri,
Mən şahidəm, iniltiyə sən açırsan hər səhəri.
Dərdə dözüb deyirəm ki, qoy böyüdüm körpələri,
Bəlkə onlar bir gün görsün, əziz balam, körüyü bas,
Allah sənə ömür versin, əziz balam, körüyü bas.

Ömür keçdi çəkicimin altındakı dəmir kimi.
Qara bəxtim ocağımda yandı qara kömür kimi.
Çox düşündüm, bu dünyada özüm verdim öz əmrimi,
Cəlladlara baş əymədim, əziz balam, körüyü bas,
Gözlərimdən yaş tökmədim, əziz balam, körüyü bas...

## GÖY GÖL

Bəlkə də bu sirri bilmirsən özün,
Sən bütün göllərin başısan, Göy göl.
Vüqarlı Qoşqarın, qarlı Kəpəzin
Nişan üzüyünün qaşısan, Göy göl.

Gözəllər yuyunur sahillərində,
Ürəklər döyünür sahillərində,
Şairlər öyünür sahillərində,
Gözümdə yaxşıdan yaxşısan, Göy göl.

Yamyaşıl şamlardır kamanın, sazın,
Ağlardı bir zaman baharın, yazın.
Bir qərib durnanın, bir qızıl qazın
Bəlkə də gözünün yaşısan, Göy göl...

Arxan uca, şiş dağlara bağlıdır,
Göy suların bulaqlara bağlıdır.
Baxtın qızıl bayraqlara bağlıdır,
Xəzərə ən kiçik bacısan, Göy göl.

Çökəndə üstünə həzin axşamlar,
Göylərdə göz qırpıb yananda şamlar
Dost kimi baş-başa verəndə şamlar
Sanıram firuzə qaşısan, Göy göl.

Hüsnündür ellərdə dillər əzbəri,
Xəyala dalmısan səhərdən bəri.
Dillənər tarixin səhifələri –
Yuyub qayaları qaşısan, Göy göl.

Sən gərək biləsən səxavətimi,
Adına yazaram söz dövlətimi –
Bu solmaz hüsnünə məhəbbətimi
Qəlbində əbədi daşısan, Göy göl.

Sən elə bilmə ki, qocalıram mən
Ellərin gücündən güc alıram mən.
Hüsnünü seyr edib ucalıram mən.
Gecənin başının tacısan, Göy göl.

## GƏLƏCƏK NƏSİLLƏRƏ

Biz hələlik üz-üzə gəlirik küləklərlə,
Hələlik çox ağırdır Qara-Qumun havası.
Şübhəsiz xeyrimizə qurtaracaq zəfərlə -
Sovet texnikasının quraqlıqla davası.
Hələlik çöllər yanır günəşdən təndir kimi,
İlanlar fışıldayır kol-koslar arasında;
Əl-ayağa dolaşan düyünlü kəndir kimi.
Hələlik bir ağrı var səhranın yarasında,
Bu yaranın adına ellər quraqlıq deyir:
Kəsib atırıq onu zamanın bıçağıyla,
Sağalan xəstə kimi Qara-Qum gülümsəyir.
Necə öyünməsin o, ömrünün bu çağıyla?!
Hələlik toxum kimi bu çöllərə səpirəm
Öz ürək sözlərimi, polad misralarımı.
Hələlik mən xəyalən çiçəkləri öpürəm,
Görürəm gözlərimlə öz dilbər baharımı.
Hələlik mümtəzirdir bir ilk bahara torpaq,
Amansız qumlar axır səhrada sellər kimi
Torpağın ürəyindən ağrısını çəkir bax
Maşınlar xortumuyla qocaman fillər kimi.
Keşikçidir qurğuya günəş dolu gözlərim,
Vəzifəmdən, a dostlar, bezməmişəm hələlik.
Aşır sahillərini dalğa-dalğa sözlərim,
Dünyamızı doyunca gəzməmişəm hələlik.
Hələlik dəyişməyib bu səhrada adamlar,
Könlü istəyən kimi qurğunun simasını.
Hələlik bitirməyib igid, sadə adamlar
Əsrimizin bu yeni, canlı poemasını,
Deyirəm nə olaydı yüz il də yaşayaydım,
Bəzəyəydim zəfərlə mən ayları, illəri.
Danışaydım nağıltək öz həyatımı aydın
Toplayıb ətrafıma gələcək nəsilləri!..
Ey gələcək nəsillər! Xoşbəxt nəsillərsiniz,
Ey əziz nəvələrim, əziz nəticələrim,
Sizin həyatınızçün açdı uğurlu bir iz -

Mənalı gündüzlərim, yuxusuz gecələrim.
Mən ölümdən qorxmuram, bilmirəm nədir kədər...
Yormaz məni bu sonsuz, nəhayətsiz səyahət.
Ömrüm döyüşdə keçdi, etmirəm zərrə qədər
Zəif adamlar kimi yorğunluqdan şikayət.
Yüz i 1 yaşamasam da, gələcək nəsillərlə
Bu dünyaya yenidon gələcəyəm bərabər.
Bəli, o xoşbəxtlərlə mən milyon-milyon illər
Ömr eləyib bərabər, güləcəyəm bərabər...
Ayrılmaz parçasıyam çünki o milyonların,
Muzeylərdə varlığım durmayacaq daş kimi.
Gəzəcəyəm vüqarla arasında onların
Öz şeir pasportumla sadə vətəndaş kimi!

## UNUDULMUR

Unudulmur məna dolu ömür sürüb ölənlər,
Vətənlə bir qəm yeyənlər, Vətənlə bir gülənlər.
Bərəkətli bu torpağın ən dəyərli oğludur –
Çörəyini qara gündə çörəksizlə bölənlər.
Vətənimin havasını uda bilməz doyunca –
Vətən, millet sandığını öz cibləri bilənlər,
Nə xoşbəxtdir xəyanəti, küdurəti, həsədi
Öz ömrünün kitabından, lüğətindən silənlər.
Ey Süleyman, elə yaz ki, sənin odlu nəğməni
Unutmasın səndən sonra dünyamıza gələnlər

## ŞÖHRƏTDƏN DÜŞƏR

Yaxşı məclisdə könül, söhbəl məhəbbətdən düşər,
Dostluğa, qardaşlığa sonsuz sədaqətdən düşər.
Darda meydanda qaçan, ağ gündə cövlan eyləyən
Hər kim olsa, el içində, məncə hörmətdən düşər.
Kim ki, "aləmdə təkəm mən, məndən olmaz" söyləsə,
Şübhəsiz gözdən düşər, bir sözlə şöhrətdən düşər.

Olsa da məddahı minlərlə, nə qəm, tezdən də tez –
Xalqına bağlanmayan sənət təravətdən düşər.
Gör nə xoşbəxtsən Süleyman, ta yüz ildən sonra da
Məclisində söz bu al bayraqlı millətdən düşər.

## MƏNƏ GƏLSİN

Ey ağ günümün aynası, candan əziz oğlum,
Qəlbində qanı dağ sularından təmiz oğlum.

Sən xəstə yatırsan neçə gündür yatağında.
Öpdükcə hərarət duyuram gül dodağında.

Sən göz bəbəyimsən, öz evimsən, eşiyimsən,
İlkim məni tərk etdi, mənim sonbeşiyimsən.

Eşqim, ata qəlbimsə dayanmış keşiyində,
Qan yaşlı gözüm şam kimi yanmış keşiyində.

Vaxtilə bu dünyaya sevindim gəlişindən,
Bağrım qan olur indiki solğun gülüşündən.

Sənsən qurumaz çeşməsi könlümdəki şerin,
Dirçəl, böyü, dəysin vətən, millətə xeyrin.

Gül, bircəciyim, gül, çiçəyim, gül, əməlim, gül.
Yarpaqtək əsir, çünki qələm tutmur əlim, gül!

Sənsiz gülə bilməz bu həyat, gül yenə, yavrum,
Könlümdə özün yaxşı bilirsən, budur arzum: -

Xoş günləri dünyamızın ancaq sənə gəlsin,
Dərdin mənə gəlsin, bala, ağrın mənə gəlsin!

## XƏZƏRİMİN SƏHƏRİ

Günəş doğur, bürünür Xəzər qızıl rənginə,
Qağayılar çığrışıb salamlayır günəşi.
Sakinləri qəhrəman təzə evlərin yenə
Günəşin tellərilə parlayır par-par döşü.
Mənə elə gəlir ki, günəş də insan kimi
Əl-üzünü bizimtək yuyur mavi Xəzərdə,
Xəzər üstdən buludlar yol keçir karvan kimi,
Könlümün təranəsi yüksəlir pərdə-pərdə.
Arzum, diləyim Xəzər, canım, ciyərim Xəzər.
Hamıdan çox mən sənin şıltaqlığına dözdüm.
Mən olmasaydım əgər, sən olmasaydın əgər,
Sən mənə bəzzəməzdin, mən sənə bənzəməzdim.
Yenə Qız qalasının çatılıbdır qaşları,
Yəqin düşüb yadına yenə o qanlı dövran.
Sulardan baş qaldırıb "Səbayel'in daşları,
Ağ saçlı dərviş kimi söz açır babalardan.
Şəhərimin şöhrəti, Xəzərimin vüqan –
Dənizdəki buruqlar gorünür yelkən kimi.
Qayaları çimdirir Xəzərin dalğaları
Anaları körpəsini öpüb çimdirən kimi.

## AĞ ŞANI

Bu körpəcə meynəni, oğlum, öz əllərimlə
Sənin əziz adına basdırıram torpağa.
Bəsləyirəm mən səni nəcib əməllərimlə,
Deyirəm ki, bağban ol bizim bu gözəl bağa.

İllər keçər bu meynə qumların üzərində
Günəşdən qüvvət alıb artar, qol-budaq atar.

Kəhrəbadan seçilməz salxımlar nəzərində,
Ağzında şaqqıldayıb hər giləsi bal dadar.

Bu körpəcə meynəni qoru hər bir zavaldan
Qoy torpaqda kök salıb bərkitsin öz yerini.
Bar verməz əkdiklərin doğru sozümdür, inan –
Qatmasan bu torpağa öz alnının tərini.

Bunun dadlı, ətirli, ləzzətli meyvəsini
Mən yeməsəm də, oğlum, sabah sən yeyəcəksən.
Atarım ünvanına - ucaldaraq səsini
Bu şirin meyvədən də şirin söz deyəcəksən,

## QULAQ AS

Qulaq as bir atana oğlum, Azad
Sənə hörmətli qonaqdır Fərhad.
Oynayın qumların üstündə qəşəng,
Hər zaman biz, sizi bir yerdə görək.
Dirçəlin, bağlanın Azər elinə,
Yollanın mavi Xəzər sahilinə.
Oynayın dalğaların qoynunda,
Qolunuz bir-birinin boynunda.
Xəzərə söyləməyin - qan çanağı,
Suya tez baş vurun ördək sayağı.
Bakının güzgüsüdür mavi Xəzər,
Sevinirsən ona saldıqca nəzər.
Suda qoy bir avar olsun qolunuz,
Baş vurun bir də, var olsun qolunuz!
Yox bu dünyada şirin şey baladan
Ata qəlbisə seçilməz qaladan.
Siz çimin, biz oturaq sahildə,
Vaxt ötüşsün bu sayaq sahildə.
Qorxmayın bilməsə də dil bu dəniz,
Sizdən ayrılmayacaq gözlərimiz!

**XƏZRİ**

Bir anda çapib öz atını əsdi küləklər,
Bağlarda yenə dövrə vurub gəzdi küləklər.

Əsdikcə, budur, yığdı narın qumları çin-çin
(Göstərməliyəm qüvvətimi mən ona bir çin).
Qorxub ana quşlar yuvadan çıxmadı dənçin,
Kal meyvələrin taqətini kəsdi küləklər!

Əncir ağacı! Hər budağın bir dəyənəkdir,
Min zərbə yemiş qoblaların sərt döyənəkdir.
Sən yaxşı bilirsən ki, bu tufan nə deməkdir,
Meyvəndən, əzizim, əlimi üzdü küləklər!

İnsan kimi birdən-birə diksindi ağaclar,
Sandım ki, kökündən qopacaq indi ağaclar,
Yarpaqları milyon dil olub dindi ağaclar,
Son ver bu amansızlığa son, bəsdi, küləklər!

Yarpaq tökülür, bar tökülür, bəlkə xəzandır?
Bağçamda qızılgüllərimin halı yamandır.
Min dil də tökürsən, yenə söz qanmayır andır
Bostanları tapdalayaraq əzdi küləklər!

Öyrən, ey oğul, hadisələr doğmayır heçdən,
Hər şey bu təbiətdə alır əmri günəşdən.
Axırda düşüb bir qoca aslan kimi gücdən
Son dəfə nəfəs çəkdi, həmən kəsdi küləklər!

**XƏZƏRDƏ**

Yelkən kimi ağardıqca qağayılar göy sularda
Dalğalara təmas edir xeyalımın qanadları.
Şıltaq Xəzər sevincindən coşa gəlir ilk baharda
Şahə qalxan dalğalardır yəhərlənmiş ağ atları.

Bu ağ atlar öz belindən qayıqları çırpır suya,
Buraxmayır qayıqçılar dalğaların cilovunu.
Bu amansız vuruşlarda zərrə xətər yoxmuş guya,
Sağ-salamat vurur başa balıqçılar öz ovunu.

Körpəlikdən bu sahilə bağlamışam ürəyimi,
Ürəyimdə bu sahildən canlı, əziz xatirəm var.
Səhər, axşam Xəzərin göy sularına şair kimi
Qələmlə yox, qanadıyla şeir yazır qağayılar!

## XƏZƏRİMİN İMZASI

Xəzərimin, bilirəm, həm qışı, həm yazı var.
Sinəsində səslənən günəş telli sazı var.
Bəzən dönür quzuya, bəzən köpürüb daşır,
Onun ad canlılartək düyünü var, yası var.
Xəzəri duya bilməz, Xəzəri sevə bilməz
Kimin ki ürəyində məhəbbətin pası var.
O mənim qəlbimdədir, Mən onun qəlbindəyəm.
Bizim bu eşqimizdən razı var, narazı var.
Mirvarili sahilin mahnılar kitabında
Xəzərimin əbədi,  pozulmaz imzası var.

## XƏZƏRİN MƏHƏBBƏTİ

Dinlə, a dostum Xəzər, bələdəm bu sirrə mən,
Yarandığın o gündən
Sahil sənə vuruldu, son sahilə vuruldun,
Nə bub sahil yoruldu, nə də ki, son yoruldun.
Hicrandan söhbət açsam, haqqınızda düz olmaz,
Eşqinizə söz olmaz, əhdinizə söz olmaz.
Aya, günə yazılıb vəfanızın mahnısı,
Səfanızın mahnısı.
Yetmisiniz sevginin on mənalı çağına,

Sən onun qulağına, o sənin qulağına
Nələr deməmişsiniz uzun əsrlər boyu,
Sənsiz, onsuz olmayıb el şənliyi, el toyu.
Əlinizlə yazılıb eşqinizin dəftəri
Təmizdir, ləkəsizdir bütün səhifələri.
Belə bir məhəbbətin gülşəni, bağı solmaz,
Deyirəm ki, pis olmaz –
Gənclərə ibrət olsa sizin sədaqətiniz,
Böyük məhəbbətiniz!

## DƏNİZ ŞƏHƏRİNDƏ

Xəzri yenə gurlayır buludlu göylər kimi,
Hədələyir yenidən bizim Neft daşlarını.
Buruqlar bir-birinə həyan ürəklər kimi
Yolur dəli xəzrinin pırtdaşıq saçlarını.
Bu şəhər yaranandan ağı qara görüb o,
Rəngdən rəngə girib o.
Xəzərə basqın edir, Şəhərə basqın edir.
Torpaqdan üzülməyir şəhərin ayaqları,
Qüdrətini göstərir bir daha bu qansıza.
Neftçilər qəhrəmantək qoruyub buruqları
Qoymayır ki, onların biryerindən qan sıza;
Dəqiqələr, saatlar uzanır bir il kimi,
Fəlakətlə üzləşib bu səadət ordusu.
Qarşısına xəzrinin sinə gərib fil kimi,
Tufana üstün gəlir qalibiyyət ordusu.
Köpü yatır xəzrinin, rəngi meyittək solur,
Dəmir qollu şəhərin düşür ayaqlarına.
Bəli, bu yeni zəfər bir yeni mahnı olur
Dəniz buruqlarının qızıl yataqlarına.

Xəzriyə divan tutan cavan şəhərim mənim
Suların ortasında dayanıb qalam kimi,
Bakımın körpəsini - qoy bilsin dost-düşmənim,
Qoruyuram xəzridən öz əziz balam kimi!

**MEYNƏLƏR**

Əkdim sizi dünən özüm, meynələr,
Üstünüzdə oldu gözüm, meynələr!

Çubuğunuz elə bil ki, söz qanır,
Bığlarını eşə-eşə uzanır.
Nə istidən, nə küləkdon usanır,
Yoxdur sizə daha sozüm, meynələr!

Zəhmətimi qoyun alım qələmə,
Quraqlıqda, - bəllidir bu aləmə -
Dibinizə bol su tökdüm selləmə,
Qumlar üstə qaldı izim, meynələr!

Yastığınız Abşeronun qumları,
Mirvaridir sanki onun qumları.
Bilməsə də qayda-qanun qumları
Dözər buna, dözər bizim meynələr.

Sağaldıqca xəzrilərdən yaranız
Qumlar üstdə nəfəs alır qoranız.
Təbiətlə düzələndə aranız,
Gəlin sizə qurban kəsim, meynələr.

O zaman ki, salxımınız xal salır,
Hüsnünüzə insan baxıb mat qalır.
Bostandakı kal qarpızı dərd alır,
Qiymətlidir ondan üzüm, meynələr!

Misilsizdir qara şanı, ağ şanı,
Hərəsinin ayrı-ayrı nişanı.
Hər salxımı bal şanıdır, bal şanı,
Qoy onları özüm üzüm, meynələr!

Kəhrabatək saraldıqca hər gilə
Səbət-səbət göndərirəm yargilə.
Bir bağda ki, güllər gülə, bar gülə
Necə gülməz mənim üzüm, meynələr!

**BİLMƏZ**

Sevginin qədrini bu əsrdə hər kəs bilməz,
Doğru aşiq özünə dərdi, qəmi bəs bilməz.

Kim ki, qəlbilə sənə bağlı deyildirsə, könül,
Gecə-gündüz başı üstündə onun əs - bilməz.

Eşqə biganə olan eylə gözəllər var ki,
Sevirəm söylə, bütün aləmə sal səs - bilməz.

Deyirəm, sevgili cananıma canım qurban,
Can fəda eyləməyən eşqi müqəddəs bilməz.

Rüstəmin onda ki, canan görünür gözlərinə,
İmtahançın sən onun barmağını kəs - bilməz.

**BƏS NƏ DEYİM?**

Sevgilim, mən sənə canan deməyim, bəs nə deyim?
Canıma canına qurban deməyim, bəs nə deyim?

Öz canından, nəfəsindən canıma can verdin,
Gündə min dəfə sənə can deməyim, bəs nə deyim?

Son baxarkən mənə bəzən elə küskün-küskün,
Oldu can mülkü pərişan deməyim, bəs nə deyim?

Dikilib gözlərim həsrətlə vüsalın yoluna,
Gəlməsin könlümə hicran deməyim, bəs nə deyim?

Sən canımsan, ciyərimsən, gül açan baxtımsan,
Olmuşam hüsnünə heyran deməyim, bes nə deyim?

Yanmayan eşq oduna qədrini bilməz eşqin,
Gəl mənim eşq oduma yan, deməyim, bəs nə deyim?

Yox mənim başqa gözəllərdə bilirsən ki, gözüm,

Səni istər bu Süleyman deməyim, bəs nə deyim?

## NEYLƏSİN

Olmasın hicrində bu könlüm pərişan, neyləsin?
Etməsin öz canını qurban, neyləsin?

Gəlməsə şən bəstəkar - nazəndə bülbül gülşənə,
Solmasın badi-xəzanla bu gülüstan, neyləsin?

Gəl, gəl, ey canan, bilirsən ki, könül istər səni,
Dərdimin dərmanı sənsən, gəlsə loğman, neyləsin?

"Gəl, gəl, ey yar!" - söyləməkdən mən yoruldum,
gəlmədin,
Sən özün oldun səbəb hicrana, hicran neyləsin?

Özgə bir gülüzlüyə versəm könül, ey bivəfa,
Sən özündən küs, günahkarsan, Süleyman neyləsin?!

## ÇAĞIR

Sənə üz versə kədər, məclisə cananı çağır,
Ləbləri qönçəni, ol gözləri ceyranı çağır.

Söndürə bilməyəcəksən yenə eşqin odunu,
İstəyirsən köməyə çayları, dəryanı çağır.

Eşqdir, hicrdir, aləmdə vüsaldır məna,
Varsa şübhən buna, isbatına dünyanı çağır.

Sağalar məncə vüsal ilə bu hicran yarası,
Çəkmə zəhmət, nə təbibi, nə də loğmanı çağır.

Səni qəmlər dənizi boğmağa eylərsə hücum,
Özgə bir kimsəni yox, onda Süleymanı çağır!

## SƏN OLMASAN

Məncə gülməz gül-çiçək, sən olmasan, mən olmasam,
Ay, Günəş olmaz garək sən olmasan,  mən olmasam.

Şübhəsiz, sən, mən - bizik, biz - sən, mənəm.
Yox, qanadlanmaz dilək, sən olmasan, mən olmasam.

El, vətən uğrunda biz yollarda qan-tər tökmüşük,
Eşq ilə vurmaz ürək, sən olmasan, mən olmasam.

Möhtəşəm göylərdəki ulduzların dünyasına
Kim vurar min bir bəzək sən olmasan, mən olmasam?

Biz şəhərlər salmışıq, can vermişik torpaqlara,
Süfrəmiz görməz çörək, son olmasan, mən olmasam!

## UZUN SÖHBƏTDƏYƏM

Lovğalıq olmaz desəm aşiq kimi şöhrətdəyəm,
Eşq dünyasında mən az-çox yenə hörmətdəyəm.

Ey nigarım, hüsnünə cansız şerlər yazmadım,
Qəlbi buzdan çox soyuq aşiqlərə heyrətdəyəm.

İl nədir, sonsuz gəlir sənsiz keçən günlər mənə,
Mən vüsal uğrunda hicranla uzun söhbətdəyəm.

Gözlərindən ayrılanda, gözəlim, zənn et ki, mən
Öz elindən ayrı düşmüş bir kəsəm, qürbətdəyəm.

Rüstəməm, eşqim vətəndir, mən vətən övladıyam,
Mən vətən mülkündəyəm, bir söz: deməк cənnətdəyəm.

## VÜSAL

Mən etibar edib o nigarın vəfasına,
Düşdüm məhəbbətin dolaşıq macərasına.

Bir doğru aşiq olduğumu mən sübut üçün
Dözdüm,  zəhərli töhmətinə, hər cəfasına.

Canan! Yetiş haraya dedim, döndü hər sözüm
Hicrində odlu nalə çəkən ney sədasına.

Eşqinlə, ey gözəl çiçəyim, nazlı dilbərim,
Uçdum məhəbbətin sonu yox bir fəzasına.

Mən öz yarımla fəxrə edirəm, Rüstəməm, bəli.
Yetdim vüsali-yarə böyük qan bahasına.

## BƏSDİR, GÖZƏLİM

Məni məftun elədin, ah, bu nə səsdir, gözəlim?!
Bu nə səsdir, nə həvəsdir, nə nəfəsdir, gözəlim?

Mən sənin eşqini qəlbimdə müdam gəzdirirəm,
Sən də könlündə mənim eşqimi gəzdir, gözəlim.

Varlığım, xoş əməlim, güllü baharım sənsən.
Bu ürək sözlərimə şübhə əbəsdir, gözəlim.

Gəl, yaxın gəl ki, alışsın nəfəsimdən nəfəsin,
Soyumaq, məncə, səninçin hələ tezdir, gözəlim.

Sevməyirsənsə əgər gəlmə, uzaqdan-uzağa
Səni görmək yenə də Rüstəmə bəsdir, gözəlim.

## SƏN BAŞQASAN, MƏN BAŞQAYAM

*Biganəyə*

Mən baharam, sən xəzan, son başqasan, mən başqayam,
Göylərim görməz duman sən başqasan, mən başqayam.

Hər şeyə biganəsən, mənsə bütün düşmənlərə
Vermərəm bir an aman, sən başqasan, mən başqayam.

Sözdə, söhbətdə, sədaqətdə, məhəbbətdə, yəqin
Bilməyən yox, hər zaman sən başqasan, mən başqayam.

Etiraz etməz könül, dar gündə təkrar, bir daha
Xalqım etsin imtahan, sən başqasan, mən başqayam.

Mən Süleyman Rüstəməm, bir dost itirsəm cəbhədən,
Od tutar bağrımda qan, sən başqasan, mən başqayam.

## GƏNCƏ

Elə ki, güldü sənin bəxtinə dövran, Gəncə,
Hər yerin, hər bucağın oldu gülüstan, Gəncə.

Bilirəm sənsiz üzüm gülməz, açılmaz könlüm,
Mən ürəkdən deyirəm: can sənə qurban, Gəncə!

Adlanırsan bütün aləmdə gözəllər yuvası,
Olmuşam hüsnünə aşiq kimi heyran, Gəncə.

Dostluğun neğməsi çoxdan bürüyüb göylərini,
Can deyib, can eşidir səndə hər İnsan, Gəncə.

Görməsin bir də oğul dərdi elin mərd anasi,
Çəkməsin ordusunu üstünə hicran, Gəncə!

Şöhrətindir yaraşıq canlı könül dəftərimə,
Ey vətən torpağı, ey ömrü firavan Gəncə.

Əyilib öpdü məhəbbətlə qızıl torpağını,
Sənə hörmətlə qəzəl yazdı Süleyman, Gəncə!

## VƏFALI MƏNƏM

Bilən bilir ki, məhəbbətdə haqq sədalı mənəm
Gözəl zəmanəmizin gərdişindən halı mənəm.

Gəzir yenə təzə aşiqlərin dilində adım,
Həqiqət aşiqiyəm, eşqi macəralı mənəm.

Gözümdəsən gecə-gündüz, dilimdəsən, gözəlim,
Sənin yolunda həmişə başı bəlalı mənəm.

Sevən deməz ki, amandır, əcəl döyür qapımı,
Səni sevənlər içində yenə heyalı mənəm.

Mənə vəfasız adı verməsin vəfasızlar,
Süleymanam, bilir aləm sənə vəfalı mənəm!

## AXŞAMLAR

Qəribəlik görürəm öz-özümdə axşamlar,
Sənin adın çəkilir hər sözümdə axşamlar.

Xəzər kimi danışan görməyəndə gözlərini,
Günəş sönür elə bil ki, gözümdə axşamlar.

Gülər üzündə agər gülməsən mənim üzümə
Kədər buludları oyna rüzümdə axşamlar.

Bu doğrudur, gözəlim, heç kim olmayıb, olmaz
Sənin bu nazlarına mən dözümdə axşamlar.

Süleymanam, sən olunca mənim gözümdən iraq.

Günəş kimi batıram mən özüm də axşamlar.

## QURBAN OLSUN

Sevgilin, məclisə gəl, can sənə qurban olsun.
Könül hicrində pərişan sənə qurban olsun.

Gül, gülüm, gül ki, xəzansız keçirək ömrümüzü,
Gül, baharım, bu gülüstan sənə qurban olsun,

Deyirəm - ayrılığın dərdinə dormansa qanım,
Canımın cövhəri bu qan sənə qurban olsun.

Mənə əvvəlki məhəbbətlə görünsən bir an,
Razıyam varlığım hər an sənə qurban olsun.

Ey nigarım, üzümə, çox demirəm, bir kərə gül
Gündə min dəfə Süleyman sənə qurban olsun!

## CAR ÇƏKDİM

Dünyaya car çəkib dünən öz inqilabımı,
Dəfə etdim əllərimlə bütün iztirabımı.

Dərdim, qəmim və nalələrini qaldı arxada,
Hürriyyətim yoxaltdı mənim min əzabımı.

Göstərmişəm vəsiqə kimi hər diyarda mən
Həm şeri, həm də nəğməsi al hər kitabımı.

Bilsin bu yer üzündəkilər, mən Süleymanam,
Xalqın adıyla köklənmişəm öz rübabımı.

# SEVGI YARPAQLARI

## HƏYAT YOLDAŞIMA

Bu həyat yükünün öhdəsindən mən
Heç gələ bilməzdim sən olmasaydın.
Deyirəm, kim bilir, bəlkə bu qədər
Sevilə bilməzdim sən olmasaydın?

Eşqin möcüzələr yaratdığını,
Mən bilə bilməzdim sən olmasaydın.
Ömür kitabından dərdi, kədəri
Tək silə bilməzdim sən olmasaydın.

Yaxşı ki, sən varsan mənim yanımda
Mən gülə bilməzdim sən olmasaydın,
Birgə yaşamağın gözəlliyini
Mən belə bilməzdim sən olmasaydın!

## GƏLMƏ

Yazırsan "ayrıldım mən rəqibindən,
Gəlirəm" - yox, gəlmə, amandır, gəlmə,
Çəkdiyim əzablar qaldi arxada,
Səni unutmuşam haçandır, gəlmə!

Sən fil qüdrətini çibində gördün,
Eşqi sevgilinin cibində gördün.
Mənisə həyatın dibində gördün,
Hər kəlmən, hər sözün yalandır, gəlmə.

İstəyirsən ağla, istəyirsən gül,
Sənin məhəbbətin məhəbbət deyil.
Sadə bir gözələ vermişəm könül,
Qəlbimdə sevincim ümmandır, gəlmə!

## YÜNGÜL OLMAZ

Hər kəsdə belə şirin dil olmaz,
Hər kəlməsi bir qızılgül olmaz.
Mən ki sevirəm səni ürəkdən,
Bir dərdli günüm dönüb il olmaz.
Hər kim yaşasa özüyçün ancaq,
Xoşbəxtliyə, məncə, nail olmaz.
Yansa ürəyin vətənçün, elçün,
Arzun, əməlin yanıb kül olmaz.
Bir gün belə olmasa yanımda
Hicran yüküm heç də yüngül olmaz.
Gülsən mənim eşqimin bağında
Gül olmasa, bağda bülbül olmaz!

## SÖNMƏYİB

Sənə öz konlünü  verdim, səni candan sevdim,
Sevgimə olmadı əngəl dəli hicran, sevdim.
Bağladım vəcdə gəlib hüsnünə şerimlə kitab,
Bu yolun yolçusutək dərdə dözüb çəkdim əzab.
Sənə öz qəlbimi açdım, sənə min dil tökdüm,
Eşqimə gülləri, bülbülləri şahid çəkdim.
Səni sevdimsə də, heyhat, üzümə gülmədi baxt.
Adına nəğmə qoşarkən gecə-gündüz bir vaxt,
Elə zənn etmə ki, səndən diləyirdim sədəqə,
(Eşqi dünyada, inan, istəməz heç kim sədəqə).
Duymadın qəlbimi əsla, de görüm, mən nə edim?
Niyə küsdün? Sənə bir güldən ağır sözmü dedim?
Solmadı, yox, bu məhəbbət, bu çiçək könlümdə.
Sönməyib, yox, hələ könlümdəki eşqin həvəsi.

## MƏKTUB

Bir zaman qəlbimə yazdım adım
Onda bildim acı dərdin dadını.
Məni əvvəlcə sevirdin, ey qız:
Mənə üz sonra çevirdin, ey qız!
Doğrusu, sadəcə bir qızdın əzəl,
Sonra aldatdı səni başqa əməl.
Duymadın qəlbimi, heyhat, heyhat...
Sənə yad gəldi bu mənalı həyat.
Bəzədin üst-başını, göz-qaşını,
Bu çətin yolda itirdin başını.
Alışan eşqimi saldın ayağa,
Mənə çox güldün uzaqdan-uzağa.
İzləyib mən səni bir kölgə kimi
Etdim uğrunda fəda gəncliyimi.
Sənə xoş gəlmədi yoxsul otağım!..
Söylədin: "Bir daha dəyməz ayağım
Bu kədər, qəm dolu boş daxmana, yox!"
Hər sözün oldu mənimçün bir ox.
Hələ çox şey düşəcəkdir yadıma.
Can deyib sevmədiyin bir adama,
Bağladın könlünü - var-dövlətə sən,
Məni saldın yenidən heyrətə sən.
Var mənim, var dözümüm hər dərdə,
Məni bəzən görərək pəjmürdə
Sanma dünyadan üzülmüşdür elim,
Yanılırsan, a vəfasız gözəlim!
Keçdi karvan kimi aylar, illər,
Axdı dəryalara çaylar, sellər.
Dəyişib xeyli gözəlləşdi vətən,
Düşdün haldan-hala, soldun sən.
Hanı əvvəlki camalın, söylə,
Təntənən, cahi-cəlalın, söylə?!
Hanı dövəndəki gənc məftunlar,
Sənə min nəğmə qoşan məcnunlar?

Hanı əvvəlki o şan qəhqəhələr?
Səsi dünyaya düşən qəhqəhələr?
Sanma ki, sirrini şair bilmir,
Gözlərin gülsə də qəlbin gülmür.
Bilirəm heç də deyilsən xoşbəxt,
Çox peşiman olacaqsan bir vaxt.
Gələcəksən qapıma boynubükük,
Dərdli qəlbində əzablar dolu yük.
Gələcəksən yanıma dərdinlə,
Bu gəliş gec olacaq, bir dinlə -
Onda sən görməyəcəksən məni tək.
Dönəcəksən geriyə inləyərək.
Tökəcəksən yenidən göz yaşını,
Bəlkə, heyhat, yolacaqsan saçını.
Görməyirsən bunu sən, mən görürəm,
Hüsnünü bəxtinə düşmən görürəm,
Hələlik fəxr elə, mən çünki müdam,
Səni həsrət ilə xatırlayıram.
Ayrılıq sıxsa məni məngənədə,
Ey vəfasız, sənin eşqin yenə də
Bir şirin can kimi bağrımda yaşar,
Dərdli bağrımdakı ağrımda yaşar!

## DÖNSƏM

Arzum gül açır mən sola dönsəm, sağa dönsəm,
Eşqim dil açır mən sola dönsəm, sağa dönsəm.
Söz yox ki, bu torpaq verəcək şerimə qüvvət,
Vaxtında bu torpaqda əgər torpağa dönsəm.
Torpaqda da şair gözümün nuru azalmaz,
Qoynunda gözəllər gəzişən bir bağa dönsəm.
Baxtım açılar, Tobrizi görməkçİn uzaqdan,
Dostum Savalantək qocaman bir dağa dönsəm.
Şair kimi, Rüstom kimi, xoşbəxt olaram mən,
Bir əldə nümayiş günü al bayrağa dönsəm.

## VƏSİYYƏTVARİ BİR ŞEY

Təkcə balam, yaxın gəl, yaxşı qulaq as mənə,
Qoy söyləyim atamdan nə qaldı miras mənə.
Əlli il dəmir döyən polad çəkic, bel, mişar,
Arzumuzdan yaranmış bu dövlətə etibar.
Anam torpağa hörmət, xalqa dərin məhəbbət,
Bu yorulmaq bilməyən qollarımdakı qüvvət!
Bunlarsız yaşamazdım həyatda bir gün belə,
Düşməzdi şair adım bunlarsız dildən-dilə.
Oğlum, gözün yaxşını, yamanı yaxşı seçsin,
Qoy bu sadəcə miras məndən də sənə keçsin!

## APARSIN

Vəslin evinə qoy məni hicranım aparsın,
İllər boyu hicr ana dözən canım aparsın.
Düşmən başına öldürücü zərbəmi hər an
Nifrət dolu, lənət dolu tufanım aparsın.
Mən dostluğa and içmişəm, al bayrağın altda,
Dost ölkələrə eşqimi karvanım aparsın.
Hər yerdə ki, bir sevgi, vüsal cəbhəsi varsa,
Söz ordumu ön səngərə vicdanım aparsın.
Bir gün gözümü yummalı olsam bu həyata
Gəlsin, məni son mənzilə cananım aparsın!

## BARIŞA BİLMƏZ

Ey afət, sanma ki, yaralı könlüm,
Dərdini aləmə danışa bilməz.
Onu bilirəm ki, vəfasızlarla
Ömürlük qaynayıb-qarışa bilməz.
Sinəmə dağ çəkdi sənin hər sözün,
Nələr çəkdiyimi görmədi gözün.

Eşqimin odunu söndürdün özün
Məncə o bir daha alışa bilməz.

Gəl dedim, gəlmədin köməyimə sən,
Qar tökdün gülümə, çiçəyimə sən.
Yaman yara vurdun ürəyimə sən.
Yox, yox, o səninlə barışa bilməz!

## KƏS, BİLMƏZ

Sevginin qədrini bu əsrdə hər kəs bilməz,
Doğru aşiq özünə dərdi, qəmi bəs bilməz.
Kim ki, qəlbilə sənə bağlı deyildirsə, könül.
Gecə-gündüz başı üstündə onun, əs, bilməz.
Eşqi əyləncə bilən nazlı gözəllər var ki,
"Sevirəm" söylə, bütün aləmə sal səs, bilməz,
Deyirəm, sevgili cananıma bu can qurban,
Canı qurban deməyən eşqi müqəddəs bilməz.
Rüstəmin onda ki canan görünür gözlərinə,
İmtahançın sən onun barmağını kəs, bilməz!

## SÜLEYMAN NEYLƏSİN?!

Olmasın hicrində bu könlüm, pərişan, neyləsin
Etməsin öz canını canana qurban, neyləsin.
Gəlməsə gül eşqinə sevdalı bülbül gülşənə,
Solmasın şən nəğməsiz gülşən, gülüstan, neyləsin?
"Gəl-gəl, ey yar" söyləməkdon mən yoruldum, gəlmədin,
Sən özün oldun səbəb hicrana, hicran neyləsin?!
Özgə bir gülüzlüyə versəm könül, ey bivəfa,
Sən özündən küs, günahkarsan, Süleyman neyləsin?!

**GET**

Əbədidir bu gözəl, ülvi məhəbbət məndə,
Məncə, səndədir, əzizim, bu təbiət məndə.

Səni son mənzilədək gözləyəcəkdir bu könül,
Eşqinə olmayacaq zərrə xəyanət məndə

Ölkə, xalq gəzdirəcək sözlərini qəlbində,
Günbəgün artacaq hər nəğmənə hörmət məndə.

Görürəm, hiss edirəm, ölməyəcəksən, bilirəm,
Dözərəm hicrinə, varkən bu həqiqət məndə.

Get, zəfərlərlə qayıt, ölmə, Süleymanım, get,
Get fəqət qoy ürəyin qalsın əmanət məndə.

**YADDAŞ**

Vaxt gələndə,
Mən öləndə,
Məni Vətən torpağına təntənəsiz basdırın,
Sevməyənlər gendə dursun, sevənlər, siz basdırın.
Arzum budar məndən sonra ölüm-itim olmasın,
Dostlarımın qəlbi qəmlə, gözü yaşla dolmasın.
Həyat daha gözəlləşsin, gülsün bağlar, bağçalar,
Ruhum gəzsin çiçəklərlə əldən-ələ hər bahar.
Namərd ölüm qapı-qapı dolaşmaqdan usansın,
Dünyamıza məna verən insan ömrü uzansın.
Ulduzlara gedib-gəlsin peykimizin karvanı,
Al bayraqlar öpsün bütün dünyanı.
Xəzərimin dalğaları xatırlatsın şerimi,
Sahildəki gözəllərə gül tək atsın şerimi.
Əzəmətli doğma Bakım min qat qəşəng görünsün,

Körpələrin baxışları şəfaqlərə bürünsün.
Öz qəlbində gəzdirərək qəlbinıdəki odumu,
Başdaşıraa o tək balam yazsın mənını adımı.

## ÇAĞIR

Sənə üz versə kədər, məclisə cananı çağır,
Dodağı qönçəli, ol gözləri ceyranı çağır.

Eşqdir, hicridir, aləmdə vüsaldır məna,
Varsa şübhən, bunun isbatina dünyanı çağır.

Söndürə bilməyəcəksən yenə eşqin adını,
İstəyirsən köməyə çayları, dəryanı çağır.

Sağalar məncə, vüsal ilə bu hicran yarası.
Zəhmət çəkmə, nə təbibi, nə də loğmanı çağır.

Səni qəmlər dənizi boğmağa eylərsə hücum,
Özgə bir kimsəni yox, təkcə Süleymanı çağır!

## RƏQS EDİR

Qoy bütün aləm gəlib görsün, nigarım rəqs edir.
Rəqs edir dünya gözümdı, iftixarım rəqs edir.
Söylıyin bülbüllərə sussun, bir anlıq ötməsin,
Hüsnü dülbər əzbəri, şux nəğməkarım rəqs edir.
Seyr edir qəmsiz, xəzansız ömrümün gülzarını,
Könlümün mülkündə solmaz ilk baharım rəqs edir.
Gəlməmək ilhama, pərvaz etməmək mümkün deyil.
Nazəninim, dilbərim, eşqim, vüqarım rəqs edir.

Görməyib ellər məni onsuz, onu mənsiz bir an,
Ağ günümdə, şad günümdə etibarım rəqs edir.
Mən Süleyman Rüstməm, xoşbəxtlərin xoşbəxtiyəm,
Sərvərim, peyğəmbərim, "pərvərdigarım" rəqs edir.

## BƏLKƏ DƏ...

Zəhmət eşqindən gələn namuslu ad-san yaxşıdır.
Min kərə "mən-mən" deyəndən sadə insan yaxşıdır.

Bərbəzəkdən başqa bir şey bilməyən nazəndədən
Qəmsiz, rəngsiz gözəl, ismətli canan yaxşıdır.

Eşqdir mənası bu ağ günlərin, xoş günlərin,
Sevgiyə yad bir vüsaldan məncə hicran yaxşıdır.

Bir əsr mənasız ömr etməkdən, ey dil, şübhəsiz,
Millətə xidmətdə ən mənalı bir an yaxşıdır.

Kim bilir, eşq aləmində, doğruluqda, sevgilim,
Çoxlarından bəlkə də şair Süleyman yaxşıdır!

## GÖZƏLLƏR GÖZƏLİNƏ

Eşqini qəlbinə bəxtim kimi yazmış öz əlim, -
Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim!

Üzünü görmədiyim hər günümə gün demirəm,
Küsmə, ünvanına bu sözləri küskün demirəm.
Sənə Leyla, özümə yaxşı ki, Məcnun demirəm.
Gəl gülüm, gəl çiçəyim, gəl ki mən ilhama gəlim,
Sən gözəllər gözəlindən də gözəlsən, gözəlim!

Səndən öyrəndi bahar nəğmələrin nəğməsini,
Yaydı dünyamıza xoş nəğmənin hər kəlməsini.
Doymaram min kərə, hər gün mən eşitsəm səsini,
Çəkirəm car, bunu bilsin vətənim, bilsin elim,
Son gözəllər gözəlindon də gözəlsən, gözəlim!

Dikirəm gözlərimi hər zaman, hər an yoluna,
De görüm, kim ötürübdür səni hicran yoluna,
Hardasan, gəl bu vüsal adlı Süleyman yoluna,
Gəl, gəl, etsin yenə pərvaz gözəl arzum, əməlim,
Sən gözəllər gözəlindan də gözəlsən, gözəlim!

## BİLMƏDİN SƏN QƏDRİMİ

Bilmədin sən qədrimi, ey nazli canan, bilmədin
Çəkdi min dərd, min cəfa hicrində bu can bilmədin.
Bilmədin sənsizliyindir qəlbimə odlar salan,
Bağrıma dağlar çəkən hicranı hicran bilmədin,
Sevgi dünyasında mən heç vaxt vəfasız olmadım,
Ömrümü verdim sənin uğrunda qurban, bilmədin.
Eşqimin təxtində fərman verdi hər gün ayrılıq,
Can evimdə əsdi yellər, qopdu tufan, bilmədin.
Od tutub yandım Kərəmtək, yanmadın heç halıma,
Bilmədin, sənsiz deyib-gülməz Süleyman, bilmədin.

## GƏL

Sevgilim, məclisə gəl, çünki məhəbbət dəmidir.
Görkəmin incə, gözəl nazlı galin görkəmidir.

Gül, danış, rəqs elə, bu məclisə can gəlsin qoy.
Hər sözün, hər baxışın aşiqə can məlhəmidir.

Mən səninçün, vətənimçün keçərəm canımdan,
Bu sözüm, sevgili yar, sözlərin ən möhkəmidir.

Bilirəm mən bu həyat dalğalı bir dəryadır,
Eşqimiz hər qocaman dalğaya qalib gəmidir.

İç, Süleyman, dilə gəl, çünki piyaləndəki mey,
Bülbülün göz yaşıdır, qönçə gülün şəbnəmidir.

## DEYİRLƏR

Aşiq olanın bağrı dönər qanə deyirlər,
Atəşdə yanan aşiqə pərvanə deyirlər.
Dost-aşnanı öyrən, baxıb ətrafına könlüm, -
Hər addımını, eybini cananə deyirlər...
Aç qəlbini cananına göstərki, inansın,
Bilsin, nə deyirlər ona, əfsanə deyirlər.
Ey nazlı nigar, sən mənim eşqim, həvəsimsəm,
Eşq atəşidir, can verən insana deyirlər.
Mən fəxr edirəm, çünki əleyhimdə nə varsa,
Səntək gözələ, gözləri ceyrana deyirlər.
Məndən sənə, ey gül, nə deyirtorso, inanma,
Səndən də gəlib gündə Süleymana deyirlər.

## SƏNİ İSTƏR

Könlüm yenə min şövq ilə, canan, səni istər,
And olsun əziz canına ki, can səni istər.

Çəkməz ətəyindən əlini, çəksə də hicran,
Eylər canını canına qurban, səni istər.

İlham alıram incə səsindən, nəfəsindən,
Tək mən deyiləm, şanlı bu dövran səni istər.

Sən qəlbi təmiz, alnı açıq şux gözəlimsən,
Ellər də olub hüsnünə heyran, səni istər.

İşdir, mənə üz versə faraqında kədər, qəm
Könlüm yenə də dərdinə dərman səni istər.

Gün keçsə, zaman keçsə, vəfasız belə olsan,
Əvvəlki məhəbbətlə Süleyman səni ister!

**SON MƏKTUB**

Yenə canlandı əski xatirələr,
Yenə gördüm önümdə sevgilimi.
Məni gəl dinlə sən, inan ki, əgər
Yaşasaydıq səninlə birlikdə,
Kim bilir bəlkə, kim bilir bəlkə,
Uçurumlarda məhv olardım mən.
Son həqiqət deyil də, bir kölgə -
İdin, ey bir zamanlar istədiyim.
Səni təsvirə qalmayıb rəngim,
Mənə sən indi bir yabançı qadın,
Bir yabançı çiçək tikanlıqda...
Çox öyünmə, gözəl deyilsən sən,
Rəngli dırnaqların parıldasa da,
Ürəyin vəhşi, kimsəsiz bir ada.
Rangi solmuş dodaqlarında sənin
İndi artıq, təbəssümün gülü yox.
Ürəyin bir otelsə, ey afət.
Nə üçün arda, söylə, sevgili yox.
Bərbəzəkdi sənin böyük dərdin
Heç anırsanmı, daim istərdin,
Olsun əynində şəhvət əlbəsəsi,
Yeriyirkən ipək ətəklərinin –
Şərqilər söyləsin ipəkli səsi!
Vurmasın qəlbi puç diləklərinin!
Səni mən səslədim həyata, gözəl,
Sən tüpürden bu kainata, gözəl.
Elə zənn eylədin ki, təkbaşına,
Güvənib öz bəzəkli daş-qaşına,

Olacaqsan yeganə bir dilbər.
Dolaşıq yola düsdün oldu hədər.
Harda qaldı o komsomol, harda,
O günəşli, o doğru yol harda?
Bir zamanlar həqiqətimdin sən,
Keçdi artıq o dəmlərin, keçdi.
Can evindən cavanlığın köçdü,
İndi artıq zavallısan, heyhat,
Sənə biganədir bizim bu həyat!

**YADIMA DÜŞDÜ**

Xatirat dəftərim durur qarşımda,
Dolaşır bir ölməz sevda başımda.
Gözəl Qarabağda cavan yaşımda
Bir gözəl seçdiyim yadıma düşdü.
Gəzdik Qarabağı qolum qolunda,
Varımı, yoxumu görürdüm onda.
Bu şair qəlbimlə onun yolunda
Min dərdə düşdüyüm yadıma düşdü.
Könlümün arzusu diləyiydi o,
Nazli mələklərin mələyiydi o,
Gözümdə göyçəklər göyçəyiydi o
Buna and içdiyim yadıma düşdü.
O məndən xəbərsiz köçdü yaylağa,
Bəxtimdən nigaran, soraq-sorağa –
Qəlbimdə ilk yara, yar koçən dağa
Yığışıb köçdüyüm yadıma düşdü.
Uçdu bir sonatək eşqin gölündən,
Adı bu aşiqin düşməz dilindən.
İsa bulağında onun əlindən
Su alıb içdiyim yadıma düşdü.

Məndən uzaq gəzdi nədənsə, aman,
Ayrılıq ölümdən yamanmış, yaman.
Hər gün evlərinin lap qabağından
Titrəyib keçdiyim yadıma düşdü.

## O SƏNİN ÜRƏYİNDİR

İllərcə bu köksümdə solmayan bir çiçək var,
O sənin çiçəyindir, o sənin çiçəyindir!
Gözəllik aləmində gözəllik axtarıram,
O sənin diləyindir, o sənin diləyindir!

Ürəyim həsrətində od tutub alışanda,
Sevgilim, qorxuram ki, can qalmasın bu canda.
Sinəmdə bir sərinlik hiss edirəm bu anda,
O sənin biləyindir, o sənin biləyindir!

Yalanın, çirkinliyin girmədiyi bir ev var,
Qapısını bir kərə nə boran döyüb, nə qar.
Öz aramızda qalsın bu sirr, ey gözəl nigar,
O sənin ürəyindir, o sənin ürəyindir!

## PİYALƏ ŞƏKLİNDƏ

Gələndə məclisə mey əldə lalə şəklində,
Nigarım aytək olur, mənsə halə şəklində.
Ürək qanımla yazıb sönməyən məhəbbətimi,
Nigarə söyləyirəm odlu nalə şəklində.
Vəfalı könlünə bir yol tapan zaman şerim,

Gözündə nəm gorürəm, inci, jalə şəklində.
Mən aşiqəm, beləyəm mən, hər aşiqanə sözüm
Coşub axır, ürəyimdən şəlalə şəklində.
Sevin, sevin ki, Süleyman, əlində sevgilinin
O, qan olan ürəyindir piyalə şəklində.

## QƏRİBƏ TANIŞLIQ

Bizi tanış etdilər, çox xoşuma gəldi qız,
İncə gülüşləriylə gözümdə yüksəldi qız.
Öz-özümə dedim ki, onsuz yaşamaq nədir.
Qaçdı gözümdən yuxu, ala bilmədim çimir.
Göz gördü, könlül sevdi, nəydi mənim əlacım,
Qürurum az qaldı göylərə dəysin başım.
Gəlib bir gün cürətə dedim: "Sevirəm səni,
Sən hələ bundan belə tanıyacaqsan məni.
Gələcəksən üz-üzə sən öz həqiqətinlə,
Doludur qəlbim sənin təmiz məhəbbətinlə!'"
Dedi: "Bilirəm bunu,dal günçün nəyimiz var,
Ayda orta hesabla gəlirin nə qədərdir?!"
Arzuların bir  anda oldu bütün tarımar,
Bildim ona bir daha soz söyləmək hədərdir.
İlan vuranlar kimi qovruldum öz yerimdə,
Ürəyimin başına elə bil od basdılar.
O gözəlin adını ənim nəzərlərimdə
Qurumuş bir ağacın kötüyünə yazdılar.

## QUBALI QIZ

Şah dağın əsən yellər saçlarını darasın,
Səni sevinən Qudyalçayın  sahilində arasın.
Dilin ana torpağının meyvəsindən şirindir,
Məhəbbət ürəyimdə dəryalardan dərindir.

### Nəqarat

Sən ömrüm çiçəyisən, qubalı qız, qubalı,
Göyçəklərin göyçəyisən, qubalı qız, qubalı.
Nəfəsindən uram motı çiçəklərin ətrini,
Bu dünyada mənim qədər bilən hanı qədrini?!
Şöhrətini uldualara, aya, günə yazmışam,
Surətini məhəbbətlə ürəyimdən asmışam.

Nəqərat

Sən ömrümün çiçəyisən, qubalı qız, qubalı,
Göyçəklərin göyçəyisən, qubalı qız, qubalı.

Xəzan bilməz ömrümüzün bu mənalı çağında
Gül, həmişə bahar gülsün eşqimizin bağında.
Canan desin gecə-gündüz mənim ürək tellərim
Ağ göyərçin əllərindən ayrılmasın əllərim.

Nəqərat

Sən ömrümün çiçəyisən, qubalı qız, qubalı,
Göyçəklərin göyçəyisən, qubalı qız, qubalı.

## BİR GÖZƏLİN XATİRATINDAN

Yox, belə deyildim, gülməyin mənə,
Bir zaman gözəllər gözəliydim mən.
Çoxunun sözündə, gözündə, bəli,
Bütün gözəllərin əzəliydim mən.
Artıq illər keçib, ağarıb başım,
Alnımda cığırlar salıbdır yaşım.
Nəvə əlləriylə daranır saçım,
Arxada qalmışdır o çağım indi.
Xatirələr olur, qonağım indi.
O da yadımdadır, güllü bir yazdı,
Bir şair hüsnümə şeir də yazdı
Onu medalyontək boynumdan asdı.
Görəsən o şair hardadır indi,
Sanmasın bu qan dardadır indi.
Nəsillər dalınca nəsillər gəlir,
Dövrəmdə nəvələr oynayıb gülür.
Onların dilini nənələr bilir,
Bilirəm mən kimə gərəyəm indi,
Məsum körpələrə ürəyəm indi.

Verərək baş-başa düz ürəyimlə,
Söhbət eləyirəm öz ürəyimlə
Şairin gözündə "buz" ürəyimlə
Yəqin nə çiçəyəm, nə güləm indi,
Gözəllər gözəli deyiləm indi!

## O DƏMLƏR GETDİ

Ömrün cavan çağı qaldı arxada, C
an alıb, can verən sənəmlər getdi.
Cananın canına can qurban deyib,
Çəkdiyim ələmlər, sitəmlər getdi.
Sevgilim, bəxtimi görüb adında,
Yolunu gözlərdim, varmı yadında?
Yağışlar altında, qarlar altında,
Getdi o saatlar, o dəmlər getdi!

## VARDI

Mənim cananımın bir vaxtı vardı
Günəşdən, aydan üstün baxtı vardı.
Könül məclislərində, el bilir ki,
Gümüşdən yox, qızıldan taxtı vardı.
Süleyman Rüstəmin könlündə bir vaxt
Məhəbbət adlı bir paytaxtı vardı.

## ÖMRÜMƏ YAZMASINLAR

Mənə elə gəldi ki, sənsiz keçinərəm mən,
Yanıldım, ey sevgilim, qəlbimdən köçmədin sən.
Gecələr gözlərimdən şirin yuxum çəkildi.
Nigaran baxışlarım eyvanına dikildi.
Ürəyini oxudum kitabtək varaq-varaq,
Əsgərtək küçənizdə aramsız döydüm ayaq.

İncə yarpağa döndü kobud çəkməmin altı,
Sandım ki, sənsən gələn görüncə bir qaraltı.
Yol çəkən gözlərimlə daradım yollarını,
Aradım yollarını.
Gəl bu hicran selinin qabağını kəsək biz,
Gəl, gəl, bir-birimizçün yarpaq kimi əsək biz,
Adımızı o dilsiz daşlara yazmasınlar,
Sənsiz keçən günləri ömrümə yazmasınlar.

**BU GECƏ**

Gəlmədin məclisimə, sevgili canan, bu gecə,
Can evimdən elə bildim ki, köçüb can, bu gecə.
Çox düşündüm səni, sənsizliyə dözmür bu könül,
Çəkdi qəm ordusunu üstümə hicran, bu gecə.
Gəlmiş olsaydın əgər məclisə, təbrizli gözəl,
Ayağın altda kəsərdim neçə qurban, bu gecə.
Nə deyim, mən nə deyim ayrılığın baisin,
Qaldı sənsiz, gözü yollarda Süleyman, bu gecə!

**YANDIM**

Mən könlümə həmdəm səni sandım.
Saymazyana keçdin göz önümdən,
Yandım, elə yandım, elə yandım!

Sahildə ayaq izlərimiz var,
Son eşqinə and içdin o yerdə.
Hər kəlmənə qəlbimlə inandım.

Heyhat, niyə, qəlbimdəki odlar
Sönmür, yenə sönmür, yenə sönmür?!
Gəl sanma bu yanmaqdan usandım.

Saymazyana keçdin göz önümdən
Yandım, elə yandım, elə yandım!

## ÜRƏKSİZ GETMƏ

Sevdiyin gözəlin ilk görüşünə
Sən çalış əliboş, çiçəksiz getmə!
İlk görüş sevginin ilk nəğməsidir,
Çiçəksiz getsən də, ürəksiz getmə!

## QOY SEVMƏSİN

Küsdü yar məndən, nəhayət, sevməyir qoy sevməsin,
Eyləməz könlüm şikayət, sevməyir qoy sevməsin.
Sanmasın canan onunçün gözlərim qan-yaş tökər,
Tapmaram onsuz səadət, sevməyir, qoy sevməsin.
Bir böyük aşiqdən öyrəndim, həyatda çox zaman
Vəslə yaddır ilk məhəbbət, sevməyir qoy sevməsin.
Çatdırın, dostlar, vəfasız dilbərə son arzumu,
Çəkməsin eldən xəcalət, sevməyir qoy sevməsin.
Şerə verdim könliirnü. şair Süleyman Rüstənıəm,
Bilmərəm bir özgə şöhrət, sevməyir qoy sevməsin!

## YAZMIŞAM ADINI

Söyləmə, sevgilim, vəfasız mənə,
Mən ki, yad edirəm hər zaman səni.
Qəlbimdən bircə an qopara bilməz
Nə boran, nə tufan, nə hicran səni.

Deyirəm hüsnünü gülşəndə görüm,
Könlümə həsrətin düşəndə görüm.
Ömürlük anamız Vətəndə görüm
Görməyim pərişan, bağrı qan səni.

Yazmışam adını günə, aya mən;
Düşmüşəm eşq adlı bir sevdaya mən.
Səninçün gəlmişəm bu dünyaya mən,
Mənimçün yaradıb yaradan səni!

## AYRILIQ

Hicran daşı vurdun kürəyimdən,
Atdın məni, atdın məni, atdın.
Mən şəklini asdım ürəyimdən.
Fikrimdə, xəyalımdasan hər an,
Sənsiz də sənin ətrini duydum
Bağçamda gülümdən, çiçəyimdən.
Çıxdım yola vəslin həvəsiylə,
Hər yoldan ötəndən səni sordum,
Əl çəkmədi hicran ətəyimdən.
Atdın məni, atdın, məni atdın,
Mən şəklini asdım ürəyimdən.

## GÖZƏLLƏR

Xəzər sahilinə gözəllik verən
Gözəl şəhərimin gözəlləridir.
Ağaclar altında oxuduqları,
Vaqifin, Vahidin qəzəlləridir.

Bəzəyi-düzəyi bu xoşbəxtlərin
Ürəklərindəki əməlləridir.
Sözləri, işləri zəmanəmizdə
Əbədi bir eşqin təməlləridir.
Özlərinə gözəl bir dünya quran
Bizim gözəllərin öz əlləridir.

## İTİRMƏK İSTƏMİRƏM

Üzünü görmədiyim illər gəlib ötüşdü,
Bəxtimə bax, nəhayət, vüsal vaxtı yetişdi.
Qoy bilməyən də bilsin, tapdım, nə tapdım səni,
Ayrılığın amansız əlindən qapdım səni.

Artıq ürəyimdəsən,
İnan ki, bir daha mən
Səni hicran yoluna ötürmək istəmirəm,
İtirmək istəmirəm, itirmək istəmirəm!

## İLK MƏHƏBBƏT

Sevib, sevilənlər çox gözəl bilir,
Olmayıb vəfası ilk məhəbbətin.
İzləyir aşiqi son mənzilədək
Şirin macərası ilk məhəbbətin.
Mənim dediklərim şikayət deyil,
Ürəklər yandıran hekayət deyil.
Həqiqi aşiqə kifayət deyil.
Tükənməz cəfası ilk məhəbbətin.
Sevgisiz gül-çiçək bitməz, ey könül,
İnsan muradına yetməz, ey könül.
Nədəndir bilmirəm getməz, ey konül,
Başımdan sevdası ilk məhəbbətin?!
Bu dərdə neyləsin loğmanın əli?
Əlimə dəyməmiş cananın əli,
Döydü qapımızı hicranın əli,
Budurmu mənası ilk məhəbbətin?!
Mən onu sevmişdim bir ilk baharda.
O məni tərk etdi boranda, qarda.
Hər yara sağalıb, unudular da,
Sağalmaz yarası ilk məhəbbətin!

## QALSIN

Sevgilim, qoyma dilimdə nə şikayət qalsın,
Nə də könlümdə, gözümdə acı həsrət qalsın.
Gəl vəfasız, demə, bəsdir, səni candan sevənə,
Qoymaram bir daha üstümdə bu töhmət qalsın.
Bir gözəlsən ki, gözəllər sənə dikmiş gözünü

Deyirəm, ölkədə haqqında bu söhbət qalsın.
Son verək gəl bu şikayətlərə; səndən, məndən,
Dərdə dözmək cavan aşiqlərə adət qalsın.
Varsa şübhən sözümə, onda buyur, al, gözəlim,
Ürəyim qəbrə qədər səndə əmanət qalsın.
Gəl, Süleyman o qızılgül dodağından öpsün,
Torpaq altında da ağzında bu ləzzət qalsın!

## DİL NİYƏ VERDİN?

Deyirsən: "Sevmirəm, çəkil yolumdan..."
Bəs keçən il mənə dil niyə verdin?!
İlk bahar çağında çıxıb qarşıma,
Qızara-qızara gül niyə verdin?!

Gəl oxu eşqimin can kitabını,
Qırma, ürəyimin qırma, sapını.
Bir zaman üzümə açıb qapını
Güllü bağçanızdan yol niyə verdin?

Dindirsəm bu yerdə indi hər kimi,
Deyəcək dərdimin sənsən hakimi.
Əgər sevmirdinsə, xatirə kimi
İpək saçlarından tel niyə verdin?

## AH, O GÖZLƏR, O GÖZLƏR

Ah, o gözlər, o gözlər
Xəzər kimi ləpəli.
Mən ki sənə sadiqəm
O gözlərdən öpəli.
Qoy məni tənqidçilər
Tutsun tənqid topuna.
Mən yenə əvvəlkitək
Gələcəyəm qapına!

## NƏ DEYİM

Sevgilim, mən sənə canan deməyim, bəs nə deyim?
Hüsnünü dərdimə dərman deməyim, bəs nə deyim?
Bircə sözlə canıma sən təzədən can verdin
Gündə min yol sənə mən can deməyim, bəs nə deyim?
Küsmə məndən, səninəm, bağrıma dağ çəkmə, yetər
Etmə can mülkünü viran deməyim, bəs nə deyim?
Dikilib gözlərim həsrətlə vüsalın yoluna
Olmasın ortada hicran deməyim, bəs nə deyim?
Sen canımsan, ciyərimsən, gözəlimsən, gözəlim
Özümə bəxtəvər insan deməyim, bəs nə deyim?
Xoş təbəssümlə ayaq basdığın hər məclisə mən
Gəlib ilhama, gülüstan deməyim, bəs nə deyim?
Sevgilim, gül üzünü görmədiyim günlərdə
Oluram könlü pərişan deməyim, bəs nə deyim?
Yox mənim başqa gözəllərdə bilirsən ki, gözüm,
Sənə qurban bu Süleyman deməyim, bəs nə deyim?

## OLMASA OLMAZ

Bağlarda əsəndə payız yelləri,
Ağaclar saçını yolmasa olmaz,
Cananı ürəkdən, candan sevənin
Gözləri qan-yaşla dolmasa olmaz!

Hüsnün xəbər verir səadətimdən,
O xumar gözlərin məhəbbətimdən.
Mənim bu sevdalı məhəbbətimdən –
Qəlbimdə nişana qalmasa olmaz!

Ayrılıq çəkənin bahar çağında,
Qara yellər əsər könül bağında.
Ömür ağacının har budağında
Açılan çiçəklər solmasa olmaz.

Eşqin mənasını bilən hər aşiq,
Qəmlərlə üz-üzə gələn hər aşiq,
Mahnısı ürəklər dələn hər aşiq,
Yar yolunda qurban olmasa olmaz!

**TANIMADINMI?**

O gün bir məclisdə gəldik üz-üzə
Bu dərdi pünhanı tanımadınmı?
Ayları, illəri sənsiz keçirən
Könlü pərişanı tanımadınmı?

Yuxulu illərim oyandı yenə,
Sanki ilk gəncliyim qovuşdu mənə -
Nə deyim, nə deyim, nə deyim sənə
Oduna yananı tanımadınmı?!

Bir zaman dilimdə, sözümdə səndin,
Gecəli-gündüzlü gözümdə səndin,
Ürəyimdə səndin, gözümdə səndin.
Hüsnünə heyranı tanımadınmı?

Səninçün mənası yoxdur bəlkə də -
Az-çox tanıyan var məni ölkədə.
Bilir ki, mən kiməm - cansız kölgə də
Sən bu Süleymanı tanımadınmı?

**1983-cü il şerləri**

## BAKI TƏRANƏLƏRİ

Bakı, səndə doğulub, səndə dolmuşam yaşa,
Gözlərimlə görmüşəm sənin inqilabını.
Yaşa əməllərinlə, günəş ömürlü yaşa,
Bəzəyim şöhrətinlə eşqimin kitabını.
Hünərlər meydanında qolundur, qanadındır,
Sarsılmaz dayağındır cürətli övladların.
Tarixlərə bəzəkdir, şərəfindir, adındır –
İgid, aslan ürəkli, qeyrətli övladların!
Nəbzimizdə vurursan bütün varlığınla sən,
Ayaq izlərimiz var sənin hər qarışında!
Əzminlə, qüdrətinlə, bəxtiyarlığınla sən
Birincisən, birinci zəfərlər yarışında.
Saysız şəhər görmüşəm bu qoca dünyada mən,
Nəğməmdə, hər sözümdə səndən gözəli yoxdur.
Bakım! Səni salmışam - harda olsam - yada mən,
Mənim şair gözümdə səndən gözəli yoxdur.
Günümüz xoşdur bizim, gözümüz toxdur bizim,
Torpağa can veririk, öz şirin canımızdan.
Heç kəsin torpağında gözümüz yoxdur bizim,
Yadlar gözünü çəksin Azərbaycanımızdan?!
Gör nə xoşbəxtəm ki, mən sevimli paytaxtımın
Əli qızıl qələmli fəxri vətəndaşıyam.
Qapıları laybalay açılıbdır baxtımın,
Bu adı hər an gərək iftixarla daşıyam!
Yaz, şair, yaz, bu yolda həmdəmindir bahar, yaz,
Çalış bircə kəlmən də cansız, qansız olmasın.
Bakıdan çox yazmısan, bu azdır, yaz, yenə yaz,
Yaz ki, Bakı günləri Süleymansız olmasın!

## BİZİM GÜNƏŞİN ÜNVANI

Bütün yer kürəsində azadlıq istəyənlər,
Köləlik dünyasında ağ günə həsrət bəşər
Bir günəş axtarırdı, ədalətə yol açsın,
Həqiqətə yol açsın,
Səadətə yol açsın,
Məhəbbətə yol açsın.

Uzun əsrlər boyu dilləndi ki, hər ürək
Göylərin günəşindən başqa bir günəş gərək.
Bir günəş ki, varlığı qızıl bayrağa dönsün.
Sonsuz hərarətindən ürəklər dağa dönsün.

Deyirəm qoy göstərim o günəşi ellərə,
Başlayaraq bu gündən gələcək nəsillərə.
Nişan verim bir daha beşərə ünvanını
Hər yurda, hər ölkəyə, hər yerə ünvanını...

## GÜNAHKARIQ

Təbəssümlər yağdırıb tez-tez dodaqlarından,
Yetənə yalvarırsan tərifçün dilənçi tək.
Ayağın kəsilməyir sənət ocaqlarından,
Xəyalı da qonorar alırsan ətək-ətək.
Kökünü, ünvanını son yox, mən bilirəm, mən
Qələminin ucundan çıxan "şeirlərinin".
Oxucusu özünsən, məddahı da özünsən,
Ürək soyuducundan çıxan "şeirlərinin'".
Artıq yetər oyuncaq sandın şeri, sənəti,
Ustadları bu yolda dolu döyüb, qar döyüb.
Günahkarıq, günahkarıq, bu çılpaq həqiqəti
Nə mən sənə demişəm, nə də dostlarım deyib.

## GÖRÜRƏM

*"Mən cahan mülkündə mütləq doğru halət görmədim,*
*Hər nə gördüm əyri gördüm, özgə babət görmədim ",*

***M.P. Vaqif***

Seyr edib mən bu vətən mülkünü cənnət görürəm,
Çevrilib mahnıya dillərdə həqiqət - görürəm.
Yaxşı ölkəmdə bu gün yaxşı əlamətlər var,
Doğrulardan çəkinən oğruları pərt görürəm.
Qəhrəmanlıqla, zəfərlərlə keçir hər günümüz,
Vətən oğlunda, qızında belə qeyrət görürəm.
Can deyib, can eşidir bir-birinə ellərimiz,
Uzun illər nə küdurət, nə ədavət görürəm.
Harda olsam, hara getsəm, elə xoşbəxtəm ki...
Qardaş ellərdə əziz xalqıma hörmət görürəm.
Dolaşıb əldə qələm doğma vətən torpağını,
Yerin üstündə də, altında da sərvət görürəm.
Açılır lalə kimi mən hara baxsam - ürəyim,
Bu yer oğlunda yerə yercə məhəbbət görürəm.
Yenə güllərlə, çiçəklərlə bəzənmiş Qarabağ,
Mən könüllərdə, ürəklərdə səadət görürəm.
Başqa dövrandır, a Vaqif, bu gözəl dövranımız,
Seyr edib yurdumu hər yerdə ədalət görürəm,
Mən Süleyman gələrək ilhama pərvazlanıram...

## NƏVƏM AZADƏYƏ

Göz açdın həyata - açıldı baxtım,
Dünyaya babalar gözüylə baxdım.

Dünyadan xəbərsiz nəvəmsən mənim,
Qüssəsiz-kədərsiz nəvəmsən mənim.
Bəşərə zərərsiz nəvəmsən mənim,
Günlərin xoş keçsin niyyətin kimi,
Yaşa adın kimi, millətin kimi!

Yadları gözündən tanıyır baban,
Pərdəli sözündən tanıyır baban.
Dəhşətli izindən tanıyır baban,
Qorxma, keşiyində durmuşam, qızım,
Səninçin kaşanə qurmuşam, qızım!

Deyirəm, dünyamız silahsız olsun,
Bəşər sənin kimi günahsız olsun.
Qoy naləsiz olsun, qoy ahsız olsun.
Səni ayırmadım, ayırmaram mən –

Bütün yer üzünün körpələrindən!
Deyirəm, nə ölüm, nə də qan olsun,
Ellər bir-birinə mehriban olsun.
Dünya körpələrə gülüstan olsun.

Çalış vətəninçün, ad qazan, qızım,
Ömrün nə qış görsün, nə xəzan, qızım.
Deyirəm gurlasın sülhün nəğməsi,
Qan-qan deyənlərin boğulsun səsi,

Verilsin nəhayət, sonuncu dərsi,
Sussunlar əbədi, heç dinməsinlər,
Körpələr beşikdə diksinməsinlər.
Deyirəm bir az da ömür sürəydim,

Təbrizin yolunu açıq görəydim.
Başına güllərdən çələng hörəydim,
Səni o sahilə aparaydım mən,
Qan qardaşım ilə aparaydım mən!

Xoşbəxtəm, görürəm bu çağlarını,
Möhkəm bas torpağa ayaqlarını.
Təbəssüm bəzəsin dodaqlarını,
Gözəldir, göyçəkdir hər təbəssümün,
Bir çəmən çiçəkdir hər təbəssümün!

Üzü baharayam, üzü bahara,
Bu sözüm etməsin, qanını qara: -
Baban son mənzilə köçəndən sonra,
Hər yerdə vüqarla deyərsən ki, sən: -
Süleyman Rüstəmin nəvəsiyəm mən!

## QARABAĞ MAHNISI

Sən mənim doğru görən göz bəbəyimsən, Qarabağ,
Öz canımsan, ciyərimsən, ürəyimsən, Qarabağ.

Baxaraq hüsnünə hər yerdə məhəbbət görürəm,
Ömrü ağ günlü könüllərdə səadət görürəm,
Sözü xoş nəğməli dillərdə bəqiqət, görürəm,
Zirvəsi qarlı dağımsan, dayağımsan, Qarabağ,
Əbədi şölə saçan çilçırağımsan, Qarabağ.

Yadigarsan babalardan bizə, ey şanlı diyar,
Dostluğun - fəxr elə - bağlarında təməl daşları var.
Yaşa qəlbində məhəbbət, yaşa alnında vüqar,
Şuşası şerimizin çeşməsi dilbər Qarabağ,
Yürüşündə hər ili əsrə bərabər Qarabağ!

Gəzmişəm əldə qələm bağlarını, dağlarını,
Dalmışam seyrə zəfər müjdəli bayraqlarını,
Çəkmişəm nəzmə gəlib vəcdə gözəl çağlarını,
Adlanırsan bütün ellərdə gülüstan, Qarabağ,
Sən Azərbaycanımın şöhrətisən, can Qarabağ!

Gül-çiçək ətri hopub qızlarının dillərinə,
Yayılıb varlığının qüdrəti dost ellərinə,
Qoymaram yad əli dəysin bağının güllərinə,
Mən Süleymanam, səninəm, sən də mənimsən, Qarabag,
Vətənimsən, vətənimsən, vətənimsən, Qarabağ!

**NƏVƏMLƏ SÖHBƏT**

Qız nəvəmdən heç olmaz,
Azadəmdən heç olmaz.
Yaşı ikidir, iki,
Alimlər nəçidir ki,
Axıdıb alın təri
Bildiyini bilsinlər!
Kimə nədən ötəri
Güldüyünü bilsinlər!
Nəvəm itigözlüdür,
Baxışları sözlüdür,
Telefondur sirdaşı,
Zəng vurur addımbaşı.
Dəstək düşməz əlindən,
Dürr yağdırar dilindən,
Nəvəm mamlımatandır,
Yerində naz satandır,
Gah ağlayır, gah gülür,
Səndan, məndən çox bilir.
İstedadı deyil az,
Qab sındırar bolluca.
Elçilər pərt qayıtmaz,
Cehizi var bolluca; -
Timsah, dəvə, at, inək,
Ördək, toyuq, şir, pələng,
Meymun, ayı, it, pişik,
Topdağıtmaz ev-eşik.
Mən bilirəm nədir o,
Gözəl rəqqasədir o.
Gör nə gostərir bizə -
Möcüzədir, möcüzə: -
Barmaq üstə rəqs edir,

Dırnaq üstə rəqs edir.
Qeybətli məclislərə
Tamam yaddır qız nəvəm.
Orda dinməz bir kərə,
Diplomatdır qız nəvəm.
O hamıdan az yeyər,
Başqaları qaz yeyər.

Günəşli səhərimdir.
Gözləri Xəzərimdir.
Şirindir hər kəlməsi,
Xoş səsi, xoş nəğməsi.
Qan gördümü sarsılır,
Boynumuzdan asılır,
Reyqandan ağıllıdır,
Sinəsi nağıllıdır.
Günəşimin bacısı
Görməsin qəm acısı.
Ömründa dərd çəkməsin,
Bəxtinə göz dəyməsin.
Güldür, çiçəkdir nəvəm,
Gözəl, göyçəkdir nəvəm!

**QAÇASAN GƏRƏK**

Hər halal çörəkli el süfrəsində
Qəlbini kitabtək açasan gərək.
Dostların könlünü dindirmək üçün
Dilindən incilər saçasan gərək.

Vətən torpağından söhbət düşdümü,
Zəfər bayrağından söhbət düşdümü,
Araz qırağından söhbət düşdümü,
Şair, pərvazlanıb uçasan gərək.

Qeybətli məclisə düşdünmü, durma,
Vaxtını itirib, özünü yorma.
Başlarına dəysin plov, qovurma,
Ordan baş götürüb qaçasan gərək!

**GÖRƏNLƏR BİLİR**

Sanmayın anamız vətən qədrini
Döşünü qabağa verənlər bilər.
Yox, yox, zəhmətinin mənası kimi
Onun cəlalını görənlər bilər.

İnsanın insana məhəbbətini,
Əhdinə, andına sədaqətini
Bizim dünyamızın həqiqətini
Ömrünü mənalı sürənlər bilər.

Həyatın mənası dərindir, dərin
Gəlib öhdəsindən dərdin, kədərin,
Hünər meydanında çətinli, dərin
Arxasını yerə sərənlər bilər!

**BİZİMKİ TUTMAZ**

Deyirsən dost olaq, tutar bizimki,
Həyatdan kam alaq, tutar bizimki.
Ömür beş günlükdür, tutar bizimki.
Bəlkə heç günlükdür, tutar bizimki. –
Ey nadan, yox, yox Söz oynatma çox.
Görünür bilmirsən kim olduğumu
Böyük əməllərçin doğulduğumu.
Sən başqa adamsan, mən başqa adam,
Bizimki tutmaz.

Sən yaxşıya yadsan, mən pisə yadam,
Bizimki tutmaz.
Ürəyin kimsənin dərdinə yanmaz,
Sən qum odunsan, mən sönməz odam,
Bizimki tutmaz.
Sən yasda çox şadsan, mən toyda şadam,
Bizimki tutmaz.
Danmadığın bir kəs varmı dünyada
Sən mənim gözümdə doğmasan yada,
Bizimki tutmaz.
Sən qəh-qəh çəkərək gülürsən müdam,
Birinin başına uçalarsa dam,
Bizimki tutmaz.
Cənubun dərdindən söhbət düşəndə,
Sən dərin sükutsan, mənsə fəryadam,
Bizimki tutmaz.
İndi görürsənmi fərqimiz nədir?
Sən başqa adamsan, mən başqa adam,
Bizimki tutmaz!

## OLAYDI

Köçəndən sonra da tək olmayaydım,
Yanımdan yol keçən ellər olaydı.
Yastığım kəkotu, döşəyim otlar.
Yorğanım çiçəklər, güllər olaydı.
Mənə o sahildən xəbər gətirən,
Qan qardaşımgildən xəbər gətirən,
Hər fəryadlı dildən xəbər gətirən
Təbrizimdən əsən yellər olaydı.
Gün o gün olaydı gələrək dilə,
Təqvimlər müjdələr verəydi elə.
Bütün illərimiz o gündən belə
Vahid bir vətənli illər olaydı.

Bəşərin qəsdinə qol çəkənlərin;
Özgənin varına göz dikənlərin,
Qara niyyətlərlə qan tökənlərin
Başına ömürlük küllər olaydı.
Dünyanın zindanlı ölkələrində
Hər günü tufanlı ölkələrində
Cəlladları qanlı ölkələrində
Oktyabr səsli dillər olaydı!

**ÜÇ NƏFƏR QALMIŞIQ**

Bir yerdə bitirdik orta məktəbi,
Öpüşüb ağladıq, ayrıldıq bir gün.
Nə vaxt ki, salıram yada məktəbi,
Oluram pəjmürdə, oluram qəmgin,
Həsrətlə deyirəm özümə hərdən.
Üç nəfər qalmışıq otuz nəfərdən.

Canlanır yenidən o qanlı illər,
Kəşməkəşli illər, tufanlı illər,
Haqlılar haqsızdı, haqsızlar haqlı,
Cəlladlar əliylə sinələr dağlı.
Görüb tə illəri, nümayişləri,
Ürəkdən sevinib qürurlanardıq.
Yayıb qapı-qapı bu xoş xəbəri,
İgid fəhlələri arxa sanardıq.

Gəlir göz önünə müəllimlərin,
Səbəb bu günümə müəllimlərim.
Şaiq, Hüseyn Cavid, Süleyman Sani,
Onlara borcluyuq bu torpaq sanı,
Gör necə oğullar yetirib vətən: -
Qasımov Pənahla, Vəzirov Həsən
Ağır günümüzdə pənahımızdı,
Sözləri gələcək sabahımızdı.

Qanlı istibdadın azğın çağında,
Bizə ata kimi dayaq oldular,
Təhsil illərinin qızğın çağında,
Qara günümüzə çıraq oldular,
Bəli, belə keçdi ilk gəncliyimiz,
Körpə qəlbimizdə arzumuz mindi.
Demirəm olmayıb nadincliyimiz,
Yadıma düşəndə gülürəm indi.
Qızlara qiyabi vurulan dəmlər...
Gizlində körpətək ağladığımız.
Ötərgi sevgilər, ötərgi qəmlər.
Ağ günə ümidlər bağladığımız,

Gəldi 1920-ci il,
Tərifi dastana sığışan deyil
Dəyişdi boz həyat, dəyişdi dövran,
İnsanlar özünü sandı firavan.
Sonsuz səadətdən söhbət açdılar,
Böyük həqiqətdən söhbət açdılar.
Qara günlərimiz arxada qaldı,
Nurlara boyandı həyat yolumuz,
A dostlar, demişəm, deyirəm yenə,
Hərə öz yerini tutdu həyatda.
Hərə öz borcunu verdi vətənə,
Bu adlar ömürlük qalacaq yadda.
Bir yerdə bitirdik orta məktəbi,
Öpüşüb ağlaşdıq, ayrıldıq bir gün.
Nə vaxt ki, salıram yada məktəbi,

Oluram bir qədər pəjmürdə, qəmgin.
Düşünüb deyirəm özümə hərdən,
Üç nəfər qalmışıq otuz nəfərdən.
Nə qəm, hər məktəbin otaqlarında,
Balalar oxuyur indi bizimtək.
Nəğmələr səslənir dodaqlarında,
Yox, biz yox deyilik, biz varıq demək!

## ÖLMƏYİ BACAR!

Şair, gəl dostunun ömrün boyunca
Könlündən keçəni bilməyi bacar.
Həyat yollarında səadətinə,
Ürəkdən sevinib, gülməyi bacar!
Unutma cənublu qardaşlarını,
Əməl dostlarını, sirdaşfarını,
Gözlərindən axan qan yaşlarını
Şerinlə, sözünlə silməyi bacar.
Ey könül, bir daha qulaq as mənə,
Sənə çox demişəm, deyirəm yenə -
Dar gündə şaşqınlıq yaraşmaz sənə.
Dərdin öhdəsindən gəlməyi bacar.
Ormrünün firavan, gözəl çağında
Vətən torpağında, el torpağında
Bülbüllor ötərkən könül bağında

Sevinci dostlarla bölməyi bacar.
Bıçaq ol yadların yaman gözünə,
Yayılsın qüdrətin bu yer üzünə.
Amalın uğrunda gərərək sinə
Döyüşdə kişitək ölməyi bacar!

## VİCDANIMSAN, AZƏRBAYCANIM!

Şan-şöhrətli bir ölkəsən, Azərbaycanım,
Əzəmətli bir ölkəsən, Azərbaycanım!

Torpağına alnımızın təri tökülüb.
Əzmimizlə ətalətin beli bükülüb,
Ürəklərdən-ürəklərə yollar çəkilib,
Mənim qolum, qanadımsan. Azərbaycanım!
Ömrüm, günüm, həyatımsan, Azərbaycanım!

Əziz Vətən məhəbbəti qəlbimizdədir,
Torpağının hərarəti qəlbimizdədir,
Ağ günlərin həqiqəti qəlbimizdədir,
Şerə sığmaz kaşanəsən, Azərbaycanım!
Gözəllikdə yeganəsən, Azərbaycanım!

Torpağını seyr etməkdən doymur gözlərim,
Bayrağını seyr etməkdən doymur gözlərim,
Növrağını seyr etməkdən doymur gözlərim,
Xəzan bilməz gülşənimsən, Azərbaycanım!..

Üzərinə odlu gələn, odsuz qayıdıb,
Bəd niyyətlə atlı gələn, atsız qayıdıb,
Tarix bilir adlı gələn, adsız qayıdıb,
Mərd insanlar məskənimsən, Azərbaycanım!
Qəhrəmanlar məskənisən, Azərbaycanım!

Keşiyində ayıq duran oğlunam sənin,
Varlığına layiq duran oğlumam sənin.
Sayıqdan da sayıq duran oğlunam sənin.
Öz qanımsan, öz canimsan, Azərbaycanım,
Qeyrətimsən, vicdanımsan, Azərbaycanım!

## İNQİLAB BAHARIMIZ

Baharların baharıdır bu inqilab baharımız,
Könüllərin vüqarıdır bu inqilab baharımız.

Qara günlər təqviminə qələm çəkib döyüşlərdə,
Ağ günlərçin sinə gərib, qan-tər töküb döyüşlərdə
Zülmətlərin pərdəsini yırtıb, söküb doyüşlərdə
Ömrümüzün aynasıdır bu inqilab baharımız.
Eşqimizin mənasıdır bu inqilab baharımız.

Bu baharın əməlləri ürəklərdə köklər atıb,
Ən müqəddəs arzularda, diləklərdə köklər atıb,

Dünyamızı aydın görən bəbəklərdə köklər atıb,
Əsrimizin növrağıdır bu inqilab baharımız
Düşmənlərə göz dağıdır bu inqilab baharımız...

Yer üzündə bu baharın ömrü bahar övladıyıq,
Bu gülşənin, bu gülzarın ömrü bahar övladıyıq.
Şan-şöhrətli bu diyarın ömrü bahar övladıyıq.
Ömrümüzün günəşidir bu inqilab baharımız,
Qəlbimizin atəşidir bu inqilab baharımız.

Ana vətən göylərində dalğalanır bayrağımız,
Qardaşlığın pozulmayan vəhdətidir dayağımız.
Zirvələrin zirvəsindən gəlir bizim sorağımız,
Oktyabr möhürlüdür bu inqilab baharımız,
Günəş qədər ömürlüdür bu inqilab baharımız!

## ÇÖRƏK KİMİ...

Xoşbəxtəm ki, yazıb-pozan şairlərdən biriyəm,
İş başında insanların köməyidir şerimiz.
Hər şairin mənim kimi öyünməyə haqqı var,
Böyük sənət sarayının dirəyidir şerimiz.

Məhəbbətdən söhbət gedən hər mənalı məclisdə,
Səadətdən söhbət gedən bər mənalı məclisdə,
Sədaqətdən söhbət gedən hər mənalı məclisdə
Sevənlərin dillərinin bəzəyidir şerimiz.

Ağ günlərdən vəcdə gələn, könülləri dindirən,
Gələcəyə addımlayan nəsilləri dindirən,
Bir-birinə candan bağlı dost elləri dindirən,
Sonsuz, nəcib əməllərin bəzəyidir şerimiz.

Körpə ana bətnində də şeir eşidir anadan,
Dünyamıza şair - məncə belə gəlir binadan
Süleymanam, səhv etmərəm söyləsəm ki, hər zaman
İnsanların çörək kimi gərəyidir şerimiz!

## ZEYNƏBƏ

O axşam verdiyin konsertə söz yox,
Bilirsən hamının dilini, Zeynəb!
Uzaq ellərə də tanıtdırırsan,
Doğma Vətənini, elini, Zeynəb!

Günəşə qədərdir eşqin, vüqarın,
Şeirdir, nəğmədir sərvətin, varın.
Sönməz od nəfəsin - yad mahnıların
Havaya sovurur külünü, Zeynəb!

Coşduqca cəh-cəhin dalğalar kimi,
Gülür dodaqların ilk bahar kimi,
Xalqınla keçirdin sənətkar kimi –
Gününü, ayını, ilini, Zeynəb!

İllərdir tanışam sənin səsinlə,
Sevinc paylayırsan ürək sözünlə,
Vəcdə gətirirsən xoş nəfəsinlə,
Könül rübabımın telini, Zeynəb!

Sən ey hər millətin əziz qonağı,
Solmaz ilhamımın mahnılar bağı,
Böyük məhəbbətlə qardaşsayağı,
Sıxıram göyərçin əlini, Zeynəb!

## ƏLƏSGƏR SAZI

*Hüseyn Arif*

Bir ağ gün görmədi zəmanəsində,
Dar gündə ümidi, pənahı sazdı.
Ellərin dərdinə yandığı gündən,
Həm fəryadı sazdı, həm ahı sazdı.

Ürəyində vətən, dilində vətən,
Dedi zalımların qənimiyəm mən.
Keçdiyi yollarda dadına yetən
Qibləgahı sazdı, Allahı sazdı.

Qeyrətli oğluna açmışdı qucaq –
Səadət həsrəti hər ev, hər ocaq.
Qansız haqsızların gözündə ancaq
Onun bağışlanmaz "günahı" sazdı.

Şöhrətdi Nəbilər, Babəklər ona,
Sərvətdi müqəddəs diləklər ona,
Sirrini açırdı ürəklər ona,
Yaslı ürəklərçin cərrahı sazdı.

Az bəla çəkmədi aşiqin başı,
Damdı ürəyinə gözünün yaşı.
Cəlladlara qarşı, yadlara qarşı
Ömürlük susmayan silahı sazdı!

## TOY AXŞAMI

Ürəyi yaralı, ey təzə gəlin,
Sənə doğrudan da yazığım gəlir.
Oturmusan toyda sülğun, pərişan,
Öz dərdli başını dikmisən yerə.
Bu dərdi daşımaq deyildir asan,
Cahillər hökmüylə gedirsən ərə.
Görürəm, bu axşam sənin toyundur.
Sağlıqlar deyirlər ünvanınıza!
Belə bir dövranda bu nə oyundur?
Niyə qəsd edilir sənintək qıza?
Sənin bu halına acıyıram mən,
Qəlbinin yarası dərindir, dərin,
Bu toy axşamında varmı bilməyən,
Ürəyində mənəm, yanında ərin.

## FƏRQİ YOXDUR

Buzdan da soyuq qəlbindən məni
Silsən də birdir, silməsən də bir.
Baxıb uzaqdan mənim halıma
Gülsən də birdir, gülməsən də bir.

Xeyli zamandır görmürəm səni,
Mən unutmuşam olub-keçəni.
Kimi sevirəm, kim sevir məni,
Bilsən də birdir, bilməsən də bir.

Çox da ağarıb başım qar kimi,
Keçir qışım da ilk bahar kimi.
Bir gün yanıma günahkar kimi
Gəlsən də birdir, gəlməsən də bir.

Deyirlər yaman dəyişmisən sən.
Mən necəyəmsə bilir el, vətən.
Bir gün təzədən mənim dərdimdən
Ölsən də birdir, ölməsən də bir!

## HARDASINIZ?

Deyin hardasınız, gənclik illərim,
Yaman öyrənmişdi ürəyim sizə,
Nəyimə gərək bu dinclik illərim,
Nə deyim, nə deyim, nə deyim sizə.
Hərdən gəncləşirəm düşəndə yada,
Tribunalarda qanad çaldığım,
Yadımdan çıxmayıb, çıxmayacaq da,
Güllərin əlindən güllər aldığım.

## İNANMA

Ayıq ol, ey könül, ayıq ol,
Sayıq ol, ey könül, sayıq ol.

O yenə çıxıbdır qarşına,
İnanma gözünün yaşına –
Bəlalar gətirib başına
İnanma sözünə, ey könül.

Sözünə, özünə, ey könül.
Sən yandın, osa heç yanmadı,
İçdiyi andını anmadı.
Özünü sənə tay sanmadı.
Dönərək sözündən, ey könül,
Yox oldu gözündən, ey könül.

Təzədan gəlibdir yanına,
Vurulub adına, sanına.
Yalvarıb and içir canına,
Ayıq ol, ey könül, ayıq ol,
Sayıq ol, ey könül, sayıq ol!

## ÖMRÜ BEŞGÜNLÜK

Məhəbbət məktəbindən yüz töhmətin var sənin,
Sevgidən söz açmağa nə cürətin var sənin?!
Bunu bilsən yaxşıdır - dostlarının yanında
Nə bir yerin var sənin, nə hörmətin var sənin.
Deyirsən ki, sevirəm canımdan artıq səni,
Bu sözünə - de: kimdən zəmanətin var sənin?!
Gör neçəsi vədi eşidibdir dilindən,
Ömrü beşdəqiqəlik məhəbbətin var sənin.
Mən ipinin üstünə odun yığa bilmərəm,
Qafiyəsiz, vəznsiz xasiyyətin var sənin.

## BİR KAİNATDIR SEVGİLİM

Şad günümdə yaxşı ki, məndən də şaddır sevgilim,
Şerimə illər boyu qoldur, qanaddır sevgilim.
Könlünün istəkləri heç gizli qalmaz kimsədən,
Körpələrtək qüssədən, qəmdən azaddır sevgilim.
Bir gözal insan kimi, yoldaş kimi, sirdaş kimi,
Mənzilimdə ay deyil, bir kainatdır sevgilim,
Bir gözəllikdən gözəllərtək o da məhrum deyil,
Dil deməz qısqanclığa ömründə yaddır sevgilim.
Mən nə Fərhadam, nə Məcnun, mən Süleyman Rüstəməm
Bilməyənlər də gərək bilsin Sayaddır sevgilim!

## MABƏDİ VAR

Rəssamın öz fırçası, öz rəngi var,
Şairin öz xətti, öz ahəngi var.

Şairəm, xoşbəxtlərin övladıyam,
Könlümün yalnız o taydan dərdi var.
Eşqimin öz aynasında bəxtə bax –
Zərləri şeş-beş atan öz nərdi var.
Sözlərim pərvazlanıb, ellər gəzir,
Kim deyir şerin, sözün sərhədi var?
Mən Süleyman Rüstəməm, ömrüm boyu,
Şerimin sərhədi yox, mabədi var!

## BÜLBÜLƏ

*Təzədən işlənmiş*

Bülbül! Sənə ilham verən azad vətənindi,
Bağlardakı güllər də, çiçəklər də sənindi.
Sən millətə, millət sənə bağlı,
Sən sənətə, sanət sənə bağlı,

Qüdrətli vətən bülbülü oldun,
Şöhrətli vətən bülbülü oldun.
Hər yerdə vüqarınla görundün,
Öz şəxsi baharınla göründün.
Sən müjdə verərkən bizə sənət baharından,
Biz vəcdə gəlirdik əbədi mahnılarından.
Alqışların altında boy atdın,
Bülbül kimi xoş arzuna çatdın.
Ey ləhcəsi göyçək:
Ey nəğməsi göyçək,
Eşqinlə cavandın,
Məclislərə candın.
Qoydun nə üçün sən bizi sənsiz,
Kim dindirəcək "'Sənsiz"i sənsiz?!
Ey varlığı xoş nəğməli Bülbül,
Xoş kəlməli Bülbül,
Sən zirvəyə qalxdın, yenə də zirvədə qaldın.
Ustad kimi gənc nəslə ömürlük dədə qaldın.
Köçdünsa də sən nənzilə, öz kamına yetdin,
Bülbül kimi gəldin, yenə bülbül kimi getdin!

## SAXLARSAN

*Fikrət Qocaya*

Gözəl şeirlərini öz adında saxlarsan,
Vətən məhəbbətinin gur odunda saxlarsan.
Cıdırda söyləsələr "at seçin", açıq gözünü
İgid Qaçaq Nəbinin Bozatında saxlarsan.
Çaparsan arzularınla Cənuba əldə qələm,
Sonunda zirvələrin son qatında saxlarsan.
Vətənsizin yeri yoxdur bizim bu gülşəndə,
Bunu mənim kimi hər an yadında saxlarsan.
Deyim ürək sözümü, son də mən Süleymantək,
Cənubun həsrətini fəryadında saxlarsan!

## MƏNDƏN SORUŞ

Gənc oxucum, yurdumuzun cəlalını məndən soruş,
Cənubunu məndən soruş, şimalını məndən soruş.
Gülqoxulu dodaqları nəğmələrdən ayrılmayan,
Alnıaçıq gözəllərin camalını məndən soruş.
Gələcəyə addımlayan bizim xoşbəxt nəsillərin,
Amalını məndən soruş, kamalını məndən soruş.
İlk, əbədi məhəbbətə and içənlər arasında,
Vəfasızı məndən soruş, vəfalını məndən soruş.
Keflilərin məclisində hər kəsilən duz-çörəyin,
Haramını məndən soruş, halalını məndən soruş.

Arazın o tayındakı bacıların, qardaşların,
Qan-qadalı günlərini, məlalını məndən soruş.
O sahilli, bu sahilli bir analı bir millətin,
Hicranını məndən soruş, vüsalını məndən soruş.
Süleymanam, millətimin bu gününü, sabahını,
Bu qardaşlıq dünyamızda İqbalını məndən soruş!

## ÖMÜRLÜK POZAQ

Bu ellər sevməyib, sevə də bilməz,
Özgə şöhrətinə göz dikənləri.
Özündən kiçiyə qanlar udduran,
Özündən böyüyə baş əyənləri.

Könül, belə dostdan uzaq ol, uzaq,
Gəl qaranı-qara, ağı-ağ yazaq.
Dostlar cərgəsindən ömürlük pozaq,
Baş yarıb, ətəyə qoz tökənləri.

Könül, dar günündə arxalan elə,
Kimsədən çəkinmə, bir az səbr elə.
Zaman amansızdır, atacaq çölə -
Xalqın hesabına kef çəkənləri.

Gözüm götürməyir, nə edim ki, mən,
Gündə bir gözəlçin "canından keçən",
"Sən, ilk sevgilimsən" - deyib and içən,
Gözündən timsahtək yaş tökənləri.

Onlardan birinin "şerinə" baxın,
Gözünüz ağrıyar, gözlük də taxın.
Gəlin buraxmayaq məbədə yaxın,
Sənətin başında turp əkənləri.

Ürəyi buzxana, başı buzxana,
Deyir sönməz odam Azərbaycana.
Qoymayın beləsi gətirsin cana,
Ürəkdən-ürəyə yol çəkənləri!

**YAXŞI BİR İNSAN GETDİ**

Sıramızdan necə gör yaxşı bir insan getdi,
Köçdü son mənzilinə, köçdü, Süleyman getdi.
Düz-çörək kəsdiyimiz illəri saldıqca yada –
Deyirəm: - yox, yox, ölüm məncə yaraşmır bu ada.
Olmayaydı bu səhər kaş ki bu qəm yüklü xəbər.
Dostların can evini bir daha sarsıtdı kədər...

Nə qədər yazmaq olar! Qibtə edərdik ona biz,
O, vətənçin gözəl övladdı əzizlərdən əziz.
Yaşa dolduqca coşub yazdı yenə, yazdı yenə,
Dedi: "Övlad gərək öz borcunu versin vətənə!"

Aldı hər qələmə inqilab övladlarını,
Köçdüsə, qoydu vətənçin kitab övladlarını!
Sıramızdan necə gör yaxşı bir insan getdi,
Köçdü son mənzilə, getdi, Süleyman getdi!

## SƏN YOLDAN KEÇƏNDƏ

*Təbrizli gözələ*

Ayrılığın hər günü,
Mənimçün ilə döndü.
Yadlar elə bilməsin,
Ümidini külə döndü!

Gözəlim, o şən günlər,
Səninlə keçən günlər,
Qəlbimə köçən günlər,
Kim deyir yelə döndü?

O bəlalı məkanda,
Yol keçdiyin hər yanda
Bədnam qaratikan da,
Gözümdə gülə döndü.

Hicran nələr etmədi...
Yazdım, dərdim bitmədi,
Cümləm sona yetmədi,
Nöqtəm vergülə döndü.

Gəl, gəl, ey vüsal günü,
Başlansın el düyünü.
Çəkdikcə qəm yükünü
Süleyman dilə döndü!

## DİNƏCƏYƏM MƏN

Ay ellər, sanmayın həyatda bir gün,
Birgünlük şam kimi sönəcəyəm mən.
Dəmirçi atamın ocağındakı,
Gur, sönməz alova dönəcəyəm mən.

Yoldayam, yoldayam illər uzunu,
Gəzirəm vüsalın dan ulduzunu.
Sonsuz ayrılığın qəm ordusunu.
Öz vüsal ordumla yenəcəyəm mən.

Minib Bozatına Qaçaq Nəbinin,
Ellər sevimlisi Qaçaq Nəbinin.
Yadların gözünə bıçaq Nəbinin,
Yerə Təbrizimdə enəcəyəm mən.

İçdiyim andımı pozan deyiləm,
Pozarsam, deməli, ozan deyiləm.
Təbriz deyildimi, susan deyiləm,
Torpaq altında da dinəcəyəm mən!

## TƏBRİZ DƏRDİ

Dünyanın cəlladları,
Millətimin yadları
Qoşun çəksə üstumə,
Odlar töksə üstümə,
Yox, yox qopara bilməz,
Alıb apara bilməz,
Əlimdən Təbrizimi,
Elimdən Təbrizimi,
Dilimdən Təbrizimi,
Könlümdən Təbrizimi.

Surati qəlbimdədir.
Həsrəti qəlbimdədir,
Həyalı Təbrizimin,
Bəlalı Təbrizimin.
Yaralı Təbrizimin,
Qalalı Təbrizimin!

## EY ŞANLI ƏRKİM!

*Əziz qardaşım Abbas Zamanova*

Salam, ey qəhrəman, ey şanlı Ərkim!
Başı tarix boyu tufanlı Ərkim!

Həqiqətlər dil açmış hər daşında,
Məhəbbətlər dil açmış hər daşında,
Cəsarətlər dil açmış hər daşında,
Səni sarsıtmadı basqınlar, Ərkim!
Bunu bilsin gərək azğınlar, Ərkim!

Qara əllər çəkinsin hiddətindən,
Səni candan yaratmış millətindən,
Bütün dünyaya bəlli qeyrətindən,
Yaran bağrınıdakı yaramdır, Ərkim!
Ürək ağrımdakı yaramdır, Ərkim!

Yol olsaydı, var ol bəxtim deyərdim,
Gəlib bir gün, sənə mütləq deyərdim,
Önündə ehtiramla baş əyərdim,
Əzizlərdən əziz Ərkim, can Ərkim!
Təmizlərdən təmiz Ərkim, can Ərkim!

Görüşdük biz səninlə Təbrizimdə,
Qalıb orda yəqin az-maz izim də,
Deyil sənsiz gecəm də, gündüzüm də,
Sən ey sansız yarayla canlı Ərkim,
Mənim məğrur, azərbaycanlı Ərkim!

Səni xatırlaram həsrətlə hər gün,
Çatır mən şairə qardaştək ərkin,
Araz üstən baxırsan xeyli qəmgin,
Sən ey haqq sözləri hicranlı Ərkim!
Mənimtək gözləri hicranlı Ərkim!

Elə zənn etməsin yadlar - yadimsan,
Mənim doğmam, ömürlük mərd adımsan,
Vüsal uğrunda sonsuz fəryadımsan
Öpüm gəl hər daşından bir də, Ərkim!
Ağarmış dik başından bir də, Ərkim!

Öz əcdadın azərbaycanlılartək,
Vurursan nəbzimizdə canlılartək.
Gözü hey yol çəkən hicranlılartək,
Müqəddəs abidəm, şöhrətli Ərkim!
Döyüşlərdə mənim qeyrətli Ərkim!

İgid övladların dözməz bu dərdə,
Buna biganə qalmaz bir nəfər də,
Keşikçindir bu gün hər südəmər də,
Salam, ey qəhrəman, ey şanlı Ərkim!
Başı tarix boyu tufanlı Ərkim!

## ŞAİR SÖNMƏZƏ

Kim deyir dar gündə meydanlarda dinməz - şerimiz!
Yox, döyüşlərdən zəfərsiz - mənim dönməz – şerimiz

Vurmasa nəbzində bir xalqın ürək çırpıntısı,
Heç özündən razı qalmaz, heç öyünməz şerimiz.
Öz müqəddəs məbədi vahid vətən mülkündədir.
Ordakı xoş arzular təxtindən enməz şerimiz.
Bir vüsal uğrundakı yollarda tufan qopsa da,
Donsa da yadlar odunda - yox, isinməz şerimiz.
Qardaşım Sönməz! Bu gün çox yaxşı ki, siz, biz varıq.
Od saçar gündən-günə ömründə sönməz şerimiz!

## HƏSRƏTƏM

İllərdir ki, görüşünə həsrətəm,
Ayrılıqdan bağrı dağlı qardaşım!
"İnqilabdan" dəm vurulan
Ölkədə Əvvəlki tək dili bağlı qardaşım.

Torpağında solğun güllər görürəm,
Başın üstdə qara yellər görürəm,
Qanun yazan qanlı əllər görürəm,
Ey baharı xəzan çağlı qardaşım!

Aç gözünü dörd yanına yaxşı bax,
Qanlı vuruş meydanına yaxşı bax.
Xalqın nahaq qurbanına yaxşı bax,
Fəryadında tamam haqlı qardaşım.

Ev tapılmaz yasxanaya dönməsin...
Dar günündə ürək odun sönməsin.
Şan-şöhrətin zirvələrdən enməsin.
Savalanlı-qaradağlı qardaşım!

Öz səsini yad səsinə qatma gəl,
Nadanların laylasıyla yatma gəl,
Addımını min il geri atma gəl.
Ey milləti qol-budaqlı qardaşım.

## MƏHƏMMƏDLU ABBASİYƏ

Qırx il bundan əvvəl səninlə bir gün
Görüşdük Təbrizdə bir qardaş kimi.
Açdıq qəlbimizi bir kitab kimi
Sən mənə, mən sənə bir sirdaş kimi.

Artıq qırx ildir ki, görüşmürük biz,
Tikanlı məftillər kəsib aranı.

Bakı səni görmür, məni də Təbriz,
Kəsib qara əllər, kəsib aranı.

Bir əsər vermişdin öz tərcümində,
Marksın tarixi "Manifestini.
Səndən satirətək məndədir, məndə,
Orda hiss edirəm məhəbbətini.

Dinlə gör nə deyir sənə bu ürək,
Mən nə duz, nə çörək həsrətindəyəm.
Səsini eşitmək, üzünü görmək,
Səninlə görüşmək həsrətindəyəm.

## İLLƏRDİR

İllərdir yazıram özümə görə Gözəl
İnsanların arasında mən.
Onları qəlbimdə gəzdirmişəm mən,
Olsam da dünyanın harasında mən.

Livan qanla açır hər səhərini,
Tarix silə bilməz o qan yerini,
Görürəm Fələstin körpələrini,
Qəlbimin on dərin yarasında mən.

Nə üçün qəmlisən deməyin mənə,
Baxıb o sahilə mən dönə-dönə.
Qanlı göz yaşları görürəm yenə,
Azərbaycanımın Arazında mən.

## SİNƏMDƏ GƏZDİRİRƏM

Görəydi kaş ki gözüm bir də şanlı Təbrizimi,
Oğullu, qızlı qoçaq, adlı, sanlı Təbrizimi.
Əyilməyən görüb ellər sınaqlı günlərdə
Ürəkdə min yarasıyla o canlı Təbrizimi.

Xəzinələr verələr, verməərəm ki, bir daşını,
Mənim qədər sevən olmaz fəğanlı Təbrizimi.
Yuxumda da görürəm çox zaman, nədir çarəm,
Beşikləri analı, qəhrəmanlı Təbrizimi.

Nolaydı bir də görəydim, ömür vəfasızdır,
Döyüşdə bayrağı tək bağrı qanlı Təbrizimi.
Süleymanam, əbədi od sinəmdə gəzdirirəm,
Başı həmişə bəlalı, dumanlı Təbrizimi.

## ƏLİMDƏN ELLƏR TUTUB

Böyük sənətə bağlı şair Süleymanam mən.
Ürək sözündə haqlı şair Süleymanam mən.

Vəfasızlıq etməsə, a dostlar, ömrüm əgər,
Biliniz qəlbimdədir istədiyiniz qədər-
Əziz körpələrimtək bəslədiyim nəğmələr,
Qışda bahar soraqlı şair Süleymanam mən.

Çəkilməyən yükləri çəkmişəm gəncliyimdə
Hər kəlməmi sindanda döymüşəm gəncliyimdə.
Qələmimi poladdan tökmüşəm gəncliyimdə.
Sinəsi söz bulaqlı şair Süleymanam mən.

Əlimdən ellər tutub pənahsız olmamışam,
Fəhlətək iş başında dəzgahsız olmamışan,
Döyüş meydanlarında silahsız olmamışam,
Milləti qol-budaqlı şair Süleymanam mən!

## İNANIRAM

İnanıram tarix bir gün öz hokmünü verəcək;
Ellər birgə gülüstandan qızılgüllər dərəcək
Bağrı yara həsrətlilər bir-birini görəcək,
Sən Arazdan iftixarla keçəcəksən, qardaşım!

Ayrılığa Araz deyil səbəb, bilir elimiz,
Dar gündə də öz kökündən ayrılmayıb dilimiz.
Gün gələcək bərk sıxacaq bir-birini əlimiz –
Sən də vüsal şərbətini içəcəksən, qardaşım.

Ayrılığın fərmanını pozacaqdır dostların,
Öpüb səni öz bağrına basacaqdır dostların.
Bu şad günü ürəklərə yazacaqdır dostların
Hər qapını qapın kimi açacaqsan, qardaşım!

## BİR DƏ SƏNİ GÖRMƏSƏM!

*Təbriz həsrəti*

Bilirsənmi neylərəm bir də səni görməsəm!
Bəxtimə heç söylərəm, bir də səni görməsəm.
Millətimin adından sənin düşmənlərinə
Ölüm hökmü dilərəm, bir də səni görməsəm.
Sanma ki, əvvəlkitək - mənim gözəl Təbrizim,
Sevinərəm, gülərəm bir də səni görməsəm!
Bütün bu yer üzünə bu şair gözlərimdən
Qanlı yaşlar çilərəm bir də səni görməsəm.
Kim deyir təkbaşıma bu qəmlər ordusunun
Öhdəsindən gələrəm, bir də səni görməsəm?
Süleymanam, nisgilim sənsizliyimdir ancaq,
Bilirəm ki, ölərəm, bir də səni görməsəm!

## QARA XƏBƏRLƏR

Bağrı qanam, bağrı qan ömrümün bu çağında
Qara xəbərlər gəlir od dərdli sahilimdən.
Təşvişlər içindəyəm gecəli-gündüzlü mən,
Çoxdan məktub almıram cənublu sevgilimdən.

Sən o tayda qalmısan, mən bu tayda qalmışam,
Durna qatarlarından səni xəbər almışam.

Ötən əziz günləri bir-bir yada salmışam,
Sənin dərdindən yazan qələm düşmür əlimdən.

Hansı millət dözərdi həsrətə, dərdə bunca?
Bir-birinin üzünü görməsək də doyunca,
Xəbərdarlıq xəbərdar uzun illər boyunca –
Mən sənin nisgilindən, sən mənim nisgilimdən.

Ordan torpaq qatmışam bağımda torpağıma,
Bəlkə təsəlli olsun sinəmdəki dağıma.
Yayılır bahar çağı Təbriz ətri bağıma –
O taylı, həm bu taylı çiçəyimdən, gülümdən.

O tayda gül əkənlər bağından tikan dərdi,
Oğullar qurban verib min dərdə sinə gərdi.
Mən dilli, mən arzulu qardaşlarımın dərdi –
Əsrə barabər etdi həsrətli hər ilimi.

Əmmamələr altında ilanlar görürəm mən,
Böhtanlar görürəm mən, yalanlar görurəm mən.
Əvvəli qan, sonu qan planlar görürəm mən.
Deyirəm bu bəlalar uzaq olsun əlimdən.

Xalqın həsrət çəkdiyi həqiqət zindandadır,
İnsan ömrünə zinət - məhəbbət zindandadır.
Fəlakət azad gəzir, səadət zindandadır.
Bürüyür dəhşət mənim qəlb adlı mənzilimi.

Könül unuda bilmir o tayda gördüyünü...
Fil belə çəkə bilməz, mən çəkən qəm yükünü,
Buna eminəm ki, mən, yetişər vüsal günü,
Yad beli eylər əvəz bu qəm yüklü belimi.

Nə qədər ki, sağam mən, ne qədər ki, varam mən,
Öz eşqimə, andıma inan, vəfadaram mən
Ən ağır günlərində sənə havadaram mən.
Cəlladların başına od yağacaq dilimdən.

## BİGANƏ DEYİL!

*Qan qardaşıma*

Uzaqdan-uzağa görürəm ki, mən
Gözlərindən axan qandır, yaş deyil,
Səndə uzun illər işgəncələrə,
Əzablara dözən candır, daş deyil.

Od tutub alışan bu şair könül
Sənin dərdlərinə biganə deyil.
Orda yasxanasız bir ev görmürəm
Ömrü qaragünlü yeganə deyil.

Ordan qan, əsarət qoxusu gəlir,
Sözüm həqiqətdir, əfsanə deyil.
Doğru söz yasaqdır, şadlıq yasaqdır,
Məgər bütün ölkə qəmxanə deyil?

Başı qara gündən qartək ağaran
Analar ağ günçün övlad doğurlar.
Behiştin açarı boyunlarında
Qırılır cəbhədə bədbəxt oğullar.

Sizin bu dözülməz faciənizə
Ürəyi yanmayan heç insan deyil.
Gecələr Təbrizin məzarlığında
Kim deyir ağlayan Süleyman deyil?!

## YARALI YOLLAR

Mən çoxdan tanışam sizinlə, çoxdan,
Mənə doğmasınız oralı yollar!
Burda başdan-başa güldür, çiçəkdir,
Siz dərdli yollardan aralı yollar.

Sizi bu sevdiyim qoca dünyada
Bir günüm olmur ki, salmayım yada.
Sinənizdən keçən yolçuların da,
Keçir ömrü, günü qaralı, yollar!

Mənə uzun illər deyir ki, ürək –
"Sevənlər ümidsiz olmasın gərək".
Bir gün birləşəcək şübhəsiz, gerçək,
Oralı yollarla buralı yollar.

Məni danlamasın hər yoldan ötən,
Bir vahid millət var, bir vahid vətən.
Gərək yaranızı mən sağaldam, mən,
Yadlar tapdağından yaralı yollar!

## TƏSƏLLİ

Yenə hər ilkitək Şüvəlandayam,
Əkdiyim ağaclar qocalır məntək.
Deyirlər: - Bununçun qəm yeməz adam,
Onlar qocaldıqca ucalır səntək.
Xoşuma gəlsə də bu sözlər mənim,
Hər yaş çağrılmamış qonaqtək gəlir.
Sınaq dəryasından şeir yelkənim
Yenə zəfər çalmış bayraqtək gəlir.
Hər gün eşidirəm xoş sözlər, hər gün,
Dayağım öz vətən şeirlərimdir.
Yaşımı azaltmaq deyildir mümkün,
Təsəllim gəncləşən şeirlərimdir!

## ZİNDAN GÖRÜRƏM

*Zülfini bas yarama, qoyma məni qan aparır*
*S.Ə.Şirvani*

Baxaraq mən o taya tinbaşı zindan görürəm,
Zülmə, işgəncəyə məruz sayı yox can görürəm.
Qara bir pərdə çəkib gözlərə əmmaməlilər.
Başkəsənlərdə nə qeyrət, nə də vicdan görürəm,
Eşqi zindanda yatan sevgili təbrizli qızı
Gözləri nəmli, yenə zülfü pərişan görürəm
Car çəkir gördüyünü ellərə qəm yüklü bahar,
Şehli yox, gülləri al qanlı gülüstan görürəm.
Yandırırlar yenə də şerimi, məktublarımı,
Bağlayıbdır yolu düşmən kimi hicran görürəm.
Zülmə qarşı bu çətin cəbhədə mən tək deyiləm.
Orda çox eşqi Süleymanlı Süleyman görürəm!

## FƏLAKƏT TƏBİLİ

Xəzan qoşun çəkib baharın üstə,
Gülşəndən qanqalı yolmaq vaxtıdır.
Əlləri, dilləri bağlı dostları
Cəlladlar əlindən almaq vaxtıdır.

Halı pərişandır orda ellərin,
Yenə bağrı qandır orda ellərin,
Həyatı zindandır orda ellərin
Onlara havadar olmaq vaxtıdır.

Tökdüyü qanlardan zövq alanların,
Millətin dərdinə şad olanların
Vətəni satmaqçın doğulanların,
Canına vəlvələ salmaq vaxtıdır.

Ordan namə gəlir adına bol-bol,
Səninçin yaxından yaxındır ki yol

Niyə dayanmısan, Süleyman, tez ol,
Falakət təbili çalmaq vaxtıdır!

## TƏBRİZLİLƏR

Doğmadır könlümüzə qeyrəti təbrizlilərin,
Beçə baldan da şirin söhbəti təbrizlilərin.
Bilirəm xeyli zamandır ki, mənimtək –
bilirəm Bir vüsal arzusudur həsrəti təbrizlilərin.
İgid övladları dar gündə itirməz özünü,
Yayılıb yer üzünə qüdrəti təbrizlilərin.
Ölümün dik gözünə baxmağa öyrənmişlər,
Bəllidir yadlara bu cürəti təbrizlilərin.
Dözməz haqsızlığa, tarix bunu çox yaxşı bilir,
Kişilikdir belə xasiyyəti təbrizlilərin.
Duz-çörək kəsmişəm onlarla ağır günlərdə,
Doğruluqdur əbədi sərvəti təbrizlilərin.
Yaxşı niyyətlə gələn qəlbi təmiz hər qonağa
Hər zaman hədsiz olur hörməti təbrizlilərin.
Analardan süd əmir körpəcə Səttarxanlar,
Olacaq hər biri şan-şöhrəti təbrizlilərin!

## ÖZÜMDƏ QALIB

Adın dilimdə, bu gün də şirin dilimdə qalıb
Gözüm yolunda gözəl - dərdli Təbrizimdə qalıb.
Səninlə yollar ağartdıq dünən o yerlərdə,
Bu gün yəqin ki, o tayda ayaq izim də qalıb.
Haray çəkib gecə-gündüz, vüsal deyib gəzirəm,
Nə yaxşı ki, hələlik taqətim dizimdə qalıb.
Uzaqdasan, mənə yalnız təsəlli varsa budur –
Ömürlük, ey gözəlim, surətin gözümdə qalıb.
Süleymanam sənə qurban, görüşməsək də bu gün
Məhəbbətin ürəyimdə, mənim özümdə qalıb!

## SÜLEYMANA GÖSTƏRİN!

*Cənublu qardaşlarıma*

Qırx il var ki, görməmişəm Təbrizi,
Ordan mənə bir nişana göstərin.
Özünüzü hər bu taya gələndə,
Ayrılıqdan bağrı qana göstərin.
Əlinizdə hər nə varsa oralı
Şair könlü pərişana göstərin.
Sinəsinə həsrət dağı çəkilmiş,
Hamınızdan nigarana göstərin.
Yaşarsa da bu görüşdən gözləri
Onun kimi yana-yana göstərin.
Heç olmazsa cansız kino lentada
Təbrizini Süleymana göstərin.
Sizin üçün böyük "günah" olsa da
Mən imansız müsəlmana göstərin!

## HƏSRƏTİMİN YAŞI

Həsrətimin yaşı çoxdur yaşımdan,
Hicran dərdli bir insanam, a dostlar!
Bu həsrəti soruşun göz yaşımdan
Ayrılıqdan bağrı qanam, a dostlar!

Döyüşlərdə mərd oğullar itirən,
Bağçaları qara güllər bitirən,
Dumalarla mənə xəbər yetirən
O sahildən nigaranam, a dostlar!

Mən nə çörək, nə şan-şöhrət acıyam,
Nə məhəbbət, nə hürriyyət acıyam.
Vahid vətən, vahid millət acıyam,
Cənub dərdli Süleymanam, a dostlar!

## AZADIM

*Oğlumun ad gününə*

Sən mənim göz bəbəyimsən, öz adımsan, Azadım,
Doğru yollarda qolumsan, qanadımsan, Azadım.
Şerimin mənbəyisən, çeşməsisən, gulşənisən,
Ən ağır gündə əyilməz poladımsan, Azadım.
Sən qaranlıq gecədə sönməz işıqsan gözümə,
Bu məhəbbət dolu qəlbimdə odumsan, Azadım.
Belə xoşbəxt ola bilməzdi Süleyman Rüstəm,
Sən canımsan, ciyərimsən, Azadımsan, Azadım!

## OĞUL

Bu sözüm əfsanə yox, yalnız həqiqətdir, oğul
Millətə namusla xidmət, bir səadətdir, oğul...
Dostluğa, qardaşlığa and içmisən, əhsən sənə
Aldığın bu yaxşı addım, ömrə zinətdir oğul.
Andına sadiq vətənpərvərliyində möhkəm ol,
Andı pozmaq məncə dəhşətdən də dəhşətdir oğul,
Qoy vüqarın qol-qanad açsın, baharın lalələr,
Millətin çünki qızıl bayraqlı millətdir, oğul.
Mən Süleyman Rüstəməm, eldir, vətəndir, varlığım,
Can evimdə ən böyük nemət bu sərvətdir, oğul.

## QIZIM ƏZİZƏYƏ

Evimizə gələndə məhəbbət gətir, qızım...
Öz hüsnünə bənzəyən təravət gətir, qızım!

Uzun illər boyunca bu həyat yollarında,
Adımıza, adına şan-şöhrət gətir, qızım!

Kasıbın olduğundan süfrəmizdə hər nə var,
Bizə ürəyin kimi bir dövlət gətir, qızım!

Gəl, qızım bəxtimizin çırağı ol ömürlük,
Həqiqət dünyamıza həqiqət gətir qızını!

Sən əzizdən əzizsən bizim üçün, Əzizəm,
Süleymanın evinə səadət gətir, qızım!

# Mahnılar

## OLMASA

Gülməz şeir deyən yeni sövdası olmasa,
Dinməz dilindən hər sözün əlası olmasa.
Məktəbdə öz müəllimini dinləməz uşaq
Aydın, təmiz dili, gözəl imlası olmasa.
Ahəngi öz yerində belə olsa mahnının
Yol tapmaz heç ürəklərə mənası olmasa.
Hər söz güləşdirən deməsin şairəm, bəli,
Könlündə yüksələn yeni dünyası olmasa.
Dostlar, bilin ki, mən əlimə almaram qələm
Millət mənim bu təcrübəmə razı olmasa.

## SUALA CAVAB

Dostlarım soruşur: "Neçə yaşın var?"
Deyirəm; "Nə bilim, itibdir hesab"
Yenidən başıma yağır suallar,
Nəhayət, onlara verirəm cavab.
Deyirəm ki: "Qoyun bir nəfəs alım,
Sual yağdırmayın yer-yerdən mənə.
Belədir ağarıb saçım, saqqalım,
Anamın gözündə körpəyəm yenə!"

## GÖRÜNDÜ

Yenə ürəyimdə qaynayır qanım,
İlk bahar qoltuğu sazü göründü.
Taxıldı döşlərə güllər, çiçəklər,
Şeirlər, mahnılar fəsli görundü.

Əziz balam kimi dilli baharın,
Saçları al-əlvan telli baharın,
Əlləri çiçəkli, güllü baharın
Ana torpağımla vəsli göründü.

Dəryadan dərindir mənası bunun,
Qızıl meydanında mərdlər yurdunun
Kommunizmə gedən şanlı ordunun
Qızıl qalstuklu nəsli göründü!

**GƏL, GƏL!**

Hər yan bəzənib əlvan,
May, sən nə gözəl aysan.
Dindir məni hüsnünlə,
Solmaz, yeni hüsnünlə.
Al bayrağının rəngi,
Beynəlmiləl ahəngi
Hər qəlbə verir ilham,
Eşqinlə gülür dünyam.
Gəz yurdumu cürətlə,
Hörmətlə, məhəbbətlə.
Bülbültək ötür insan,
Gülşəndir Azərbaycan.
Hər yan bəzənib əlvan!
May, sən nə gözəl aysan!
Gəlmişdin əziz dosttək
Od yurduma sən bildir.
Gəl, hər kəsə sən tək-tək
Kimsən, nəçisən, bildir.
Dünyada bilir hər kim
Göylərdə gəzir "peykim".
Bu təntənədən olmaz,
Qartaltək edir pərvaz, -
Şerim onun ardınca,
Ömrüm onun ardınca.

Gəl, gəl, ay əziz May, gəl,
Ay alnıaçıq ay, gəl!
Gəl, gəl ana torpaqda,
Hər bağçada, hər bağda,
Saz çal, yenə şənlik qur.
Tök badənə şəbnəm, vur:
Gəl, durma, yerin boşdur,
Gəl, gəl gəlişin xoşdur.
Gəl, lalə tutub əldə,
Addımla bizim eldə.
Yüngül qədəmin vardır,
Tər gül qədəmin vardır.
Gəl, hüsnünə min əhsən!
Qəlbimdəki eşqimsən.
Hər yan bəzənib əlvan, May!
Sən nə gözəl aysan!

## BİRİNİZ MƏNƏM

Uşaqlar, ay uşaqlar, gəlib buz əsalı qış,
Xəzri meydan oxuyur, yağır qar, tökür yağış.
Hava bozarıb yenə,
Üzlər qızarıb yenə.
Ağarır bəxtimiztək qar yenə damda, daşda,
Sizləri görmürəm mən qış çağında təlaşda.
Bahar ürəklisiniz, qış da bahardır sizə,
Qışın ağ çiçəkləri dövlətdir, vardır sizə.
Deyirəm ki, kaş indi mən siz yaşda olaydım,
Qartopu oynamaqda yenə başda olaydım.
İftixarla gəzəydim üzərimdə qar yükü.
Xatirimə gəlir ki,
Uşaqlıqda çox dəyib başıma qar topları,
Cavanlıq çağlarımda qar deyil, yar topları.
Xoşbəxt balalar, sizə həsrətlə baxıram mən.
Hörmətlə baxıram mən.
Bahara on yaxın yol, qışın qarlı yoludur,
Varlı, barlı yoludur.

Könlünüz heç bir zaman bahardan ayrılmasın,
Qızarmış əlləriniz toplardan ayrılmasın.
Çox da deyiləm cavan, çox da yaşlıyam, nə qəm,
Mənə elə gəlir ki, sizin biriniz mənəm.

## BİR ULDUZAM ÖZÜM DƏ

Şan-şöhrətdir anadan neft şəhərində olmaq,
O yerdə ömür sürüb, o yerdə yaşa dolmaq.
Möhtəşəm şəhərimdə, Bakımda doğulmuşam,
Orda iməkləmişəm, orda yaşa dolmuşam.
Canım bu torpaqdadır, Qanım bu torpaqdadır.
Alnıaçıq neftçiyəm, mən razıyam peşəmdən,
Ölkələr işıq alır mənim buruq meşəmdən.
Ta uşaqkən neftimin qəhvəyi damlaları
Səpələnib üstümə yağan xoş yağış kimi.
Baxıb neftdən yaranmış qara göllərə sarı
İstəmişəm baş vurub üzəm orda quş kimi.
Neftimin hər damlası bir ulduzdur gözümdə,
Buruqlar arasında bir ulduzam özüm də.

## NƏĞMƏLƏRİM VAR

Könlümdə şirin nəğmələrim var,
Xoş keçdi bu yerlərdə həyatım,
Sahilləri cənnət Xəzərim var.

Hər dalğası dağ boyda da olsa,
Qoynunda onun dincəlirəm mən,
Hər davranışından xəbərim var.

Hər dosta geniş bağrı açıqdır,
Bir yad üzə bilməz sularında,
Üstündə günəştək nəzərim var.

Xoş keçdi bu yerlərdə həyatım,
Sahilləri cənnət Xəzərim var.

## SƏNDƏN ÖYRƏNDİM

Xəzərim! Gilavar narı əsəndə,
Üzüyumşaqlığı səndən öyrəndim.
Sinəndə oynarkən ağ ləpələrin
Baxıb, uşaqlığı səndən öyrəndim.
Bəzən köpürürsən, bəzən daşırsan,
Sahilin başına oyun açırsan.
Öpüb ayağını sonra qaçırsan,
Belə şıltaqlığı səndən öyrəndim.
Olanda xəzriylə sən əlbəyaxa
Hər dalğan çevrilir uca bir dağa.
Xəzrinin qəsdini çıxarır yoxa,
Mən bu qoçaqlığı səndən öyrəndim.

## SƏN DƏ GƏRƏK...

Oğlum, yazıq bu dünyamız beş günlükdür, deyənə.
Sən də gərək atan kimi el qədrini biləsən.
Cürətinlə, hünərinlə bəzəyəsən ömrünü,
Varlığınla bağlanasan vətənə sən, elə sən.

Oğlum, gərək "mən, mən" - deyib öyməyəsən özünü,
Arzum budur, görməyəsən qara günün üzünü.
Başqasının süfrəsinə dikməyəsən gözünü.
Süfrəndəki duz-çörəyi dostlarınla böləsən.

El içində zəhmətinlə qazanmasan etibar,
Bahar çağı gül bağına dolu yağar, qar yağar.
Mən nə deyim? Əcəb deyib bizim ulu babalar
Gərək bir gün öləndə də kişi kimi öləsən

## OLSUN, OLMASIN

Sevgilim, könlüm sənin heyranın olsun, olmasın!
Can deyib, candan keçən cananın olsun, olmasın!
Bəlkə bilmirsən özün, çoxdan mənim qəlbimdəsən,
Canına bağlı bu can da canın olsun, olmasın?
Bir gün hicran yollarında könlünə üz versə qəm,
Odlu, ilk busəm sənin dərmanın olsun, olmasın! –
Şux çiçəklər, güllər öpsün gül dodağmdan gərək,
Aşiqiıs bağçanda öz bağbanm olsun, olmasın!
Mən Süleyınan Rüstomom, dillon görüm, yandım ki, mən
Gündə min yol can sənin qurbaıım olsun, olmasm?

## ƏKSİNİ GÖRDÜM

Qəlbimdə yenə saf, ləkəsiz güzgünü gördüm,
Mən orda böyük eşqimin öz mülkünü gördüm.
Uçdum dağa bir durna qatanyla bərabor,
Göy göldə bu rəqqasələrin rəqsini gördüm.
Endim Xəzərin sahilinə, yelkənə bənzər
Quş ordusumın qar kimi ağ köksünü gördüm.
Sən bəxtimə bax, ayaa kimi mavi sularda
Axşam ayı, ulduzları, gundüz günü görduüm.
Hər tərpənişi naz dolu şıltaq ləpələrdə
Sandım ki, mən öz scvgilimin əksini gördüm!

## BAŞINA GƏLSİN!

Ey evi gəlinsiz, nəvəsiz qardaş,
Nə deyim ki, sənin xoşuna gəlsin!
Görüm mənimkitək - qar kimi tüklər
Kirpiyinə gəlsin, qaşına gəlsin.
Deyirəm: sənin də evinə bir gün
Gəlinin yaşına-yaşına gəlsin!
Alsın yan-yörəni körpə nəvələr,
Başıma gələnlər başına gəlsin!

## AYAĞIM DEYİL

Nəcib arzularla doludur könül,
Daha qəmxanələr ocağım deyil.
Başım daşdan-daşa dəyibdir artıq,
Sevgilim, bu çağım o çağım deyil.

Adınla bəzənib ömür kitabım,
Hicrinə dözməyə qalmayıb tabım.
Böhtana, yalana bağlıdır qapım,
Ürəyi qurdlular qonağım deyil.

Yalnız ayrılıqdır qapımı döyən,
Sənsiz nəyə gərək bu bağ, bu çəmən.
Sənə pıçıltıyla nəğmələr deyən
Bu sevən konlümdür, dodağım deyil.

Yaxşı bilirsən ki, sevirəm səni,
Qaldır pəncərəni örtən pərdəni,
Qapına görüşə gətirən məni
Sevən ürəyimdir, ayağım deyil!

## GECDİR ARTIQ

Yaman qarışdırmışdı şöhrət mənim başımı,
Yaxınıma qoymurdum dostumu, yoldaşımı.
Vurulmuşdum özümə, bir də sənə, ey qadın,
Dilimdə gecə-gündüz öz adım, sənin adın.
Bəyənirdim nədənsə yalnız öz sözlərimi,
Qalın şöhrət pərdəsi tutmuşdu gözlərimi
Gül üzünü görurdüm, ürəyini görmürdüm.
O kökündən çürümüş diləyini görmürdüm.
Ah, yanlış addımlarım yadımdan çıxmayacaq.
Daim deyirdin mənə: "səni sevirəm ancaq"
Başıma and içirdin, canıma and içirdin,
Uğrumda quru sözlə öz canından keçirdin.

Zaman bir gün uçurtdu şöhrət taxtından məni,
Dar günümdə görmədim yanımda bir an səni.
Tək qalmadım, ömrümə hayan oldu vətənim.
Yaxın dostlar, tanışlar tutdu əlimdən mənim.
Günlər, həftələr, aylar dolandı sən gəlmədin,
Bəzən sinəmdə odlar qalandı sən gəlmədin.
Nəhayət, dost əliylə yaralarım sağaldı,
Keçən günlərdən ancaq acı xatirə qaldı.
Mənə elə gəldi ki, yenidən doğulmuşam,
Dünənsə vətənimçin nankor bir oğulmuşam.
Bu gün qatıb gecəni gündüzə gənc yaşında
Min arzu bəsləyirəm ürəyimin başında.
Budur yenə gəlmisən, sevgidən danışırsan,
Ürəklərlə oynamaq sənə gəlməsin asan,
Yalançı andlarınla gəl pozma dincliyimi
Çöldən tapmamışam ki, bu qaynar gəncliyimi!
Könül dediklərinə daha inanan deyil,
Çəkil mənim günəşli, aylı yolumdan, çəkil.
Deyirsən: "məni əfv et" bilmirsən gecdir artıq?
Gözəlliyin, varlığın gözümdə heçdir artıq!

**ÖLSƏ**

Yadigar qoymalıdır xalqa hər insan, ölsə,
Etməsinlər deyə bir an onu nisyan, ölsə.

Qəhrəmanlar deyəcəkdir yenə: nakam öldüm,
Vətən uğrunda əgər can verib, asan ölsə.

Xalqın azadpərəst oğlu silinmaz yaddan,
Edib öz canını oz xalqına qurban, ölsə.

Vətəni sevməyənin əsrdə qalmaz əsəri,
Gəzəcək şeri ağızlarda, Süleyman ölsə.

## BAĞIŞLA

Şair, vətənə, xalqa gülüstanı bağışla,
Dildarına, gəl, bu yeni dastanı bağışla,

Canan məni tərk etdi, düşündüın gecə-gündüz,
Könlüm dedi ki, qəm yemə, cananı bağışla!

Mən vəslinə həsrət çəkirəm xeyli zamandır,
Canan, yenə də sən mənə hicranı bağışla!

Qəlbimlə verib baş-başa, gəldim bu qərarə:
Öz xalqına, şair, bu şirin canı bağışla...

Könlüm gülə bilməz bilir aləm ki, vələnsiz,
İstər ona sən varlığı, dünyanı bağışla!

Ey nazlı vətən, mən sənə öz könlümü verdim,
Qarşında günahkarsa, Süleymanı bağışla!

## OLSUN

Bir adətidir bülbülün hər fəsli-baharda
Sorsun "hanı bir yer, bu çəməndon gözəl olsun!"

Baxdıqca sorar, güzgüyə, canan, öz-özündən:
"Dünyada gözəl varmı ki, məndən gözəl olsun?!"

Yüngüllərin ardınca dönüb baxmaram əsla,
İstər ya sifətdən, ya bədəndən gözəl olsun.

Ey nazlı Vətən! Yox elə bir şey bu həyatda
Səndən əziz olsun mənə, səndən gözəl olsun.

Təkrar edəcəkdir bunu hər yerdə Süleyman;
Bir öylə gözəl yox ki, Vətəndən gözəl olsun!

## QIRA BİLMƏZ

Hər kim ki, sevir, sevgidən ölməz,
Qəlbimdə coşan telləri heç vaxt
Rəftarı qırıqlar qıra bilməz.
Mən vurğunuyam nazlı nigarın,
Onsuz bu bahar gülşənə gəlsə,
Şair bağa, bülbül gülə gəlməz.
Eşqin yeni sevdası başımda,
Şux dilbərə bağlandı bu könlüm,
O gülsə gülər, gülməsə gülməz.
Qəlbimdə coşan telləri heç vaxt
Rəftarı qınqlar qıra bilməz.

## VƏTƏN DEYİRƏM

Böyük anam vatənin qarşısında baş əyirəm,
Uşaq kimi sevinib şənliyində al geyirəm.
Vətən müqəddəs anamdır, heç olmadım anasız,
Vətəndən ayrı düşəndə həmişə qəm yeyirəm.
Gələndə rastıma bəzən vətənsizin birisi
Dalınca yox, üzünə gözbəgöz yaman söyürəm.
Deyəndə ki, a Süleyman, nədir səninçin əziz?
Vətən, vətən deyirəm mən, vətən, vətən deyirəm!

## QƏLƏMDƏN GƏLİR

Odlar ölkəmdəki bu yaraşıqlar
Könlümün on şirin, xoş nəğməsidir.
Açıq alınmdakı bu qırışıqlar
Keçdiyim yolların xəritəsidir.

Yox, vaxtı ötməyib bahar çağımın,
Yenə şeir yazmaq əlimdən gəlir.
Bu sağ əlimdəki üç barmağımın
Qabarı tutduğum qələmdən gəlir.

## VƏTƏN EŞQİ

Vətən gülüşənləri görunür mənə
Şeir bağım kimi, söz bağım kimi.
Bir torpaq göstərin, güllər bitirsin
Mənim Azərbaycan torpağım kimi.

Əlimlə dirçəlir hər bağ, hər bağça,
Burda yüz yaşlıya deməzlər qoca.
Ellərin başını görürəm uca,
Savalanım kimi, Şahdağım kimi.

Bir daha tarixi gətirək yada,
Xalqım baş əyməyib ömründə yada.
Bir ocaq göstərin mənə dünyada
Mənim odu sönməz ocağım kimi!

Yurdumun günəşli səhərində mən;
Tapmışam bəxtimi zəfərində mən.
Görürəm dünyanın çox yerində mən
Dan yeri qızarır bayrağım kimi.

## YAYLIQ

Qoy deyim bu yaylığı niyə əzizləmişəm,
Niyə onu biganə gözlərdən gizləmişəm.
Nakam məhəbbətimin izi var bu yaylıqda,
Sanki ilk sevgilimin özü var bu yaylıqda.
Əziz olur mənimçün ildən-ilə bu yaylıq,

Eşqimdən söhbət açır gəlib dilə bu yaylıq.
Yadımdan çıxarmı heç bir ilk bahar çağında,
Axşam, sahil bağında,
Son verməkçün qəlbimdə doğan kiçik şübhəyə,
"Yalnız səni sevirəm, yalnız səninəm" deyə-
Çiynimə söykəmişdi məhəbbətlə başını,
Bu yaylıqla silmişdi gözlərinin yaşını.
Mənə bağışlamışdı eşqinə şahid kimi,
Beləcə oxşamışdı həyəcanlı qəlbimi.
Getdi, özüylə birgə gəncliyimi apardı,
Dincliyimi apardı.
Bədbəxtimi ya xoşbəxtmi olduğunu bilmədim,
İllər keçdi, adını ürəyimdən silmədim.
Xatirindən çıxsa da mənim bu dediklərim
Ürəyini sıxsa da mənim bu dediklərim,
Bir acı həsrətlə mən onu anıram yenə,
Bu yaylıqdan eşqimin gözləri baxır mənə.

## HƏQİQƏT NƏFƏSLİ

Odlar diyarımın xəritəsində
Həqiqət nəfəsli Lənkəranımsan!
Ömür baharımın xəritəsində
Məhəbbət nəfəsli Lənkəranımsan!
Yaşa, abnıaçıq gözəllərinlə
Xəzansız, müqəddəs əməllərinlə!
Görüb bu zəfərlər bayrağını mən,
Əyilib öpürəm toqağını mən!

## MAHNIMIN NƏQƏRATI

Kağızlar üstündəki sətirlər zəfərimdir,
Altında imzam isə mənim alın tərimdir.
Könül dəftərimdəki hər mənalı səhifə
Ulduzlu, aylı gecəm, günəşli səhərimdir.

Yazısız, başdaşısız torpaqlara gömdüyüm,
Qəlbimdən qopardığım dünənki kədərimdir.
İlhamımın çeşməsi, mahnımın nəqəratı
Mənim uzun ömrümün aynası Xəzərimdir.
Dalğaların qoynunda bir an sakit keçməyən
Havasını udduğum bu gözəl şəhərimdir!

## İKİNCİ TƏVƏLLÜD

Udardı məni də qaranlıq gecə
Canımı atəşlə yoğurmasaydım.
Bilmirəm taleyim gülərdi necə
Ellər, ellər deyib çağırmasaydım!

Bu ilham, həvəs hardandı məndə -
Bəxtimin üstündə göz olmasaydım!
Al bayraq altında ana Vətəndə
Mən ikinci dəfə doğulmasaydım!

## YADİGAR

Vətən hədiyyə edibdir bu iftixarı mənə,
Odur, o, sevdirən ömrümdə ilk baharı mənə.

Səhər qızılgülün eşqilə nəğmələr oxuyar
Baharımın sarı köynəkli bəsləkarı mənə.

Hər axşamüstü gözəl müjdələr verər, ey dil,
Günəşli göydə uçan durnalar qatarı mənə.

Süleymanam, bilirəm hər kəsin mən öz dilini,
Nəsihət eyləmə duzsuz dilinlə barı, mənə.

## XATİRƏ

Vuruldum gəncliyimdə Xəzər gözlü bir qıza,
Səhər gözlü bir qıza!
Könlümdə dil açanda mənim ilk məhəbbətim,
Yadımdadır o qızla lalapiti söhbətim.
Kəlməni kəlbətinlə qəlbimdən çıxardığım,
Ayağım əsa-əsə qapısına vardığım.
Yadımdadır, əksini gözümdə gəzdirdiyim,
Sevgisini canımtək özümdə gəzdirdiyim.
O qıza bir qızılgül verdiyini yadımdadır,
Bir axşam yaxasında gördüyüm yadımdadır...
Yadımdadır könlümə ilham verən sözləri,
Gözlərimlə danışan o səmavi gözləri,
Gedişi yadımdadır, gəlişi yadımdadır,
Bahardan min qat gözəl gülüşü yadımdadır.
Bu eşqin tarixindən çox uzun illər keçib,
İllərin darağıyla saçımıza dən düşüb.
Elə gəlirki, mənə
Verdiyim o sul yenə
Onun yaxasındadır,
Ayrılıq saatları illər arxasındadır.

## O QIZDIR

Deyirlər ki, o qızın nəyinə vurulmusan,
Bilmirik niyə görmür gözəlləri gözlərin?!
Bu məzəmmət hədərdir, mən deyiləm peşiman,
Yox, yox, dəyəri yoxdur mənimçin bu sözlərin.
Eşqimin göylərində tək o qızı görürəm,
Günəşim də, ayım da, ulduzum da o qızdır.
Nə baharı, nə qışı, nə payızı görürəm,
Baharım da, qışım da, payızım da o qızdır!

## MƏHƏBBƏT OLMASAYDI

Bu həyat kitabımın artdıqca varaqları
Ömrümün ağacından yarpaqlar bir-bir düşür.
Yaxşı bilirəm ki, mən olubdur ömrüm yan,
Lakin könlümdən yenə mənim yaşamaq keçir.
Həmişə toxdur gözüm,
Özgənin şöhrətində zərrəcə yoxdur gözüm.
Mahnı deməkdir peşəm,
Xoş günümdə hamıya xoş günlər istəmişəm.
Dostlar dar gün görməsin, demişəm dar günümdə,
Bütün yaxşı insanlar dayanıb göz önümdə.
Dinməzdim yazdıqlarım həqiqət olmasaydı,
Könlümdə insanlara məhəbbət olmasaydı.

* * *

Səno öz könlümü verdim, səni candan sevdim,
Sevgimə olmadı əngəl dəli hicran, sevdim.
Bağladım vəcdə gəlib hüsnünə şerimlə kitab,
Bu yolun yolçusutək dərdə dözüb çəkdim əzab.
Sənə öz qəlbimi açdım, sənə min dil tökdüm,
Eşqimə gülləri, bülbülləri şahid çəkdim.
Səni sevdimsə də, heyhat, üzümə gülmədi baxt,
Adına nəğmə qoşarkən gecə-gündüz bir vaxt,
Elə zənn etmə ki, səndən diləyirdim sədəqə,
(Eşqi dünyada, inan, istəməz heç kim sədəqə).
Duymadın qəlbimi əsla, de, görüm, mən nə edim?
Niyə küsdün? Sənə bir güldən ağır sözmü dedim?
Solmadı, yox, bu məhəbbət, bu çiçək könlümdə
Saxladım ilk yaranı xatirətək könlümdə.
Sönməyib, yox, hələ könlümdəki eşqin həvəsi,
Onu dondurmayacaq ayrılığın buz nəfəsi.
Varsa bir zərrə günahım məni əfv etmə, buyur,
Vurduğun ilk yaranın üstünə son bir yara vur!

## BAHAR RƏQSİ

Lənkərandayıq, Lənkarandayıq,
Həyəcandayıq, həyəcandayıq.
Moskvadandır qonaqlarımız,
Mahnılar deyir dodaqlarımız.
Yaşıl don geyib Talış dağları,
Min rəngə çalır meyvə bağları.
Sağımız çiçək, solumuz çiçək,
Sahil boyunca yolumuz çiçək.
Köhnə dost kimi ilk bahar yenə
"Çiçək dər" deyə, göz vurur mənə.
Gülür o körpə həvəsli bahar,
Ətirdən də xoş nəfəsli bahar.
Əlində lalə bahar rəqs edir,
Bahardan gözəl Xumar rəqs edir.
Belədir bizim vətən qızları,
Həyatı parlaq yer ulduzları!

## SƏNİ SEVƏRDİM

Bakı göylərində gözəl bir axşam
Tapdı ulduzunu mənim ulduzum.
Sən məndən, mən səndən alırıq ilham,
Qoy şirin söhbətim olmasın uzun.
Sevgi dünyasında keçdi ömrümüz,
Ağ gündə, dar gündə sınadım səni.
Bağışla, sevgilim, olmasam da pis –
Bəzən yerli-yersiz qınadım səni.
Çox yaxşı bilirsən, vəfalı dilbər,
Adına bağlıdır sevincim, dərdim.
Yenidən dünyaya gəlsəydim əgər
Yəqin ki, yenə də səni sevərdim!

## ADINI SAXLA

Həyat yollarında, könül, həmişə,
Yadında müqəddəs andını saxla.
Dost ellər içində, sınaq günündə,
Hörmətini saxla, adını saxla.

Həyatda sevinclə əkizdir kədər,
Çalış, bir anın da getməsin hədər.
Süleyman, ömrünün sonuna qədər
Qəlbində eşqinin odunu saxla!

## ANALAR

Görün nə aləmdir, bizim analar,
Biri övladına çırağım deyir.
Görürsən o biri öz laylasında
Pənahım, igidim, qoçağım deyir.

Biri də: can bala, qulaq as, sənsiz,
Sərt qışa çevrilər bahar, yaz sənsiz,
Bəxtimin qapısı açılmaz sənsiz,
Solar çiçək bağım, gül bağım, deyir.

Bir ana səslənir: balam, ay balam,
Mənim günəş balam, mənim ay balam,
Dünyada tapılmaz sənə tay balam,
Sənsən ucalığım, Şahdağım, -deyir.

Bir ana qaldırıb zilə səsini,
Oxuyur ömrünün xoş nəğməsini.
Öpüb dönə-dönə öz körpəsini
Ən gözəl çağımdır, bu çağım, deyir.

Bir qonşu evdəsə cavan bir ana
Öz körpə ilkini basıb bağrına,

Böyük məhəbbətlə süd verir ona,
Körpəmsiz olmasın qucağım, - deyir.
Bir ana dillənir: "Mənim ülkərim,
Gözümün işığı, canım, ciyərim.
Səninlə dağılır dərdim, kədərim.
Sənsiz işıqlanmaz ocağım, deyir.
Gəncliyim ötsə də, xoşbəxtəm yenə,
Mahnılar qoşuram xalqa, vətənə.
Hər yerdə ağsaqqal deyirlər mənə,
Anamsa "gül balam, uşağım" - deyir.

## ATAMA

Ata! Sən bu həyatdan nakam getmədin əsla,
Gəlir övladlarının ocağından işıqlar.
Onlar yolçu olublar al günəşli bir yola,
Sənin bu doğru yolda xoşbəxt övladların var.
Gözümüzün önündən getməyib, getməyəcək,
Bizə çörək qazanan büküilməz biləklərin.
Çəkdiyin o əməklər itməyib, itməyəcək,
Dünyada hasil oldu tükənməz diləklərin.
Sindanının önündə çəkic vuran zamanlar
Üzümə çox sıçrayıb dəmir qığılcımları.
Ata! Kim bilir, bəlkə, bəlkə elə o anlar
Ürəyimdə yaranıb şeir qığılcımları!
Mən hər məzarıstanda olduğum zaman, ata,
Sənin şair oğlunun yaşla dolur gözləri.
Sanki lap əvvəlkitək gəlir qulaqlarıma,
Qara torpaqlar altdan çəkicinin səsləri.

## AXTARARSINIZ

Bir gün yadınıza düşərsəm, məni,
Bu doğma ellərdə axtararsınız.
Beş, altı nəğmənin müəllifini
Sevən könüllərdə axtararsınız.

İlk bahar çağında,
İsa bulağında,
Araz qırağında,
Sonalı göllərdə axtararsınız.

Gözəllər gözəlim, vətəndir, vətən,
Nə duman görəcək, amalım, nə çən.
Məni, karvan-karvan mənalı keçən,
Aylarda, illərdə axtararsınız.

Görən gözümü,
Ürək sözümü,
Mənim özümü
Nəğməli dillərdə axtararsınız.

## ÖTƏN İLLƏRİM

Gəldi yaş üstünə yenə də bir yaş,
Sanmayın, yel kimi keçdi illərim.
Uğurlu, günəşli, uzun yollarda
Dostu düşmənindən seçdi illərim.

İllərim bu vətən torpağındadır,
Şeir bağındadır, söz bağındadır.
Ellərin gözünün qabağındadır,
Kim deyə bilər ki, heçdi illərim.

Açdı hər qapını öz qapım kimi,
Dindi könüllərdə rübabım kimi.
Gəzdi dost ellərdə kitabım kimi,
Sevən ürəklərə köçdü illərim.

## MƏNƏ QALIBDIR

Ulu babalardan, mərd atalardan
Haqq yolu izləmək qalıbdır mənə.
Azadlıq vurğunu bəşəriyyəti
Ağ günə səsləmək qalıbdır mənə.

Ey dost, sənə layiq, həm mənə layiq,
Zavalsız, xəzansız gülşənə layiq,
Qurbanı olduğum vətənə layiq
Mahnılar bəsləmək qalıbdır mənə.

Araz sahilində gəzən dilbərin,
İllərlə min dərdə dözən dilbərin
Hicranı qəlbimi üzən dilbərin,
Yolunu gözləmək qalıbdır mənə!

## VAR OLUN!

Dağı dağ üstə qoyan qəhrəman ellər, var olun,
Üzü ağ, alnı açıq şanlı nəsillər, var olun.
Pambıq uğrunda təbiətlə çıxarkən döyüşə,
Qaçdı sizdən qara yellər, dəli sellər, var olun.
Ağ qızıldan yaranıb dağ, boyu yerdən göyəcən
Bu vətən torpağına can verən əllər, var olun.
Çevrilir təntənəyə, himnə, zəfər nəğməsinə
Qəlbinizdə yuva qurmuş xoş əməllər, var olun!
Gəlirəm vəcdə, görüb əzminizin bəhrəsini,
Səslənir şövq ilə qəlbimdəki tellər, var olun!

## XƏZƏRİM OLSUN

Deyirəm Xəzərin sahillərində
Mənim milyon-milyon səhərim olsun.
Ürək dostlarımın ürəklərindən
Keçən arzulardan xəbərim olsun.

Eşqi var, qanı var mənim canımda,
Dalğası dillənir həyəcanımda,
Xəzərsiz keçməyib bircə anım da,
Ölsəm qoy məzarım Xəzərim olsun.

**ÖZGƏLƏNMƏSİN**

Şair yad elli bağda gərək kölgələnməsin,
Yad gözlə baxmasın vətənə, özgələnməsin.
Gəzsin vüqarla, vəcdə gəlib bəxtəvər kimi,
Millət, vətən məhəbbəti qəlbində sönməsin.
Məftun olub öz aləminə, öz cəlalına,
"Mən, mən" deyib həyatda müqəvvaya dönməsin.
Şair çəkinməsin, sözünü düz desin gərək,
Nadanların yığıncağına düşsə dinməsin.
Yaz, yaz dəmirçi oğlu sayaq yaz, Süleymanım,
Şerin də qoy özün kimi təxtindən enməsin.

**GÜLŞƏNİM**

Etsə cövlan min xəzan - qarşımda, solmaz gülşənim,
Sevgi dəryasında tufan qopsa, batmaz yelkənim.
Kim ki, vicdan alverindən doymayıb bilsin ki, o
Düşmənimdir, düşmənimdir, düşmənimdir, düşmənim.
Görməyib, görməz məhəbbətsiz bu dost ellər məni,
Qəlbimin saf, al qanıyla yoğrulub eşqim mənim.
Xalqıma böhtan atan qansızlara, satqınlara
Ta uşaqlıq illərimdən mən kesildim bir qənim.
Mən Süleyman Rüstəməm, məşəl təkindir hər sözüm
Çünki odlar yurdudur ilk məskənim, son məskənim!

## NƏ DƏRDİM!

Canan üzümə bir kərə gülsəydi, nə dərdim,
Mən tək o da bir qədrimi bilsəydi, nə dərdim
Tutsaydı baharın gül əlindən, ətəyindən,
Sevda bağımın seyrinə gəlsəydi, nə dərdim.
Aydın seçə bilsin deyə hər yaxşını pisdən
Qəlbində olan güzgünü silsəydi, nə dərdim.
Birlikdə bu gülşəndə bizim əllərimizlə
İlhamla qızılgüllər əkilsəydi, nə dərdim.
Olsaydı Süleyman kimi öz eşqinə sadiq,
Hər gün adımız birgə çəkilsəydi, nə dərdim!

## GƏLİN GƏLSİN

Gün batdı, külək yatdı,
Tox bir quzu tək yatdı.
Tərpənmədi yarpaqlar
Gül yatdı, çiçək yatdı.

Yatmaqdan uzaqdım mən,
Ulduzlara baxdım mən.
Bir ulduz alıb göydən
Öz köksümə taxdım mən.

Yer elçisi adlandım,
Eşqimlə qanadlandım,
Ulduzlara çatmaqçın
Min zəhmətə qatlandım.

Qoy arzumu el bilsin!
Göylərdə həyat gülsün,
Aydan əziz oğlumçun
Bir nazlı gəlin gəlsin!

# SATİRA VƏ YUMOR

## BİR DƏDƏ AXTARIRAM

Eldən gizli deyil bu, yetim böyümüşəm mən,
Məşq edirəm qələmlə kağızlar üstdə hərdən.
Çox yerə baş vurmuşam cızmaqaramla, heyhat,
Deyiblər ki, başından çıxar bu sevdanı at.
Bir dədə axtarıram, məşhur bir yazan olsun,
Ömürlük hər sahədə çətinim asan olsun.
Birdədə axtarıram, özü təpərli olsun,
Sözü təpərli olsun. İttifaqa üzv olum əziyyətsiz,
filansız, Əsərlərim yönəlsin mətbəəyə plansız.
Bir dədə axtarıram, dədəlik etsin mənə,
Şəhərin mərkəzində mənzil düzəltsin mənə.
Tamam-kamal açmadım ürəyimin dərdini,
Dədə tapandan sonra söylərəm mabədini.

## ƏCAİB ƏSƏR

Əsər var ki, bilmirsən nə ad verəsən ona,
Oxumaq mümkün deyil, min yol varaqlasan da.
Müəllİf desin görək, kitab aşiqlərinə
Niyə rəhmi gəlməyib bu əsəri yazanda?!
Yazır, yazır, hey yazır, kitab kitab dalınca,
Nəşriyyat gələ bilmir nəşrinin öhdəsindən.
Geniş, nəhəng, təpərli bir mətbəə açmağı
Müəllifə ürəkdən məsləhət görürəm mən.

## QƏRİBƏ NİTQ

Gecə-gündüz sənətim yazmaqdır ancaq mənim,
Qəlbim söz dəryasıdır, taleyimə bax mənim,
Mənim istedadımı gözü götürməyənlər,
Şöhrətimi, adımı gözü götürməyənlər.
Deyirlər: "Kitab oxu, gözün açılsın bir az,
Yoxsa quru havadan adam yazıçı olmaz".
Bu öyüdlər əbəsdir, qüdrətimi bilənlər,
Dostlarımın yanında şöhrətimi bilənlər.
Mənə tənə daşları yağdırmasınlar gərək,
Həsəd, fitnə daşları yağdırmasınlar gərək.
Mənə gərək deyildir mənasız məsləhətlər,
Mən özümdə görürəm min-min gözəl cəhətlər,
Niyə əzablar çəkim, niyə batım qan-tərə,
Niyə qızıl vaxtımı itirim nahaq yerə.
Hey yazıram özümçün, qar olsun, çovğun olsun,
Çalışıram əsərim özümdən yoğun olsun.
Özgənin kitabında niyə vaxt itirim mən,
Niyə ədəbiyyata oğurluq gətirim mən.
Onu, bunu oxusam - itər xüsusiyyətim,
Dəyişər xasiyyətim.
Hərəsi bir put gələn əsərim varkən mənim,
Niyə sənətkarlığı özgələrdən öyrənim.
Qoy məndən öyrənsinlər iti yazmaq sirrini,
Özgəyə yox, özünə qulaq asmaq sirrini,
Mən korlaya bilmərəm kitablarla zehnimi,
Aparmayın öyüdlə bir daha baş-beynimi.
Ey vaxtında deyilən düz sözə qol qoymayan,
Öz sözündən doymayan, öz-özündən doymayan.
Sənə yaxşılıq etmək, söz anlatmaq çətindir.
Bu sənin dəyişməyən köhnə xasiyyətindir.

## TEATR TƏNQİDİ

Yeni tamaşa gedir səhnəmizdə, çox gözəl,
Məqaləsi yazılıb əsərdən xeyli əvvəl:
"Əsər müəllifinin sənətinə söz olmaz,
Qüdrətinə söz olmaz.
Bədgüman Bədgümanov layiqdir alqışlara,
Şöhrəti rast gəlməsin payızlara, qışlara.
Əsərinin nöqsanı nöqsansızlıqdır ancaq,
Bu işin öhdəsindən yaxşı gəlibdir qoçaq.
Rejissorun, artistin, rəssamın, bəstəkarın
Hünəri şübhəsiz ki, sənətin zirvəsidir.
Bu əsər timsalıdır səhnəmizdə baharın,
Təkcə bu günün deyil, gələcəyin səsidir".
Yaratsa da bəşərçin bir xeyli ölməz əsər,
Belə tərif görməyib nə Şekspir, nə Cəfər.

## HEÇSTAN ƏHLİ

Bəsdir, "mən, mən" söyləyib atıldığın meydana,
Neçə qoltuq altına girdiyini saysana!
Saysana onun-bunun üzünə güldüyünü,
Tozsuz paltarlarının tozumu südiyini.
Lovğalar meydanında tapılmaz bərabərin,
Qeyrət vaxtı gələndə yorğan-döşəkdir yerin.
İstəsən bir ay, bir il qalxmazsan yatağından,
Xanənişin olarsan, çıxmazsan otağından.
Yanından yel keçəndə,
İşin bərkə düşəndə
Sağa, sola boylanıb,
Hərdən dala boylanıb
Ehtiyatla dinirsən,
Kölgədən diksinirsən.
Qorxaqlıqda birinci,
Yaltaqlıqda birinci,
Yaxın dostun sirrim açmaqda birincisən,

Dabanına tüpürüb qaçmaqda birincisən.
Bütün aləm bilirki, Sənə elə gəlirki,
Geyimdə birincisən, Yeyimdə birincisən.
Hər gün səni gəzdirən avtomaşın birinci,
Ağlın, başın birinci,
Mərifətin birinci, qeyrətin birincidir,
Səxavətin birinci, şöhrətin birincidir.
Bu "birinci" kəlməsi aranıbdır səninçin,
Başqalarıyçın deyil, yaranıbdır səninçin.
Razılıq əlaməti gözündə, dodağında,
Baxırsan camalına güzgünün qabağında.
Deyirsən: "Məndən olmaz,
Tənim kimi tən olmaz".
Əslindən danışırsan,
Nəslindən danışırsan,
Deyirsən ki, "Təkcə biz axar sudan təmizik.
Ləkəlilər içində ləkəsiz ancaq bizik".
Söz üçün onun-bunun cibinə də girirsən,
Yerində sən lap yerin dibinə də girirsən.
Sənin yol yerişin də tamam oyundur, oyun,
Dağdan uca görünür sənə bir qarış boyun.
Çəkdiyin siqaretin tüstülü havasında
Özünü zənn edirsən pərilər arasında.
Orda ağla gəlməyən məclis qurulur sənə,
Kimsəyə vurulmayan qızlar vurulur sənə.
Bilirəm bu xəstəlik çıxmayacaq canından,
"Dahilər də yel olub keçə bilməz yanından".
O qoz ləpəsi beynin məşğuldur tək özünlə,
Sanırsan aləm gələr, səcdənə bir sözünlə.
Sənə elə gəlir ki, mədəniyyət səndədir,
Hamı gəldi-gedərdir, əbədiyyət səndədir.
Çiyrinib hap-gopundan,
Adam girmir qapından.
Hamıdan narazısan, tək özündən razısan.
Yuxuda görmüşəm ki, "heçstanda qazısan".

**QONŞULARIMDAN BİRİ**

Girdi fırıldaq ilə yağlıca bir artelə,
Arif olub vermədi vaxtını bir an yelə.
El malına atdı ol qonşularımdan biri,
Əyri işə qatdı əl qonşularımdan biri.
Nəsli avamzadədir,
Əsli haramzadədir.
Söylədiyim doğrudur -
Aydın, açıq oğrudur -
Peysəri piy bağlayan qonşularımdan biri,
Hay deməmiş ağlayan qonşularımdan biri.
Gündə girib min dona
Söz dedi bundan ona.
Dal çevirib qeyrətə
Verdi rəvac rüşvətə -
Qəlbini qurdlar yeyən qonşularımdan biri,
Haqq sözə nahaq deyən qonşularımdan biri.
Xəlvəti məclis qurub etdi nümayiş oyun,
Sandı çatıbdır daha ağzı ömürlük bala.
Gəldi onunçün bağa körpə quzu, kök qoyun,
Ət çəkilib şişlərə oldu rəvan manqala.
Hədsiz, hesabsız yedi qonşularımdan biri,
Gic-gici sağlıq dedi qonşularımdan biri.
Doldu hinə bollu qaz,
Sandı bunu xeyli az.
Saqqalı al qan xoruz,
Tükləri əlvan xoruz
Balkonu minbər bilib sübhə qədər banladı,
Həm özünü, həm də ki, sahibini danladı.
Kəsdi bu külbaşları qonşularımdan biri,
Moizəyə başladı qonşularımdan biri.
Şişdi qarın, şişdi baş,
Etmədi əsla təlaş,
Oğrulara verdi aş,
Doğrulara atdı daş,
Oldu əyan hiyləsi,

Batdı kükündən səsi.
Min qapıda çaldı saz qonşularımdan biri,
Taleyinə tutdu yas qonşularımdan biri.
Keçmədi artıq sözü
Oldu gecə, gündüzü.
Baxdı işə məhkəmə,
Ey oxucum, qəm yemə.
Aldı on il, vəssalam, qonşularımdan biri,
İtdi gözümdən tamam qonşularımdan biri.

**ELAN**

Gözəl-göyçək oğlanam,
Sağ olsun atam-anam.
Mən demək istəyirəm:
Evlənmək istəyirəm.
Oxuyun elanımı - candan qeydimə qalan,
Ciblərimi dolduran, mənimçin maşın alan,
Ürəyimi sıxmayan,
Bir sözümdən çıxmayan...
Müxtəsəri, bir kalan qaynata axtarıram,
Doğma atamdan əla bir ata axtarıram.
Qız çirkinmi, gözəlmi, mənimçin fərqi yoxdur,
Qaynatadır əsas şey, bunun mənası çoxdur,
Şərtimi bəyənənlər etsin xəbərdar məni,
Məni görmək istəyən çox asan tapar məni.
Adım, familim bütün milis şöbəsində var,
Ünvanım: şəhərdəki bahalı restoranlar.

**MÖHKƏM BİRLİK**

Əcəb şeydir: yazınız
            zəif əsərlər - o, sən,
Sən oxu, o bəyənsin,
            o oxusun sən bəyən!

## ÖZÜNDƏN RAZI

Yaşadı, həmişə özündən dedi,
Göydəki günəşə özündən dedi.
Nə səni bəyəndi, nə məni, heyhat,
Dedi tək mənimçin yaranıb həyat.
Dedilər ki, evlən, təklik yamandır,
Dedi ki, dinməyin, susun, amandır.
Evlənsəm başıma açılar kələk –
Qapımdan girəntək o nazlı mələk
Qorxuram varımı, yoxumu yeyər,
Özündən danışar, özündən deyər.
Mənim varlığımı danar bəlkə də...
Mənalı ömrümü qoyar kölgədə.

Gün keçdi, ay keçdi, büküldü beli,
"Mən", "mən" söyləməkdən qalmadı dili.
Hətta son nəfəsdə danışan zaman
Bir kimsə qalmadı sözündən razı.
Nəhayət, səs-küysüz köçdü dünyadan,
Hamıdan narazı, özündən razı.

## YAXŞI Kİ...

Vəzifə başında oturmuşam mən,
Yaman hərlənirsən ətrafımda sən.
Sağıma baxıram, sağımda varsan,
Soluma baxıram, solumda varsan,
Bağıma baxıram, bağımda varsan,
Yoluma baxıram, yolumda varsan.
Artıq, bir vəzifə daşımıram mən,
Gözümə dəymirsən, qəribədir, sən.
Sağıma baxıram, sağımda yoxsan,
Soluma baxıram, solumda yoxsan.
Bağıma baxıram, bağımda yoxsan,
Yoluma baxıram, yolumda yoxsan.
Yaxşıki, yoxsan!

## DEYİRSƏN Kİ...

Deyirsən ki, "mənimçin dosttək düzəlt bu işi,
Xəcalətli qalmaram, axı, kişiyəm, kişi".

Dinlə, ey cürət edib bu sözü deyən adam,
El bilir, ömrüm boyu bu alverə mən yadam.
Dostluq əgər budursa, tüpürüm bu dostluğa,
İş belə baş tutursa, tüpüruın bu dostluğa!

Mənim - el arasında vicdanım təmiz olub,
Vətənsizlərə qarşı qəzəbim dəniz olub.
Düşmənidir gözümün - düşmənidir, düşməni:
Gör məni görüm sani, görüm səni, gör məni".

## ÖZÜNÜ BƏYƏNƏNƏ

Hey özündən deyirsən hər yerdə,
Təpəyə dağ deməklə dağ olmaz.
Yediyindən də razısan xeyli,
Pendirə yağ demoklo yağ olmaz.
Görməyirsən alaq basıb bağını,
Kolluğa bağ deməklə bağ olmaz.
Dandın artıq, yetər, sözün düzünü,
Qaraya ağ deməklə ağ olmaz.

## XƏSTƏLİK

*Lovğalara*

Ey qələm dostum, inan, pis xəstəlikdir lovğalıq.
Bilməyən yoxdur, yaman pis xəstəlikdir lovğalıq.
Göz yumub, sən göz açınca, bil ki iş-işdən keçər,
Beynini qaplar duman, pis xəstəlikdir lovğalıq.

Fərqi yox, həm yaşlıya, həm gəncə - o, yüksəkləri
Görməyə verməz aman, pis xəstəlikdir lovğalıq.
Təşkil etdirdin yetər, quyruqlu tərifnamələr,
Sənətinlə ad qazan, pis xəstəlikdir lovğalıq.
Mən Süleymana - edib cürət yovuşmaz bu mərəz,
Məncə hər an, hər zaman, pis xəstəlikdir lovğalıq!

**BƏDBƏXT ADAMA**

Dərdə bax, yalnız özündən razısan, bədbəxt adam,
Zənn edirsən, millətin avazısan, bədbəxt adam.

Səndən olmaz sanki aləm heç nədir, sənsən düha.
"Sən məhəbbət, sən bilik dəryasısan", bədbəxt adam,

Hər araq dostun içib keflǝndimi, tez-tez deyir:
"Sən bütün məclislərin mənasısan", bədbəxt adam.

Kaş biləydin harda söhbət yaxşı insandan gedir,
Orda sən hər cümlənin "əmma"sısan, bədbəxt adam.

Sən Süleymandan soruşsaydın kiməm?
Söylərdi ki, Sən, vəba, taun, bəla əkkasısan, bədbəxt adam.

**NİFRƏT**

Gündə bir cildə girən simasız adamlara
Heyrət etmədiyinçin heyrət edirəm sənə.
Yalana, çirkinliyə, həsədə, pozğunluğa
Nifrət etmədiyinçin nifrət edirəm sənə.

Bahardan üz döndərən ürəyi gülşənsizə,
Məsləki gülşənsizə, diləyi gülşənsizə,
Zahiri vətənliyə, batini vətənsizə,
Lənət etmədiyinçin lənət edirəm sənə

**SƏNDƏ YOX**

*Boşboğazlara*

Dostuna qəlbində hörmət, məndə vardır, sənda yox,
Düşmənə dəryaca nifrət, məndə vardır, səndə yox.

Sən deyirsən ki, vətən, millət mənəm, əhsən mənə!
Bu çətin yolda cəsarət məndə vardır, səndə yox.

Əsrimizdə doğruluq, düzlük kimi sərvət hanı?
Gör nə xoşbəxtəm, bu sərvət məndə vardır, səndə yox.

Pozmadım ömrüm boyu, dar gündə do öz andımı,
Andına möhkəm sədaqət məndə vardır, səndə yox.

Mən Süleyman Rüstəməm, qarşımda cövlan etmə gəl,
Bərk ayaqda, çünki qeyrət məndə vardır, səndə yox!

**"NOVATOR"UN NİTQİ**

Çoxdandır köhnələrlə oturmuram, durmuram,
Mənə özümə bənzər dost gərək, qardaş gərək.
Şerimi nadanlardan, yadlardan qorumaqçün
Mənə ürəyi yanan havadar, sirdaş gərək.

Qışa bahar deyirəm, bahara qış deyirəm,
Yağışa qar deyirəm, qara yağış deyirəm.
Quşa milçək deyirəm, milçəyə quş deyirəm.
Novatorun hər sözü baş-ayaq, çaşbaş gərək,

Ovcumun içindəki nədir görməyənlərlə,
Fəlsəfi sualıma cavab verməyənlərlə
Nadir kəlləmə layiq çələng hörməyənlərlə
Bu sənət meydanında sülh deyil, savaş gərək.

Yazmaqdan gecə-gündüz qabar olubdur əlim,
Məni min ildən sonra anlayacaqdır elim.
Bir deyil, yüz şəhərdə yüksələcək heykəlim -
Ya mərmərdən, ya tuncdan, olmayacaq daş - gərək.

Yerişim, tərpənişim, beynim, düşüncəm yeni,
Qoy bütün bəşəriyyət belə tanısın məni
Kütbaşlar deməsin ki, başa düşmürük səni
Məni başa düşməyə başım kimi baş gərək!

**"NOVATOR" RƏSSAMA**

Bir paltar geymisən başa düşmürəm,
Astarı hansıdır, üzü hansıdır.
Özün də bilmirsən, danışdığının
Əyrisi hansıdır, düzü hansıdır.

Özün öz başına açmısan oyun,
Qırxmaq istəyirsən yumurladan yun.
Bir adam çəkmisən bilinmir onun
Qulağı hansıdır, gözü hansıdır.

Mən belə sənətə əzəldən yadam,
Adama oxşamır çəkdiyin adam,
Söylə o adamın, yalançı rəssam
Baldırı hansıdır, dizi hansıdır?

Demə dühasıyam yer kürəsinin,
Dəyməz bir quruşa varlığın sənin.
Çünki anlamırsan el süfrəsinin
Şəkəri hansıdır, duzu hansıdır.

## NƏYƏ LAZIM

Mənalı keçərsə məclisdə söhbət,
Plov nəyə lazım, aş nəyə lazım?
"Ağzıgöyçək"lərin yanında çalış
Etmə öz sirrini faş, nəyə lazım?

O kəs ki, Vətənə könül verməyib,
Bir gül becərməyib, bir gül dərməyib,
Fitnədən, fəsaddan üz döndərməyib
Qəbrinin üstündə daş nəyə lazım?

Badəni əlindən yerə qoymayan,
Tərifdən, şöhrətdən gözü doymayan,
Vətəni duymayan, eli duymayan
Ürəksiz adama baş nəyə lazım?!

## TANIYA BİLDİM

Səni gec də olsa tanıya bildim,
Vətənə, millətə gərəksizsənmiş.
Gündə yüz min kərə vətən desən də,
Vətənsiz, millətsiz, məsləksizsənmiş.

Üzündə süni bir təbəssüm sənin,
Qeyd oldun içində dumanın, çənin.
Nə bir dostun varmış, nə bir düşmənin,
Arzusuz, amalsız, diləksizsənmiş.

Yağdırdın sağına, soluna böhtan,
Heyhat, bilmədin ki, başqadır zaman.
Sən, yamana yaxşı, yaxşıya yaman,
Deməkdə yaxşı ki, köməksizsənmiş.

Günəşli gündüzü gecə bilmisən,
Toyda ağlamısan, yasda gülmüsən.
Yox, yox, nə sevmisən, nə sevilmisən,
Sən ürəksizsənmiş, ürəksizsənmiş!

**MƏN VARLIYAM, SƏN YOXSUL**

*Beləsi də var*

İnsana ta qədimdən zinət olub ömürlük -
Şöhrət olub ömürlük
Namus, qeyrət, həqiqət,
Təmiz vicdan, məhəbbət.
Ey məclislər başında vardan söz açan adam
Ciblərindəki cansız yardan söz açan adam.
Dilin pul, nəfəsin pul,
Eşqin pul, həvəsin pul.
Sözündən pul tökülür,
Gözündən pul tökülür.
Piylənmiş əndamında tərin də puldur sənin,
Dərin də puldur sənin.
Sağda pul asqırırsan, solda pul asqırırsan,
Yolda pul asqırırsan.

Görürəm qazancını düzdən düz xərcləyirsən,
Aylığın yüz manatdan gündə yüz xərcləyirsən.
Məclislərdə şairi kinayəli süzürsən,
Şeri alqışlananda yaman dodaq büzürsən.
Baxıb sənə gülürəm,
Mən çox gözəl bilirəm -
Yoxdur zərrə hörmətin,
E1 içində şöhrətin.
Bu yerdə on abırlı şəxsiyyət səncə, sənsən,
Dünyanın ən yoxsulu, şübhəsiz, məncə, sənsən.
Heç vaxt hörmət sahibi ola bilməyəcəksən,

Namus, qeyrət sahibi ola bilməyəcəksən.
Çünki çölə atılmır mənim bu saydıqlarım,
Mağazada satılmır mənim bu saydıqlarım.
Mənim bu saydıqlarım cibə, filana sığmaz,
Yox, yox, ümmana sığmaz.
Dünyanın bu varından sən məhrumsan ömürlük.
Ömürlük baharından sən məhrumsan ömürlük.
Atalar əcəb deyib, ömrə bəzək deyil pul.
Xoşbaxtlər xoşbəxtiyəm - mən varlıyam, sən yoxsul!

**İNSAN VƏZİFƏNİ BƏZƏSİN GƏRƏK**

Oturub dörd divar arasında sən –
Yüz yerə zəng vurub əmrlər verdin.
Hər kəlmə başında söylədin "mən", "mən".
Hamıdan ağıllı özünü gördün.

Üzünə yalandan gülənlər oldu,
Onlarla oturub, onlarla durdun.
Büllur piyalələr boşaldı, doldu,
Nitqlər söyləyib doyunca vurdun.

Ömürlük zənn etdin öz vəzifəni,
Sandın qəbrə qədər keçəcək belə.
Görmədin qəlbini yeyən düşməni,
Günləri toz kimi sovurdun yelə.

Bir gün yadındamı, gözlətdin məni,
Qəbul otağında saatlarla sən.
İş vaxtı qurtardı, görmədim səni,
Bundan zərrə qədər incimədim mən.

Üzünü turşutdun alanda salam.
Ayağın altını görmədi gözün.
Yanında alimlər sayıldı avam,
Dərin quyu qazdın özünə özün.

Bax, indi atından enmisən yerə,
Qaçıb məddahların dövrəndən, artıq.
Bir adam olardın özünə görə,
Vaxtında bunları görsəydin, yazıq!

Başından bu hava getməsə əgər
Ömrün yollarında sürünəcəksən.
Zülmət görünəcək gözünə səhər.
Yenidən qurmasan həyatını sən.

Dədələr, babalar gözəl deyiblər:
Vəzifə insana deyildir bəzək.
Xalqın ürəyindən verərək xəbər –
İnsan vəzifəni bəzəsin gərək.

**UCUZ XATİRƏLƏR**

Yaxşı olar, olmasa bu sulu xatirələr,
Uydurmayla, yalanla dopdolu xatirələr,
Bircə addım yan-yana getmədiyi adamdan.
Bir süfrədə duz-çörək kəsmədiyi adamdan
Xatirə yazanların getdikcə artır sayı,
Şöhrətli ölülərdən umurlar şöhrət payı.
Yazırlar varaq-varaq,
Bu sayaq, lap bu sayaq:
"Göz önündən getməyir rəhmətliyin gözləri,
Qulağımda səslənir qızıl kimi sözləri.
Rəhmətlik miz dalında oturardı sübhədək,
Yatağına girərdi səhər altı tamamda.
Dostluğumuz hamıya bir örnək olsun gərək,
Üzmüşük bir dənizdə, çimmişik bir hamamda.
Yeyib-içməzdi mənsiz, deyib-gülməzdi mənsiz,
Görüm ruhu şad olsun, şənlik bilməzdi mənsiz.
Araq vurandan sonra içərdi ayran, qatıq,
Bunlar tapılmayanda dostum deyərdi yandıq.

Adlı-sanlı olsa da, çox vüqarlı deyildi,
Pul işinə gələndə; məndən varlı deyildi.
Xatirimə gəlir ki, vaxt olub restoranda
Bir dəfə yox, yüz kərə cibinə pul qoymuşam.
Əla ovçuydu dostum, ov zamanı aranda
Vurduğu dovşanları əllərimlə soymuşam.
Xatirimi rəhmətlik istərdi dünya qədər,
Onsuz keçən ömrümü çulğayıbdır qəm, kədər.
Gərək, onun yerinə mən rəhmətə gedəydim.
Bu mənasız ömrümü ona qurban edəydim.
Göz önümdən getməyib o cığırlar, o yollar,
Rəhmətliyin vurduğu turaclar, qırqovullar.
Həyalı dostumdu o, Vəfalı dostumdu o.
Yüz yaşaya bilərdi, əcəl vermədi aman.
Qoy açım, bir sirri də, sağlığında, o zaman
Qurd kimi bu dərd mənim ürəyimi yeyirdi –
Rəhmətlik ov itini məndən çox istəyirdi".
Bu şit xatirələrlə dolub qulaqlarımız,
Dolub salonlarımız, dolub otaqlarımız,
Mənə elə gəlir ki, qəm, qüssə çəkməz ürək,
Bu cür xatirələrdən yaxa qurtara bilsək.

**YAD ADAM**

Dəniz kənarına çıxdım dünən, gülürdü bahar,
Nəfəs alırdı dərindən gözəl Xəzər, bulvar.
Təsadüfən mənə rast gəldi orda kök bir adam,
Yaxınlaşıb dedi bərkdən ki: - "Bayramam, Bayram.
Unulmusan, deyirəm, bəlkə məktəb illərini".
Məni qucaqlamaq üçün uzatdı əllərini.
Qıyıq gözüylə süzüb alnımın qırışlarını.
Bir azca baş buladı, sonra çatdı qaşlarını
Dedi: "Qocalmısan, aşna, peşən nədir ki sənin?"
Dedim ki, şairiyəm ellərin, azad vətənin.

Yamanca güldü mənə, bir qədər əl oynatdı,
(Mənim peşəm ona, əlbəttə, büsbütün yaddı)
Ədayla ağzını birdən açıb çuval kimi o,
Bahar çağında xəzan oldu, sıxdı qəlbimi o, -
- Şeir, meir nədir, ondan mənim başım çıxmaz
Əgər düşünsən əminəm özüm üçün az-maz,
Dəyişdirib peşəni bir adam olarsan sən,
Doyunca kefə baxıb, yaxşı kam alarsan sən.
Mənim təki bilirəm, onda bəxtin alçı vurar,
Qapında əmrinə tabe beş-on qavalçı durar,
Çalış mənim kimi ol, qaz vurub qazan doldur,
Sənin yolun, görürəm, çox çətin, ağır yoldur.
Həmişə gör özünü, məsləhət budur ancaq,
Gedək vuraq gəl, əzizim, bir az səmimi olaq.
Mənə qalırsa, bu yerdə sevinc deyil, qəm var,
Gedək vuraq, mən ölüm - restoranda aləm var...
Mən etiraz elədim, yox dedim, o pərt oldu.
Mənim vüqarım onunçün yamanca dərd oldu.
Bərəldərək gözünü çox çərən danışdı yenə...
Vurunca sağ əlini lovğa-lovğa sol döşünə,
"Mənəm, mənəm" dedi birdən cibində yüzlüklər,
- "Vəziyyətin belədirsə, utanma... bir də əgar
Yoxunsa pul, qədəşin ölməyib, cibim doludur,
Həyatda doğru yol ancaq bu dostunun yoludur..."
Qəzəblə baxdım ona, "aşnamın" kəsildi səsi,
Uzaq, uzaq - dedim ondan, zəhərlidir nəfəsi.

Onunla yan-yana atdıq beş-on ağır addım.
(Gözümdəsə yenə min qat ucaldı şair adım).
Onunla söhbətə yoxdu könüldə zərrə maraq,
Ədası, tərpənişi fitnədən verirdi soraq.
Hərif də duydu ki, daşmış səbir kasam artıq,
Odur ki, yad kimi əl vermədən tez ayrıldıq;
Onud "baharı" cibində, mənimki qəlbimdə,
Onun "nigarı" cibində, mənimki qəlbimdə!

**NAKAM ŞAİR**

O qədər yazdı ki, dəftərlərə, əldən düşdü,
Çox özündən dedi, "mən", "mən" dedi, dildən düşdü.
Bir deyən olmadı ki, yazma, əbəsdir bu həvəs;
O dinən yerdə susub çəkmədi bir kimsə nəfəs.
Mizi üstündə kağızlar qalanıb dağ oldu,
Onu çap eylədilər, məncə, bu lap ağ oldu.
Tanıyanlar danışıb dalda onu qoydu lağa,
O dəyər - söylədi - daldan atılan daş topuğa.
Bir qarıyla gücənib qafiyələndirdi - qan.
Yazdı pudlarla şeir, hamısı boğazdan yuxarı,
Ən çətin qafiyəsi pendirə, təndir oldu.
Odu sönmüş qocaman təndirə, kəndir oldu,
Bir qoşuntək düzülüb qafiyələr düşdü yola.
"Şairin" həm əli, həm dil-dodağı batdı bala.
Dedi: "Can!" şeir oxuyarkən ona öz "can-ciyəri",
Olmadı zərrə zamanın gedişindən xəbəri.
Keçdi, bir sözlə, onun vaxtı qonaqlıqlarda,
Hamıya çox ucadan baxdı qonaqlıqlarda.
Nə vətən bildi həyatında, nə millət bildi,
Hər ucuz mədhi qəbul etdi, həqiqət bildi.
Gəldi bir gün başını qoydu nəhayət yerə o,
Qaldı həsrət əbədilik mayasız alverə o,
Dedilər: "Getdi o dövlətli, şeirsiz şair,
Vətənə, millətə biganə, xeyirsiz şair!"

**YENƏ BƏZİLƏRİ**

Köhnəlikdir - dedi - bozbaşla qutab, bəziləri,
Bağladı xeyli bu mənada kitab, bəziləri.
Gözləri doymadı meyxanədə meydən, məzədən,
Beyninə cumdu ilanlar bu şuluq fəlsəfədən.
Soyuq ilhamına gəlsin deyə, qüvvət təzədən,

Küplərə həmlə edib içdi şərab, bəziləri,
Vətənə, millətə qaytardı cavab, bəziləri.

Eybəcər xarici mal ruhuna çox xoş gəldi,
Evinə bir gecə yox, hər gecə sorxoş gəldi.
Ürəfa məclisinə kəlləsi bomboş gəldi.
Halını el-obanın etdi xarab, bəziləri,
Süfrəda kolbasanı sandı kabab, bəziləri.

Dedi: röyada da yalnız yenilikdir qonağım,
Dolu kəlləmdə gərək tərsinə olsun papağım.
Qoy dəyişsin yeri, əlcəkli gorünsün ayağım.
Sevinib əllərinə geydi corab bəziləri,
Pozdu "yoldaş" sözünü, yazdı "cənab" bəziləri.
"Gözün üstündə qaşın var" - deyənə vurdu təpik,
Gülmədi toyda üzü, yasda durub çaldı çəpik.
Dedi: "Zənn eyləməyin millətə biz naxələfik"
Dayılı çoxlarına verdi əzab bəziləri,
Dayısız bir döyüşə etmədi tab bəziləri.

**YUBİLEY AŞİQİ**

Yubiley istəyirəm, yubiley istəyirəm,
Çox az şey istəyirəm, çox az şey istəyirəm,
İstəyirəm sərhədi burda bir qədər keçəm,
Komitəmin üzvünü, sədrini özüm seçəm.
Şirin arzularımı salsın plana dostlar,
Şöhrətimi mahnıtək yaysın cahana dostlar.
Qayıdam uşaqlığa, Başlayam şıltaqlığa.
Əldən salım sədrimi, Ta ki, bilə qədrimi.
Haqqımdakı çıxışlar özümə göstərilsin,
Mənə könlüm istəyən hədiyyələr verilsin.
Hər mahaldan bir xalı

Olsun dədəmin malı.
Gəlsin büllur qab-qacaq,
Gümüşdən çəngəl-bıçaq.
Qoyun-quzu, yağ-düyü, qaz-ördək, toyuq-cücə,
Yubilyarın cibləri gərək düşməsin gücə.
Haqqımda nə deyirsə desin hər ağzıgöyçək,
Nəyə lazım gül-çiçək.
Könlümə verməz ilham
Quru kağız, teleqram.
Nağıllarda deyilən qırx gün, qırx gecə, azdır,
Ayaqüstü, atüstü təntənə gəlməz vecə.
Nə qədər ki, mənimtək sədrimin kefi sazdır,
Şənliyimə ayırsın dörd yüz gün, dörd yüz gccə.
Bunlar istəklərimin mində biridir hələ,
Mənim utancaqlığım yaxşı tanışdır elə.
Haqlı tələblərimə, sədd çəkən varlığımdır,
Həddindən çox, çox artıq təvazökarlığımdır.

## SƏRÇƏ BALLADASI

*Şarj-nəzirə*

Günlərin bir günündə
Toyuqların hinində
Məclis qurdu sərçələr,
Şairlərdən yamanca qeybət qırdı sərçələr.
Dedilər bir ağızdan, "yaddan çıxmışıq tamam,
Əndamımız görməyib min ildən çoxdur hamam.
Rəhmə gəlin, qırıldıq, hamamsız, camadarsız,
Bizi hesab etməyin cəmiyyətdə yararsız".
Təzə mövzu axtaran,
Dəryada su axtaran
Azarkeşlər söylədi: "səbrinizi basın bir,
Bizə qulaq asın bir,
Fındığı qoz sərçələr,
Üst-başı toz sərçələr.

Məskəni kol sərçələr,
Cik-ciki bol sərçələr
Biz vacib bilmişik ki,
Qərara gəlmişik ki,
Bülbüllərin adını dəftərimizdən pozaq,
Sizin zəngin daxili aləminizdən yazaq".

Bu sözdən vəcdə gəldi xırdavatçı sərçələr,
Yetənə qaş-göz atdı zarafatçı sərçələr.
Dedi: azarkeşlərə mərhaba, milyon kərə,
Demirəm ki, on kərə,
Vədinə edib əməl,
Azarkeşlər əlbəəl
Tilsim açılsın deyə əziyyətsiz, kökündən
Atdılar od içinə sərçələrin tükündən.
Coşub-daşdı buludlar,
Buynuzlaşdı buludlar,
Bu tədbirin bir anda göydən əncamı yağdı,
Günbəzli, çarhovuzlu sərçə hamamı yağdı.
Bütün adsız sərçələr,
İstedadsız sərçələr,
Hamama tezdən də tez, sorğusuz buraxıldı.
Lakin adlı sərçələr,
İstedadlı sərçələr
Gecdən-gec buraxıldı, yaman yandı, yaxıldı.
Onu da ərz edim ki, boşdu hamsının cibi;
Bülənd oldu günbəzə sərçələrin cib-cibi.
Hava işıqlanmamış saat altı tamamda
Erkək, dişi sərçələr çimdi isti hamamda.
Biri kisə çəkdirdi baldırına, belinə,
Biri həna yaxdırdı ayağına, əlinə.
Badımcanı, çəhrayı fitə taxdı sərçələr,
Kefə baxdı sərçələr.
Hamamdakı tasları dəf yerinə çaldılar...
Özləri özlərindən xeyli razı qaldılar.
Birgə yallı getdilər dırnaq üstə, doyunca,
Yoruldular...

Axşamın gəldiyini duyunca
Aldadıb hamamçını bizim usta sərçələr,
Əkildilər birbəbir asta-asta sərçələr.
Oxucum, demirəm ki, sənsiz qaldı sərçələr,
Cibləri boş, yetimtək mənsiz qaldı sərçələr.
Demirəm ki, dumansız, çənsiz qaldı sərçələr.
Tərtəmiz küçələrdə dənsiz qaldı sərçələr.
Baş vurdular nəhayət, yolda bir gülüstana,
Bülbüllərdən borc alıb cumdular restorana,
Quyruğu top sərçələr,
Mahnısı gop sərçələr
Bir az araq vurdular,
Bir az konyak vurdular.
Mahir təlxək sərçələr,
Dili pəltək sərçələr.
Girişdilər söhbətə,
Bülbüllərdən qeybətə.
Sərçələr, ay sərçələr,
Nimçəsi ay sərçələr,
Baldırı çöp sərçələr.
Mədəsi küp sərçələr
Əgər belə gedərsə, ya hənək, ya dəyənək -
İtlərin, pişiklərin hamamı yağsın gərək!

**DEMƏRƏM**

Mən vətənsizlərə ömrüm boyu insan demərəm,
Özümə hörmət üçün qanmaza, gəl qan, demərəm.
Qanqala - dağ çiçəyi, hörpəyə reyhan deyənin –
Bağda dingildəsə də, zalına bağban demərəm.
Birinin könlünə yatmır, qurumənzuməlari,
Onu həzm etməyənə, doğrusu nadan demərəm.
Nəzminin əvvəli yox, ortası yox, axın yox,
Çox da var qafiyəsi, hər şeyə dastan demərəm.
Geysə aslan dərisi, çəksə də min nərə əgər,
Bunu bilsin adına səhv edib, aslan demərəm.

Yuxusuz kəslərə dərmandır ucuz cümlələri.
Qonşuda nəqdi qoyub, özgəyə loğman demərəm,
Suludur nəzminin hər kəlmüsi, hər vergülü də,
Belə kankanı danıb, yadlara kankan demərəm.
Özünə aşiq olub, sənəti alver bilənə,
Mənə milyon kərə can-can desə, bir can demərəm.
Hədə-qorxuyla, dilənməklə yaramnır şöhrət,
Belə bir aşiqə, yalvarsa da Sənan demərəm.
"Şerini" dinləməsəm, görməsəm illərlə üzün,
Şadlığım həddən aşar, mən buna hicran demərəm.
Yaradıb kirli qaşıqla ləpələr nəlbəkidə,
Deyir: "Ümmana baxın" mən ona ümman demərəm.
Qalmayıb, qalmayacaq cansız əsərlərdən əsər,
Mən belə kəslərin ünvanına böhtan demərəm.
Sağlığında özünü dahi bilən xəstələrin,
Üzünə dik demişəm fikrimi, pünhan demərəm.
Deməsəm qanmaz; - qanmaz, kütə - küt, düz sözə - düz,
Düz sözümdür, özümə bir də Süleyman demərəm.

**MODA QURBANI**

Anadan millətli, vətənli oldun,
Böyüdün, cildini dəyişdin tamam.
Məktəbdən qovuldun, işdən qovuldun,
Bir yoxa çevrilib dedin ki, varam?
Bir gecə millətli, vətənli yatdın,
Vətənsiz, millətsiz oyandın səhər.
Ağ günün, xoş günün daşını atdın,
Bundan böyüklərin tutmadı xəbər.
Aramsız içməkdən, ay nankor bala,
Şişib düşbərətək göz qapaqların.
Gecə meyxanədən düşərkən yola
Sözunə baxmayır öz ayaqların.
Təəccüb edirəm əməllərinə.
Küçədə, bulvarda söz atdın yaman
Yurdumun həyalı gözəllərinə.

Atanı, ananı tanıdığımdan
Toyda ağlamağın, yasda gülməyin,
Süni təbəssümün, süni söhbətin,
Ömrü bir saatlıq ilk məhəbbətin,
Eşit sözlərimi sən kəlmə-kəlmə.
Corabın xarici, çəkmən xarici,
Pencəkdə parlayan düymən xarici,
Kirpiyin gəlmədir, qaşın gəlmədir,
Tükü yer süpürən başın gəlmədir,
Adama oxşamaq nəyinə gərək,
Saqqalın nıübarək, bığın mübarək.
Gözünə yad elin qaratikanı
Qızılgül görünür, çiçək görünür.
Xaricin eybəcər moda qurbanı
Öz doğma bacından qəşəng görünür.
Danırsan bu yerdə yaxşı nə varsa;
Yad yerin pisi də sənə xoş gəlir.
Tutulursan dərdə, batırsan yasa,
Hər kim ki, yanma əliboş gəlir.
Hər şeyi baş-ayaq qanıb deyirsən, -
Bu nə mənzərədir, bu nə səhnədir!
Atanı, ananı, danıb deyirsən –
Füzuli köhnədir, Vaqif köhnədir.
Sənin şeir zövqün, musiqi zövqün
O taydan gəlmədir, uzaqdır bizə.
Alıbdır başının üstünü çovğun,
Qəlbində zibilin çıxıbdır dizə.
Görüb-götürürsən çirkinlikləri,
Bəs sənin meymundan fərqin nə oldu?
El qabağa getdi, son getdin geri,
Gəncliyin qışda yox, baharda soldu.
Diqqəllə baxdıqca görürəm ki, mən
Ömür ağacınm meyvəsi kaldır.
Bilirəm ürəyin, beynin, düşüncən
Vətən malı deyil, xarici maldır.
Səsinə səs verən yox deyil, məncə,
Şübhəsiz, onlar da sən ağıldadır.

Barmaqla sayarsan, çox deyil, məncə,

Görürəm başınız yaman qaldadır.
Daşını atmasan bu heçin, puçun
El səni diriykən gorda görəcək.
Üzüqara atan bəd əməlinin
Vətən qarşısında cavab verəcək.

**HEYKƏL XƏSTƏSİ**

Bir hekayə, bir novella yaza bilmirəm,
Hıqqanıram dost-aşnaya məktub yazanda.
Məsləhətə zərrə qılaq asa bilmirəm,
İlhamıma ziyan gəlir qulaq asanda.
Başqa şeylə göstərirəm istedadımı –
Mən şıdırğı həftədə bir roman yazıram.
Bəli, eldən ayrı sürüb öz həyatımı,
Göz dəyməsin, bir nəfəsə yaman yazıram.
Yox, mənasız yetmir başa ömrümün sonu,
Dirsəyimin öpüşüylə yeyilib masam.
Dostlar məni unudacaq, bilirəm bunu,
Heykəlimi öz xərcimə qayırtdırmasam!

**BÖHTANZADƏ**

Gecəyarıdan keçib, aləm yatıb, bir nəfər
Qəlbində sonsuz kədər,
İmzasız məktub yazan
Böhtanzadə Ramazan,
Öz qoyun gözlərini zilləyərək divara,
Sağalmaz yarasına çara axtarır, çara.
Öz bəlalı başma indi nə kül töksün o,
Kimə İftira atıb məhkəməyə çəksin o?
Hansı Halalzadənin çıxartsın cızdağını,
Kimin bağrına sancsın böhtanlar bıçağım?!
Daha hansı qapının zəngini çalsın əli,

Qan qızdıran yay çağı bikarmı qalsın əli?
Düşünür hara cumsun? Harda marıqda dursun?
İndi kimin yanında, kimin puçunu bursun?
Kimdən yazsın, o kimdən? Dağdanmı, ya daşdanmı?
Əvvəl yazdıqlarını ya başlasın başdanmı?
Yazmaqdan qabar olub "yazığın" barmaqları,
Ağzı deyəni artıq eşitmir qulaqları.
Yoxdur axır zamanlar heç yerdə yeri, yoxdur.
Böyük alimlər kimi cild-cild əsəri yoxdur.
Bəs o nəylə tanınsın, nəylə şöhrət qazansın?
Nə yolla topdağıtmaz bir var-dövlət qazansın?
Ton-ton kağız korlayıb, milyon böhtan yazıb o,
Bəs o kimdən yazmayıb? Yox, hamıdan yazıb o,
Dostundan, aşnasından, qohum-əqrəbasından,
Sümüyü sürmə olmuş rəhmətlik babasından,
Oğlundan, gəlinindən, arvadından, qızından,
Heyvərə xalasından, nazənin baldızından,
İnsanlar addımbaşı adına lənət deyir,
O sakit ola bilmir, içini qurdlar yeyir;
Yox, yox, o yazmalıdır, yazmasa bağrı çatlar;
Qurtarıb, necə olsun, siyahısından adlar?!
Öz küt başını vurdu dilsiz divara birdən,
Canlandı gözlərində yeni ad, yeni düşmən.
Bağırdı: - Tapdım, - deyə, döndü ürəyi dağa,
Başladı yavaş-yavaş öz-özündən yazmağa!

**QORXAQ**

Əhvalımı pozmayın
            damağım çağ olanda,
Tənqid çox yaxşı şeydir
            məndən uzaq olanda.

**KİTABIN İÇİNDƏKİLƏR**

Ön soz…………………………………………………………………....4

*Vətən təranələri*

Mənim fəlsəfəm…………………………………………………………17
Olmasaydı………………………………………………………………18
Gecənin romantikası……………………………………………………19
Azərbaycana gəlsin……………………………………………………..20
Ana çörəyi……………………………………………………………21
Ana və poçtalyon……………………………………………………..23
Süleymanam dəyişmərəm ……………………………………………...26
Mənsiz …………………………………………………………………27
Dost kimi, qardaş kimi…………………………………………………28
Yerini verə bilməz………………………………………………………29
Məktuba cavab…………………………………………………………29
Müəllim…………………………………………………………………30
Əlin yandı, dilin yandı…………………………………………………..30
Söhbət……………………………………………………………………...31
Mənim yoldaşım gecə…………………………………………………..32
Keçdiyim yol……………………………………………………………33
"Nə bir ölüm olsun, nə bir qarı olsun ……………………………..34
Üç-dörd kəlmə…………………………………………………………..35
Ürək ağrısı ……………………………………………………………...36
Deyirəm…………………………………………………………………36
Beləyəm…………………………………………………………………51
Süleyman kimiyəm……………………………………………………...38
Təklərə meydan olmaz …………………………………………………38
Yoldadır ………………………………………………………………...39
Yaraşmaz………………………………………………………………..39
Beş günlük deyil………………………………………………………...39
Azərbaycandan ayrılmaz………………………………………………..40
Nəsillərə………………………………………………………………...40
Nəvəm Günəşə məktub…………………………………………………41
Xəyanət olmaz…………………………………………………………..42
Duz-çörəyi itirmə!.....................................................................................43
Nəsillər görmüşəm……………………………………………………...43
Heç olmazsa……………………………………………………………44

Yaxşıdır ....................................................................44
Kimə tapşırıb gəldin?!....................................................................45
Qar yağır noğul-noğul....................................................................46
Sığırçınlar....................................................................47
Payız....................................................................48
Payız baharı ....................................................................48
Xəzər nəyə bənzəyir?....................................................................49
Axşam....................................................................50
Qırqovul....................................................................50
Bir lovhə....................................................................51
Yaroslav Smelyakova məktub....................................................................51
İtirsəm ağlaram mən ....................................................................52
Mənim Günəşim....................................................................53
O, mənəm....................................................................53
Sadə bir şairəm mən....................................................................55
Kaş görəydi bu günləri....................................................................56
Yaxşı ki varam....................................................................57
Bahar ürəyimdədir ....................................................................58
Dədələr, babalar ocağındayam....................................................................59
Cavab verməliyəm....................................................................60
Vətəndaş....................................................................61
Borcluyam insanlara....................................................................62
Düşüncələr....................................................................62
Sıfırı yeddinin yanından pozun....................................................................65
Günəşlə gəl....................................................................65
Xəzansız çiçəklər....................................................................66
Vətən....................................................................67
Dəyəri yoxdur....................................................................67
Yuxusuz gecəm....................................................................68
Canlara candır Qarabağ....................................................................68
Yorulmamışam....................................................................69
Həqiqətlə, məhəbbətlə....................................................................70
Zəmanət....................................................................71
Abşeron bağları....................................................................72
Təbiətin ətri....................................................................73
Xəzər və durnalar....................................................................74
Abşeron lövhələrindən ....................................................................75
Şüvəlanda....................................................................76
Qızılgüllər....................................................................78
Anam torpaq....................................................................80

Mehdini yad etdim.....80
Qəlbimdə məhəbbət.....81
Bəstəkarın evində.....82
Sonbeşik.....83
Qardaş məzarı.....86
Leylamız.....87
Dostum, bilirsənmi?!.....87
Sağ ol, müəllimim Süleyman Sani.....89
Ana.....90
Tapıbdır.....90
Nizami.....91
Sonamız.....91
Şöhrət.....92
Torpaq və məhəbbət.....93
Ağacların dərdi.....94
Ömür kitabımdan bir yarpaq.....95
Unudulmaz illərimiz.....95
Öpürəm bir də məhəbbətlə.....97
Sabahı düşünürəm.....97
Bağışlar səni.....98
Sənə bağlıyam.....99
25-ci palatada.....99
Uğurlu yoldayam mən.....101
Səni görəndə.....102
Gəldi də getdi.....103
Cəfər, səni andım.....104
Yerimiz olmayacaq.....106
Çiçəklər aləmində.....107
Ətəyimdədir.....111
İki qardaş.....111
Gülüstan Qubadır.....112
Sənin nəfəsin.....113
Mənim deyil, sənindir.....113
Səni görməsəydim.....114
Gəlib, getmiş.....114
Vüsalda görməliyəm.....114
Küsməsin.....115
Şerin acıyam mən.....115
Xoşa gəlsin.....116
Ön sözün olsun.....116

İtib……………………………………………………………..117
Vəfalı qalıb……………………………………………………117
Süleymanlı yollar……………………………………………...118
İki ana…………………………………………………………118
Anamın mahnısı……………………………………………….119
Göy göl…………………………………………………………...120
Gələcək nəsillərə………………………………………………122
Unudulmur……………………………………………………..123
Şöhrətdən düşər………………………………………………..123
Mənə gəlsin…………………………………………………….124
Xəzərimin səhəri……………………………………………….125
Ağ şanı…………………………………………………………125
Qulaq as…………………………………………………………..126
Xəzri …………………………………………………………..127
Xəzərdə…………………………………………………………...127
Xəzərimin imzası………………………………………………128
Xəzərin məhəbbəti……………………………………………..128
Dəniz şəhərində………………………………………………..129
Meynələr……………………………………………………….130
Bilməz………………………………………………………….131
Bəs nə edim…………………………………………………….131
Neyləsin………………………………………………………..132
Çağır……………………………………………………………...132
Sən olmasan……………………………………………………133
Uzun söhbətdəyəm……………………………………………133
Vüsal …………………………………………………………..134
Bəsdir, gözlədim……………………………………………….134
Sən başqasan, mən başqayam………………………………….135
Gəncə……………………………………………………………135
Vəfalı mənəm…………………………………………………..136
Axşamlar ……………………………………………………...136
Qurban olum …………………………………………………..137
Car çəkdim …………………………………………………….137

***Sevgi yarpaqları***

Həyat yoldaşıma………………………………………………138
Gəlmə…………………………………………………………..138
Yüngül olmaz…………………………………………………..139
Sönməyib……………………………………………………….139

Məktub.....................................................................140
Dönsəm.....................................................................141
Vəsiyyətvari bir şey .....................................................142
Aparsın.....................................................................142
Barışa bilməz..............................................................142
Kəs, bilməz.................................................................143
Süleyman neyləsin?! .....................................................143
Get .........................................................................144
Yadda?.....................................................................144
Cağır .......................................................................145
Rəqs edir..................................................................145
Bəlkə də....................................................................146
Gözəllər gözəlinə .........................................................146
Bilmədin sən qədrimi......................................................147
Gəl..........................................................................147
Deyirlər ....................................................................148
Səni istər ..................................................................148
Son məktub.................................................................149
Yadıma düşdü..............................................................150
O sənin ürəyindir..........................................................151
Piyalə şəklində.............................................................151
Qəribə tanışlıq.............................................................152
Qubalı qız ..................................................................152
Bir gözəlin xatiratından...................................................153
O dəmlər getdi.............................................................154
Vardı........................................................................154
Ömrümə yazmasınlar.......................................................154
Bu gecə.....................................................................155
Yandım .....................................................................155
Ürəksiz getmə...............................................................156
Qoy sevməsin...............................................................156
Yazmışam adırıı ...........................................................156
Ayrılıq.......................................................................157
Gözəllər ....................................................................157
İtirmək istəmirəm .........................................................157
İlk məhəbbət................................................................158
Qalsın .......................................................................158
Dil niyə verdin?.............................................................159
Ah, o gözlər, o gözlər.....................................................159
Nə deyim ...................................................................160

Olmasa olmaz……………………………………………………………160
Tanımadınmı?.........................................................................................161

***1983-cü il şeirləri***

Bakı təranələri ....................................................162
Bizim günəşin ünvanı....................................................163
Günahkarıq....................................................163
Görürəm ....................................................164
Nəvəm Azadəyə....................................................164
Qarabağ mahnısı....................................................166
Nəvəmlə söhbət ....................................................167
Qaçasan gərək....................................................168
Görənlər bilər....................................................169
Bizimki tutmaz ....................................................169
Olaydı....................................................170
Üç nəfər qalmışıq....................................................171
Ölməyi bacar!....................................................173
Vicdanımsan Azərbaycanım! ....................................................173
İnqilab baharımız ....................................................174
Çörək kimi....................................................174
Zeynəbə....................................................176
Ələsgər sazı....................................................176
Toy axşamı ....................................................177
Fərqi yoxdur....................................................178
Hardasınız?....................................................178
İnanma....................................................179
Ömrü beşgünlük....................................................179
Bir kainatdır sevgilim....................................................180
Mabədı var ....................................................180
Bülbülə ....................................................180
Saxlarsan....................................................181
Məndən soruş....................................................182
Ömürlük pozaq....................................................182
Yaxşı bir insan getdi ....................................................183
Sən yoldan keçəndə....................................................184
Dinəcəyəm mən....................................................184
Təbriz dərdi....................................................185
Ey şanlı Ərkim!....................................................186
Şair Sönməzə....................................................187
Həsrətəm....................................................188
Məhəmmədlu Abbasiyə....................................................188
İllərdir....................................................189

Sinəmdə gəzdirirəm.....189
Əlimdən ellər tutub.....190
İnanıram.....190
Bir də səni görməsəm!.....191
Qara xəbərlər.....191
Biganə deyil!.....193
Yaralı yollar.....193
Təsəlli.....194
Zindan görürəm.....195
Fəlakət təbili.....195
Təbrizlilər.....196
Özümdə qalıb.....196
Süleymana göstərin!.....197
Həsrətimin yaşı.....197
Azadım.....198
Oğul.....198
Qızım Əzizəyə.....199

***Mahnılar***

Olmasa.....200
Suala cavab.....200
Göründü.....200
Gəl,gəl!.....201
Biriniz mənəm.....202
Bir ulduzam özüm də.....203
Nəğmələrim var.....203
Səndən öyrəndim.....204
Sən də gərək.....204
Olsun, olmasın.....205
Əksini gördüm.....205
Başına gəlsin!.....205
Ayağım deyil.....206
Gecdir artıq.....206
Ölsə.....207
Bağışla.....208
Olsun.....208
Qıra bilməz.....209
Vətən deyirəm.....209
Qələmdən gəlir.....209

Vətən eşqi ……………………………………………………………..210
Yaylıq ……………………………………………………………….210
Həqiqət nəfəsli……………………………………………………….211
Malınımın nəqəratı…………………………………………………..211
İkinci təvəllüd……………………………………………………….212
Yadigar…………………………………………………………….....212
Xatirə………………………………………………………………....213
O qızdır ……………………………………………………………...213
Məhəbbət olmasaydı ………………………………………………..214
Bahar rəqsi…………………………………………………………..215
Səni sevərdim………………………………………………………..215
Adını saxla…………………………………………………………...216
Analar………………………………………………………………..216
Atama…………………………………………………………………217
Axtararsınız…………………………………………………………..218
Ötən illərim…………………………………………………………..218
Mənə qalıbdır………………………………………………………..219
Var olun!.........................................................................................219
Xəzərim olsun………………………………………………………..219
Özgələnməsin…………………………………………………………220
Gülşənim……………………………………………………………..220
Nə dərdim…………………………………………………………...221
Gəlin gəlsin…………………………………………………………..221

***Satira və yumor***

Bir dədə axtarıram…………………………………………………..222
Əcaib əsər…………………………………………………………....222
Qəribə nitq …………………………………………………………..223
Teatr tənqidi………………………………………………….......224
Heçstan əhli…………………………………………………………..224
Qonşularımdan biri …………………………………………………..226
Elan……………………………………………………………………227
Möhkəm birlik………………………………………………………..227
Özündən razı………………………………………………………...228
Yaxşı ki ………………………………………………………………228
Deyirsən ki……………………………………………………………229
Özünü bəyənənə ……………………………………………………..229
Xəstəlik………………………………………………………………..229
Bədbəxt adama……………………………………………………...230

Nifrət.....230
Səndə yox.....231
"Novator"un nitqi .....231
"Novator" rəssama.....232
Nəyə lazım.....233
Tanıya bildim.....233
Mən varlıyam, sən yoxsul.....234
İnsan vəzifəni bəzəsin gərək.....235
Ucuz xatirələr .....236
Yad adam.....237
Nakam şair.....239
Yenə bəziləri.....239
Yubiley aşiqi.....240
Sərçə balladası.....241
Demərəm.....243
Moda qurbanı.....244
Heykəl xəstəsi.....246
Böhtanzadə.....246
Qorxaq.....247

______________*Azərbaycan Milli Kitabxanası*_________________

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Emil Məmmədov*

Korrektor: *Ceyran Abbasova*

Yığılmağa verilmişdir 21.10.2004. Çapa imzalanmışdır 21.04.2005.
Formatı $60x90^1/_{16}$. Fiziki çap vərəqi 16. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 88.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.